AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**ELÇİN CABBAROV**

# T E R R O R:
## *tarix və siyasət*

**BAKI**
**2021**

Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına
Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur

**Elmi redaktor:** **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*

**Rəyçilər:** **Nigar Eyvazova**
*tarix üzrə fəlsəfə doktoru,*
**Bəhruz Kərimov**
*hüquq üzrə fəlsəfə doktoru*

Cabbarov Elçin. Terror: tarix və siyasət. "İdeal-Print" MMC, Bakı, 2021, - 268 s.

Monoqrafiyada terrorun transformasiyası, cəmiyyətdəki duruma və dövlətlərarası münasibətlərə təsiri məsələləri təhlil olunur, problemin etno-psixoloji tərəfi və klassik hərb anlayışını dəyişdirən xüsusiyyətləri araşdırılır.

Kitabdan tələbələr, sosioloqlar, hüquq-mühafizə orqanlarında çalışan əməkdaşlar istifadə edə bilərlər.

**ISBN** – 978 – 9952 – 8434 – 7 – 7

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2021.

# GİRİŞ

Dünyada daha bir kabus – terror kabusu dolaşmaqdadır!

BMT-nin keçmiş Baş katibi Pan Gi Munun belə bir fikri var: “Biz istəsək də - istəməsək də, bizim nəsil tarixə dünyanı terrordan qorumağa qalxmış bir nəsil kimi daxil olacaqdır”. Terrorun təzyiqi ilə geosiyasi maraqların sürətlə dəyişərək getdikcə daha da mürəkkəbləşdiyi bir dövrün xüsusi mübarizlik əlaməti kimi diqqət çəkən bu fikir XX əsrin ortalarından başlayaraq dövrün qlobal probleminə çevrilən Şərin və onunla mübarizənin miqyasını və tərbiyəvi əhəmiyyətini dərk etməyə imkan verir*.

Filosof Nikolay Berdyayev hələ bir əsr əvvəl vurğulayırdı ki, ümumdünya sivilizasiyasının inhisarçısı olan Avropanı qismən varvarlaşmaq təhlükəsi gözləyir. Artıq Avropanın sərhədlərini aşmış həmin varvarlaşmaq təhlükəsini terror kampaniyası daxilində də görmək mümkündür. Bu fikri başqa istiqamətdən – “kapitalizm və demokratiya yox olaraq yerini iqtisadiyyat və hakimiyyətin şəffaf olmayan sxemlərinə vermişdir”, - deyə ifadə edən müəlliflər də (ital.Giulietto Chiesa, jurnalist, ictimai xadim) var.

Müasir dünyanın geosiyasi maraqları ünvanlı siyasi ambisiyaların və strateji tərəfdaşlığın təhlükəsizlik haqqındakı hər cür vədlərindən daha üstün olduğunu göstərir. Bu motiv üzərində köklənmiş ictimai həyat beynəlxalq terrorun ideya-siyasi cəhətdən inkişafına, hətta müharibə forması almasına şərait yaratmışdır. Uyuşdurucu və psixotrop maddələrin, silahların, enerji daşıyıcılarının, hətta nüvə və bakterioloji silah elementlərinin qanunsuz dövriyyəsi, terrorçunun kosmosa və Arktikaya tuşlanmış niyyətləri terrorçuluq sisteminin maliyyələşdirilməsi kompleksi üçün ciddi xarakter almışdır. Buna görə də onunla mübarizə xeyli çətinləşmişdir.

Müasir terrorun özəl xüsusiyyətlərindən biri onun həm **Xeyir**, həm də **Şər** tərəfində yer almasıdır. Çünki hər iki tərəf məhz

---

* ***Qeyd***: Monoqrafiyada “Dağlıq Qarabağ” ifadəsi Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müstəvisində işlədilmişdir.

insandakı *qorxu hissi* ilə manipulyasiya edərək, cəmiyyətin idarəçiliyi işinə müdaxilə etməkdə israrlıdır. Buna görə də sanki Xeyir və Şər əbədi qarşılıqlı mübarizədə atəşkəs elan edib, submədəniyyət kimi çıxış etməyə başlamışdır. Bu da müasir kapitalizmin xarakter göstəricisidir: kim olursan – ol, təki iqtisadi xeyir ver!

Digər özəllik isə terrorun mahiyyətindəki siyasi amilin tədricən iqtisadi amillə yerdəyişməsidir. Məsələnin kədərli cəhəti odur ki, hər iki tərəf öz ideyası, məqsədi və maraqlarından çıxış edərək terakt törətməkdən çəkinmir, hətta terrorçunun *müsbət qəhrəman* imicini yaratmaqda xüsusi fəallıq və səxavətli "sahib" xarakteri göstərir. Terror və terrorçuluğa münasibətdə ikili standartların mənşəyində məhz bu tipli ziddiyyətlər də durur.

Başqa bir xüsusiyyət də diqqət çəkmədədir: bir bölük dövlətlər terrora qarşı daha amansız mübarizə aparmaq fikrindədir (məs., ABŞ, Rusiya, Türkiyə və s.), Avropanın bir qisim ölkələri isə insan hüquqlarının qorunması iddiası ilə terrora qarşı mücadilədə yumşaqlıq nümayiş etdirirlər, hərbi potensialdan tam gücü ilə istifadəyə imkan verməməyə çalışırlar və "yumşaq davranışı" dünya birliyinə də tövsiyə edirlər. Bu da müasir dövrün ictimai-siyasi reallıqlarındandır və terrora qarşı mübarizəyə öz mənfi təsirini göstərə bilir.

Bəzi dairələr terrora qarşı mübarizə forması kimi "terror" termininin ictimai-siyasi leksikondan çıxarılması fikrini irəli sürürlər, yəni söz işlədilmədikcə yaddan çıxacaq, onun ifadə etdiyi əmələ də son qoyulacaqdır. ABŞ rəsmi dairələri bu ideyanın təsirinə düşərək hətta 2009-cu ildə "terror" ifadəsinin yerinə *"insan amili ilə törənən fəlakət"* söz birləşməsinin işlədilməsini təklif etmişdilər. Buna görə də hazırda "terrora qarşı qlobal müharibə" ifadəsinin əvəzinə, yumşaldıcı "xaricdə xüsusi əməliyyat" tipli evfemizmlərlə rastlaşmaq mümkündür.

Terror və ona qarşı mübarizənin bütün müsbət və mənfi tərəflərinin ümumi panoramı, əslində, mürəkkəbliyi vətəndaş cəmiyyətinin ictimai baxışları altından belə görünür. Ona görə də terrora qarşı mübarizəyə cəmiyyətin hər üzvünün ***İDEYALILIĞINDAN*** əlavə, onda:

***- Mənəvi saflıq;***

***- sağlam həyat tərzi;***

***- yaşamaq eşqi;***

***- yaxşılıqlarla könülləri vəth etmək istəyi,***

-tərbiyəsi aşılamaqdan başlamaq vacibdir.

Müasir dövrün bazar iqtisadiyyatının formalaşdırdığı maraqlar dairəsi daha sevilən, cazibədar, eyni zamanda daha qəddardır, ona görə də **dünya bu gün ticarətin iqtisadiyyatı ilə məşğuldur, istehsalın iqtisadiyyatı arxa plana keçib**. Buna görə də hər şey xammal bazarı uğrunda mübarizə üzərində köklənib. Müasir istehlak sivilizasiyasının maddi-mənəvi dəyərlər sistemində xammal maraqları / təbii sərvətlər hərisliyi tez-tez qarşı-qarşıya gəldiyi üçün, demokratik prinsiplər deyil, *hərbi güc, siyasi təkəbbür, yeni formatda xərac yığmaq* prinsipləri önə keçmişdir.

Kriptovalyuta sisteminin iqtisadi mübadilə aləminə sürətlə daxil olması, terror dünyasını da öz ağuşuna almışdır. Terrorun maliyyələşdirilməsi, çirkli pulların yuyulması və s. qanunsuz əməllərin realizəsinə dəstək baxımından böyük şər potensialına malik bu formadan Almaniyada, Fransada terror törədən qruplar istifadə etmişlər.

Uinston Çörçilin illərçə əvvəl soyuqqanlılıqla dediyi bu fikir hələ də güc dünyasının xarici siyasətinin məntiqidir: “Bir damla neft bir damla qandan dəyərlidir”.

Beləliklə, müasir qarşıdurmaların təbiəti müharibəni, hərb ritorikasını “bazar iqtisadiyyatı” maraqlarına və onun bütün formatlarla müdafiəsinə haqq qazandırmağa istiqamətləndirmişdir. Müasir terror bunlardan “ilham” aldığından, o, çoxfuksionallıq qazanmış, həmçinin elmi-texniki nailiyyətlərdən istifadə edərək özü üçün kompleks hücum və müdafiə sistemi qura bilmişdir. “Sevilən, cazibədar, eyni zamanda qəddar” sosial-psixoloji amillərlə formalaşan həyat isə terror üçün əlverişli mühit yaratmışdır. Yəni bu “hava” ilə cəmiyyətdə sosial ədalət prinsipi pozulur, dövlət idarəçiliyi sistemi zəiflədilir, sosial-siyasi partlayış törədilir... və terrora yol açılır...

Düşkün sosial reallıqlar terrorun kökündə sözün ən geniş mənasında ***mədəni - psixoloji tənəzzül*** faktının durduğunu qətiyyətlə təsdiqləyir. Mədəniyyətlərarası və dinlərarası dialoqun alt qatındakı *aşağı səviyyəli / yüksək səviyyəli* xalqlar – *“primitiv”* və

*“mədəni”* cəmiyyətlərin qarşıdurması Xeyir və Şər arasındakı əbədi mübarizənin, bir növ, əvəzedicisinə çevrilmişdir. Bu, qlobal sosial tənəzzülə aparan yoldur, insanın insandan üz döndərməsi, dehumanizasiya prosesinə keçiddir. Qatı terrorçu S.Neçayevin hələ 1869-cu ildə “Xalqın qisası” Cəmiyyətinin üzvləri üçün işləyib hazırladığı “İnqilabçının katexizisi” (*katexizis* - sual-cavab formatında yazılan xristian şəriət kitabı janrı) adlı nizamnamənin ümumi ruhundan bunları bu gün də aydın sezmək olur.

Tanınmış sosioloq Frensis Fukuyama isə ***dövlətin yarıtmaz idarəçiliyi*** faktının da terrorun yaranmasına səbəb ola biləcəyini israr edir.

Müasir dövrün ***qaçqın və köçkün axını, aclıq və təhsilsizlik*** məsələləri də terrorçular dəstəsinin genişlənməsinə, cəmiyyətdə sosial-siyasi partlayışların baş verməsinə səbəb olur.

Cəmiyyətin düşkünlüyü barədə həyəcan təbili çalanlar arasında dünyəvi elm adamları ilə yanaşı, teoloqlar da vardır. Həmçinin, terror kabusu ətrafında din amilinin vurnuxması həmin tərəfin də mövqeyi ilə müəyyən tanışlıq zərurətini şərtləndirir. Bu məsələdə hər iki sahənin nəzəri cəhətdən eyni məxrəcə gəlməsi terrora qarşı mübarizənin gələcəyi üçün səmərəli perspektiv vəd edir.

Problemə münasibətdə ekstremist dini dünyagörüşün məntiqi belədir:

- insanın hər şeydə *ifratçılığa meyllənmək xarakterindən* subyektivcəsinə iistifadə edərək terror bəlası yaradılmışdır;
- din öz mənsubu olmayanlarla digər dindarlar arasında ziddiyyət salmaqda maraqlıdır, terror həmin ziddiyyətin bir daşıyıcısıdır;
- dindəki, ümumiyyətlə, *himayə etmək hissi* ən radikal addımlar həm mənəvi, həm də şəriət baxımından *müdafiə etmək imkanı* verir.

Müvafiq kontekstdə hədis müəllifi isə mövqeyini belə ifadə edir: “Əgər bir zaman Dəccal zühur edərsə və mən də sizin aranızda olaramsa, sizin köməyiniz olmadan mən özüm hər birinizi ondan qoruyacağam. Ancaq Dəccal zühur edərkən, sizin aranızda olmaramsa, hər kəs özünü qorumalıdır...” (Sahih-i Muslim. Deccalın kissası, sifatı ve beraberinde bulunacaq şeyler babı.2937-ci hedis).

Tarixi təcrübə göstərir ki, hər dövrün öz dəccalı olmuşdur...

**Terror bu günün dəccalıdır!**

Terror probleminin qədimliyini və dərinliyini ilahiyyatçılar İblislə əlaqələndirirlər. Teoloq Mühamməd Əbdül Ğəffar əl-Şərif Adəm oğulları Qabil və Habil arasındakı həsədçilikdən yaranan qardaş qatilliyi faktına əsaslanaraq belə mühakimə yürüdür ki, ekstremist duyğular fani dünyanın mahiyyətindədir, həmçinin, haram-halal anlayışlarının qarşıdurmasından irəli gəlir və o, həm də terrorun törədicisidir[I]. Bidət əhli xaricilər, qədərilərin iradə azadlığı və tale qarşısında mütilik məsələləri ilə əlaqəli fərqli mövqeləri, həmçinin, dini elitaya mənsub nümayəndələr arasındakı hakimiyyət uğrunda siyasi motivli qarşıdurmalar məqsədli qanlı qarşıdurmalar hadisələridir. "Əl-Maidə" surəsindən bu fikrin əsaslarını duymaq mümkündür.[*]

---

[*] ***27.*** (Ya Rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm!" (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurban) qəbul edər!

***28.*** Sən məni öldürməkdən ötrü mənə əl qaldırsan da, mən səni öldürmək üçün sənə əl qaldıran deyiləm. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram.

***29.*** Mən istəyirəm ki, sən (məni öldürməklə) mənim də günahımı öz günahınla birlikdə üstünə götürəsən və beləliklə də, Cəhənnəm sakinlərindən olasan. Zalimlərin cəzası budur!

***30.*** Nəfsi onu (Qabili) qardaşını öldürməyə sövq etdi, onu (Habili) öldürdü və bununla da zərərçəkənlərdən oldu.

***32.*** Buna görə də İsrail oğullarına (Tövratda) yazıb hökm etdik ki, hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur. Bizim peyğəmbərlərimiz onlara (İsrail oğullarına) açıq möcüzələr gətirmişdilər. Bundan (bu möcüzələrdən) sonra da onların bir çoxu yer üzündə (küfr, qətl və cinayət etməklə) həddi aşdılar.

***33.*** Allaha və Peyğəmbərinə qarşı vuruşanların, yer üzündə fitnə-fəsad salmağa çalışanların cəzası ancaq öldürülmək.., yaxud da yaşadıqları yerdən

Bu tipli fikirlərə və hadisələrə digər səmavi dinlərdə də rast gəlinir. Hətta bəzi radikal düşüncəli din adamlarına elə gəlir ki, terrorçular İsa məsihin işini davam etdirənlərdir.

Göründüyü kimi, terrora doğru yol birbaşa və hamar olmamışdır. O, cəmiyyətdə gedən sosial-siyasi proseslərin obyektiv nəticəsi kimi özünü büruzə verir.

Cəmiyyətdə dövrün müasir və yeni hərb forması kimi qəbul edilərək hətta ideologiyalaşdırılan (?) terror aktları hazırda müxtəlif təyinat (*bioterror, kiberterror, iqtisadi terror, enerji terroru* və s.) və icra forması (*fərdi terror, kütləvi terror, dövlət terroru, intihar terroru* və s.) almışdır.

Terror inkişaf və genişlik miqyasına görə sinqulyarlıq həddinə çatmışdır, yəni artıq özü-özünü təkmilləşdirərək öz içindən yeni reallıqlara uyğun yeni formalar törətməyə başlamışdır. Belə bir qlobal şər mücəssəməsi, prinsipcə, ictimailəşdirildiyindən və qloballaşdırıldığından bu gün ictimai məzmunlu bir çox qanun pozuntularını asanlıqla **terror aktı** kimi qələmə verənlər tapılır. Hüquqşünaslıq buna qarşı çıxmaqda müəyyən çətinliklərlə qarşılaşır: qanunvericilik bazasının işlənib hazırlanması prosesində "demokratiya və insan hüquqları" tandemi müəyyən hədlər irəli sürür, lakin hüquqşünaslıq cinayət işini birbaşa terror maddəsi ilə mühakimə edəndə isə maneələri asanlıqla keçmək üçün subyektiv imkanlar qazana bilir. Belə bir subyektiv yanaşmadan operativcəsinə faydalanan terror ümumdünya ictimai-siyasi durumunu mürəkkəb qütbləşmə həddinə çatdırmışdır.

Beləliklə, terror kabusu ilə mübarizə davam edir...

---

sürgün olunmalıdırlar. Bu (cəza) onlar üçün dünyada bir rüsvayçılıqdır. Axirətdə isə onları böyük bir əzab gözləyir.

# I. TERRORUN MƏNŞƏYİ, MƏNBƏYİ VƏ TRANSFORMASİYASININ ƏSASLARI

## TERRORUN TARİXİNDƏN. "TERROR" TERMİNİ

Terrorun mahiyyətindəki çoxxüsusiyyətlilik problemin nəzəriyyəsi ilə məşğul olanlar arasında müxtəlif yanlışlıqlar yaratmışdır. Bu səbəbdən də terror anlayışını ətraflı şərh etməkdə, ictimai-siyasi dildə geniş işlədilən ***terror/terrorizm*** leksik vahidlərinin termin olaraq elmi izahını formalaşdırmaqda dəqiq və qəti fikir birliyi yoxdur. Mütəxəssislər bu məsələdə orta məxrəcə gələ bilməmişlər. Bunun başlıca səbəbləri budur:

***1.*** Müvafiq dairələr bəzi situasiyalarda sərt güc tətbiq olunmasının labüdlüyünü irəli sürür, digər dairələr isə "insan haqları"na riayət edilməsini dəstəkləməklə buna qarşı çıxırlar;

***2.***Törədilmiş cinayətin məhz terror aktı olduğunu xarakterik əlamətləri ilə təsdiqləmək və onu terakt kimi mühakimə etməyin hüquqi bazasını formalaşdırmaq xeyli mürəkkəbləşmişdir. Bəzən *"ekstremizm"* və *"terrorizm"*[*] sözləri hətta terror anlayışının sinoni-

---

[*] "Terror" ifadəsi XVIII əsrin axırlarında yaranmış və ictimai fikirdə "Böyük Fransa İnqilabı dövrü" anlamında işlədilmişdir.Sonra isə termin olaraq daha geniş çalarlar qazanmış və "qorxuya, zorakılığa əsaslanan idarəçilik sistemi" mənasını ifadə etmək üçün ictimai-siyasi leksikada möhkəmlənmişdir. Hazırda onun məna dairəsi daha da genişlənmiş, termin olaraq müxtəlif dillərdə işlənmə formaları da tədqiqata cəlb edilmişdir. Müəllif, Azərbaycan dilində, məzmun tutumuna görə, *"terror", "terrorçu", "terrorçuluq"* və s. eyni kökdən olan yaxın ifadələrin işlədilməsinə üstünlük verir, çünki***" - izm"*** sözdüzəldici şəkilçisi həmin ifadəyə terrorun nəzəriyyəsi və təcrübəsi ilə məşğulluq motivi, həmçinin fəlsəfi mahiyyət də aşıladığından, yayındırıcı qənaətlərə səbəb olur. Digər tərəfdən, terrorun siyasi aktivlik göstəricisi, zorakı cinayət növü, özünəməxsus şər ölçüsü kimi cəmiyyətə pərçimlənməsi politoloji baxımdan yanlış anlayışlar formalaşdırmaqdadır. Bu səbəblərdən də hazırda, terror hərəkatını ideologiya kimi qəbul edən müəllif fikirlərinə də rast gəlinir. Terrorizmi "zorakılıq ideologiyası"[1] kimi də qəbul edənlər var.

mi kimi işlədilir. Bu, təsadüfi deyil, elmi də deyil. Pakistanda məktəbə hücum, Avstraliyada bir əcnəbinin kafeyə basqını, ABŞ-da qara dərili vətəndaşın polisi qətlə yetirməsi və s. bu tipli cinayətlər gah ekstremizm, gah da terror kimi şərh olunmamalıdır. Başqa sözlə, hər üç fakt – cinayətdir, lakin onların "ekstremizm", yaxud "terror"a aidliyi ancaq tək icra mexanizminə görə müəyyənləşdirilməməlidir.

Bu kontekstdə əlavə etmək olar ki, "radikalizm"(latın sözü *radix* leksik vahidindən XVIII əsrdə, terrorun yenidən sosial-siyasi mühitə təsir göstərməyə başladığı dövrdə yaranmışdır. Əsas mənası: heç bir güzəştə getmədən ictimai qaydaları kökündən dəyişdirmək, nəyin bahasına olursa-olsun qarşıya qoyulmuş sosial-siyasi məqsədi həyata keçirmək. Əsasən böhranlı dövrlərdə, ictimai-iqtisadi formasiyaların keçid mərhələsində özünü göstərir), "ekstremizm" (latın mənşəli *extremus* sözündən olub, qəti xüsusiyyətlərə meyllilik, parlament demokratiyasını rədd edən ifrat siyasi baxışların ifadəsi. Əsasən zor tətbiq etməklə iqtidara gəlmək, yaxud güc vasitəsilə hakimiyyəti əldə saxlamaq tərəfdarı olanların siyasi baxışlar sistemidir) və "terror" anlayışları arasında xəfif yaxınlıq var, ancaq onların arasında çox ciddi fərq də mövcuddur. Ən əsas fərqləri odur ki, terror şəxsi deyildir, konkret qrup, qurum tərəfindən cəmiyyəti dəhşətə gətirmək üsulu, son zamanlar isə hərbi müdaxilə taktikası, radikalizm və ekstremizm isə siyasi düşüncə, dünyabaxışı tərzidir.

---

*"Terrorun tərkibində ideoloji dad var, ancaq o, ideologiya deyil"* (Anna Qeyfman) deməklə orta mövqe tutan müəlliflər də tapılır. Əlavə edək ki:

***a)*** Bu söz Azərbaycan dilinə ingilis dilindəki ***terrorism*** sözünün təkrarçı qarşılığı kimi daxil olmuşdur;

***b)*** İdeologiya məhz müəyyən sosial qrupun, xalqın köklü sosial problemlərinin dərk olunması, dəyərləndirilməsi və həmin qrupu **birləşməyə** çağıran baxışlar sistemi, ictimai münasibətlərin inkişafını nəzərdə tutan sosial fəaliyyət proqramıdır.

Terror **"*b*"** bəndinin tam əksidir.

Bütün bunların terrorun mənşəyi və məzmunu kontekstində müqayisəli analizi nəticəsində belə qənaətə gəlmək olar ki, terror ideologiya deyil, məhz *vəhşət yaratmaqla təzyiq etmək üsulu, zorakı təhdid formasıdır*. Beləliklə,TERROR – əməldir, cinayətin icra formasıdır.

Dünya təcrübəsi göstərir ki, bu gün sosial tərkibli bir çox qanun pozuntularını da çəkinmədən terror aktı kimi təqdim etməkdə maraqlı olan qüvvələr var. Hüquqşünaslıq bu cür konyunkturaya qarşı çıxmaqda ciddi çətinliklərlə qarşılaşır; əksinə, qanun pozuntusunu "terror aktı" kimi mühakimə etmək isə xeyli bəsitləşmişdir. KİV də bu meyldən kənarda qalmamışdır. Mətbu söz qanun pozuntusunun şiddət dərəcəsini daha da yüksəltmək, hətta hüquq-mühafizə orqanlarının müvafiq istiqamətdəki fəaliyyətinə dolayısı ilə "dil" vermək üçün "terror" leksik vahidini gen-bol işlətməkdən çəkinmir.Terrorun mahiyyətini müəyyən edərkən nəzərə almaq lazımdır ki, terror aktları, əsasən, həyatdakı siyasi böhranların parlament üsulları, problemlərin danışıqlar yolu və s. *dinc* formatda həll olunmasında çətinliklər yaranarkən ictimai-siyasi qürum tərəfindən törədilir. Lakin beynəlxalq, yaxud lokal böhranlı situasiyalar yaratmaq, xüsusilə də bu gün dünyanın çox diqqət yetirdiyi ümumdünya enerji təhlükəsizliyi sisteminə xüsusi maraqlarla zərbə vurmaq üçün hərbi müdaxilə formatı da pis "dəb" almışdır. Başqa sözlə, mövqe bəzi strateji maraqlara xidmət edəndə, hərbi güc terror formatında müəyyən hərbi-siyasi hədələri, hətta hücum və basqınları istisna etmir. Terrorun yaranması məsələsinə və cəmiyyət işlərinə müdaxilə formalarına, eləcə də terrorşünaslığın elmi-nəzəri qənaətlərinə əsaslanaraq problemin evolyusiyasının belə getdiyini demək olar:

| | | | |
|---|---|---|---|
| **Cəmiyyətin mədəni - psixoloji düşkünlüyü** | **Terrogen şərait** | **Terrorun oxşarları** | **Terror** |

"Terror" sözü başqa dillərə fransız dilindən keçmişdir, mənası *qorxu, vəhşət törətmək* ifadə edir və əvvəlcədən planlaşdırılmış qanunsuz üsullarla ictimai rəyə, xüsusilə də sinfi və siyasi düşmənlərə hərbi-siyasi təsir edib, onları qorxutmaq məqsədini güdür;[2] XVIII əsrin axırlarında Fransa siyasi mühitindən ictimai leksikona daxil olmuşdur.

Qeyd edildiyi kimi, "terror" leksik vahidi və ondan törəmə söz və ifadələrin elmi cəhətdən hüquqi-fəlsəfi izahı barədə terrorşünaslar

arasında fikir birliyi yoxdur. Mütəxəssislər onun 100-dən artıq izahının olduğunu bildirirlər. Ancaq fikir çoxluğu belədir ki, terror şəxsi deyil, ictimai-siyasi təsisat adından dinc dövrdə törədilmiş qanunsuz əməldir, mahiyyətində siyasi niyyətin olması və geniş xalq kütləsini ciddi şəkildə qorxutmaq amili onu səciyyələndirən ən vacib xüsusiyyətlərdir. Azərbaycan ictimai fikrində də mövzuya münasibət, əsasən, siyasilik mövqeyindən izah olunur.

Ümumiyyətlə, beynəlxalq sənədlərdə ilk dəfə Cenevrə Konvensiyasında (16 noyabr 1937-cü il tarixli sənəd)[3] "*terrorizm*" sözünə elmi şərh verməyə cəhd göstərilmiş və o, belə xarakterizə olunmuşdur: "*Dövlətdə və bəzi şəxsdə, yaxud bir qrup şəxsdə və ya geniş ictimaiyyətdə qorxu hissi yaratmağa istiqamətləndirilmiş cinayət hərəkətidir*". Lakin bu cür təqdimat mütəxəssislər tərəfindən çox ciddi tənqid olunmuşdur, çünki cinayətin mahiyyətini tam ifadə etmir (bu səbəbdən də bəzi ölkələr həmin Konvensiyanı ratifikasiya etməmiş və Konvensiya qüvvəyə minməmişdir). Adətən, termin formalaşdırılarkən elmilik, dəqiqlik və əhatəlilik prinsipinə əsaslanılır, lakin bu şərhdə akta dair ancaq sosial-psixoloji amil ifadə olunmuşdur.

Terminin açılışı və hüquqi-fəlsəfi qiymət alması istiqamətində keçdiyi yola da qısa nəzər salaq. Bu istiqamətdə nəzəri fikirlər çox və müxtəlifdir, buna görə də məsələyə yanaşma baxımından tipik olan mövqelərə istinad edəcəyik. Məsələn, Anna Qeyfman terrorun elmi şərhini belə ifadə edir: "Qlobal ideoloji vəzifələri, yaxud xilaskarlıq (messian) rolunu yerinə yetirmək üçün dinc əhaliyə qarşı ünvanlanan şiddət və qorxu". Siyasi elmlər doktoru E.Nəsirov isə terror aksiyasında üç müxtəlif tərəfin iştirak etdiyini qeyd edir: "<...> terroru törədən tərəf, qurban tərəf, qorxudulan tərəf".[4] Oksford Universitetinin ingilis dili mütəxəssisləri isə onu "qorxu ilə idarə etmə", ABŞ Dövlət Departamenti "dünya ictimaiyyətinə təsir etmək üçün qeyri-dövlət birlikləri, yaxud gizli agentlər tərəfindən qərəzlə tətbiq olunan siyasi motivli güc", ABŞ Müdafiə Nazirliyi "siyasi, dini, yaxud ideoloji məqsədlərə çatmaq üçün hökuməti və ya cəmiyyəti nəyəsə məcbur etmək, yaxud qorxutmaqla insanlara, yaxud əmlaka qarşı qəsdən güc tətbiq etmək, yaxud güc tətbiq etməklə qorxutmaq", ABŞ Federal Təhqiqat Bürosu "insanlara,

yaxud əmlaka qarşı qeyri-qanuni yolla güc tətbiq etməklə hökuməti və ya mülki şəxsləri, yaxud onların bir hissəsini qorxudaraq bəzi siyasi və ya sosial məqsədlərə dəstək olmaq üçün onları nə isə etməyə məcbur etmək", BMT-nin Baş Assambleyasının 9 dekabr 1994-cü il tarixli Qətnaməsinə Əlavədə isə "bir qrup şəxs və ya konkret şəxs tərəfindən siyasi məqsədlər naminə geniş ictimaiyyət arasında terror vəziyyəti yaratmağa yönəldilmiş, yaxud nəzərdə tutulmuş cinayət aktıdır" kimi xarakterizə edirlər. BMT-nin 1999-cu il Qətnaməsində isə "cəmiyyətdə, bir qrup insanlarda, yaxud bəzi şəxslərdə qorxu yaratmaq üçün törədilən siyasi məqsədli cinayətdir; heç bir siyasi, fəlsəfi-ideoloji, irqi, etnik, dini, yaxud başqa xarakterlərə əsaslanaraq əsla bəraət qazandırıla bilinməz" mövzusunda şərh verilmişdir. Sidney Universitetinin İqtisadiyyat və Sülh İnstitutunun terrorşünasları isə terrorçuluğu belə xarakterizə etmişlər: "Zülm və qorxu yaratmaq yolu ilə öz siyasi, sosial və dini məqsədlərinə nail olmaq istəyən qanunsuz təşkilatların hədə-qorxusu, yaxud əməli tətbiq etdiyi gücdür". Fikrin bu istiqamətdə davamı kimi əlavə edək ki, beynəlxalq birlik terminin mahiyyətinin təsvirində yetkin və yekun fikrə gələ bilmədiyi üçün törədilən müvafiq əməllərə hələlik "*terrorçuluq hərəkəti*" ara ifadəsi ilə hüquqi qiymət verməyə məcbur olmuşdur.[5]

Müəllifin tədqiqatında *"terrorun oxşarları"* ifadəsi məqsədəuyğun hesab edilir və terrorun transformasiyası prosesində bu amil nəzərə alınır.

2005-ci ildə Avropa Şurasının (AŞ) Konvensiyasında "terror xəbərdarlığı haqqında" fikir təsdiq edilmişdir. Bu sənəddə terrorun elmi şərhi məsələsinə toxunulmamışdır, lakin bildirilmişdir ki, BMT-nin terrora dair sənədlərində müəyyən edilmiş şərtlərə görə hər hansı bir cinayətkar terror hərəkəti edərsə, yaxud törətməyə cəhd göstərərsə, iştirakçı dövlətlər həmin əməli qeyd-şərtsiz terror kimi qəbul etməlidirlər. Bu sənəd dövlətlərin yeni terror aktlarını törətmək şübhəsi doğuran informasiyalar barədə bir-birinə mütləq məlumat vermək məsələsini də rəsmiləşdirmişdir. İlk vaxtlar yaranmış vəziyyətdən çıxış yolu kimi AŞ Çərçivə qərarı qəbul etmiş və terrorçuluğun əsas xüsusiyyətlərini göstərən cinayət əməllərinin siyahısını açıqlamış və iştirakçı dövlətlər üçün terrorla mübarizədə həmin siya-

hıda göstərilən xüsusiyyətlərin hansı biri ilə qarşılaşarsa, onun terror aktı kimi qəbul olunmasının vacibliyini təsdiq etmişdir. AŞ-nin irəli sürdüyü həmin xarakterik xüsusiyyətlər aşağıdakılardır:

*- əhalini ən dəhşətli həddədək qorxutmaq;*

*- hakimiyyəti, yaxud beynəlxalq təşkilatı hər hansı bir qarşı tərəfin mənafeyinin əleyhinə/lehinə zidd nəzərdə tutulmuş vacib bir hərəkəti icra etməyə, yaxud onun icrasından çəkinməyə məcbur etmək;*

*- dövlətin, yaxud beynəlxalq təşkilatın əsas strukturlarında çox ciddi çaxnaşmalar salmaq və ya onu dağıtmaq.*

AŞ bu təsnifatı beynəlxalq terrora qarşı mübarizədə üzv dövlətlərin səmərəli əməkdaşlığına yardımçı olmaq üçün çərçivə qərar formatında qəbul etmişdir. Ancaq hər dövlət öz milli qanunvericiliyinə əsaslanaraq bu motivlərin siyahısına əlavələr etmək səlahiyyətinə malikdir.

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda "terror" anlayışı və bununla bağlı digər zəruri ifadələr ümumiləşdirilərək belə ifadə olunmuşdur: " <...> ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq və ya dövlət hakimiyyəti orqanları tərəfindən terrorçuların maraqlarına cavab verən qərarların qəbul edilməsinə nail olmaq məqsədilə insanların kütləvi surətdə qırılmasına, onlara bədən xəsarəti yetirilməsinə, yaxud səhhətinə başqa cür zərər vurulmasına və ya onların əmlakının məhv edilməsinə (zədələnməsinə) və ya başqa ağır nəticələrə səbəb olan əməllər törədilməsi və ya bu cür əməllərin törədilməsinə yönəldilmiş hədədir; terrorçu – hər hansı bir formada terror fəaliyyətinin həyata keçirilməsində iştirak edən şəxs; terror qrupu – terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə iki və daha artıq şəxsin birləşməsidir; terror təşkilatı – terror fəaliyyətinin həyata keçirilməsi məqsədilə yaradılan və ya öz fəaliyyətində terrorizmdən istifadəni mümkün hesab edən təşkilatdır. Əgər struktur bölmələrindən biri təşkilatın hər hansı bir rəhbər orqanının razılığı ilə terror fəaliyyəti ilə məşğuldursa, həmin təşkilat terror təşkilatı hesab edilir; terrorizmə qarşı mübarizə – terror fəaliyyətinin aşkar edilməsi, qarşısının alınması, habelə terror nəticəsində dəyə biləcək

zərərin minimuma endirilməsi ilə bağlı fəaliyyətdir; terror əleyhinə aparılan əməliyyatlar – terror aksiyalarının qarşısının alınması, fiziki şəxslərin təhlükəsizliyinin təmin edilməsi, terrorçuların tərksilah edilməsi, zərərsizləşdirilməsi, habelə terror aksiyası nəticəsində dəyə biləcək zərərin minimuma endirilməsi məqsədilə həyata keçirilən xüsusi tədbirlərdir; terror əleyhinə aparılan əməliyyat zonası – ərazinin və ya akvatoriyanın ayrıca sahələrində, nəqliyyat vasitələrində, binalarda, tikililərdə, qurğularda, yaşayış evlərində və ona bitişik ərazilərdə və ya akvatoriyada əməliyyatların aparıldığı hüdudlardır; terror fəaliyyəti – terror aksiyalarını təşkil etmə, planlaşdırma, hazırlama və həyata keçirmə, fiziki və hüquqi şəxslər üzərində zorakılıq etmə, terror məqsədilə maddi obyektləri məhvetmə və ya zədələmə, terror aksiyalarının həyata keçirilməsi məqsədilə qanunsuz silahlı birləşmələr, cinayətkar qruplar yaratma, habelə belə aksiyalarda iştirak etmə, şəxsləri terrorçuluğa cəlbetmə, silahlandırma, onlara təlimkeçmə və onlardan istifadəetmə, bilərəkdən terror təşkilatlarını və ya terror qruplarını maliyyələşdirmə və ya onlara digər yardımlar etmə ilə bağlı olan fəaliyyətdir; beynəlxalq terror fəaliyyəti – terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən, şəxs tərəfindən onun mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin vətəndaşına qarşı edilən, terrorçu və terrorizmə məruz qalan şəxslər eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, həmin dövlətlərin ərazisindən kənarda törədilən cinayətlə bağlı olan fəaliyyətdir.”[6]

Bu fikirlər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin “Terrorçuluq” maddəsi ilə də səsləşir:

***214.1.*** Terrorçuluq, yəni ictimai təhlükəsizliyi pozmaq, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanları və ya beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə insanların həlak olması, onların sağlamlığına zərər vurulması, əhəmiyyətli əmlak ziyanının vurulması və ya başqa ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətmə, habelə həmin məqsədlə bu cür hərəkətlərin törədiləcəyi ilə hədələmə.

*214.2*. Eyni əməllər:

***214.2.1.*** Qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə;

***214.2.2***. Təkrar törədildikdə;

***214.2.3.*** Odlu silahdan və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə törədildikdə;

Məcəllənin 277-ci maddəsinin adından "terror aktı" ifadəsi çıxarılsa da, "dövlət xadiminin və ya ictimai xadimin, habelə xarici dövlət nümayəndəsinin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədi ilə onun həyatına sui-qəsd etmə"  həm də terror aktı kimi göstərilmişdir. Terrologiyaya görə sui-qəsd və terror fərqli cinayətlərdir.

Rusiyalı alim Oleq Kuznetsovun cinayətin məhz terror olduğunu müəyyənləşdirmək probleminə yanaşma üsulu belədir: "Adətən, cinayətin cinayət-hüquqi xarakteristikası cinayət tərkibinin beş əsas əlamətini özündə birləşdirir: predmet, obyekt və obyektiv tərəf, subyekt və subyektiv tərəf, lakin cinayətin predmeti zahiri əlamətli olduğu üçün, o, terror istiqamətli bütün cinayətlər üçün eynidir <...>. Cinayətin subyekti onu törədən şəxs, ya da bir qrup şəxs hesab olunur; cinayətin subyektiv tərəfi isə cinayətkarın törətdiyi kriminal əmələ (qərəz, günah, motiv və s.) şəxsi münasibətləri bildirən şərait hesab edilir; obyekt – cinayət kimə və nəyə qarşı – insan həyatına, yaxud sağlamlığına, xüsusi və ya təşkilat mülkiyyətinə, ətraf mühitə, dövlət maraqlarına, vəzifə funksiyası və səlahiyyətlərinə və s. qarşı törədilmiş hesab olunur; obyektiv tərəf nəticə etibarilə cinayətin törədilməsinə gətirib çıxaran hərəkət, yaxud hərəkətsizlikdir. Ona görə də hər hansı bir cinayətin müvafiq tərkibə uyğun olduğunu qəbul etmək üçün onu xarakterizə edən bütün əlamətlərin mövcudluğu mütləq vacibdir, əgər həmin əlamətlərdən hər hansı biri olmazsa, əməl cinayət hesab edilmir, əgər əlamətlərdən biri uyğun gəlməzsə, cinayət başqa tərkib (məsələn, dövlət və ya ictimai xadimin həyatına bilərəkdən və ya bilməyərəkdən, bir terrorçu, yaxud terrorçu qrup tərəfindən törədilmiş qəsd, bu əməl əgər qısqanc ər tərəfindən törədilmişsə, ümumiyyətlə, terror  hadisəsi olmaya da bilər...) əsasında bölgüləşdirilməlidir".[7] Beləliklə, O.Kuznetsovun

fikrini, prinsipcə, ictimai elmlərin baxışı, hüquqşünaslığın yanaşması kimi qəbul etmək mümkündür.

Terrorun sosial-siyasi elmlər, terrorşünaslıq baxımından da cinayət əməli xüsusiyyətlərinin müəyyənləşdirilməsi zəruridir. Onu məhz “dinc dövr”də törədilən cinayətin xarakterindəki aşağıdakı üç elementə əsaslanaraq belə sistemləşdirmək olar:

- Əməl, kim (kimlər) tərəfindən törədilib, həm də cinayət şəxsi deyil, ictimai xarakterlidir;
- Əməl, kimə və nəyə qarşı törədilib (yəni konkret ictimai-siyasi təbəqəyə, quruma və yaxud birbaşa xalq kütləsinə qarşı ünvanlanıb);
- Əməl, törədilməklə cəmiyyətdə total qorxu hissi yaradaraq cəmiyyəti idarə etmək məqsədi daşıyır.

Fikri ümumiləşdirərək demək olar ki, hər iki elm sahəsinin terror anlayışında müəyyən nəzəri ittifaq aydın sezilir, lakin onların da arasında çox incə fərq mövcuddur. Həmin fərq cinayət əməlinin baş verdiyi **dövrün xarakterinin** nəzərə alınmasından irəli gəlir, yəni hətta uyğun amillərə malik cinayət *dinc olmayan dövrdə* (məs., müharibə dövründə, hərbi vəziyyət, komendant saatı elan edildiyi müddətdə və s.) törədilərsə, həmin cinayət əməli terror kimi qruplaşdırılmamalıdır.

Müasir dövrdə terrorun mahiyyətində, yaxud onun törədilməsinə səbəblər sırasında gedən əlavə və dəyişikliklərin istiqamətlərini isə belə təqdim etmək mümkündür:

***1.*** Lokal (regional, beynəlxalq) münaqişələrin həll olunmaması nəticəsində yaranan səbəblər;

***2.*** Müasir beynəlxalq münasibətlər sistemində hər hansı dövlətin öz maraqlarından güzəştlər etmək istəməməsi nəticəsində yaranan səbəblər;

***3.*** Ümumdünya beynəlxalq münasibətlər nizamının pozulması, hərbi-siyasi qütblərin dəyişməsi tendensiyasının güclənməsi, regionlaşma və regionların qarşıdurması ilə bağlı yaranan səbəblər;

***4.*** Malik olduğu təbii sərvətləri bölüşməmək, yaxud tərəfdaşlıq müqavilələrinə etinasızlıq göstərməkdən yaranan səbəblər.

Qeyd olunan istiqamətlər hazırda hər ölkənin öz milli təhlükəsizliyinə və daxili sabitliyinə xüsusilə diqqətli yanaşmağı tələb edir. Çünki müasir milli təhlükəsizlik məsələlərinə terror təhdidlərinin məzmunu və üsulu xeyli genişlənmişdir.

İctimai-siyasi elm sahəsi üçün "terror" anlayışı o qədər də qədim deyil. Bu baxımdan onun kütlə arasında dəhşət saçmaq məzmununa bağlı anlamı illər ötsə də dəyişməmişdir. Bəzi müəlliflərin ibtidai icma quruluşu dövründəki basqınları, oğurluq, qəsd etmək işlərini və s. qorxu, vəhşət saçan əməlləri, qisas almağı, daha sonrakı illərdə quldurluğu, qarətçilik fəaliyyətini və s. qəsdləri terrorun qədim növü kimi təqdim etməsi məsələyə subyektiv yanaşmadır; bu tip, yaxud buna bənzər törəmə əməllər terror aktı kimi qəbul edilə bilməz, çünki həmin hadisələrdə *dövrün xarakteri* nəzərə alınmamışdır, *motiv* isə qeyri-şəxsi ictimai-siyasi məqsəd və məzmundan məhrumdur, obyekt və subyekt amilləri də fərqli xarakter daşıyırdı.*

Hazırda bir çox dəhşətli aktlara "terror" damğası vurub, ictimaiyyəti təzyiq altında saxlamaq metodu geniş yayılmışdır. Hətta müəyyən qrupları, dövlətləri, dinləri və s. ictimai-siyasi təsisatları dünyanın gözündən salmaq, yaxud leqal formada onları "cəzalandırmaq" üçün vəziyyətdən süni şəkildə istifadə edərək terrogen şərait yaratmaq faktları ilə də sıx-sıx rastlaşmaq mümkündür. Çünki bəzi dövlətlərin, xüsusilə də fövqəldövlətlərin mövcud inkişaf səviyyəsi, ictimai-siyasi və hərbi gücü törədilmiş qanunsuzluğa siyasi konyuktura mövqeyindən yanaşmaqda yardımçı ola bilir. Əzəli ikili standartların mənəvi bazası məhz buradan qidalanır. Digər tərəfdən, ancaq *düşüncə tərzinə, iman və etiqad fəlsəfəsinə, mədəni durumuna*

---

* Müəllif, XIX əsrin sonu, XX əsrin I yarısına təsadüf edən dinc olmayan dövrdə baş vermiş cinayət əməllərinə dair mövcud sənəd və nəşrlərdə "terror" termininin "siyasi konyuktura", "inqilab məsələsi" və s. uyğun tendensiyalar müstəvisində geniş işlədildiyini qeyd edərək, həmin materialların leksik tərkibini və koloritini saxlamaq zərurəti ilə qarşılaşdığından, həmin dövrə aid bəzi məqamlara toxunarkən həmin termini təkrar etmişdir. Nəzəri cəhətdən isə qeyd etdiyi terrorşünaslıq mövqeyindədir.

istinad edərək terrorun tarixini və coğrafiyasını subyektiv fikir meydanına çevirmək, yaxud cinayət tərkibini onun əsasında müəyyənləşdirmək, həmçinin potensial cinayətkarı cəmiyyətə təqdim etmək qeyri-elmi və qeyri-humanist yanaşmadır. Hətta problemin qanunvericilik bazasındakı müəyyən boşluqların özü də (məs., bir cinayəti eyni zamanda həm sui-qəsd, həm də terror kimi qəbul etmək və s.) məhz bu incəliklərin nəzərə alınmaması faktından irəli gəlir. Beləliklə, qısa ümumiləşmələr çərçivəsində də sezmək mümkündür ki, terror təhlükəsi, onun baş vermə ehtimalı fonunda da "terrora qarşı mübarizə" cəbhəsi təşkil edib, subyektiv standartlar yaradanlar tapılır.

Terrorun keçdiyi yolun təcrübəsindən çıxış edərək, habelə bu günün ümumdünya reallıqlarını da nəzərə alaraq belə qənaətə gəlmək mümkündür ki, müasir terror mədəniyyətlərarası və dinlərarası dialoq sisteminə daxil olan mədəni cəhətdən ***kasıb*** və mədəni cəhətdən ***zəngin*** cəmiyyətlərin qarşıdurması, **Xeyir və Şər** arasındakı əbədi mübarizənin, bir növ, əvəzedicisinə çevrilmişdir.

Tarixdən məlumdur ki, "terror" termini Fransa inqilabı dövründən başlayaraq, 1793-cü ilin mart ayından 1794-cü ilin iyul ayınadək geniş işlədilsə də, qanlı-qadalı təzyiq forması və faciəvi məzmun kimi onun tərkibinə daxil olan elementlərin oxşarları çox qədimdən məlumdur. Bunu nəzərə alan tarixçilər qeyd edirlər ki, qədim Romada vaxtilə terror üsulu ilə məhz "respublika epoxası"na son qoyulmuş, "imperatorlar epoxası"na başlanılmışdı (e.ə.27 – b.e.476, təx. min illik dövrdür. – E.C.).[*] Lakin həmin hadisələrin

---

[*] Həmin dövrdə Roma hakimlərinə qarşı baş verənlər sui-qəsd idi. Çünki hökmdarları öldürməyə səbəb öldürülənlərin mövcud qanunları pozmaları, əxlaqsızlıqları, cəmiyyətin onlar barədə müsbət fikirdə olmamaları idi. Avropada İntibah dövrünün italiyalı mütəfəkkiri Nikkolo Makyavelli (Niccolo di Bernardo dei Machiavelli – 1469 - 1527) o dövrü həm şərəfli, həm də rüsvayçı ömür yolu keçənlərin həyatı kimi dəyərləndirərək qeyd etmişdi: "Sezardan Maksiminədək hökmdarlıq etmiş 26 imperatordan 16-sı öldürülmüş, yalnız 10-u öz əcəli ilə dünyasını dəyişmişdir".[8] Bu qətlləri törədənlərin əsas məqsədi kütləni qorxutmaq deyildi, sui-qəsd yolu ilə ləyaqətsiz hökmdardan qurtulmaq, yerinə "layiqli hökmdar" çıxarmaq arzusu idi. Bu, terror deyil.

tərkibində məhz "dinc dövr" və "kütləni qorxutmaq" elementlərinin olmaması həmin hadisələrə terakt kimi yanaşmanı qəbul etmir.

B.e. I əsrində qədim Fələstində yəhudilərin *Xəncərlilər* sektasının üzvləri Roma imperiyasına qarşı mübarizə apararkən, romalılarla əməkdaşlıq edən insanları xalqa xəyanətdə günahlandırıb, camaatın gur olduğu, daha çox da bayram günləri qətlə yetirər, beləliklə də, cəmiyyətdə qorxu hissi yaradaraq, əhalini işğalçılarla hər hansı əməkdaşlıqdan çəkindirərdilər. Onların qətl aləti kimi istifadə etdikləri əsas silah növü gödək xəncər idi. İdeya-siyasi görüşlərində dini fanatizm və radikallığı dəstəkləyən "Xəncərlilər" in məqsədi əhalini ölümlə qorxutmaqla onları yadellilərlə ittifaqdan çəkindirmək, beləliklə, mövcud hakimiyyəti zəiflədib devirmək və Tanrının zühur olub onları xoşbəxt edəcəyini gözləmək üzərində formalaşmışdı. Həmin sekta təxminən 70 il fəaliyyət göstərmişdir.[9] "Dinc dövr" elementini xüsusi diqqətlə araşdırmaq şərtilə Xəncərlilərin əsas mübarizə formasında terror üsulunun da yer aldığını qeyd etmək mümkündür.

Ümumiyyətlə, qədim dünyada, orta əsrlərdə terrorçuluqda *gizli savaş* formatına üstünlük verildiyini xüsusi qeyd etmək lazımdır. Və bu əlamət bəzi cinayətlərə yanlış olaraq terror faktı kimi yanaşmaq iddiası da yaratmışdır. Məsələn, tədqiqatçıların böyük bir qismi *Həşişyunlar*[*] adı ilə məşhur olan təriqət tərəfdarlarını öz dövrünün ən

---

[*] Bu gün İslam dinini terrorla ittifaqda ittiham edən ictimai-siyasi fikir sahibləri tarixdən fakt və örnək kimi Qərb dünyasında "assasinlər" (sözün kökü assassin ingilis dilindən tərcümədə qatil mənasını ifadə edir), Şərq aləmində isə "həşişçilər", "xaşxaşilər" kimi tanınan şiə İsmaililər məzhəbinin Nizarilər qoluna mənsub hərbi qruplaşmanı görk edirlər. Bu barədə geniş yayılmış fikir əsasən A.Müllerin qənaətləri[10] ətrafında dolaşır və müvafiq müddəalar bu və ya digər formada hələ də təkrarlanır .[11]
Vaxtilə xristian Avropasında şüurlu surətdə formalaşdırılaraq yaşadılan bu yanaşmaya Azərbaycan ictimai-fəlsəfi fikrində də rast gəlinir və Həsən əs-Sabbaha həmin "terrorçu birləşmənin başçısı", Nizarilərə isə terrorçu kimi baxılır; beləliklə, təbliğ olunan "İslam terroru" anlayışına assasinlərin tarixi ilə qədimlik ruhu verməyə ciddi-cəhd göstərirlər. Lakin bu məsələ ilə bağlı yeni tədqiqatlar A.Müller və həmfikirlərini təkzib edir. Məsələ burasındadır ki, ismailizmlə dərindən məşğul olan tədqiqatçı-alimlər həşişçiləri terrorçu

qiyafəsində təqdim edən elementlərin uydurma olduğunu bildirirlər. Əsas arqumentləri də belədir ki, I Səlib yürüşündə müsəlman dünyası məğlub olsa da, xaçlılarla hərbi-diplomatik mübarizə davam edirdi. Belə bir çətin zamanda sünni-şiə qarşıdurması da ismaililərin əleyhinə işləyirdi. Səlcuqların və sünniməzhəb teoloqların öz opponentlərini xalqın gözündə aşağılamaq üçün "xaşxaşilər" epitetini ortaya atmaları Nizarilərlə düşmənçilik edən xaçlılar üçün də əlverişli təbliğat elementi idi. Beləliklə, XII əsrdən başlayaraq Avropa salnaməçilərinin və səyyahlarının dilində ərəbdilli "həşişi" leksik vahidindən törəmə söz kimi "həşişçilər" termini geniş yayılmağa başlanılmışdı. Az itki vermək hərbi taktikasına əsaslanmaq, günahsız qan tökməmək, rəqibi hamının gözü qarşısında qətlə yetirib qaçmamaq anlayışı ilə ədalətin təntənəsini nümayişkəranə sübuta yetirmək, ələ keçdikdə öz ölümünü mərdliklə qarşılamaq ruhunda hərtərəfli hərbi-mənəvi təlim keçən, gizli və qəfil hücumları döyüş taktikasına çevirən həşişçilərin həyat və fəaliyyətləri barədə xeyli uydurmaların yaradılıb yayılması, o dövrün informasiya müharibəsinə xidmət edirdi. Səyyah adı ilə Vatikana casusluq xidməti göstərən Marko Polonun məxsusi qara fantaziyalarından sonra isə həşişçilərin adı daha qorxunc aktlarla hallanmağa başlamış və günümüzədək gəlib çataraq, bir növ, legitimləşmişdir. Nizarilərin belə imici həm antiismaililərə, həm də xaçlılara, ümumiyyətlə, o dövrün latın Şərqində strateji maraqları olan Avropa üçün faydalı idi. Çünki güclü ideoloji əsasa və çevik hərbi qüvvəyə malik təriqətin öhdəsindən nə Səlcuqlar, nə də xaçlılar gələ bilirdilər. Digər tərəfdən:

**a)** XII-XIV əsrlərdə hər cür qəddarlığa alışmış Avropa mühiti üçün minlərlə kilometr uzaqlıqda aparılan müharibənin səbəblərini mülayim təsvirlərlə inandırıcı etmək mümkün deyildi;

**b)** aclıq və səfalət içində boğulan avropalılar Müqəddəs torpağı azad etmək bəhanəsilə məhz "süd gölündə üzən qəddar Şərq"in bolluğuna nail olmaq arzusu ilə hərbi yürüşə həvəsli idi; onu obyektiv fikir maraqlandırmırdı.

Yaranmış situasiyanı Papa II Urban məşhur təhrikçi çıxışında belə ifadə etmişdi: "Oraya (Müqəddəs torpağın fəthinə. – E.C.) gedən hər kəs əgər ölərsə, Tanrı onun bütün günahlarını bağışlayacaq. Kafirlərə qarşı savaşa qalxın, bol-bol qənimət qazanacaqsınız, öz dindaşlarına – xristianlara **qarşı** müharibə etməyə adət etmiş insanlar... o torpaqlar süd və bal içində üzür. Keçmiş oğru-quldurlar, öz din qardaşlarına və tayfasına qarşı vuruşanlar, bu gündən siz də əskər olun. Burada kədərə məhkum olanlar, orada zəngin olacaqdır".

dəhşətli və məkrli terror qrupu kimi təqdim etməkdədir. Hindistanda ipək iplə "boğanlar" dəstəsi, XVII əsrin sonlarında Çində yaranmış gizli təşkilatlara aid silahlı qrupların müxtəlif səbəblərlə, o cümlədən muzdla törətdikləri qətl üsulları da terror kimi təqdim olunur.

Terrorşünaslıqda bu siyahını xronologiya, regionlar və ölkələr üzrə qədimləşdirəcək və genişləndirəcək xeyli faktlar sadalanır. Lakin o dövrün bir çox qruplarının törətdikləri dəhşətli əməllərin terror aktı kimi qəbul edilməsi mübahisəli fikirdir. Çünki onların

---

Bəzi tədqiqatçılar Avropa subyektivizminə əsir olaraq Həsən əs-Sabbahın "Biz sadəcə bir insanı öldürməklə kifayətlənməyib, min nəfərin də qəlbinə qorxu toxumları əkəcəyik", – fikrinə şərh verib, onun terror vasitəsilə ictimaiyyət arasında qorxu hissi yaymasını sübut etməyə cəhd göstərirlər. Halbuki onun hədəfi ancaq ideya düşmənləri, günahı olan insanlar idi və "qorxu toxumu" onlara münasibətdə işlədilmişdi. O, dinc insanların ölümünə fərman vermirdi. O, xalqı qorxu içində saxlamaq üçün cinayət törətmirdi. Onların Avropada muzdlu qatillik fəaliyyətlərində də hədəf xalq kütləsi deyildi. İslam dininin həyatın qanunu olduğu bir dövrdə dini-siyasi motivlə nahaq qan tökərək "günaha batmaq" əqidəsi ilə yaşamaq, xalqın rəğbətini qazanaraq iqtidara gəlmək mürəkkəb məsələdir və müsəlman ictimaiyyəti tərəfindən məqbul qarşılanmazdı.[12]

Bu mövzunun cazibə dairəsindən o da məlumdur ki, bəzi tədqiqatçılar əxiliyi də İslam terrorunun bir növü, yaxud mərhələsi kimi təqdim edirlər. İslam dininin qanun-qaydaları ilə türk xarakterindəki dostluq, igidlik, səxavətlilik, halallıq, məsləkdaşlıq və s. alicənab hisslərin vəhdətinə əsaslanaraq formalaşan bu qurumun üzvü olan gənclər məhz xalq arasında müsbət nüfuz sahibi idi, xalqı qorxutmurdu. Mütləq subay və halal peşə ilə çörək pulu qazanan gənclərdən təşkil edilmiş bu cəmiyyətə məhz sadə insanların xüsusi rəğbəti vardı. Ona görə də onları terror və reketçilikdə ittiham etmək səhv mülahizədir. XI – XV əsrlərdə Azərbaycanda da geniş yayılmış əxiliyin canındakı ictimai-siyasilik və dinilik onun o dövrlərdə dövlət işlərində də faydalı olmasını şərtləndirmişdir. Dövlətin, vətənin dar günündə – müharibələr, üsyan və ixtişaşlar zamanı əxilər könüllü olaraq yaşayış məkanlarında əmin-amanlığa çalışır, dağıntı və qarət hallarına imkan vermir, ictimai asayişi qoruyurdular. Məhz belə bir həyati mövqeyinə görə əxilik İslam aləmində təqribən beş əsrədək hörmətli və ədalətli rol oynamışdır. Bu cür düşüncə və həyat sahibi terrorçu ola bilməzdi...

terror aktı kimi tanınması üçün cinayət tərkibi nə ictimai, nə də sosial-siyasi elmlərin tələbləri baxımından kompleks təmsil olunmur; buna görə də həmin cinayətlər ancaq metodlarına görə "terrordur" deyə təsnifatlandırılmamalıdır.

Beləliklə, terrorun tarixi onun inkişaf dinamikasını [fərdi terror – qrup halında terror (lokal terror) – kütləvi terror – dövlət terroru – beynəlxalq terror – hibrid müharibə və s.] izləmək baxımından müəyyən maraq doğurur; onun tarixinin bəşəriyyətin tarixi qədər qədim olduğunu bildirmək populist fikirdir və ciddi qəbul edilmir.

Göründüyü kimi, problem xronoloji cəhətdən dərin, coğrafi baxımdan genişdir; ona görə də terrora oxşarlıqlar onun mənşəyi və mənbəyi barədə yanlış fikir yarada bilir. Lakin mümkündür ki, məhz orta əsrlərdən başlayaraq əhali arasında total təlaş yaratmaqla, hakim dairə mühitinə qorxu salmaqla müəyyən siyasi-iqtisadi planları realizə etmək fürsəti qazanılmışdır. Həmin fürsət öncə terrogen şərait, terrorun oxşarlar mərhələsini formalaşdırmış, uzun prosesdən sonra isə tədricən terrora keçid açmışdır.

Qeyd olunduğu kimi, terrorun başlanğıcı bəşər tarixinə Böyük Fransa İnqilabı (BFİ) olaraq düşmüş Bastilya həbsxanasının alınması hadisəsi (14 iyul 1789-cu il) ilə bağlıdır. Parisdə "Çörək, Çörək" hayqırışları ilə başlayan kütləvi etirazlar sonda terrora gətirib çıxarmışdır. Bu hadisənin tarixi və mahiyyəti barədə müxtəlif ziddiyyətli təfərrüatlar yazılır. Lakin faktdır ki, BFİ təkcə Fransa dövlətinin sosial-siyasi sistemində deyil, bütövlükdə ümumdünya ictimai baxışlarında, dövlətçilik prinsiplərində köklü dəyişikliklər etmişdir: *monarxiyaçı baxışlar respublikaçı dünyagörüşlə əvəzlənmişdir.* Terror mübarizə taktikası kimi fəaliyyətdə olmuşdur.

Tarixçi-alimlərin qənaətinə görə, BFİ nəticəsində Fransa monarxiyası daxili və xarici qarşıdurmalara, vətəndaş müharibəsinə yuvarlanmış, təhdidlər nəticəsində müxtəlif güzəştlərə getmək məcburiyyətində qaldığı üçün sosial-siyasi cəhətdən xeyli zəifləyərək, səbatsız bir dövlət halına düşmüş, ona görə də Fransa cəmiyyətində narazılıqlar çoxalmış, terrogen şərait yaranmışdır.

BFİ-nin başvermə səbəbləri müxtəlif idi, yəni fransalı mütəfəkkirlər: Monteskyönün fikrincə, hakimiyyət iri sahibkarların hüquqla-

rını, Russonun fikrincə isə kəndli kütlələrinin mənafeyini qoruya bilmirdi. Dini dairələr də kraldan narazı idi. Beləliklə, məhz Fransa maarifçilərinin ictimai fikrə cəsarətli müdaxilələri nəticəsində yuxarı dairələrdə dövlət çevrilişi, respublika qurmaq fikri dolaşmağa başlamışdı. Terror taktika olaraq özünü büruzə vermişdir.

Fransa kralı XVI Lüdoviq nə qədər cəhd etsə də cəmiyyətdə və idarəçilikdə normal qayda-qanun yarada bilməmişdi. İqtisadi böhran, işsizlik, aclıq ölkənin iri şəhərlərinə üsyan havası gətirmiş, narazılıqlar bütün Fransanı bürümüşdü. Basqınçılıq, soyğunçuluq, qarət həm şəhərdə, həm də kənd yerlərində hökm sürürdü. Cəmiyyətdə mədəni-psixoloji düşkünlük hökm sürürdü. Vəziyyət o həddə çatmışdı ki, kütlə "xalqın rifahi üçün quldur olacağıq", – deyənləri dəstəkləyirdi. Qarşıdurmalar ictimaiyyət arasında ***böyük hədə-qorxu*** adını almışdı. İctimai-siyasi durum elə bir səviyyəyə çatmışdı ki, deputatlar arasında sərtlik göstərmək istiqamətində də müzakirələr gedirdi: "<...> Kommunanın, yakobinçilərin və seksiyanın tələbi ilə Konventin təşkil etdiyi terror, qanun çərçivəsində terror olmalıdır<...>. Onun tərkibində anarxistlərin zorakılığına yer olmamalıdır. <...>".[13] Bütün bu tip çıxışların nəticəsi olaraq formalaşan terrogen şərait tədricən terrora keçid almışdı. Bütün bunlar Fransa cəmiyyətində terrora münasibətdə müxtəlif yanaşmalar yaratmışdı: "Per Dyuşenin metodu ilə Azğınların metodu arasında belə bir fərq var idi; "Per Dyuşen" leqal terror tərəfdarı idi; terroru öncə öz sıralarında təmizlik aparmış hakimiyyət özü tətbiq etməli idi. Jak Ru, xüsusilə də Teofil Leklerk birbaşa təsir göstərməkdən, başqa sözlə qeyri-leqal təsirlərdən imtina etmirdilər <...>.

Leqal terrorun təşkili üçün öncə xalq terroruna (anarxiyaya. – E.C.) son verilməli idi <...> bununla da 5 sentyabr bir tərəfdən Azğınların proqramının təntənəsini ifadə edirdi, digər tərəfdən isə məntiqi zərurətlə onun başçılarını süquta doğru aparırdı".[14]

Bu proseslərin, xüsusilə də terrorun nəticəsi olaraq ölkədə torpaq islahatları, dövlət idarəçiliyində, seçki sistemində, orduda müəyyən islahatlar aparılmışdı və s. İnsan hüquqları Deklarasiyası və Konstitusiya qəbul olunmuşdu. Lakin bütün bunlara baxmayaraq cəmiyyətdə çaxnaşmalar səngimirdi... və nəticə etibarilə XVI

Lüdoviq hakimiyyətdən uzaqlaşdırılmışdı. Bu təzyiqlər *kütləvi terror aktları* şəraitində edilirdi.

Ümumdünya tarixində **"terror epoxası"** deyilən bir anlayış var: 5 sentyabr 1793 – 27 iyul 1794-cü illəri əhatə edir. Bunun Fransanın daxilində yaratdığı iqtisadi-siyasi böhranlar müxtəlif siyasi qruplar, o cümlədən Azğınlar radikal fraksiyası, jirdonçular və yakobinçilər* arasında da qarşıdurmanı dərinləşdirmişdi. Beləliklə, o dövrün ən geniş yayılmış ittihamı ("inqilabın, respublikanın düşmənləri və tiranlara rəğbət bəsləyənlər" formulu ilə hökm verib cəza kəsmək) ilə minlərlə insan öldürülmüşdü. Edamlar bütün sosial təbəqələri, din xadimlərindən başlamış orduyadək bütün sahələri əhatə etmişdi.

BFİ-nin gedişində böyük rol oynamış yakobinçilər *sərt terror* tərəfdarı idi və özlərinə ***terrorçu*** deməkdən qürur duyarmışlar (lakin sonra cəmiyyətdə bu sözə qarşı ikrah hissi yarandığından, həmin ifadəni işlətmək qadağan edilmişdi– E.C.).

Ümumiyyətlə, BFİ-nin ümumdünya tarixi əhəmiyyəti böyükdür. Avropanın bir çox ölkələrində, həmçinin Rusiya imperiyasının özündə də BFİ-dən sonra monarxiya dövlət idarəçiliyinə münasibətdə müxalif düşüncələr güclənib genişlənməyə başlamışdı. Bu dövrdə yaranan terror isə növbəti əsrlərin terror əməllərinin mənəvi-siyasi dəstəkçisi olmuşdur.

---

*Yakobinçilər Fransa parlamentində təmsil olunduqdan sonra Paris əhalisinin dəstəyi ilə İctimai Təhlükəsizlik Komitəsi yaratmış və şübhəli insanları edam etmək səlahiyyəti qazanmışdılar. Məhz kəskin mübarizə üsullarına görə müasir politoloqlar hələ də radikal siyasi hərəkatları *yakobinçilik* adlandırırlar. Yakobinçilərin "Monitör" adlı qəzeti vaxtilə XVI Ludoviqə qarşı müxalif qüvvələrin formalaşdırılmasında böyük rol oynamışdır. "KİV və terror", "yumşaq qüvvə terroru" mövzularının tarixi baxımından həmin qəzetin fəaliyyəti diqqət doğurur. Digər cəhət odur ki, yakobinçilər məhz "Mətbuat azadlığı haqqında" qərar qəbul olunduqdan sonra "Terrorçu hökumət məhv edilməlidir!" siyasi qənaəti ilə parlamenti tərk etmişdilər. O dövrün mətbuatı inqilabı kortəbii şəkildə qızışdırır, bu niyyətlə hətta donosları da çap edirdi. Beləliklə, bütün üsul və formalardan, o cümlədən "yumşaq qüvvə terroru"ndan istifadə etməklə hakimiyyəti ələ keçirən radikallar "yakobinçi" adı ilə tarixə düşmüşlər.

1828-ci ildə Şimali Azərbaycan coğrafiyasının çar Rusiyası tərəfindən işğalından sonra bu torpaqların sosial-siyasi həyatında baş verəcək hadisələrə ümumrusiya müstəvisində baxmaq tarixilik baxımdan obyektiv hesab edilir. Bu mövqe "Şimali Azərbaycanda terror və terrora qarşı mübarizə" nin tarixi baxımından da məqbuldur.

Rusiyadakı hakim çar monarxiyası mülkədar-kapitalist, başqa sözlə zadəganlar diktaturası xarakterində idi. 1861-ci ildə təhkimçilik hüququnun ləğvi də xalqın dövlətdən gözləntilərini realizə edə bilməmişdi. Terrora gələn yolun başlanğıcında olan cəmiyyətin mənəvi-psixoloji düşkünlüyü, terrogen şəraitin yaranması mərhələsini həmin vaxtdan başlayaraq izləmək elmi şərtdir. Beləliklə, cəmiyyətdəki mövcud durum o həddə yüksəlmişdi ki, ictimaiyyət arasında *xalqçı inqilabçılar* icmaları yaranmışdı və onlar sosializm qurmaq niyyətində idi. 1879-cu ildə inqilabi mübarizədə taktika məsələsində fikir ayrılığı səbəbindən bu təşkilat iki yerə parçalanmışdı: "*Narodnaya volya*" və "*Çornı peredel*".

Beləliklə, Rusiya cəmiyyətində çara və onun yüksək vəzifəli məmurlarına qarşı sui-qəsd törətməklə ölkədə dövlət çevrilişi etmək qərara alınmışdı. Lakin bu metodun səmərəsizliyi tədricən dərk olunduqdan sonra inqilabçıların ictimai-siyasi baxış-larında və mübarizə üsullarında sistemli dəyişikliklər baş ver-mişdir: Mütləqiyyətlə mübarizədə fərdi qəsd üsulundan *təşkilatlanmış inqilabi hərəkat* formasına keçilmişdir.

***İnqilabi terror*** termini həmin dövrə aiddir. Çünki terror inqilabın ən vacib tərkib hissələrindən hesab olunurdu. Və həmin dövrün inqilabi terroru fərdi qəsd taktikasından fərqlənirdi. Beləliklə, Rusiyada terror ideyalarının yaranıb yayılma tarixi X1X əsrin 60-cı illərinə təsadüf edir. Bu fikir 1862-ci ildə hazırlanıb yayılmış "Gənc Rusiya" intibahnaməsinə əsasən dəstəklənir.[15] 1901-ci ilədək siyasi qəsdlər Rusiyada peşəkar səviyyəyə çatmışdı. Bu mərhələdə qazanılan ən vacib peşə təcrübəsi siyasi məzmunlu cinayət törətmək üçün:

- Zəruri maliyyə vəsaitini əldə etməyin yolları;
- Siyasi cinayəti törədəcək kadrların hazırlığı – məsələlərinin fəaliyyət proqramına daxil olunması idi.

XIX əsrin əvvəllərindən başlayaraq azərbaycanlı gənclər Moskva, Sankt-Peterburq, Cenevrə, Paris və digər Avropa şəhərlərində təhsil alarkən müxtəlif siyasi partiya və dərnəklərə qoşulur, mütləqiyyət və müstəmləkəçiliklə mübarizənin nəzəriyyəsi və təcrübəsi ilə də yaxından tanış olur, qadağan edilmiş ədəbiyyatlar mütaliə etmək imkanı qazanırdılar.* Məsələn, əsas məqsədi cəmiyyətdə qiyam havası yaratmaq, taktikası siyasi qəsd olan "Narodnaya rasprava" dərnəyinin özəyi çar polisi tərəfindən dağıdılarkən istintaq prosesinə təşkilatın üzvü kimi Azərbaycandan da xeyli tələbənin, xüsusilə də etnik ermənilərin adı məlum olmuşdu.[17]

Həmin dövrdə "Narodnaya volya" partiyasının üzvləri cəza forması kimi Rusiyanın mərkəzi regionlarından imperiyanın əyalətlərinə, o cümlədən Azərbaycana da sürgün edilirdilər.[18] Onların Azərbaycanın müxtəlif regionlarında məskunlaşması və işləməsi, yerli əhali ilə ünsiyyəti siyasi mübarizə haqqında baxışların təbliği, təşviqi, eləcə də icra formalarının yayılması üçün fürsət idi. Rusiya anarxist-kommunistlərin orqanı olan "Anarxist" dərgisinin məlumatına görə, 1904-cü ildə artıq Bakıda da "Anarxist" və "İnternasional" adında anarxiyaçı qruplar fəaliyyət göstərirdi; təbliğat aparmaq üçün onların hətta mətbəələri də olmuşdur. 1907-ci ildə isə "Krasnaya sotnya" (aralarında erməni və gürcü mənşəli üzvlər çox idi) adlı anarxist təşkilat geniş fəaliyyət göstərmişdir. Leqal fəaliyyət göstərən daşnakçı "Erməni mədəniyyət ittifaqı"nın nəzdində 1908-ci

---

* F.Smirnov adlı veteran narodavolçu 1882 – 1887-ci illərdəki gizli fəaliyyəti barədə xatirəsində Rusiyanın Yaroslavl və Rıbinski şəhərlərində gimnaziyada təhsil alarkən yaşadığı otaqda polisin şübhəli ünvanlarda apardığı axtarış hadisəsi fonunda belə bir qeyd də yazmışdır: "<...> *Qonşu otaqda* (kursiv mənimdir. – E.C.) adını bilmədiyimiz bir oğlan təzəcə məskunlaşmışdı. Ondan litoqrafiya üsulu ilə nəşr olunmuş hansısa tolstoyçunun (görkəmli yazıçı Lev Tolstoyun ictimai-siyasi baxışları ilə ittifaqda olan bir müəllifin. – E.C.) bir məqaləsini tapmışdılar. Axtarış haqqındakı polis protokolu bizim otaqda tərtib olunurdu və qonşumuz da bizim otağa çağrılmışdı. Polis bizə inanmasa da, biz ancaq burda onun adını öyrənə bildik: Əlimərdan bəy Topçubaşov. O, Zaqafqaziya tatarı (azərbaycanlı. – E.C.) idi..."[16]

ildə gizli “Zelenaya sotnya” (“Зеленая сотня”) drujinası[18a] yaradılmışdı. Erməni sahibkarların şəxsi silahlıları qismində anarxist baxışlara söykənən bu drujina Bakıda silahlı özbaşınaqlıqlar törətməklə məşğul idi. Onların fəaliyyəti hətta digər anarxist təşkilatlar tərəfindən də tənqid edilirdi. Ümumiyyətlə, həmin dövrdə çar Rusiyası imperiyasının mərkəzi regionlarında baş verən sosial-siyasi hadisələrin gec-tez ucqarlarda da öz əksini tapması labüd idi. Çar polisinin *“xuliqan-terrorçular”* adlandırdığı həmin şəxslərin “terror və terrorçuluq” barədə düşüncələrini və praktik addımlarını da bu konteksdə daxil etmək mümkündür[19].

İnqilab nəzəriyyəçilərinin fikrincə hər hansı siyasi partiya xalqın dəstəyindən məhrum olanda, məhz siyasi qəsd üsuluna üstünlük verir. Həmin dövrdə rus inqilabçıları belə hesab edirdilər ki, ancaq siyasi qəsdlərlə ölkədə sosial ədalət prinsipinə əsaslanan cəmiyyət qurmaq mümkündür. O dövrün terrorçuluğunda motiv, yəni predmet, siyasi xarakterli, icraçılar isə, yəni subyekt ziyalı təbəqənin nümayəndələri idi.[*] Beləliklə, Rusiyada dövlətə qarşı terror fəaliyyətinin tarixi 4 aprel 1866-cı ildə D.Karakozovun II Aleksandra atəş açması ilə bağlanılır.

“Narodnaya volya”çıların varisi olan Sosialist-İnqilabçılar Partiyasının proqramında terror əsas yer tuturdu. “İnqilabçı – terrorçudur, inqilabi aktlar – terror aktlarıdır” deyən bu partiyanın tərkibində ona tabe olmayan Mübarizə Təşkilatı adlı xüsusi hərbi blok fəaliyyət göstərirdi. Onun üzvləri yaxşı təlim keçmişdilər və siyasi qəsd üçün zəruri texniki avadanlıqlara malik idilər. Sosialist-İnqilabçılar Partiyası 1902-ci ilin yanvarında qeyd edirdi ki, “terror üsulu ilə mübarizənin labüdlüyünü və məqsədəuyğunluğunu prinsip-

---

[*] Ümumiyyətlə, anarxiyaçı qrup üzvləri ikili təbiətli olmuşlar. Əksəriyyəti savadlı, yaradıcı insanlar, incəsənəti sevən idi. Dünyanı siyasi qəsd və təhdidlərlə düzəltmək, yaxud dəyişmək romantikasına aldanmış, məqsədlərinə nail olmayıb ruhdan düşmüş və siyasi mübarizə meydanından çəkilmişlər; mübarizə üsullarındakı əzazillik və dağıdıcılıq ətraf mühitdə müşahidə etdikləri sosial-siyasi ədalətsizliklər, terrogen şəraitə səbəblər yaradan *cəmiyyətin mənəvi-psixoloji düşkünlüyü* nəticəsində formalaşmışdı.

cə qəbul edərək partiya terrora əl atmaq hüququnu özündə saxlayır, ətrafda yaranmış vəziyyət tələb edərsə, terrora başlamağı mümkün hesab edir". Bu fikrin "təcrübədə minimum proqram" kimi partiyanın proqramına daxil olunmasının vacibliyini bildirən Sosialist-İnqilabçıların fikrincə narodovolçular terrorla məşğul ikən, xalq sükunətə qərq olmuşdu. Sosialist-İnqilabçıların vaxtında isə hər terror aktı ayağa qalxan proletariat tərəfindən əzəmətli dəstəklə qarşılanırdı.

"Çyornaya sotnya" qrupu əsasən Rusiya Dövlət Dumasının üzvlərinə qarşı siyasi xarakterli qətllər törədərdi. Hərc-mərclik salıb, kütləvi talanlarla ölkəyə maddi ziyan vurardılar; 1905 – 1906-cı illərin yəhudi talanları məhz onların əməlləri idi. Çar Rusiyasının siyasi mənzərəsində sağ qanadı təmsil edər, bolşeviklərlə mübarizədə hətta çar polisinə dəstək olardılar. Çar xırda torpaq islahatı, iş gününün qısaldılması barədə yayındırıcı güzəştlər etdikdən sonra isə "bizə, ümumiyyətlə, hökumət lazım deyil" qənaəti ilə ölkədə qarışıqlıq salmağa başlamışdılar.

Marksist ideyalar Rusiyaya ayaq açdıqdan sonra isə siyasi qəsdlərin forma və məzmunu, həmçinin ictimaiyyət arasında ona münasibət də xeyli dəyişmişdi. Buna görə də təcrübədə siyasi qəsdlərdən əlavə, digər mübarizə formaları, o cümlədən iqtisadi terror da tətbiq olunmağa başlanmışdı.

Marksizm iki fundamental bazaya söykənir: **inqilab** və **islahat**. V.İ.Lenin təpədən dırnağadək inqilabçı idi. Siyasi mübarizədə silahlı üsyana, fəhlə və kəndlilərin inqilabi mübarizə ittifaqına inanırdı. O, dəstəklədiyi mübarizə forması barədə 1901-ci ildə yazırdı: "Prinsip etibarı ilə biz heç bir zaman terrordan imtina etməmişik və edə də bilmərik. Terror – hərbi əməliyyatlardan biridir (o da terrorun taktika, üsul olduğunu təsdiqləyir. - E.C.) və bu əməliyyat vuruşmanın müəyyən vaxtında, qoşunun müəyyən vəziyyətində və müəyyən şəraitdə tamamilə yararlı və hətta zəruri ola bilər" .[20] O, mətbu söz və sərt mübarizənin, müasir terrorşünaslıq dilində desək, "yumşaq qüvvə" və "sərt qüvvə"nin vəhdəti ilə ictimai-siyasi həyatı dəyişdirmək üsulunun tərəfdarı idi. "İnqilabi ordu dəstələrinin vəzifələri" adlı məqaləsində isə "dəstələr özləri nə ilə bacarırlarsa, onunla da silahlanmalıdırlar" tövsiyyəsini verir, ənənəvi odlu və soyuq silahlardan əlavə, hətta tikanlı məftil, mıx, daş, yandırıcı kim-

yəvi turşu, qaynar su və s. ilə də silahlanıb, mübarizə aparmağın mümkünlüyünü bildirmişdi.[21] [Məhz bu tipli fikirlərinə görə 1903-cü ildə (17 iyul – 10 avqust) keçirilən RSDFP-nin II qurultayında bolşeviklərdən ayrılan menşeviklər onları yakobinçilikdə, dolayısı ilə terrorçuluqda təqsirləndirmişdilər. - E.C.]

Təsadüfi deyil ki, 1902 – 1911-ci illər Rusiyada inqilabi terrorun geniş vüsət aldığı dövr kimi xarakterizə edilir. Qeyd edək ki, V.İ.Lenin də ayrı-ayrı situasiyalarda terror barədə müxtəlif mövqe bildirmiş, hətta 1917-ci il oktyabr çevrilişindən sonra da terror üsulunu dəstəkləmiş*, onun qanuniləşməsi fikrini (bu məsələ BFİ dövründə də yerli deputatlar arasında müzakirə edilmişdi. – E.C.) irəli sürmüşdür. Terror və onun təbliğini gah *inqilabi avantüra* adlandırmış, gah da *proletariatın inqilabi təşəbbüsünün qarşısını almaq olmaz* fikrini söyləmişdir. V.İ.Lenin 1918-ci ilin iyun ayının 26-da Q.Y.Zinovyevə ünvanlandığı məktubda yazırdı: "<...>Biz yalnız bu gün (qətl hadisəsindən altı gün sonra. – E.C.) MK-da eşitdik ki, Piterdə *fəhlələr* Volodarskinin öldürülməsinə kütləvi terrorla ca-

---

* V.Lenin 1918-ci ilin yanvar ayında dərc etdirdiyi "Plexanov terror haqqında" məqaləsində onun sosializmin düşmənlərinə münasibətdə şəxsiyyətin toxunulmazlığı haqqında fikirlərinə qarşı çıxaraq inqilabın xeyri üçün sərt mübarizə aparmaq üsullarını və bolşevik terrorunu müdafiə edərək yazırdı: "<...> Sovet hakimiyyəti bu mübarizə yoluna qədəm qoyanda, menşeviklər və eserlər cəbhəsindən olan cənab "sosialistlər" vətəndaş müharibəsinin və terrorun yolverilməzliyindən danışıb hər yanda bağırırdılar.
Cənablar, sizin Kerenski cəbhədə ölüm cəzasını bərpa etdikdə, bu, terror deyildi?
Cənablar, sizin koalisiya hökumətiniz müharibədə kifayət qədər ruh yüksəkliyi göstərmədiklərinə görə, bütöv polkları Kornilovların əli ilə güllələdikdə, bu, vətəndaş müharibəsi deyildi?
<...> Fərq ancaq bundadır ki, Kerenskilər, Avksentyevlər və Liberdanlar Kornilovlarla, Savinkovlarla əlbir <...> olub bir ovuc mülkədar və bankirlərin mənafeyi üçün *fəhlələrə, əskərlərə və kəndlilərə qarşı* terror tətbiq edirdilər. Sovet hakimiyyəti isə *fəhlələrin, əskərlərin və kəndlilərin mənafeyi üçün* mülkədarlara, soyğunçulara və onların nökərlərinə qarşı qəti tədbirlər tətbiq edir". [23]

vab vermək istəmişlər və siz (şəxsən siz yox, Piterdəki MK-çılar və ya PK-çılar) çəkindirmişsiniz.

Qəti surətdə protest (rədd. – E.C.) edirəm!

Biz özümüzü nüfuzdan salırıq: hətta Deputatlar Sovetinin qətnamələrində də kütləvi terrorla hədələyirik, amma işə gəldikdə, kütlələrin tamamilə düzgün olan inqilabi təşəbbüsünü *dayandırırıq.*

Bu dö-zül-məz-dir!

Terrorçular bizi əfəl hesab edəcəklər. Zəmanə olduqca hərbi mahiyyətlidir. Əksinqilabçılara qarşı, xüsusilə də *həlledici* nümunə olan Piterdə, şiddətli və kütləvi terrora həvəs oyandırmaq lazımdır <...>”.[22]

RSFSR-in Cinayət Məcəlləsi üçün giriş qanununun layihəsinə əlavələrlə əlaqədar D.İ.Kurskiyə 17 may 1922-ci il tarixli məktubunda isə V.Leninin terrora münasibəti daha dəqiq ifadə olunmuşdu: “<...> terrorun *mahiyyətini* və *doğruldulmasını*, onun zəruriliyini, onun hədlərini əsaslandıran (yalnız məhdud-hüquqi bir müddəa deyil) prinsipial və siyasi cəhətdən düzgün müddəa verib açıqca irəli sürmək lazımdır.

Məhkəmə gərək terroru aradan qaldırmasın; bunu vəd etmək özümüzü və başqalarını aldatmaq olardı; onu əsaslandırmaq və prinsipial şəkildə, aydın, açıq, bəzək-düzəksiz qanuniləşdirmək lazımdır. Mümkün olduqca geniş ifadə etmək lazımdır, çünki yalnız inqilabi şüur və inqilabi vicdan, çox və ya az geniş bir tədbirin işdə tətbiq edilməsi şərtlərini meydana qoyar”.

Yeri gəlmişkən, menşeviklər bolşevikləri yakobinçilikdə günahlandıranda, V.Lenin bunu kompliment kimi dəyərləndirməyi tövsiyə etmişdi. Ümumiyyətlə, o, Rusiyada liberalların terroru dəstəklədiklərini və terror əhval-ruhiyyəsinin yüksəldilməsinə təkan verdiklərini xüsusi vurğulamışdı.

XX əsrin əvvəllərində rus terroruna dəhşətli bir əlamət də sirayət etmişdi. İnqilabçılar uğursuz ailələrdə, sosial cəhətdən təcrid olunmuş mühitdə böyümüş uşaqları da terrorçuluq silahına çevirməyə başlamışdılar. Yəni cəmiyyətin mənəvi-psixoloji və sosial düşkünlüyündən istifadə edərək terror daşıyıcılarının sırasını daha da genişləndirirdilər. Bunun nəticəsində, məsələn, eser-terrorçuların 22

faizi 15 – 19 yaşındakı gənclərdən formalaşdırılmışdı. Eserlərin təşkil etdiyi hərbi qrupun üzvləri 14 yaşına yenicə çatmış məktəblilər idi. Bu üsuldan təkmilləşdirilmiş formatda hazırda beynəlxalq terrorçuluqda geniş istifadə olunur. 1900-cü ildə eserlərin Mübarizə Təşkilatının təxminən üçdəbirini, bütün Rusiya terrorçularının isə dörddəbirini qadınlar (onların əksəriyyəti yüksək və orta təbəqənin nümayəndələri, zadəgan ailə mənsubları idi) təşkil etmişdi.[24]

Keçən əsrin əvvəllərinə aid terrogen şərait, terrorun oxşarlar sistemi göstərirdi ki, siyasi qəsd XIX əsrdə malik olduğu müəyyən əxlaq normalarını (əgər belə demək mümkünsə) XX əsrdə tamamilə itirməyə başlamışdı.

Bütün bu səbəblərə görə terrorçuluq məsələləri o dövrdə böyük müzakirə mövzusu olmuş və nəzəri cəhətdən doğru olaraq onun baş verməsində daha çox sosial-psixoloji amillərin öyrənilib açıqlanılmasına üstünlük verilmişdi. XX əsrin əvvəllərində ziyalılar terrorçunun cəmiyyətdən özünütəcrid etməsi faktına diqqət çəkir, “mənim dünyam – mənim hərbi təşkilatımdır”, “dağıdıcı ruh həm də yaradıcı ruhdur” hissinə qarşı çıxırdılar. Ölkənin müxtəlif sosial-siyasi təbəqələri bu mövzu haqqında fikir bildirməkdə yaxından iştirak etmişdir. Bu müzakirələrdə siyasi qəsdin sosial - siyasi təka-mülünü də sezmək mümkündür. Rus çarının məşhur manifestindən sonra nəşr olunmuş ədəbiyyatlarda bu məsələ detallı şərh edilmişdir. Ona görə də “Yeni quruluş” kitabı müəyyən maraq doğura bilər.[25] Məsələn, Sosial-Demokrat Partiyasının eser fraksiyası (sonra menşe-viklərə qoşulmuşlar) terrorçuluğu inqilabın bir forması kimi təqdir edirdi. Kadetlər (Konstitusialı Demokrat Partiyası) isə mətbu sözün gücü ilə terrorçuları həqiqət mücahidləri, alturist (başqalarının firavan yaşamaları üçün şəxsi mənafeyindən təmənnasız olaraq keçmək və s. gözəl əxlaqi prinsip) kimi təbliğ edirdilər. Onların bəziləri bu elementi qabardaraq terrorçuları hətta İsa Məsihlə müqayisə etməkdən də çəkinməmişlər. Müzakirələrdə əsas mövzu məsələnin siyasi və mənəvi tərəfi idi. Ümumən, “terror və inqilabi hərəkat” müstəvisində aparılan həmin müzakirələrin panoramını aydın duymaq üçün 1903-cü ildə Londonda nəşr edilmiş “Sosialist-inqilabçıların terrora dair məsələlərdə mövqeyi” referatı xarakterik

mənbədir (həmin broşüra ancaq sosialist - inqilabçıların fəaliyyətini dərk etməyə deyil, ümumiyyətlə, çar Rusiyasında terrorun keçdiyi yola nəzəri aspektdən diqqət yetirmək baxımından da köməkçi material ola bilər).

Referat müəllifi öz fikirlərini sosial-demokrat mövqeyindən və "Революционная Россия" jurnalında çap olunmuş terrora aid məqalələrin analizi əsasında şərh etmiş, narodovolçuların nəzəri və təcrübi fikir və əməlləri ilə öz qənaətlərini əsaslandırmağa çalışmışdır. Dövrün xarakteri elə idi ki, inqilabçılar siyasi qəsdlər törətməklə, proletariat isə ayağa qalxıb onlara mənəvi dəstək olmaqla nəzərə çarpırdılar; hər iki istiqamət ayrı-ayrılıqda fəaliyyət göstərsə də onlar arasında incə əlaqə vardı, yəni fəhlə hərəkatı terrorçuluq fəaliyyətini həvəsləndirir, terror aktları isə fəhlə hərəkatının güvən yerinə çevrilirdi. XX əsrin ilk illərində inqilabi dairədə bunu ***"eksitativ terror"*** nəzəriyyəsi kimi qəbul edirdilər, yəni inqilabi mübarizənin bütün mümkün metodları bir-birinə qarşılıqlı təsir göstərir. Konkret desək, fəhlə hərəkatı və terror bir-birinə təsir edərək qarşılıqlı surətdə güclənirlər.

Sosialist-İnqilabçılar Partiyası siyasi nümayişçilərin çar polisi tərəfindən sadəcə döyülməsini deyil, yaxşıca əzişdirilməsini terrorçulara əlavə güc verilməsi kimi dəyərləndirirdi. Nümayişçilərə, kütləvi küçə hərəkatlarına qarşı sərt tədbirlərə "göz yaşları ilə deyil, qan ilə cavab vermək lazımdır" deyərək, terrorçuluğu *"dəliqanlı-partizanın"* hakimiyyətlə təkbətək mübarizəsi kimi ictimai fikrə yeridirdilər. Ümumiyyətlə, o dövrün müxalifəti belə bir qənaətdə idi ki, kütlə, terrorun birbaşa iştirakçısı deyil, terrorun hərəkətə keçməsi üçün münbit şərait yaradandır; terror isə dolayısı ilə kütləni cəmiyyətdə pozuculuq işləri görməyə cəlb edir, kütləvi sosial-siyasi təzyiqlərlə dəliqanlı-partizanların dəhşətli zərbələrinə dəstək verir: "Beləliklə, mütləqiyyətə qarşı yönəldilmiş güclər sistemində terror müəyyənləşdirici əhəmiyyətə, nümayişlər isə terrora tabe olan köməkçi rola malikdir <...> kütlə ilə qəhrəmanlar arasında həqiqi münasibət bax belədir". "Революционная Россия"nın müəllifləri bunu terror və nümayişin sintezi kimi təqdim edirdilər və təəssüf

hissi ilə vurğulayırdılar ki, narodovolçular xalqdan dəstək ala bilmədikləri üçün vəzifələrini axıradək yerinə yetirə bilməmişdilər.

Sosial-demokrat olaraq sosialist-inqilabçılara qarşı çıxan referat müəllifi inqilabi mübarizədə ziyalıların rolunu qabardaraq yazırdı: "Terror fəhlə hərəkatının düşüncəli və mütəşəkkil hal almasına mane olur, çünki ziyalıların fəhlə kütlələri ilə işləməsinə maneə törədir, buna görə də terror ziyanlı şeydir. Mübarizənin parallelizm forması - terror və proletariat, "partizan və kütlə" ziyanlı utopiyadır". Və "Biz kütlə arasında təbliğat aparmağa deyil, terrora çağırırıq" – deyən sosialist-inqilabçıların terrora üstünlük vermələrini mübarizə hərəkatında kortəbiiliklə əlaqələndirirdi. Vladimir Leninin məsləkdaşı Lev Trotski deyirdi ki, bütün mənfi xüsusiyyətlərinə baxmayaraq terror, məhz so-sial-demokratların kütləvi təbliğatı barəsində ləyaqətli siyasi rezonans yaratması sayəsində inqilabda öz müsbət rolunu oynamışdır.

Narodovolçular terroru "hüznlü, ancaq zəruri" metod adlandırır, sosialist-inqilabçılar isə terrora özünümüdafiə və təbliğat forması, idarəçilik üsulunu dağıtmaq forması kimi yanaşırdılar. Sosial-demokratlar belə hesab edirdilər ki, terror mübarizənin digər formalarını assimilyasiya etmək imkanına malikdir və onları sıxışdırıb ictimai-siyasi arenadan çıxara bilər. Sosialist-inqilabçılar isə belə fikirdə olmuşdular ki, inqilabi enerji mübarizənin bütün digər formalarından axışıb terror üzərində cəmləşir. Ümumiyyətlə, sosial-demokratlar terroru rədd etmirdilər, əgər yaranmış ictimai-siyasi şərait tələb edərsə, partiyanın mənafeyinə zidd olmazsa, onlar da terror üsulunu dəstəkləyirdilər. Referat müəllifi yazırdı: "Biz sosial-demokratlar, ümumiyyətlə, nə terrorun, nə də hər hansı bir zorakılığın əleyhinə deyilik. Biz deyirik ki, hazırkı dövrdə terror məqsədəuyğun deyil, deməli, ziyanlı işdir. Əgər elə bir zaman yetişərsə ki, bizim məqsədimizə uyğun olaraq terror zərurəti yaranar, o halda heç bir etik təsəvvürlər bizi onu tətbiq etməkdən çəkindirə bilməyəcək, yaranmış vəziyyət məqsədəuyğun hesab edərsə istənilən zorakılıqdan da çəkinməyəcəyik. Ancaq bunu da yaddan çıxarmaq olmaz ki, Plexanov "Zarya"nın 2 – 3 saylarında dərc etdirdiyi "Bəs sonra?" adlı məqaləsində qeyd edirdi: "Terrorçuluq fəaliyyəti və küt-

lə içərisində siyasi təbliğat aparmaq işi ancaq ən nadir və tamamilə istisna şəraitdə bir-birini dəstəkləyərək və bir-birini tamamlayaraq qoşa hərəkət etməlidirlər. Bunun üçün hazırda bizdə (Rusiyada. – E.C.) şərait yoxdur və hələ uzun zaman da olmayacaqdır”.

Həmin dövrün müzakirələrində terror məsələlərinə mənəvi tərəfdən yanaşma da xüsusi yer almışdı. Məsələn, sosialist-inqilabçılar terroru ideyanı dəstəkləyən hiss və həyəcana təsir göstərən vasitə kimi dəyərləndirirdilər, terrorçuluq üçün yardımçı vasitələri – intibahnamələri “Ölüm hökmü” adı ilə çap edib yayırdılar, istifadə etdikləri tapançanın üzərində oyma yolu ilə “Tökülmüş kəndli qanının əvəzinə”, “Çar cəladına və xalq düşməninə ölüm” tipli yazılar həkk etdirərdilər. Beləliklə, o dövrdə mənəvi yanaşma terroru mistikləşdirmişdi.

“Peterburq mübarizə ittifaqının” nəşr etdiyi “Летучий листок” da müzakirələrə tamamilə başqa yöndən münasibət bildirilmişdir. Orada qeyd olunmuşdur ki, qəzetlər “insanın canını almaq cəmiyyətin işi deyil” mövzusunu müzakirə obyektinə çevirməkdə tamamilə haqlıdırlar, hər hansı partiya, hər hansı bir cəmiyyət insana ən ağır cəza sanksiyası verə bilməz. Rusiya sosial-demokratları bu tipli fikirləri məqbul hesab edir, ancaq məqsədəuyğun hallarda uyğun formada mübarizə üsuluna əl atılmasını dəstəkləyərək terrorun bu tələbin məntiqi ilə tənqid ediməsi fikrini irəli sürürdülər. Burada Xristian dininin təsir elementi xüsusilə diqqət çəkir. Bu müzakirələrin ümumi qənaəti olaraq bildirilirdi:

***a)*** Çar Rusiyasında terror özünümüdafiə formasının bir növü olub “mübarizə drujinaları” kimi meydana gəlmişdir;

***b)*** Sonra inkişaf edərək müstəqil mübarizə təşkilatına çevrilmiş və siyasi partiyaların diqqətini cəlb etmişdir.

Beləliklə, inqilabi terror tərəfdarlarının ümumi qənaətinə görə Rusiya imperiyasının hüdudlarında terror özünümüdafiə forması kimi yaranaraq xalq qarşısında partiyanın ideyalarını təbliğ, təşviq və müdafiə edən bir silaha çevrilmişdir. Aramsız siyasi qəsdlər və hakim dairənin bundan qorxaraq geri çəkilməsi partiyanı öz hədəfinə çatmaqda ümidləndirdikcə, terror üsulu daha da genişlənmişdir.

Müzakirələrin ümumi ruhundan həm də məlum olur ki, bəzi qüvvələr siyasi partiyanın məhz proletar hərəkatına arxalanması fikrini dəstəkləmişlər, çünki əgər "partiya terror yolunu tutarsa, onun proletar hərəkatından uzaqlaşması labüddür, bu halda o, "inqilabi azlığın" partiyası adlanacaq və sui-qəsdlər törətməklə məşğul olacaq, az ideyalı, pis təşkilatlanmış proletar hərəkatı kimi tanınaraq heç bir ictimai gücə malik olmayacaqdır" .

Bu mənada köhnə bolşevik A.Lunaçarskinin fikri müəyyən nəzəri maraq doğura bilər: "<...> Rusiya şəraitində xırda burjua partiyasının məhz terror üsulu ilə sistemli mübarizə aparmaq məcburiyyətində qalması, partiyanın çürüməsini sürətləndirmiş və ona iyrənclik forması aşılamışdı".[26]

Rusiya anarxiyaçılarının mətbu orqanlarında (əsasən də "Буревестникъ" və "Бунтарь" jurnallarında) isə bu müzakirələr daha xarakterik və peşəkar istiqamətdə aparılmışdır.

Hələ 1906-cı ildə "A.N" imzalı müəllifin "Terrorun etikası" adlı məqaləsində terrorçuluq, ümumiyyətlə, mənəviyyat ölçüləri, onun cəmiyyətdə pozulması, istismar edənlər və istismar olunanların dünyaya baxışlarındakı dəyişikliklərın yaratdığı *tiran və qul* psixologiyasına uyğun davranış qaydaları, ədalətsiz "dövlət – din mənəviyyatı"na qarşı etiraz notları üzərində izah olunurdu. Anarxiyaçılar terror aktlarını əzilən kütlə ilə həmrəyliyin nəticəsi, *"mənəviyyatsız mühitdə mənəvi akt"* kimi dəyərləndirirdilər.

Həmin vaxt "П – ский" imzası ilə "Terror haqqında" başqa məqalə də dərc olunmuşdu. Müəllif terrorun qaçılmaz iş olması ilə bərabər, həm də faydasını xüsusi qeyd edirdi. Terrorun baş verməsinin meyarı kimi məqsədyönlülük fikri irəli sürülürdü. O, Rusiya anarxistlərinin terror aktlarını iki kateqoriyaya bölürdü: **"motivli"** və **"motivsiz"** terror aktları. Anarxistlər motivli terror kateqoriyasına cəmiyyətdə tanınan, məşhur insanların törətdikləri böyük haqsızlıqlara, cinayətlərə görə öldürülməsi, motivsiz terrora isə hər hansı burjua məkanına, o cümlədən kafe və restorana və s. ictimai məkana bomba atmaq, xırda burjuaziyaya mənsub insanların, fəal olmayan düşmənlərin, az tanınan adamların öldürülməsi faktını

aid edir, ancaq bu formanı, prinsipcə, müsbət qarşılamırdılar[27] (bu formalardan hazırda geniş istifadə edilir. – E.C.).

“Буревестникъ” jurnalının açdığı müzakirədə iştirak edən tanınmış anarxist Maksim Dubinski isə “Bizim vəzifələr” adlı məqaləsində yazırdı: “Anarxizim hakimiyyəti və dövləti bütün təzahür formalarında inkar etməkdir”. O, dövlət strukturlarını *ixtisaslaşdırılmış zorakılıq orqanları*, dövlətin özünü isə *təkmilləşdirilmiş zorakılıq orqanı* adlandırırdı. Sosial təmayüllü inqilabları, sosialist-dövlətçiləri qəbul etmir, onları xəstəliyə bənzədir və belə bir sual verirdi: “Məgər xəstəliyi orqanizmə xeyir verəcək bir funksiyaya çevirmək olar? Xəstəlik məhv edilməlidir; bu, tarixi zərurətdir”.

Anarxist Y.Yefimov isə “Ağrılı məsələ” məqaləsində terroru “sinfi mübarizə üsulu” adlandıraraq qeyd edirdi ki, cəmiyyətdə iqtisadi-siyasi bərabərsizlik, ədalətsizlik hökm sürdükcə, terror da davam edəcək. Belə olan halda sinfi mübarizənin yaratdığı imtiyazlardan istifadə edənlər ondan könüllü əl çəkmək istəmədikləri üçün terrora əl atırlar. Onun qənaətinə görə: “<...> terror əməkçi insanların ən amansız və qəddar düşmənlərini dövriyyədən çıxarmaq, fəhlə sinfinin istismar edənləri cilovlamaq, onlarda müəyyən qorxu hissi yaratmaq və onlara cinayətlərinin cəzasız qalmayacaqlarını xatırlatmaqdır. Nəhayət, terror aktı fəhlələri inqilabiləşdirir, onları mübarizəyə səsləyir”. Y.Yefimov da “motivsiz terroru” qəbul etmir, hətta onun əks-təbliğat olub sinfi mübarizə işinə ziyan vuracağını bildirirdi. Axı ictimai yerdə burjuaziyadan başqa, digər orta təbəqənin, əməkçi insanın, istismar etməyən sosial təbəqənin nümayəndəsi də ola bilər. Y.Yefimov fərdi terroru dəstəkləyirdi. Onun fikrincə terror sinfi mübarizədə anarxistlərin yoluna əngəl olanları bir-bir aradan götürüb, özlərinə yol açmaq üsuludur.

“Бунтарь” jurnalı da bir neçə il sonra bu mövzuya münasibət bildirmişdi. Burada dərc olunan silsilə məqalələrdə o tip terror *как-таковую* – “terror xatirinə terror” deyə təsnifatlandırılmış, onun kütlə tərəfindən “əbədi əzabkeşlərin” “əbədi xoşbəxtlərə” qarşı aktı kimi qəbul edilməsi qənaəti vurğulanmışdı.

Göründüyü kimi, çar Rusiyasının müxalifət dairələrində siyasi qəsdə münasibət müxtəlif olmuşdur. Bu tendensiya dövrün ədəbi-mədəni mühitində də hiss edilirdi. O dövrün tanınmış yazıçısı Leonid

Andreyev bağ evini terrorçular üçün sığınacaq etmişdi. Yazıçı Maksim Qorkinin Moskvadakı şəhər mənzilindən terrorçular bomba hazırlamaq üçün laboratoriya kimi istifadə edirdilər (o, terrorçulara maddi yardım da göstərirdi. Rusiyanın liberal düşüncəli elm adamları, pedaqoqlar, həkimlər, hüquqşünaslar arasında terrorçulara maliyyə yardımları toplanır, sığınacaq yerləri verilir, silah və partlayıcı əşyaları gizlətməkdə, saxta sənədlər hazırlamaqda onlara havadarlıq edilir və bütün bunlar vətəndaşlıq borcu kimi dəyərləndırilirdi.[28] Ümumiyyətlə, həmin vaxtlar Rusiya cəmiyyətində zorakı mübarizə üsuluna böyük rəğbət hiss olunurdu. Bu məsələdə dolayısı ilə hakim dairənin də müəyyən rolu vardı. Çünki hakim dairə ekstremizm və inqilabi terrorun qarşısında aciz qalmasının səbəbini öz düşməninin gücünü böyütməklə sığortalayırdı. Beləliklə də, əslində terror və terrorçunun nüfuzu artırdı. Hakimiyyət dairələri terrora “inqilabi mübarizə  forması” adı verməklə, ictimaiyyət isə terrorçunu “əzabkeş” məqamına yüksəltməklə törədilmiş aktın və terrogen şəraitin cəmiyyətdə ciddi səviyyəyə çatdığını etiraf etməli olurdular. Bu yolun yolçuları gənc qızların sevda arzusu və məhəbbəti idi.

İctimai-siyasi durumdakı bu terrogen şərait imperiyanın hüdudlarında məhz siyasi tətillər, nümayişlər etmək ehtirasını, hakim dairəni güzəştə doğru apartmaq məqsədini gücləndirirdi. Beləliklə, 1905-ci ilin aprel ayının 12-də RSDFP-nin II qurultayında ümumxalq silahlı üsyanını hazırlamaq və həyata keçirmək haqqında qərar qəbul edilmişdi. Yaranmış situasiyada bolşeviklərə rəğbət bəsləyən qələm sahibləri əhali arasında inqilab vaxtı, silahlı üsyanlarda törədilən qəddarlıqlara, dolayısı ilə terrorçuluq əməllərinə haqq qazandırmaq hissi yayırdılar. L.Trotski  deyirdi ki, terror bütün mənfi xüsusiyyətləri ilə yanaşı, məhz sosial-demokratların kütləvi təbliğatı, terror barəsində ləyaqətli siyasi rezonans yaratmaqları sayəsində inqilabda öz müsbət rolunu oynamışdır.

Ümumiyyətlə, dövrün inqilabçıları, siyasətçiləri arasında terroru dəstəkləməyən təbəqə də olmuşdur.

Rusiyadan Azərbaycana gələn müxtəlif radikal qrup mənsubları, xüsusilə də onların arasına sızmış erməni əsilli separatçılar burada monarxiyanın əsaslarını dağıtmaq şüarları fonunda “erməni

məsələsi"nin reallaşması üçün fəaliyyət göstərir, regionda yayılan inqilabi ideyaları realizə etmək məqsədilə terror əməllərindən də əl çəkmirdilər. Belə bir qarışıq dövrdə erməni şovinizmi daha da fəallaşmışdı. Hadisələr sürətlə etnik-dini rəng almağa doğru irəliləyirdi (1905 – 1906-cı illərdə ermənilərin Azərbaycanda qırğın salmaları bunun sübutudur. – E.C.) Arxiv materialında deyilir: "Daşnakların ağılsızlığı o həddə çatıb ki, onlar sosial-demokratları və sosial-demokratlara rəğbət bəsləyənləri zorla əllərinə silah götürüb müsəlmanlara (azərbaycanlılara. – E.C.) qarşı çıxmağa məcbur edirlər. Yoldaş Osipovla bağlı belə bir hadisə baş vermişdi, o, müsəlmanlara qarşı çıxmaqdan etiraz etdiyi üçün daşnak dəstəsinin komandiri Serpux tərəfindən döyülmüş və zindana salınmışdı".[29]

Çar Rusiyasında həm iqtidar, həm də müxalif qüvvələr "erməni amili"ndən faydalanaraq hərbi-siyasi niyyətlərini həyata keçirməkdə israrlı olduqları üçün azərbaycanlılara qarşı erməni terroruna seyrçi münasibət bəsləyirdilər. Erməni şovinistləri də bu amildən azərbaycanlılara qarşı özünəməxsus məkrlə istifadə edirdilər. Bakı Sovetinin mandatı ilə fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri 1918-ci ilin mart-aprel aylarında Azərbaycanda etnik-dini mənsubiyyətinə görə kütləvi qırğınlar törətmişlər. Azərbaycanlıların genosidinə rəhbərlik edən S.Şaumyan daşnakçı hərbi birləşmələrin və terrorçuların gücündən (komandirləri T.Əmiryan, H.Amazasp, S.Lalayan, A.Ozanyan və b.) faydalanmışdı. [Azərbaycanın müxtəlif regionlarında, o cümlədən Naxçıvan, Göyçay, Quba, Qusar, Şamaxı, Lənkəran, Xaçmaz, Hacıqabul, Salyan, Zəngəzur və b. şəhər və bölgələrində ayrı-ayrı erməni terrorçu dəstələrinin törətdiyi genosid faktları tarix elminə məlumdur. Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ilin mart genosidinin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyası yaratmışdı. Həmçinin, Komissiya ermənilərin törətdikləri ağır cinayətləri dünya ictimaiyyətinə çatdırmaq üçün Xarici İşlər Nazirliyinin nəzdində xüsusi qurum da təsis etmişdi. Bu Komissiyanın topladığı sənədlər tarixi-hüquqi əhəmiyyətini saxlamaqdadır. "<...>Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra -

1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı “Azərbaycanlıların soyqırımı haqqında” Azərbaycan Respublikası Prezidentinin fərmanında həmin dəhşətli hadisələrə siyasi qiymət verilmiş və 31 mart “Azərbaycanlıların Soyqırımı Günü” elan edilmişdir.” (1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı)].

S.Şaumyan törətdiyi dəhşətli cinayətdən cəmisi iki həftə sonra - aprelin 13-də Leninə məktub yazaraq haqsız qanlar bahasına qazandığı hakimiyyəti möhkəmlətmək üçün ondan pul yardımı və rabitə-ötürücü radiostansiya istəmişdi. S.Şaumyanın başçılığı ilə Azərbaycanda törədilən genosiddə xüsusi amansızlıq göstərən terrorçu Daşnaksütyun partiyası az sonra növbəti dəfə bolşeviklərə xəyanət etmiş, eser və menşeviklərlə koalisiyaya girərək ingilis hərbi qüvvələrini Bakıya dəvət etmişdi. Siyasi xəyanətə baxmayaraq, Lenin Daşnaklarla milli-mənəvi ittifaqda olan Şaumyana cavab məktubunda (14 may 1918-ci il) bolşeviklərin erməni terrorçu qüvvələrdən faydalanmaq taktikasına müsbət yanaşmışdır: “Əziz yoldaş Şaumyan!.. Sizin möhkəm və qəti siyasətinizə məftunuq. Bacarıb həmin siyasəti, indiki çox çətin vəziyyətin şəksiz tələb etdiyi çox ehtiyatlı bir diplomatiya ilə birləşdirin, - onda biz qalib gələrik”.[30]

Beləliklə, imperiyada yaranmış xaosdan maksimum yararlanmaq niyyətində olan erməni şovinistləri terror aktları vasitəsilə azərbaycanlılar arasında qorxu yaradır, “Güllənin dili”, “Yaşasın zorakılıq və ölüm” başlıqlı intibahnamələr yayaraq onları yaşadıqları torpaqlardan köçməyə məcbur edib, boşalmış el-obaya sahib çıxırdılar. Terror taktikası sayəsində Vətənləşmək siyasi romantikası erməniçi ictimai-siyasi həyatın əsas məqsədi və son mənasına çevrilmişdi. Ermənilər üçün yeni olan neft biznesində yerli iş adamlarını aradan götürərək bu sahədə də xüsusi qüvvəyə çevrilmək üçün reketçilik və terrorçuluğa başlanılmışdı. Həmin dövrdə Azərbaycanda da “iqtisadi terror” (fabrik-zavodlarda yanğınlar törədilir, bahalı dəzgahlar qəsdən sındırılır, iri burjuaziyanın xüsusi mülkiyyətinə hücumlar təşkil olunurdu; bu özbaşınalıqlar o həddə çatmışdı ki, hətta rusiyalı anarxistlər də Bakıda bu cür təxribatla məşğul olan erməni əsilli anarxistləri tənqid edirdilər) deyilən bir terror növü

geniş yayılmışdı. Lakin həm bolşeviklər, həm də anarxistlər hiss etdikdə ki, bu üsul fəhlə sinfinin də mənafeyinə ziddir, bundan əl çəkmişdilər. Terror işlərində xüsusi təcrübəsi və məharəti olan İ.Stalin də bir müddət sonra "iqtisadi terroru" tənqid etmiş, dayandırmağı məsləhət görmüşdü.

Ümumiyyətlə, həmin dövrdə hər inqilabi partiyanın strukturunda "Terror şöbəsi"nin olması həmin partiyanın nüfuzu və imkanlarının göstəricisi kimi qəbul edilirdi. Siyasi imic məsələsi o həddə çatmışdı ki, formal olsa da, partiya təşkilatının tərkibində terrorçular saxlamaq vacib idi (ancaq həmin təşkilat mövcud olduğu dövrdə hər hansı bir terror aktı törətməyə də bilərdi). Vaxtilə ictimai-siyasi hadisələrin inkişaf tendensiyasına uyğun olaraq bəzi Azərbaycan siyasi partiyaları ümumiyyətlə, terror üsulundan imtina etmişdilər. Azərbaycan Xalq Cümhiriyyəti dövründə "Ədalət", "Hümmət", Qafqaz Diyar Komitəsinin Rəyasət Heyətləri və Bakı Komitəsi Bürosu 1dekabr 1919-cu il tarixli birgə iclasında yerli hakimiyyət orqanlarına qarşı terror törətməyin əleyhinə qərar çıxarmışdılar.[31]

AXC-in rəhbərliyində də terrorun əleyhinə çıxan siyasətçilər olmuşdur. Azərbaycanda milli azadlıq hərəkatının görkəmli nümayəndəsi Məmmədəmin Rəsulzadə və Stalin arasındakı dialoq fonunda Azərbaycanda terror və ona qarşı mübarizənin mərhələlərini izləmək, Azərbaycan dünyagörüşündə terrora olan müxalif baxışı duymaq mümkündür. M.Rəsulzadə yazırdı: "Mən terrorun bir sistem olaraq faydalı olduğunu düşünmənin doğru olmayacağını izah etmək istədim. Fransa inqilabından bəzi misallar gətirməyə başladım. O (Stalin. – E.C.), bir az dinlədi və:

– Yox, – dedi,- yanılırsınız, terrorun, hələ kütləvi terrorun tarixdəki rolu mühümdür. Biz bolşeviklər, təbii ki, şəxsi terroru qəbul etmirik. Bunun faydası yoxdur. Bu, eserlərin sistemidir. Fəqət kütləvi terror başqa, onu qəbul və tətbiq edəcəyik. Bunun faydası isə şübhəsizdir, - deyə davam etdi.

– Bir adamı öldürməkdən, əlbəttə, bir şey çıxmaz; bir çox adamı birdən öldürmək ki, kütləvi bir təsiri olsun, – dedi və əlavə etdi: "Biz tərbiyə etmək üçün xalqa kütlə halında təlim verəcəyik, bu təlimatımıza asanlıqla uymaları üçün onları lazım gəlsə kütlə halında cəzalandıracağıq".[32]

Ümumiyyətlə, XVIII əsrin sonu – XIX əsrin əvvəllərindən başlayaraq dünya miqyasında müstəmləkəçilik əleyhinə, milli muxtariyyət uğrunda hərəkatlar baş qaldırmışdı. I Dünya müharibəsi (DM) ərəfəsində və ondan sonra silahlı üsyan hazırlamaq haqqında ictimai-siyasi düşüncələr daha geniş yayılmışdı. Bu tip siyasi ambisiyalar fonunda terrorçu təşkilatlar yaratmaq "dəb" halını almışdı. Böyük Britaniya ərazisində irlandlar öz ölkələrinin müstəqilliyi uğrunda mübarizə aparmaq üçün "Dəstə" adlı təşkilat yaratmışdılar. Balkanlarda isə milli muxtariyyət haqqında fikirlər daha kəskin fazaya keçmişdi. Osmanlı, Avstriya-Macarıstan, Rusiya imperiyaları, Almaniya, eləcə də region dövlətləri Yunanıstan və Bolqarıstan arasında hərbi-siyasi konyunktura fonunda siyasi qəsd və terrora oxşar digər metodlardan da istifadə olunmaqla qarşılıqlı təhdidlər törədirdilər. 28 iyun 1914-cü ildə Sarayevoda Avstriya-Macarıstan şahzadəsi Frans Ferdinandın qətlə yetirilməsi isə daha ciddi fəsadlar yaratmış, dünyanın siyasi xəritəsini dəyişməyə bəhanə olmuşdu.

XIX əsrin sonları – XX əsrin əvvəlləri Avropa qitəsi ilə yanaşı, dünyanın digər yerlərində, xüsusilə də sürətlə inkişaf edən Şimali Amerika qitəsində də yüksək mənsəb sahiblərinə qarşı qəsd aktları törədilirdi. ABŞ prezidentləri Mak-Kinli və Harfild bu üsul ilə qətlə yetirilmiş, Almaniya kayzeri Bismarkı da bu vasitə ilə öldürməyə cəhd edilmişdi. 1894-cü ildə Fransa prezidenti Karno, 1897-ci ildə İspaniyanın baş naziri Antonio Kanobasa, 1898-ci ildə isə Avstriya-Macarıstan imperatriçəsi Elizabet, 1900-cü ildə İtaliya kralı Umberto qəsd ilə qətlə yetirilmişdilər. Bu hadisələri törədənlərin çoxu siyasi baxışlarına görə anarxist idi.

XX əsrin 20-ci illərindən başlayaraq terror mübarizə üsulu kimi faşist qrupları arasında da geniş yayılmağa başlamışdı. Ümumdünya ictimai-siyasi prosesində siyasi partiyalar, parlament təsisatları yaratmaq meyli gücləndikcə, gizli sərt güclə mübarizə forması tədricən özünün ilkin xarakterini - "fərdlərə qarşı" taktikasını dəyişirdi, çünki bu üsul artıq səmərəli metod hesab olunmurdu. Lakin 1934-cü ildə Fransanın baş naziri Bartunun ölümündə dörd ölkənin "əli" müəyyənləşdirildiyi üçün bir sıra beynəlxalq qərar və qətnamələr qəbul edilmiş, beynəlxalq terrorçuluğun yayılmaması üçün dünya birliyi təcili müvafiq tədbirlər görməyə çağrılmışdı. Həmin

dövrdə bəzi ölkələr terrorun qarşısını almaqda müəyyən işlər görməyə başlamışdılar. Digərləri isə, əksinə, terrora dəstək verməkdə israrlı idi. Bu gün dünyaya dəhşətlər yağdıran müasir dövrün ikili standartlar paradiqmasının əsası, həmin günlərdən dəstək almaqdadır.

Ümumiyyətlə, XX əsrin ortalarınadək terrora solçuluq elementi kimi baxılmışdır. Lakin onu milli-azadlıq uğrunda mübarizənin bəzi formaları ilə, etnik özünümüdafiə elementi ilə eyniləşdirən müəlliflər də vardır. I Dünya müharibəsindən sonra isə terrora aid qruplar sağçılar və separatçılardan, hətta həmin dövrün nasional-sosializm ideologiyalı təşkilat və dövlətlərindən dəstək görmüş, kömək almışlar. Bu tipli əlaqələrin tərkibində şovinist hissləri coşdurmaq istiqaməti güclü idi. Buna görə də milli istiqlaliyyət barədə düşünən dairələr öz mübarizələrində müxtəlif formalardan, o cümlədən terrora bənzər üsullardan da bəhrələnirdilər.

Bolşeviklər I Dünya müharibəsində çar Rusiyasının hərbi-siyasi səbatsızlığından istifadə edərək 1917-ci ilin noyabr ayında "Bütün hakimiyyət sovetlərə" şüarı ilə silahlı çevriliş etmişdilər. Bunu "qəsd" adlandıran menşeviklər və eserlər sovet hökumətini tanımamış və onunla mübarizədə terror taktikasından da faydalanmışlar. 30 avqust 1918-ci ildə V.İ.Leninə qarşı qəsd törədib onu yaralamış, başqa bir dövlət adamı M.S.Uritskini isə qətlə yetirmişdilər. Bolşeviklər də opponentləri ilə mübarizədə bu formadan istifadə etməkdən çəkinməmişlər. Beləliklə, 2 sentyabr 1918-ci ildə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin iclasında "burjuaziyaya və onun əlaltılarına qarşı kütləvi qırmızı terror" siyasi devizi ilə mübarizə elan edilmişdi. Və siyasi leksikona *"qırmızı terror"* deyilən yeni ifadə daxil olmuşdu.*

---

* Həmin rəsmi sənədin gücü 5 sentyabr 1918-ci ildə RSFSR XKS-in "Qırmızı terror haqqında" qərarı elan olunduğu vaxtdan həmin ilin noyabr ayının 6-dək qüvvədə olsa da, əslində Rusiyada vətəndaş müharibəsi qurtaranadək – 1922-ci iladək davam etmişdir. Həmçinin, məlumdur ki, bu termini ilk dəfə 1906-cı ildə eser Zinaida Konoplyannikova məhkəmədə çıxış edərkən işlətmişdir ("Partiyamız hökumətin ağ, lakin qanlı terroruna qarşı qırmızı terrorla cavab verməyi qət etmişdir"). SSRİ-də İ.Stalinin hakimiyyəti dövründə "elit dövriyyə" prinsipi əsasında "təmizlik" işlərinin

Beləliklə, terrorun transformasiyası prosesində terrorun oxşarları sistemindən terrorun özünə keçid kompleks mərhələdir. Bu mərhələnin təzahür formalarına Azərbaycan coğrafiyasında da rast gəlinmişdir. Bu o dövr idi ki, Sovet Azərbaycanında ***"ağ, qırmızı və qara terror"*** ilə mübarizəyə başlanılmışdı.

## TERRORUN BÖLGÜSÜ VƏ NÖVLƏRİ

Dünyada terrogen şərait gərginləşmiş, strateji maraqlar çarpazlaşmışdır. Buna görə də terrorun öz taktikasında dəyişikliklər etməsi, əlavə metod və çalarlar mənimsəməsi, əslində, gözləniləndi. Bu sahəyə aid informasiyaların ən sadə müqayisəli analizindən də göründüyü kimi, terror müxtəlif ictimai-iqtisadi mühitdə gedən dəyişikliklərə uyğun olaraq həmişə öz içində "yeniləşmə", "təkmilləşmə" və digər transformasiya prosesləri keçmişdir. Və bu proses son illər xüsusilə sürətlənmişdir. Burada ilk növbədə beynəlxalq münasibətlərdə əlaqələrin dəyişmə tezliyi və müasir elmi-texniki tərəqqinin terrora təsirini vurğulamaq lazımdır. Lakin müasir terrorun amansızlığı ondadır ki, o, MÜHARİBƏ formatı almışdır. Hərb elmi təkmilləşərək gücləndikcə, terrorun taktikası da yenilənir. Hazırda

---

aparılması mahiyyət etibarilə həmin "qırmızı terror"un davamı kimi qəbul edilir. Sovet hakimiyyətinin ilk illərində Peterburqda nəşr olunmuş bir kitabda oxuyuruq: "Fəhlələrə və kəndlilərə qarşı əks-inqilabçıların kütləvi ağ terroru o ərazilərdə tətbiq olunurdu ki, orada fəhlə və kəndlilərin hakimiyyəti devrilirdi, mülkədar və kapitalistlərin hakimiyyəti bərpa edilirdi. Onların agentləri Sovet Rusiyasının göbəyində - fəhlə-kəndli hakimiyyətinin ayaq üstə möhkəm dayandığı yerlərdə də terrora əl atırdılar <...>".[33] Lui Blan "Fransa inqilabının tarixi" kitabında (XII cild, 42) yazırdı ki, qırmızı terror ilə ağ terror arasındakı fərq ondan ibarətdir ki, ağ terror məhkəmə araşdırması, yaxud qanuni formaları xatırladan heç nəyi qəbul etmirdi <...>. Qırmızı terrorun başçıları qaşqabaqlı və əzazil ürəyə malik ideyaca mətin insanlar idi, ictimai xilaskarlığın fanatı idi, <...> Ağ terrorun tərəfdaşları isə mehriban nümunəviliklə, alovlu həyatla maraqlanan dəbli qadınlar, xeyirxahlıq mücəssəməsi insanlar idi. Ağ terror tüğyan edəndə ən qəddar sözlər belə incəliklə ifadə olunurdu".[34]

güc strukturlarında ***hibrid müharibə*** termininin geniş işlədilməsi məhz buradan qaynaqlanır.*

Sinqulyarlığın terrora gətirdiyi müxtəliflik onun təsnifatının da aparılması məsələsini aktuallaşdırmışdır. Çünki bu istiqamətdə terrorun mahiyyətini müəyyənləşdirmək onunla mübarizəyə başlamaq üçün səmərəli ola bilər. Terroloqlar terroru qruplaşdırarkən (cinayət-hüquqi xarakteristikadan əlavə) aşağıdakı amillərin nəzərə alınmasını da məqsədəuyğun hesab edirlər: *terrorçunun psixoloji durumu, terrorun metodu, terrorun motivi.* Və bu elementlərin belə xarakterizə olunmasını irəli sürürlər:

***Psixoloji durum*** – terrorçunun şəxsi keyyfiyyətləri və dəstəklədiyi ideya-siyasi amillərin cəmi;

***Metod elementi*** –terror aktının icra formanı;

***Motiv elementi*** – terrora təhrik edən məzmun.

Hər üç elementin tərkib hissəsi cəmiyyətdəki mədəni-psixoloji durumla sıx bağlıdır.

Kompleks ölçüdə sosial-siyasi bazada terroru *subyekt* və *obyektə* uyğun olaraq, həmçinin onun icra formasındakı müəyyən spesifik əlamətlər əsasında da təsnifatlandırmağa üstünlük verilir.[37] Bu təsnifatlandırmanın məntiqi ondadır ki, məhz subyekt (ictimai-siyasi təsisat) terroru obyektə tərəf istiqamətləndirir; qeyd olunan münasibətlər sistemi hər şeydən öncə müəyyən qabaqlayıcı tədbirlər

---

* Termin XX əsrin axırlarında ABŞ-ın hərbi dairələrində yaranmışdır. İlk vaxtlar müxtəlif qoşun növlərinin, həmçinin informasiya müharibəsi vasitələrinin güc amillərilə birlikdə hərəkət taktikası, başqa sözlə, "yumşaq qüvvə" və "sərt qüvvə"nin hibridi kimi düşünülmüşdü. Geniş mənada isə müxtəlif savaş tiplərini özündə birləşdirən hərbi taktika kimi nəzərdə turulurdu; hazırda hətta münaqişələrin həm yaradılmasında, həm də həll edilməsində, münaqişəli şəraitdə qabaqlayıcı tədbirlərin görülməsində də tətbiq olunur. Bir sözlə, öz ilkin mənasından qat-qat geniş təhdid çalarları, müharibə effekti qazanmış hərbi-siyasi terminə çevrilmişdir.[35] Diplomatiya sahəsində də bu terminin potensialından istifadə olunur: 2017-ci ilin oktyabr ayında Polşa dövləti burada pedaqoji fəaliyyət göstərən rusiyalı bir tarixçi-alimi "hibrid müharibəni xatırladan elementləri həyata keçirməkdə şübhəli bilinir" iddiası ilə deportasiya etmişdir.[36]

görmək imkanı yaradır. Beləliklə, subyekt və obyektinə (istiqamətinə) görə müasir terror kompleksini belə təsnifatlandırmaq olar:

### *A. DÖVLƏT SİSTEMİNƏ QARŞI TERROR*

**1. Dövlətin daxilində törədilən terror** – ictimai-siyasi təsisat adından təşkilatın, qrupun və ya fərdin dövlətin icra orqanlarına təzyiq göstərərək öz siyasi məqsədinə çatması. Bu, aşağıdakı yollarla həyata keçirilir:

***1.1 açıq terror*** – hərbiləşmiş qüvvələrin dövlət sisteminə təzyiqi (məs., ikinci Qarabağ müharibəsindən əvvəl DQ-dəki qanunsuz hərbi birləşmələrin, İSİD-in, Suriya – Türkiyə sərhədində fəaliyyət göstərən qanunsuz silahlı birləşmələrin fəaliyyəti bu növə aiddir);

***1.2. gizli terror*** – dövlət sisteminə ancaq "yumşaq qüvvə" ilə təzyiq göstərmək, humanitar elementlərlə hədə-qorxu gəlmək və s. dolayı yol və vasitələrlə icra orqanlarını çıxılmaz vəziyyətə salmaq, gizli fəaliyyətlə milli, psixoloji, iqtisadi blokada yaratmaq, "yumşaq qüvvə" ilə dövlətin daxili/xarici siyasətinə qarışmaq və beləliklə, cəmiyyətdə terrogen şəraiti fəal fazaya keçirmək;

***1.3. preventiv terror*** – "sərt qüvvə" və "yumşaq qüvvə"nin hibridləşmiş formasıdır; dövlət sisteminə qarşı *"məcbur etdirmək"* məqsədi güdülərkən bu metoddan istifadə olunur.

Bu tip terror əməlləri, əsasən, xalq tərəfindən dəstəklənməyən, parlament üsulları və konstitusiya yolu ilə hakimiyyəti əldə saxlaya bilməyən, beynəlxalq münasibətlər sistemində öz yerini və rolunu obyektiv müəyyənləşdirməyi bacarmayan dövlətlərə qarşı törədilir.

**2. Koalisiya terroru** – bir neçə ictimai-siyasi təsisatın qarşılıqlı dəstəyi ilə törədilən terror aktları; bu tip terror, əsasən, beynəlxalq mütəşəkkil cinayətkar təsisatlar tərəfindən törədilir. Özəl hərbi şirkətlərin xidmətindən də bu istiqamətdə istifadə olunur. 2020-ci ilin sentyabr ayınadək olan dövrdə Dağlıq Qarabağ münaqişəsinin həlli müstəvisində Azərbaycan Respublikasına qarşı hərbi-siyasi təhdidlərdə bu formata aid elementlər var.

### *B. SOSİAL-SİYASİ MARAQ DAİRƏLƏRİNƏ UYĞUN TERROR*

**1. Açıq hərb formatında, yaxud hibrid müharibə, proksi müharibə, preventiv müharibə formatlarında birbaşa daxili işlərə qarışma, müdaxilə –** Bu, həm "sərt qüvvə", həm də "yumşaq qüvvə", o cümlədən onların qarışığı formatında aşağıdakı yollarla həyata keçirilə bilər:

***1.1. Sosial-siyasi maraqlar terroru*** [dövlətin iqtisadi-siyasi sistemini dəyişdirtmək, eləcə də xüsusi mülkiyyətə qarşı terror ("iqtisadi terror" da bu kateqoriyaya daxildir];

***1.2. Etnik terror*** (çoxmillətli dövlətdə milli azlığın dövlət sisteminə, yaxud dövlətqurucu millətə qarşı terroru);

***1.3. Din mənşəli terror*** (din və məzhəbə qarşı, yaxud teokratik və ya dünyəvi dövlət qurmaq yolunda törədilən terror aktları).

Müasir terrogen şəraitin bu sıralamanı genişləndirmək potensialı var.

Həyat inkişafdadır. Cinayətkar aləm də özünəməxsus prinsiplər və anlayışlarla inkişafdadır. Müasir terror da özünü təkmilləşdirmək, dəyişdirmək və zənginləşdirmək keyfiyyəti qazanmışdır. Beynəlxalq münasibətlər sistemində, elmi-texniki inkişaf aləmində də tələblər və imkanlar bazası dəyişməkdədir. Ona görə də terrorun yuxarıdakı təsnifat məntiqilə araşdırılması onun transformasiyasını faktlaşdıra bilər.

Ümumiyyətlə, terrorun forma və növə görə bölgüsü müəyyən mənada şərti xarakter daşıyır, çünki terrorun mahiyyətində ümumi, oxşar cəhətlər var, bu cəhətlər onun məhz fiziki müxtəlifliyinin yaradıcısı kimi çıxış edir. Həmin oxşar cəhətlər zahiri əlamətdir və terror cinayətlərini bir-birinə bənzədə bilir. Lakin bu o demək deyil ki, forma və növünə görə terrorun bölgüsünü aparmağa ehtiyac yoxdur. Beynəlxalq terrogen şərait göstərir ki, hazırda terrorun xarakterik əlamətlərini fərqləndirmək, nəzəri-təcrübi tərəflərini tədqiq etmək üçün onun bölgüsünün aparılmsı çox vacibdir. Bu ona görə vacibdir ki, terrora qarşı mübarizə aparmaq üçün onun növünə uyğun qabaqlayıcı mübarizə taktikası seçilməlidir. Digər tərəfdən, beynəlxalq təşkilatlar insan haqları anlayışını hətta terrora qarşı mübarizə

məsələlərində də əsas şərt kimi dəstəkləməkdədirlər. Bu sahədə qazanılan biliklər isə terrora qarşı qabaqlayıcı tədbirlər görmək, cəmiyyətin mənəvi-psixoloji durumunun zəif istiqamətlərini müəyyənləşdirib onları islah etmək üçün zəruri informativ materialdır.

Mövcud nəzəri-təcrübi məlumatlar göstərir ki, terror dövrə, zamana, məkana və şəraitə operativ şəkildə uyğunlaşmağı bacaran bir cinayət formasıdır və xarakterinə, məqsədinə görə ayrı-ayrı təhdid növlərinə də təsir göstərə bilir. Beləliklə, onun son illərdə sinqulyarlıq keyfiyyəti qazanması terrorun yeni inkişaf mərhələsinə keçdiyini göstərir.

Mövzunun məntiqinə uyğun olaraq belə bir sillagizm formalaşdırmaq mümkündür: SOSİAL amillər terrogen şəraiti aktivləşdirir, SİYASİ-İQTİSADİ amillər terrorun formasını təyin edir, İCTİMAİ amillər isə onun obyektini müəyyənləşdirir.

Müasir terror kompleksinin METOD bazasını da bölgüyə salmaq mümkündür. Bu, iki formada özünü büruzə verir:

***1. "YUMŞAQ" TERROR - humanitar qüvvələrin iştirakı ilə icra olunan terror);***

***2. "SƏRT" TERROR - güc strukturlarının iştirakı ilə icra olunan terror).***

Super güc dövlətlərinin sifarişi ilə aparılan məxfi tədqiqatların [məs., ABŞ-dakı "Santa Fe" İnstitutunda aparılan bir tədqiqatın (qan tökmədən dövlət çevrilişi etmək) sifarişçisi Pentaqon və Mərkəzi Kəşfiyyat İdarəsi olmuşdur] bazasında hərbi münaqişələr yaratmadan dövlətdə hakimiyyət dəyişikliyi aparmaq texnologiyası hazırlanarkən terror elementlərindən gen-bol istifadə olunmuşdur. Son vaxtlar "kütlələrin şüuruna əvvəlcədən "xalqın üsyan etmək hüququ" kimi müəyyən fikirlər yeridilərək müxtəlif ölkələrdə məxməri inqilablar hazırlayıb həyat keçirmək üsulları geniş və çeşidli formalarda tətbiq olunmağa başlanılmışdır. Bütün bunlar terrorun metod konsepsiyasına əlavələr etməkdədir.

Beləliklə, qeyd olunan konseptual bölgülər sosial-siyasi və hüquqi-psixoloji tələblər baxımından, həmçinin terrorun xüsusi əlamət və meyarlarına görə onun müəyyən növlərə bölünməsi işini sadələşdirmək üçün nəzəri baza funksiyası daşıya bilər. Bu cür bölgünün

məntiqi ondan ibarətdir ki, şəxsin, sosial qrup və cəmiyyətin həm *fəaliyyət dairəsi*, həm də *məqsəd və əhatə dairəsinə görə* terror prosesində hansı subyektin hansı obyektə tərəf hansı metodla istiqamətləndiyini operativ surətdə müəyyənləşdirmək mümkün olsun. Bu meyarlar və şərtlər terrora qarşı mübarizədə qabaqlayıcı tədbirlərin işlənib hazırlanması prosesini də asanlaşdırmağa xidmət edər.

Deyilənlərin nəzəri bazasında terroru aşağıdakı bölgüyə əsasən qruplaşdırıb, ona qarşı müvafiq mübarizə formasını müəyyənləşdirmək olar:

***Coğrafi dairəsinə görə terror:***

- Lokal terror;
- Beynəlxalq terror.

***Məqsəd dairəsinə görə terror:***

- Siyasi məqsədli terror;
- İctimai məqsədli terror;
- Teoloji məqsədli terror;
- Tarix yaddaşına qarşı terror.

***İcra formasına görə terror:***

- Məxməri inqilab;
- Dövlət terroru;
- Müharibə.

Müasir terrorçuluqda da ikili standart özünü göstərmədədir. Vətəndaş cəmiyyətinin hüquq və azadlıqlarını müdafiə etmək, yaxud da onun hüquq və azadlıqlarını əlindən almaq, vətəndaşın üsyan etmək, qiyam qaldırmaq hüququ demaqoqiyası ilə terror təbliğatı aparmaq arzuolunmaz sistem halını almışdır. QHT- lər və yerlərdəki "beşinci kolon"lar vasitəsilə son zamanlar terror anlayışına yeni çalarlar da hopdurulmağa başlanılmışdır, yəni necə etməli ki, insan üsyan, qiyam etməkdən – terrorçu olmaqdan/terrordan qorxmasın, əksinə, terrora yardımçı olsun, terrorçuya canıyananlıq göstərsin, mövcud sistemi devirmək üçün cəsarətə gəlsin, "qəhrəmanlıq göstərib", "şəhidlik" arzusu ilə yaşasın.

İnsan cəmiyyətinin müxtəlif ictimai-iqtisadi formasiyalarında bu fikirlərin ayrı-ayrı təzahür formalarına rast gəlmək olar. Hətta bəzi hallarda dövlət/hakim dairə öz opponentlərinə qarşı terror

törədilməsində ya sifarişçi, ya da dəstəkverici tərəf olmuşdur. Sovet dövründə 37- ci il hadisələri, Almaniya və İtaliyada nasional-faşistlərin fəaliyyəti, Ermənistan SSR-nin öz vətəndaşları olan Azərbaycan mənşəli insanlara qarşı total təhdidləri və s. buna misal göstərmək mümkündür.

Göründüyü kimi, bəzi dövlətlərin müəyyən strukturları terrorun ayrı-ayrı oxşar variasiyalarından (məs., təxribat, silahlı hücum, girov götürmək, piratlıq, reketçilik, reyderlik, ərzaq qıtlığı yaratmaq, süni iqlim dəyişikliyi etmək və s.) öz imkanları daxilində istifadə edir (müharibə dövrünə dair xarakterik əməllər bu kateqoriyaya daxil deyildir).

Hazırda terror səhnəsinə mahiyyətcə yeni tipli üsullar gəlməkdədir.

Bu fikirlər mozaikasına terrorun müasir inkişaf tendensiyasının motivləri əsasında xüsusi diqqət yetirərkən aydın olur ki, terrorda hibrid müharibə, xüsusilə də preventiv müharibə və proksi müharibə taktikası daha da təkmilləşdiriləcəkdir. Onlara qarşı hüquq müstəvisində də mübarizə terrorşünasları dərindən düşündürməlidir.

Ümumiyyətlə, terrorun spesifik əlamətlərinə görə bir-birindən fərqləndirilməsi ilk növbədə onunla mübarizə işinə böyük kömək edir. Çünki məhz fərqli əlamətlərə əsasən müşahidələri konkretləşdirib, terror aktını proqnozlaşdırmaq və ona qarşı qabaqlayıcı addımlar atmaq, yaxud savaş taktikası müəyyənləşdirmək mümkündür.

## TERRORUN MALİYYƏ MƏNBƏLƏRİ VƏ MALİYYƏLƏŞDİRİLMƏSİ YOLLARI

**M**üasir beynəlxalq münasibətlər sistemində *bərabərhüquqlu tərəfdaşlıq* prinsipi əsas demokratik meyar kimi qəbul edilmişdir. Bu bərabərlik vətəndaş cəmiyyətinin bütün sahələrini, o cümlədən maliyyə-uçot sahəsini, istehsal sahələrinin ədalətli bölüşdürülməsi, hətta dövlətlərarası iqtisadi əlaqələrdə bərabərlik və şəffaflıq məsələlərini də əhatə edir. Terror fəaliyyətinin qarşısının vaxtında alınmasında və sosial-siyasi bəhanələrin nizama salınmasında da bərabərlik prinsipinə əsasən götürülmüş beynəlxalq öhdəliklər və onlara sədaqət

əhəmiyyətli rol oynamalıdır. Bunların ziddinə olan əməllər isə bütövlükdə qanundankənar fəaliyyət formalaşdırır, həmçinin terror üçün sosial-siyasi səbəblər yaradan böhranlı şəraitləri aktivləşdirir.

Bu konteksdə ümumi tələblər belədir: terrorun maliyyə bazasının mənbələri və maliyyələşdirilməsi sistemlərinin aşkarlanması, məhdudlaşdırılması və yox edilməsi ona qarşı mübarizədə önəmli vəzifədir. Bu fikrin fəlsəfəsi terrora qarşı mübarizə haqqında Azərbaycan Respublikasında işlənib hazırlanan qanunvericilik bazasında da öz ifadəsini tapmışdır.*

Müasir terrorun başlıca xüsusiyyətlərindən biri budur ki, o, güclü maliyyə dəstəyi almadan fəaliyyət göstərə bilmir. Çünki heç bir dövlət (xalq, qurum və s.) öz daxilində heç bir terrorçu şəxsə, qrupa, təşkilata... və s. leqal/qeyri-leqal formada maliyyə dəstəyi göstərməkdə maraqlı deyil. Düşmən tərəf isə bu məsələdə həmişə maraqlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş 6 fevral 2014-cü il tarixli tədbirdə Azərbaycan cəmiyyətinin siyasi mədəniyyətində bu tipli məsələlərə münasibəti qətiyyətlə qınamış və xüsusi sərtliklə demişdi: "...Xaricdən ianələr alan, vicdanını xaricilərə satan ünsürlərə Azərbaycan siyasətində yer yoxdur".

Problemə sosioloji tərəfdən baxış da xeyli düşündürücüdür, yəni sosioloqların qənaətinə görə əgər cəmiyyətdə bir nəfər işləyən üç nəfərə qəyyumluq edib onu yaşadırsa, deməli, orada kasıbçılıq hökm sürür. Başqa sözlə, terrorçuluğa aparan əsas yollardan biri

---

* Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "Terrorçuluğu maliyyələşdirmə" (Maddə 214-1.) barədə deyilir: "Əldə olunma mənbəyindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə bu Məcəllənin 102, 214, 215, 219, 219-1, 277, 278, 279, 280 və 282-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi üçün istifadə olunacağını bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsi... terrorçuluq əməli hesab olunur və cinayət məsuliyyətinə cəlb olunurlar!".

məhz cəmiyyətin iqtisadi cəhətdən kasıb və maliyyə durumunun qeyri-stabil olmasıdır. Çünki məhz bu amillər cəmiyyətdə terrogen şərait yaradıb aktivləşdirir. Son vaxtlar yaşayış səviyyəsi aşağı olan İraqda, Suriyada, Əfqanıstanda və Afrika qitəsinin bu kateqoriyaya aid ölkələrində baş verən terror aktlarının əsas səbəblərindən biri iqtisadi strukturların, maliyyə sisteminin pozulması, işsizliyin artması, yoxsulluğun sürətlə genişlənməsi və bu səbəblər nəticəsində yaranan təhsilsizlikdir. Bütün bunlar bir daha təsdiq edir ki, terrora doğru yolun başlanğıcında duran cəmiyyətin mənəvi-psixoloji düşkünlüyü onun maliyyə durumundan da xeyli asılıdır. Başqa sözlə, maddi kasıblıq mənəvi kasıblığa, mənəvi kasıblıq sosial-siyasi acığa, hər ikisi birlikdə terrogen şəraitə, cinayətə səbəbdir. Terrora qarşı mübarizənin uyğun sənədlər bazası hazırlanarkən bu elementlər nəzərə alınmışdır.

Beləliklə, BMT-nin 28 sentyabr 2001-ci il tarixli, 1373 saylı məşhur Qətnaməsində terrorun maliyyələşdirilməsi mənbələri və sistemləri belə vurğulanmışdır: "Beynəlxalq terrorçuluq və transmilli mütəşəkkil cinayətkarlıq, qeyri-qanuni uyuşduruculuq, çirkli pulların yuyulması, qanunsuz silah alveri və qanunsuz nüvə, kimya, bioloji və digər ölüm saçan potensial materialların dövriyyəsi arasında sıx əlaqə mövcuddur".

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda terrorun maliyyələşdirilməsi anlayışı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsinin ruhuna uyğundur: "...əldə olunma mənbəyindən asılı olmayaraq, pul vəsaitlərinin və ya digər əmlakın tamamilə və yaxud qismən, bilavasitə və ya dolayısı ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 102, 214, 214-2, 214-3, 215, 219, 219-1, 226, 227, 277, 278, 279, 280, 282 və 283-1-ci maddələrində nəzərdə tutulmuş əməllərin şəxs və ya qrup (dəstə, təşkilat) tərəfindən hazırlanmasının, təşkil olunmasının və ya törədilməsinin maliyyələşdirilməsi üçün, yaxud göstərilən cinayətlərin törədilməsi məqsədilə şəxsin və ya həmin məqsədlə yaradılan qrupun (dəstənin, təşkilatın) təmin edilməsi üçün istifadə olunacağını bilərək pul vəsaitlərinin və ya digər əmlakın qəsdən toplanılması və ya verilməsidir". Buradakı *"pul vəsaitləri və ya digər*

*əmlak"* müddəasına isə aşağıdakı kimi aydınlıq gətirilmişdir: "...əldə edilmə üsulundan asılı olmayaraq, istənilən növ maddi və qeyri-maddi əmlak nemətləri, daşınan və ya daşınmaz əmlak, həmçinin bank kreditləri, yol çekləri, bank çekləri, poçt-göndərişləri, səhmlər və qiymətli kağızlar, istiqrazlar, veksellər, akkreditivlər də daxil olmaqla, bu cür aktivlərə olan hüquqları təsdiq edən elektron və ya hər hansı digər formada tərtib olunan hüquqi sənədlər və ya aktlar".

Göründüyü kimi, terrorun maliyyə mənbəyi müxtəlifdir və bu müxtəliflik, əsasən, qanundan yayınmağa imkan verən istiqamətlərdə formalaşdırılır. Müvafiq qurumlar arasında geniş yayılmış mövcud müvafiq beynəlxalq sənədlərdə bu məsələyə aid qanunlardan yayınmağın istiqamətləri kimi aşağıdakılar göstərilir:

*"Maliyyə dəstəyi", "qrant", "biznes-plan" və s. bu tipli sosial-iqtisadi bəhanələrlə dövlət və qeyri-dövlət təsisatlarının maliyyə transferləri;*

*Qaçaqmalçılıq;*

*Çirkli pulların yuyulması;*

*Uyuşdurucu maddələrin alveri;*

*Valyuta dələduzluğu;*

*Qanunsuz yollarla əntiq əşyalarin, muzey eksponatlarının, enerji məhsullarının, modern texniki avadanlıqların və s. qiymətli, nadir əşyaların, həmçinin silah alveri;*

*İnsan (insan orqanı)alveri;*

*İanələr.*

Bu mənbələrin fəaliyyət sxemi isə üç yerə ayrılır:

*– leqal sistemlər;*

*– qeyri-leqal sistemlər;*

*– hər iki sistemin qarışığı.*

Bu variantların mahiyyəti ondan ibarətdir ki, maliyyə baxımından güclü, siyasi ambisiyaları yüksək olan hər hansı bir qurum müxtəlif ad və forma ilə pərdələnərək, qanundankənar qrupları, terrogen şəraiti leqal-qeyri-leqal yollarla maliyyələşdirə bilsin. Buna görə də terrorşünaslıqda terrorun maliyyə qaynaqları ilə mübarizə xüsusi yer turur.

Azərbaycan Respublikasında yaradılan və maliyyə monitorinqi xidməti göstərən strukturların əsas vəzifələrindən biri məhz terrorun maliyyə qaynaqları ilə mübarizəyə aiddir.*

Terror ancaq iqtisadiyyat sahəsindəki qanuna zidd fəaliyyətlərlə maliyyələşdirilmir. Qeyd olunduğu kimi, onun maliyyə bazası leqal/qeyri-leqal müstəvidə manevr etmək imkanına malik olduğundan, hər iki sistem işin hansı mərhələsində bir-birinə dəstək verərək cinayət şəbəkəsi yaratdığını, müxtəlif maliyyə dələduzluqları üçün mürəkkəb sxem qurduğunu öncədən proqnozlaşdırmaq bu mübarizədə vacib şərtdir.

Buna görə də terrorun maliyyə bazası ilə mübarizə çox çətin və əzablıdır. Məhz bu səbəbdən də **beynəlxalq miqyasda terrorun maliyyə bazası haqqında informasiya toplamaq və paylaşmaq, təcrübə mübadiləsi aparmaq ona qarşı mübarizənin tərkib hissələrindən biri kimi tövsiyyə edilir.**

İŞİD terror birləşməsi ilə mübarizədə qazanılan təcrübə və 2020-ci ilin sonlarında Ermənistan işğalından azad olunan Azərbaycan ərazilərinin monitorinqi göstərmişdir ki, terrorçu hərbi birləşmələr, məsələn, işğal etdikləri təbii qazıntılar mədənlərini, münbit torpaqları, zavod-fabrikləri, sənaye müəssisələrini, təbii ehtiyatlar

---

*"Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 760 nömrəli fərmanına əsasən qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri sahəsində fəaliyyətin lisenziyalaşdırılması, tənzimlənməsi və ona nəzarət, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr... üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə yaradılmışdır. Qurum barədə onun 2.2.6.bəndində deyilir: "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarətin təmin edilməsi, bu sahədə monitorinq iştirakçılarının, monitorinqdə iştirak edən digər şəxslərin, nəzarət və digər dövlət orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, onlardan daxil olan məlumatların toplanması və təhlili"ni təmin edir.

zonasını yenidən işə salmaq, yaxud yenidən istismar etmək üçün xüsusi kuryerlər, hətta şirkətlər vasitəsilə həmin istehsal müəssisələri üçün texniki ehtiyat hissələri alaraq, zavod, yaxud fabrikin, mədənin fəaliyyətini bərpa edir, əldə olunan məhsulları dünya bazarına çıxarır, muzey və zəngin evlərdən, ibadət yerlərindən qarət etdikləri sənət nümunələrini hərraclarda satıb, qazandıqları pulları silahlanmaya, kəşfiyyat məlumatları əldə etməyə, muzdlı əsgər şirnikləndirməyə, terrorçuluğa, şəxsən varlanmağa sərf edirlər. Yaxud əldə etdikləri "çirkli" maliyyə ilə çox işlənən sənaye malları istehsal edən fabriklər yaradır və orada ucuz fəhlə əməyindən faydalanmaqla "öz məhsullarını" satacaq ticarət şəbəkələri, iaşə bazaları terrorun maliyyə qaynaqları ilə mübarizə təşkil edirlər. Hazırda bu üsul terrorçuluğun yeni maliyyə mənbələrindən biri kimi qəbul olunur. Bəzi ölkələrdə (məs., RF-də) "terrorçularla iqtisadi resursların (neft və neft məhsullarının, digər təbii ehtiyatların) alış-verişi" terror fəaliyyəti ilə eyniləşdirilir və cinayət işi hesab olunur.[38]

Müasir terror sosial şəbəkələrin imkanlarını da öz cinayətinə cəlb etmişdir. Burada *"elektron pul kisə"*ləri deyilən yeni hiylə üsulu tətbiq olunur. "Kafirlərlə mübarizə", "Arsaq uğrunda mübarizə" devizi ilə aparılan maliyyə dələduzluğu, diaspora fırıldağı yeni "yardımlaşma" formalarından biri kimi təklif edilir.

Göründüyü kimi, ümumdünya maliyyə sektorunun genişlənməsi, elektron sistemlərlə pul köçürmələrinin sürətlənməsi, xeyriyyə təşkilatlarının, bəzi QHT-lərin, telemarafonların, xüsusi təyinatlı daşıyıcı-inkassatorların qanunsuz maliyyə işlərinə cəlb olunması terrorun maliyyə bazası ilə mübarizənin aktuallığını daha da artırmışdır. Ona görə də BMT terrorun maliyyələşdirilməsinin qarşısını almaq üçün hər dövlətin hüquqi, institutsional və praktik kompleks tədbirlər işləyib hazırlamasını və tətbiq etməsini vacib vəzifə kimi dəstəkləyir.

Azərbaycan Respublikasında terrorun maliyyələşdirilməsi ilə mübarizənin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyasının müvafiq müddəaları təşkil edir. Burada qəti şəkildə açıqlanır: "Azərbaycan dövlətinə qarşı qiyama və ya dövlət çevrilişinə kömək məqsədi ilə alınmış borclar Azərbaycan Respublikası tərəfindən öhdəlik kimi qəbul edilə və ödənilə bilməz".

Terrorla mübarizənin bu istiqamətinə dair "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanun, prokurorluq haqqında, valyuta dövriyyəsinin tənzimlənməsi, respublikamızda bank və bank fəaliyyəti haqqında qanunlar, "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" müqavilə, "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasında, terrorun maliyyələşdirilməsində, transmilli mütəşəkkil cinayətkarlığı, habelə silahlı separatizmi, ekstremizmi və muzdluluğu dəstəkləməsində, narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirakı ehtimal olunan, maliyyə əməliyyatlarının aparılması zamanı eyniləşdirmə məlumatlarının açıqlanması tələb olunmayan dövlətlərin (ərazilərin) siyahısının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 iyun 2010-cu il tarixli Qərarı və s. xeyli hüquq-normativ sənədlər vardır.[39]

Beləliklə, terrorun maliyyə mənbələri ilə mübarizədə Azərbaycan Respublikasının hüquqi-normativ bazası işgüzardır və beynəlxalq sənədlərlə ahəngdarlıq təşkil edir.

# II. MÜASİR TERROR: ÖZƏL XÜSUSİYYƏTLƏRİ VƏ TƏRKİBİ

## "MÜASİR TERROR" ANLAYIŞI

**T**errorun öz-özünü yeniləmək xüsusiyyəti qazanması onun dövrümüzdə çoxsaylı növünü yaratmağa səbəb olmuşdur. Hətta onun ilk və hərfi mənası da öz mahiyyətini, forma və məzmununu əsaslı şəkildə mənfiliyə doğru dəyişməkdədir. Bu transformasiya prosesi siyasi qətllər, şantaj, bioloji və nüvə silahları ilə hədələr, preventiv yumşaq/sərt zərbələr, yeni tipli hibrid, proksi müharibələr və s. formatında dünyanı rahatsız etmədədir. Müasir terrorun* bəzi dövlət strukturları, kriminal aləmlə ittifaqı, xüsusilə də hərbiləşmiş özəl qüvvələrlə əlaqəsi onu daha qəddar kabusa çevirmişdir.

Ümumiyyətlə, "müasir terror" anlayışının tərkibində sosial amillər önə keçməkdədir. Terrologiyada həmin amillər şərti olaraq belə ümumiləşdirilir:

***a.*** Cəmiyyətdə sosial-siyasi təbəqələşmənin və ədalətsiz bölgünün kəskinləşməsi;

***b.*** Əhali arasında yoxsuluq və savadsızlığın səviyyəsinin artması;

***c.*** Qanunsuz miqrasiyanın çoxalması;

***ç.*** Ümumdünyaya inteqrasiya sistemində ticarətin iqtisadiyyatının istehsalın iqtisadiyyatından önə keçməsi və buna uyğun dövlətlərarası münasibətlərin qurulması;

---

* Bu termin keçən əsrin 70 – 80-ci illərində yaranmış yeni forma və üsullu terror aktlarının adı deyil. Çünki terrorun müasirliyi, əgər belə demək mümkündürsə, ancaq onun modern texnologiyalardan güc alan icra üsulu və moderinliyindən qaynaqlanmır, həm də müasir istehlak sivilizasiyasının mahiyyətindən və tələblərindən irəli gəlir. Yəni müasir terrorun baza prinsipləri arasında məhz *iqtisadi amilə*, sosial-siyasi psixologiyaya təsir göstərərək cəmiyyətdə maliyyə böhranları törədib, sosial-psixoloji durumu sərtləşdirərək terrogen şərait yaratmaq, onu fəallaşdırmaq və terror aktı törətmək nəzərdə tutulur.

***d.*** Müvafiq qanunvericilik bazasında boşluqların olması və onların aradan qaldırılmasında ictimai elmlərin və təsisatların ləngiməsi;

***e.*** Cəmiyyətdə idarəedilən xaos mühitinin yaradılması.

Bu amillər müasir terrorun müvafiq kompleks istiqamətlər üzrə genişlənməsinə birbaşa təsir göstərə bilir.

Müasir terrorun digər özəl xüsusiyyəti hazırda onun ***MÜHARİBƏ*** formatı almasıdır. Bu, aşağıdakı kompleks hərb sistemlərində özünü göstərir:

- *hibrid müharibə;*
- *preventiv müharibə;*
- *proksi müharibə;*
- *təbii və süni intellekt müharibəsi.*

Müasir terrorun tərkibində qlobal problemlərlə əlaqə (hərbi, ekoloji, iqtisadi təhlükəsizlik və informasiya texnologiyaları komplekslərinə aid sahələr) daha genişdir. O, müharibə biznesi kateqoriyasına soxulduğundan, müasir terrorun məkrli dual xassəsi (həm Xeyir, həm də Şərin təsir dairəsində olmağı bacarması) onunla mübarizəyə xüsusi çətinliklər əlavə etmişdir.

11 sentyabr 2011-ci il hadisəsindən sonra dünyanın terror probleminə münasibəti əsaslı şəkildə dəyişmişdir. Çünki bu hadisədən sonra böyük güc dövlətlərinin qlobal və hegemon dövlət statusu xeyli zəifləmiş, "beşlik" dövlətinin və onların həyat tərzinin, hərbi-mənəvi üstünlükləri, digər qitələrə səmərəsiz hərbi ekspedisiyaları, terror qrupları ilə əlaqələri, işğalçı əskərlərin işğal zonalarında qanundankənar hərəkətləri və s. amillər nəticəsində "böyük dövlət" mifi ictimaiyyətin gözündən düşmüşdür. Əvəzində "terrora dəstək verən dövlətlərlə mübarizə" amili önə çıxmış, islamofobiyanın təsiri altında xüsusi terror formatı uydurulmuş və bununla mübarizə adı altında regional maraqlar icra olunmağa başlanılmışdır.

Yüksək texnologiyaların nailiyyətləri isə terrorun məkanını, fəaliyyət dairəsini genişləndirmək işini asanlaşdırdığından, müasir terrorçular *veb dünyasında* fəaliyyətə üstünlük verməyə başlamışlar: terror aktlarının bölgüsü internetdə yerləşdirilir və potensial terror-

çulara imkan yaradılır ki, faktla tanış olub müzakirə etsinlər, yeni terrorçular qrupu, yaxud üsulu formalaşdırsınlar, zəmanənin "qəhrəmanını" hamıya tanıtsınlar. 20 avqust 2018-ci ildə Çeçenistanda milis şöbələrinə yeniyetmə uşaqların silahlı basqınının bu üsulla planlaşdırıldığı və həyata keçirildiyi bildirilir.[40]

Müasir terror bir qayda olaraq cəmiyyətin ən kövrək təbəqəsinə (orta məktəb, xəstəxana, yaşayış binası, ictimai nəqliyyat, ictimai iaşə obyektləri, istirahət-əyləncə mərkəzləri, idman arenaları, iri alış-veriş mərkəzləri, avtobus dayanacaqları, piyadaların sıx cəmləşdiyi məkan və s. mülki yerlər) zərbə vurmaqla faciəni, bir növ, kütləviləşdirməyə həvəslidir. Müasir terror bu xarakteri ilə XX əsr anarxistlərinin fəaliyyətini xatırlatsa da, fərdlərin öldürülməsi taktikasından kütləvi məhv etmək taktikasına keçmiş və özünütəkmilləşdirmə xüsusiyyəti qazanmışdır.

**Beləliklə, *mənəvi düşkünlük* və *cəlladlıq* müasir terrorun xarakterik sosial əlamətinə çevrilmişdir.**

Digər xarakterik xüsusiyyət kimi isə bunu göstərmək olar: müasir terror üçün bir şəxsin, qrupun, şirkətin maraqları o qədər də maraqlı deyil; o, qlobal məsələlər, ideyalar, dünyanın siyasi nizamına dəyişikliklər etdirmək hərisidir. Müasir terror *böyük miqyas düşkünüdür, dünya, region, dövlət, sivilizasiya, dünya dini miqyasında vəhşət yaratmaqla* siyasətə müdaxilə etmək onun əsas amalına çevirilmişdir.

Beləliklə, "müasir terror" kompleksinə nələr daxildir?

Qlobal Terrorçuluq İndeksi müasir terrorçuluğu dörd şərt üzrə müəyyənləşdirir:

***1.*** *Törədilmiş terror aktlarının sayı;*

***2.*** *Terror aktları nəticəsində ölənlərin sayı;*

***3****. Terror aktları nəticəsində xəsarət alanların sayı;*

***4****. Terror aktları nəticəsində dəyən maddi ziyanın həcmi.*

Bu dörd amildə statistika elementləri qabarıq nəzərə çarpır. Terrorşünas Anna Geyfman tədqiqatında bu istiqamətə geniş yer verərək yazır: "1970-ci illərin ortalarınadək bir terakta düşən insan tələfatının sayı o qədər də yüksək deyildi. Ancaq 1979 – 1989-cu illərdə bu göstərici artaraq bir teraktda orta hesabla 1,15 adam

ölmuşdur, sonrakı on ildə həmin rəqəm 1,8-ə yüksəlmişdir. 1999-cu ildən sonra isə bir teraktda ölənlərin sayı 2,58 adama çatmışdır...

Növbəti onillikdə dini terrorun aktivliyi daha da artmış və bir teraktda ölənlərin sayı 5,98 adam olmuşdur. Bu rəqəmlər terrorçuların öz kütləvi qırğın metodlarını təkmilləşdirmələrindən xəbər verir”.[41]

Göründüyü kimi terror taktikası ilə qırğn salmaq əmsalı ildən-ilə yüksəlməkdədir. Bu tendensiya və statistik yanaşma üsulu müasir terrorun genişlənmə istiqamətlərini öyrənmək baxımından müəyyən maraq doğura bilər. Ancaq terror aktının proqnozlaşdırılması və qabaqlayıcı sosial-siyasi tədbirlərin görülməsi üçün vacib olan mərhələni bu format çərçivəsində tədqiq etmək çətindir. Problem öncə humanitar durum, ***subyekt / obyekt / predmet*** baxımından təhlil edilməlidir. Çünki müasir terror və onun perspektivi cəmiyyətin həm mədəni, həm də iqtisadi baxımdan kasıblığı ilə sıx bağlı olsa da, digər üstqurum amillərini də nəzərə almaq vacibdir. **Ona görə də müasir terrorşünaslıqda problemin iqtisadi amil, cəmiyyətin maliyyə durumu və demokratiyasının səviyyəsi, insan hüquqlarının qorunması, təhsilsizlik fonunda tədqiq edilməsi və proqnozlaşdırılması məqsədəuyğun hesab edilir.**[42]

Son illər dünyada törədilən terror hadisələrinin inkişaf tendensiyası sürətlə artmaqdadır. Terror üsulu ilə öldürülən insanların çox böyük hissəsi İraq, Suriya, Nigeriya, Pakistan, Hindistan və Əfqanıstana aiddir. Həmçinin, terrorçular CAR, Banqladeş, Burundi, Anqola, Fil Dişi Adaları, Mali, Meksika, Mayanmi, Şri Lanka, Həbəşistan, Uqanda və Fransada da tez-tez dəhşətlər törədirlər.[43] Son vaxtlar İspaniya, İngiltərə, Almaniya, Azərbaycan və Türkiyəyə qarşı terror hücumlarının daha dəhşətli forma alması və intensivləşməsi xüsusilə təşvişlidir. Göründüyü kimi, terrorun coğrafiyası da genişlənməkdədir.

Beləliklə, müasir terrorun fəaliyyət dairəsi qloballaşır və kompleks ***sosial-siyasi amillər üzərində*** formalaşır.

Bu şərtlər çərçivəsinə *kriminal xüsusiyyətləri* də əlavə etmək olar. Cinayətkar qruplar arasındakı maliyyə hərisliyi, maddi qazanc uğrunda gedən qanlı mübarizə, təxribat törətmək, narkotik maddə-

lərin dövriyyəsi ilə məşğul olmaq, girov götürüb pul qarşılığında azad etmək işi, insan və insan orqanlarının alveri, qaçaqmalçılığın müxtəlif növləri də bu gün terror hesab edilir. Buna görə də müasir terror mövzusu üzərində nəzəri araşdırmaları bu istiqamətdə davam etdirərək, kütləni vahimədə saxlamaq, dövlət idarəçiliyinə təzyiq göstərmək bağlantısının olub-olmamasının müəyyənləşdirilməsi də şərtdir.

Bütün bunlar göstərir ki, *müasir terror vətəndaş cəmiyyətində sosial-siyasi nüfuzun durumundan, iqtidarın dəstəklənmə əmsalından* asılıdır.

Hazırda bir çox ölkələrin müxtəlif yollarla **"məcbur etmək"** diplomatiyası formatında ictimai-siyasi məsələlərə müdaxiləsi yeni tipli müasir terror kimi qəbul olunur. Çünki bu yolla da cəmiyyətdə qarşıdurma vəziyyəti yaratmaq mümkündür. Ümumiyyətlə, "məcburetmə" diplomatiyası (əsas ünsürləri: xəbərdarlıq, danışıqlar, sövdələşmə və s. "yumşaq qüvvə" elementləri) əsasən "sərt qüvvə" terrorunun önləyicisi, bəzən isə əvəzedicisi kimi qəbul olunur, yaxud tətbiq edilir.[44]

Müasir terrorun subyekti xüsusilə genişlənmədədir. O bu gün dövlət, gizli təşkilat, partiya, siyasi hərəkat, parlament yolu ilə mübarizədən çəkinən qrup, iqtisadi-siyasi maraq dairəsini genişləndirmək istəyən şirkət, oliqarx, hətta yeni tipli "beşinci kolon" və s. struktur da ola bilir.[45] Onun taktikasında da müəyyən dəyişikliklər müşahidə edilir, məsələn, keçən əsrin 60 – 70-ci illərində siyasi qəsd, quldurluq tipik hal almışdı. Lakin bu sahədə təhlükəsiszlik sistemləri gücləndirildikdən sonra həmin metod xeyli zəifləmişdir. Əvəzində cəmiyyətin kövrək nöqtələrinə hücumlar ön plana keçmişdir. Yəni keçmişdəki anarxistlərin "motivsiz terror" üsulu yenidən təkrarlanmağa başlanılmışdır. Bu onu göstərir ki, istehlak sivilizasiyasının tələbləri də müasir terrorun mahiyyətinə öz-özünü təkmilləşdirmə xarakteri əlavə etmişdir.

Müasir terrorun taktikasında nəzərə çarpan "yenilik" isə onu göstərir ki, **o, "çoxluğun iştirakı ilə" deyil, "tək" icraçı, "intihar" formatında da özünü büruzə verməyə başlamışdır.** Buna görə də hazırda *intihar terroru* üsuluna sıx-sıx rast gəlinir.

Beləliklə, müasir terror dövlətlər və qurumlar arası münasibətlərdə "hiyləgərlik və qəddarlıq" bacarığı ilə çıxış etdiyindən, ona qarşı mübarizə mürəkkəbləşmişdir. Digər tərəfdən, müasir terrora hamılıqla, ümumdünya potensialı ilə qarşılıq verilmir. Terrorda maraqlı olan dövlətlər, qurumlar və rəsmi dairələr hələ də gizli tərəfkeşlik fəaliyyətindədirlər. Bu elementlər müasir terrora qarşı mübarizə taktikasında beynəlxalq alyansın birləşməsini daha da aktuallaşdırmışdır. Azərbaycanın erməni dövlət terroru ilə mübarizəsi, İŞİD-ın İraq və Suriyaya qarşı "açıq müharibə" formatında terror savaşı, Türkiyədə törədilən dəhşətli təşkilati terror aktları, dövlət çevrilişinə cəhd və s. qanlı cinayətlər bir daha təsdiq edir ki, uzun illərdir beynəlxalq terrora qarşı mübarizə adı altında müzakirələr aparılsa da, beynəlxalq hüquqi sənədlər işlənib hazırlansa da, terrora qarşı vahid cəbhə, beynəlxalq koalisiya sözdə yaradılsa da, əməldə onun qüdrəti zəifdir. Çünki terrora qarşı mübarizədə bəzi dövlətlərin və beynəlxalq təşkilatların səmimiyyəti və qətiyyəti çatışmır.

Terrora qarşı bu cür ikili standart ölçüləri ilə mübarizə aparmaq onun daha məkrli bir tipinin yaranmasına səbəb olmuşdur: proksi müharibə *(proxy war)*, yəni başqa dövlətin, terrorçu qrupun, terrorçu təşkilatın və s. əli ilə terrorçuluq etmək. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycana qarşı erməni dövlət terroru proksi müharibə formatında icra olunur.

Müasir terrorun xarakterinə, texnika və taktikasına elmi-texniki tərəqqi də böyük təsir göstərir. Dövlət terrorunun əsas silahı olan hibrid müharibə, texnogen qəzalar törətmək üçün nüvə silahı qaçaqmalçılığı, yüksək texnologiyalar, kosmos terrorçuluğu və s. bu kimi istiqamətlər bəşəriyyətin müasir terrora qarşı mübarizədə xüsusi ayıqlıq və fəallıq göstərməsini tələb edir. 2016-cı ilin aprel ayından başlayaraq Ermənistan Respublikasının Azərbaycanı nüvə silahı, eləcə də "Metsemor" AES-in tullantıları, zəhərli qazıntı-mədən suları ilə təhdid etməsi, radioaktiv maddələr qaçaqmalçılığı hesabına regionda qüvvələr balansını öz xeyirinə dəyişdirmək planları dünya ictimaiyyətinin diqqətindən yayınmamalıdır.

Müasir terrorun radioelektron vasitələrlə strateji obyektləri özünə tabe etməsi isə bəşəriyyət üçün çox böyük təhlükələr vəd edir.

Ümumiyyətlə, son vaxtlar müasir terror, əsasən, dörd formada icra olunması ilə diqqəti çəkir:

– ***“açıq müharibə”*** (Suriya, İraq, Əfqanıstan, Türkiyə, Rusiya və Ukraynada baş verən hərbiləşdirilmiş hadisələr);

– ***“gizli müharibə”*** (Böyük Britaniya, Fransa, İspaniya, Latın Amerikası və Asiya-Sakit okean hövzəsindəki hərbiləşdirilmiş hadisələr);

– ***“hibrid müharibə”*** (həm açıq, həm də gizli müharibə üsullarının, eləcə də sərt və yumşaq qüvvənin qarışığı ilə aparılır, müasir dövlət terrorunun “sevimli” metodudur);

– ***“proksi müharibə”*** (Ermənistanın DQ-dəki erməni xuntası üzərindən Azərbaycana hərbi hücumları).

***Beləliklə, müasir terror hərc-mərcliyə cəlb etmək, yaxud bunun üçün münasib ictimai-siyasi şərait yaratmaq, siyasi-iqtisadi ambisiyalı qanunsuz aksiyalar işləyib hazırlamaq və vəhşətli əməllərlə öz məqsədinə nail olmaq üzərində formalaşmış ifrat aktdır.***

Müasir terrorun hədəfləri strateji istiqamətlər üzərində qurulmaqdadır (“yer-fəza” raketi ilə mülki hədəfləri vurmaq, idarə olunan raketlərlə təhlükəsizlik üçün ən vacib hərbi-texniki, strateji obyektləri dağıtmaq, texnoloji üsullarla həyat və fəaliyyət üçün zəruri olan sistemlərin idarəçiliyini sıradan çıxarmaq, nüvə silahları ilə şantaj etmək, ətraf mühiti zəhərləmək, süni yollarla ərzaq qıtlığı yaratmaq, bakterioloji xəstəlik yaymaq, iqlim dəyişikliyi etmək və s.).

Bugünkü geosiyasi rəqabət və separatizm müasir terrorun inkişaf tendensiyasına çox ciddi təsir göstərmişdir. Geosiyasət müasir terroru hətta ***dünya müharibəsinə oxşar formata*** çatdırdığından, ona qarşı mübarizə məsələləri də planetar xarakter almalıdır, bu səbəbdən də ona qarşı **hərb qanunları ilə mübarizə aparmağın zəruriliyi** tez-tez eşidilməkdədir. 27 sentyabr 2020-ci ildə Azərbaycanın erməni dövlət terroruna qarşı başladığı əks-hücum əməliyyatı buna misaldır.

Beynəlxalq münasibətlər sistemində maraq dairələrinin genişlənməsi müasir terrorun mahiyyətinə prinsipial əlavələr etmişdir.

Dini mənsubiyyət və etnik mənşə məsələləri müasir terror aktlarının işlənib hazırlanmasında, separatçılıq isə onun icra aparatında daha qabarıq nəzərə çarpır.

Müasir terror anlayışı ətrafında aparılan müzakirələrdə ***"İslam terrorçuluğu"*** termininin tez-tez xatırladılması, ***"Allah-u-əkbər"*** alqışının kontekstdən çıxarılaraq antifenomen enerji ilə yayımlanması üsulundan və ***"şəhid kəməri"*** terminindən istifadə edilir; lakin intihar edərək terror aktı törədənlərin uca şəhid adı, qutsal yapon əskəri (kamikadze) kimi portretləşdirilməsi, əslində, terrorçunu müqəddəsləşdirməkdir. Problemə bu tip yanaşma tərzi həm elmi-nəzəri, həm də ictimai-siyasi baxımdan qəbul edilə bilməz. Bu müstəvidə islamafobiyanın qabardılması bəzi regionlarda gedən qarşıdurmalara İslam dini rəngini qatmaqla onun coğrafiyasını genişləndirmək, bu dinin gələcəkdə ictimai-siyasi sistemqurucu amil olması barədə qorxulu fantaziyaları yayıb, ona qarşı beynəlxalq əks-təbliğatı gücləndirmək niyyətindən, siyasi ambisiyaları həyata keçirmək intriqasından başqa heç nə deyildir. Bu istiqaməti də müasir terrorun yeni bir əlaməti kimi qəbul etmək mümkühdür.

Hazırda müasir terrora dair ictimai-siyasi leksikonda ***"davakar İslam"*** termini çox geniş işlədilir və bununla da "İslam terrorçuluğu" beyinlərə yeridilərək, insanlar arasında islamafobiya kompleksi aşılanır.[*] Bunun bariz nümunəsini bir çağırış-informasiyanın nümunəsində dərk etmək mümkündür. KİV-də yayılmış məlumata görə 2018-ci ilin 10-11mart günlərində Böyük Britaniyada yayılmış anonim bir broşürdə aprel ayının 3-ü "Müsəlmanların cəzalandırılması" günü elan edilmişdi. Yeni tipli islamafobiyanın müəllifləri "xal

---

[*]Beynəlxalq KİV-də yer almış "şəhid terrorçu" termini siyasiləşdirilmiş din mövzusundan qaynaqlanır. Türkiyə mediasında "bombaçı-terrorçu", Azərbaycanda isə "terrorçu-kamikadze"("kamikadze" sözünün orijinal məna və məzmununa geniş şərh vermədən, qısaca bildiririk ki, bu ad ilə, əsasən, II Dünya müharibəsində könüllü intihar üsulu ilə öz düşməninə daha ağır zərər vuran döyüşçülər fərqləndirilirdi) və s. ifadələrə rast gəlinir; terrorun hüquqi-siyasi problemləri üzrə mütəxəssis R.Sevdimalıyev "suisid terrorizmi" terminini işlədir.[47] Azərbaycan dilində "intihar terroru" termini uyğun ola bilər.

qazanmaq” sistemi ilə vətəndaşlara fəal olmağı tövsiyyə etmişdir: müsəlman qadının başından çarşabını dartıb yerə atmaq – 25 xal; müsəlmanı öldürmək – 500 xal və s. formatlar tövsiyyə olunmuşdur. Çağırışda təqdim olunan cəza tədbirləri siyahısında (*müsəlmanın üzünə kimyəvi turşu atmaq; müsəlmanı döymək; elektrik cərəyanı ilə müsəlmana cəza vermək; tapança, bıçaq vasitəsilə müsəlmanı öldürmək, yaxud da avtomobili müsəlmanının üzərinə sürmək; məscidə bomba atmaq; Məkkəni partlatmaq)* terrora təşviq qabarıq nəzərə çarpır.**[46]**

**Problemin təhlükəli perspektivi isə odur ki, hazırda islamafobiya psixologiyası məharətlə İslam coğrafiyasının özünə qarşı yönləndirilir.**[*] Beləliklə, müasir terror hətta antiterror bayrağı altında

---

[*] “İslam terrorçuları” adlandırılan qanundankənar silahlı birləşmələrin fəaliyyət zonası tədricən müsəlman dünyasının içərilərinə doğru genişlənməkdədir. <u>Terrora qarşı mübarizə pərdəsi altında İslam dinini İslam aləmi ilə qarşı-qarşıya qoymaq, beynəlxalq terror təhlükəsini dünyanın başqa regionlarından sıxışdırıb, müsəlman Şərqinə istiqamətləndirmək ona qarşı mübarizə kimi qəbul edilə bilməz.</u> Həmçinin, *“İslam dini və terror”* mövzusu ətrafında ictimai-siyasi sözbazlıq da genişlənmədədir. Mövzu ilə əlaqədar işlədilən eyni mənşəli əlavə terminlər də var ki, onlar da həm teoloji, həm də politoloji baxımdan ciddi etirazlarla qarşılanır. Müxtəlif dillərdə “İslam terroru” anlamında tirajlanan ifadənin, yaxud bu leksik vahiddən qaynaqlanan “qohum” ifadələrin işlədilməsi savadsız riyakarlıqdır. İslam dini pərdəsi altında terrorçuluq edənləri, məsələn, **“terrorçu – münafiqlər”**, **“münafiq terroru”** terminləri, yaxud da bu leksik vahiddən, onun məna tutumundan qaynaqlanan digər söz və ya söz birləşməsindən yaranan yaxınmənalı sözlərlə ifadə etmək mövzunun təbiətinə uyğun gələr. Qurani-Kərimdən (Azərbaycan dilinə tərcümə edənlər: Z.Bünyadov, V.Məmmədəliyev: http://www.quran.az ) bəzi seçmə surə-sitatlara heç bir şərh vermədən fikrin məntiqinə, potensialına və perspektivinə diqqət edək:
**TOVBƏ:56** (Münafiqlər) sizdən olmaya-olmaya mütləq sizdən olduqları barədə Allaha and içərlər. Lakin onlar (əslində sizin onları öldürmənizdən ehtiyat edən, buna görə də zahirən özlərini müsəlman kimi göstərən) qorxaq bir zümrədir.
**TOVBƏ:57** Əgər onlar bir sığınacaq və ya (gizlənmək üçün) mağara, yaxud girməyə bir deşik (yer) tapsaydılar, tələsik ora üz tutardılar.
**HƏŞR:13** (Ey möminlər!) Onların (münafiqlərlə yəhudilərin) ürəklərinə

da şərə xidmət göstərməyi bacarır. Bu səbəbdən də müasir terrora qarşı mübarizədə dünya birliyi toparlanmalı, tam gücü ilə fəaliyyətə keçməlidir.

SSRİ-də yenidənqurma və aşkarlıq siyasətinin cərəyan etdiyi illərdə İttifaq miqyasında ekstremist və terrorçu elementlərə qarşı mübarizədə *"qafqazlı görünüşlü adam"* terminindən geniş istifadə edilirdi və dolayısı ilə sovet məkanında Qafqazda yaşayan müsəlmanların potensial cinayətkar-terrorçu imici formalaşdırılırdı. Problemin bu şəkildə qoyuluşundan yaranan ümumi antipatiyanın Rusiya Federasiyasının perspektivi üçün yaxşı heç nə vəd etmədiyini anlayan politmeykerlər həmin ifadədən əl çəkməli olmuşdular. Belə bir miskin süqut və aqibət "islam terrorçuluğu" anlayışını həvəslə yayanları da gözləyir.

---

qorxu salan Allahdan çox sizsiniz. Bu isə onların (Allahın əzəmət və heybətini) anlamaz bir qövm olduqlarına görədir.

**HƏŞR:14** Onlar (münafiqlərlə yəhudilər) hamılıqla sizə qarşı ancaq möhkəm şəhərlərdə (kəndlərdə), yaxud divar arxasında (qala içərisində) olarkən döyüşərlər (başqa şəraitdə sizinlə vuruşmağa cürət etməzlər). Onların öz aralarındakı vuruşmaları (və düşmənçilikləri) isə çox güclüdür. (Ya Peyğəmbər!) Sən onların əlbir olduqlarını güman edirsən, lakin onların qəlbləri dağınıqdır. Bunun səbəbi onların ağılsız bir qövm olmalarıdır.

**NİSA:145** (Ya Rəsulum!) Əlbəttə, münafiqlərin yeri Cəhənnəmin ən aşağı təbəqəsindədir. Sən heç vaxt onlara yardım edən tapmazsan!

**BƏQƏRƏ:9** Onlar elə güman edirlər ki, (qəlblərində olan küfrü gizlətməklə) Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar.

**BƏQƏRƏ:14** Onlar möminlərlə qarşılaşdıqları zaman: 'Biz də (sizin kimi) iman gətirdik', - deyirlər. Halbuki öz şeytanları ilə (onları aldadan dostları ilə) təkbətək qalanda: 'Biz də sizinləyik, biz ancaq (möminlərə) istehza edirik', - deyirlər.

**FURQAN: 63-68.** Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər.

Onlar ... Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz).

Beləliklə, ekstremist təfsir yolu ilə istənilən dindən terrorçu ideologiya qondarmaq mümkündür. Buna qarşı mübarizədə ilk növbədə hər din dünyası öz daxilində əks-təsir cəbhəsi formalaşdırmalı və savadlı, mədəni müqavimət göstərməlidir. Müasir terrorun "İslam terrorçuluğu" deyilən qolu ilə mübarizə pərdəsi altında aparılan müasir Qərb təbliğatı indiki formatında səmərəsizdir. Əslində, müasir antiterror çərçivəsində İslam dininə qarşı aparılan təbliğat təhlükəli səviyyəyə çatmışdır. Çünki terror aktının İslam dininə bağlılığı subyektiv mülahizələrə əsaslanır, İslam dininə yanaşmada saxta siyasi tendensiyalar qabardılır, beləliklə də, düşünülmüş şəkildə İslam dini mənsubları arasında bir-birilə qarşıdurma ehtirası gücləndirilir.

Hazırda "islam terrorçuluğu" ilə mübarizə adı altında aparılan müasir icrimai-siyasi-hərbi işlər terrogen şəraiti aradan qaldıra bilmir, çünki :

*1. Görülən işlər tərəfkeşlik mövqeyindən aparıldığından İslam dini tərəfdarları arasında özünümüdafiə sindromu önə keçir və qeyri-İslam dünyası zərbə altına düşür;*

*2. Bu kontekstdəki terror-antiterror qarşıdurmasında bumeranq effekti radikal düşüncənin, dini təməlçiliyin, təriqətçiliyin oyanmasına və coşmasına münasib şərait yaradır;*

*3. Mədəniyyətlərin qarşıdurmasının totallaşdırılmasına çalışılır.*

Dini mənsubiyyət və etnik mənşə məsələləri müasir terror aktlarının hazırlanmasında, separatçılıq isə onun icra aparatında daha qabarıq nəzərə çarpır.

Terroloji fikirlərin bu istiqamətdən analizi göstərir ki, müasir terrorçuluq məhz mədəniyyətlərin qarşıdurmasında əsas element kimi qəbul edilir. Bu mülahizəni qəbul etmək mümkün deyil. Əslində isə belə mövqe, ümumiyyətlə, yanlışdır. **Müasir terror mədəniyyətlərin deyil, bilavasitə iqtisadi-siyasi maraqların qarşıdurmasında özünü göstərir və bu müstəvidə məqsədə çatmaq üsullarından biridir.** Başqa sözlə, müasir terror məhz konkret "marağı olan" tərəfkeş mövqeyindən çıxış edir. O, Şərq, yaxud Qərb mədəniyyətinin təəssübkeşi qismində çıxış etmir. O, həm Şər, həm də Xeyir

cəbhəsində operativ yer dəyişmələr etməklə, mahiyyətində ikili standartların aktuallıq qazandığını diqqətə çatdırır.

Sivilizasiyaların qarşıdurması konsepsiyasının mahiyyətinə Xristian – İslam rəngi qatmaq istəyən siyasət texnoloqlarının isə niyyətləri xəyal qırıqlığına düçar olmuşdur. Həmçinin, Şərq – Qərb qarşıdurması subyektivizminin də potensialı tükənmək üzrədir. Ümumi "Şərq – Qərb qarşıdurması" məfhumu siyasi leksikondan uzaqlaşmaqdadır. Əvəzində dünyada yeni sistem formalaşmaqdadır.

Yeni sistemin özəyi Avrasiya sivilizasiyasının və onun passionar * rolu ideyası üzərində qurulur. Qlobal qarşıdurmanın Avrasiyaya və ona qarşı koalisiya yaradan münasibətlər sisteminə meylləndirilməsi müasir terrorun məfkurəsində iqtisadi amili və proksi müharibə üsulunu önə keçirməkdədir.

Müasir terrora qarşı mübarizə formalarına yanaşma barədə fikirlər də müxtəlifdir, hətta bu sahədə bəzi fikir ayrılığı da mövcuddur.

**Xüsusi xidmət orqanları** bu işin qabaqlayıcı tədbirlər üzərindən aparılmasını dəstəkləyir və agent cəlbetmə, informasiya-xəbərçilik şəbəkəsini genişləndirmək işinə, kibertəhlükəsizlik işinin sistem olaraq düzgün təşkilinə üstünlük verirlər.

**İctimai qurumlar** isə müasir terrora qarşı mübarizəni insan hüquqlarının qorunması çərçivəsində aparılmasını tələb edirlər*†,

---

* Fransız mənşəli *passion* ("ehtiras", "ehtirasları qızışdırmaq","cəlb olmaq" mənalarını daşıyır) sözündən törəmədir. Elmi dövriyyəyə görkəmli alim-türkoloq L.N.Qumilyev gətirmişdir. İnsanların azman istəklərinin, tarixdə iz salan möhtəşəmliyin enerjidə ifadəsidir. Böyük işlər görmək üçün çox böyük daxili enerji yığmaq qabiliyyətinin göstəricisidir. Azərbaycanın 2020-ci il Vətən müharibəsində müasir erməni terroru üzərində müzəffərlik passionarlığın bariz nümunəsidir.

†† Azərbaycan Respublikasının Cinayət Məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasına, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına və prinsiplərinə əsaslandığından onun terrora qarşı mübarizə işində də eyni prinsiplərə əməl edilir. Məcəllədə deyilir: ***2.1.*** Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi,

hətta ölkənin müvafiq qanunvericilik bazasında bu barədə dəyişikliklər edilməsi fikrini (məsələn, AB ölkələri Türkiyənin terrora qarşı mübarizədə sərt mövqeyinə belə münasibət göstərir, onu “yumşaq” addımlar atmağa çağırırlar) “məcbursunuz” səviyyəsinə qaldırırlar.

**Bəzi politoloqlar** isə terrora qarşı adekvat addımların atılmasını dəstəkləyirlər.

Rusiyalı politoloq Yevgeni Satanovski müasir terrorun dünyada yayılmasının qarşısını almaq üçün İsraildə olduğu kimi qanun yolu ilə preventiv tədbirlərin görülməsini məsləhət edir: “Ölüm cəzasını tətbiq etmək və onu qətiyyətlə və amansızcasına icra etmək lazımdır. Terrorçunun ailəsi ölkədən sürgün olunmalıdır...

Terrorla mübarizəyə mane olan hər şeydən, bu, hətta vətəndaş hüquqlarını pozsa və vətəndaş azadlıqlarını məhdudlaşdırsa da qurtulmaq vacibdir...”[48]

Müasir terrora qarşı mübarizə adı altında qeyri-qanuni cəza formalarının tətbiqi əks-səmərə verə bilər. Məsələn, 2014-cü ilin dekabr ayının 4-də Çeçenistanın paytaxtı Qroznıda silahlı dəstələrin şəhərə hücumu zamanı 12 polis nəfəri və 2 mülki şəxs öldürülmüş, 38 polis isə yaralanmışdı. Bundan sonra Çeçenistanın rəhbəri çıxış edərək həmin yaraqlıların qohum-əqrəbalarından qisas almağa səsləmişdi. Dövlət qurumuna aid bir qrup silahlı maskalı gecə vaxtı həmin insanların evlərini od vurub yandırmışdılar...

Həqiqətən də, bəzi dövlətlər terrora qarşı mübarizədə çox sərt tədbirlərə əl atılmasının tərəfdarıdır: əgər terror müharibə elan

---

ətraf mühiti, Azərbaycan Respublikasının konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

*2.2.* Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

edibsə, ona müharibə qanunları ilə də cavab verilməlidir, – onların məntiqi belə bir fikir üzərində qurulmuşdur.

Beynəlxalq hüquq normaları, ümumiyyətlə, Qanun, terrora qarşı mübarizədə bu və buna bənzər üsulları qətiyyətlə pisləyir.

## "BEYNƏLXALQ TERROR" ANLAYIŞI

**H**azırda beynəlxalq terror/beynəlxalq terrorçuluq bəşəriyyətin qlobal probleminə çevrilib. Və "müasir terror" anlayışının tərkibinə beynəlxalq terror formatının da daxil olduğu bildirilir.

Avropa tarixindən məlumdur ki, 1934-cü ildə Fransada, Millətlər Liqasında "Beynəlxalq terrorçuluq və onunla mübarizə" məsələləri barədə ilk müzakirələr keçirilmişdi. O vaxtlar dünyada cərəyan edən hadisələr həmin ilin oktyabr ayının 9-da Yuqoslaviya kralı I Aleksandr və Fransanın Baş naziri Lui Bartunun qətlinə gətirib çıxarmışdı. Qətldə dörd ölkənin əli olmuşdu. Buna görə də uzun müzakirələrdən sonra, nəhayət, 1937-ci ildə "Terror xəbərdarlığı və terrorçuluğa görə cəzalandırma Konvensiyası", "Beynəlxalq Cinayət Məhkəməsinin yaradılması haqqında Konvensiya" adlı iki rəsmi sənəd işlənib hazırlanmışdı. Ancaq həmin Konvensiyalar qüvvəyə minməmişdi. Çünki qəribə bir dilenma yaranmışdı:

***a.*** *Bir qisim dövlətlər terrorun dəhşətli və məkrli təhlükə mənbəyi olduğunu real təsəvvür və dərk edə bilmirdilər;*

***b.*** *Digər qisim dövlətlər isə terrorun siyasi məqsədə dəstəyini və strateji potensialını dərk edərək, ondan faydalanmağın perspektivi üçün həmin beynəlxalq sənədlərin işlək vəziyyətə gətirilməsində maraqlı deyildi.*

Terrorşünasların fikrincə, bu konvensiyalar qüvvəyə minməsə də, sonrakı illərdə terrora dair digər müvafiq qanunların işlənib hazırlanmasında təşəbbüskar və təkanverici rol oynamışlar.[49]

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda beynəlxalq terror fəaliyyəti belə ifadə edilmişdir: "<...> terrorçular və ya terror təşkilatları tərəfindən bir neçə dövlətin

ərazisində həyata keçirilən və ya bir neçə dövlətin maraqlarına zərər vura bilən, şəxs tərəfindən onun mənsub olduğu dövlətin və ya başqa bir dövlətin ərazisində hər hansı bir dövlətin vətəndaşına qarşı edilən, terrorçu və terrorçuluğa məruz qalan şəxslər eyni və ya müxtəlif dövlətlərin vətəndaşları olduqları halda, həmin dövlətlərin ərazisindən kənarda törədilən cinayətlə bağlı olan fəaliyyətdir".

Keçən əsrin ikinci yarısından başlayaraq, xüsusilə də soyuq müharibə dövründə beynəlxalq terror dünya ictimaiyyətini daha tez-tez narahat etməyə başlamışdı. Elə o vaxtlardan da **"beynəlxalq terror və ona qarşı mübarizə"** paradiqması politoloji dairəyə daxil olmuşdur.

II Dünya müharibəsindən sonra dünyanın siyasi xəritəsində və ideoloji baxışlarında dəyişikliklər baş vermişdi. SSRİ dağılandan sonra isə, ümumiyyətlə, dünyanın çoxqütblü nizamı pozulmuş, ABŞ-ın hegemonluğu ilə dünyanın tək bir nöqtədən idarə olunması gündəmə gəlmiş, İslam dini *sosializm sisteminin əvəzinə, fobiya daşıyıcısı* qismində beynəlxalq qəzəbin ünvanına çevrilmişdir. Enerji təhlükəsizliyi iddiaları ümumdünya siyasətində tamamilə yeni münasibətlər sistemini formalaşdırmış, demokratiyanın təbliği, ixracı və müdafiəsi pərdəsi altında yeni tipli müstəmləkəçilik siyasəti aktuallaşmışdır. Mədəniyyətlərin qarşıdurması, qlobalizm, son zamanlar izə Avrasiya birliyi, regionlaşma və ona qarşı alternativ alyanslar arasında gedən siyasi-iqtisadi "müharibələr" – sanksiyalar, blokadalar, təcridetmələr beynəlxalq terrorun məzmun və formasına yeni əlamətlər və çalarlar qatmaqdadır.

Dünya siyasətindəki belə kəskin dəyişmələr makroiqtisadiyyata da birbaşa mənfi təsir göstərmişdir. Beynəlxalq maliyyə bank sistemi siyasətin girovuna çevrilərək böhranlar yaratmaq vasitəsi olmuş, istənilən məkanda sosial həyatın məhz ağırlaşdırılmasının metodları elmi-tədqiqat işinə çevrilmiş, ədalətsiz rəqabət nəticəsində qütbləşən tərəflərin hər biri öz maraqlarını qorumaq üçün qanunsuz hərbiləşmiş qrupların da xidmətindən istifadə etməyə başlamışlar. Beləliklə, yeni mənəvi dəyərlər və sosial-siyasi arzular əsasında ayrı-ayrılıqda özəl *iqtisadi – siyasi – hərbi* bloklar sistemi formalaşmış və möhkəmlənmişdir. Belə bir qarışıq situasiyada ən amansız savaş silahı olan

terror artıq bir dövlətin hüdudlarına sığmır. Çünki klassik, köhnə terrorun "fərdilik" potensialı yeni beynəlxalq münasibətlər sistemində perspektivli deyil. Daha dəhşətli faciələr üçün böyük coğrafiya, iri miqyas, çoxsaylı insan toplumu, geniş region, qitə, bəşəri dəyər və maddi mədəniyyət obyekti hədəf olmalı idi ki, Şərin gücü görünsün, dərk edilsin. Və terror artıq bunu dərk etdiyindən, beynəlxalq müstəviyə keçmişdi.

Digər tərəfdən, informasiya texnologiyalarının inkişaf tempi bu gün zaman və məkanın hüdudlarını kiçiltmiş, ictimai-humanitar elmlər isə elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə edərək heç bir etik-psixoloji əzab çəkmədən toplum arasında paralel olaraq həm **dəccal** obrazını yaratmaq, həm də **ona qarşı qiyam etmək** təbliğatı aparmaq qabiliyyəti qazanmışdır. Belə bir ümumdünya durumu "bir anda zəmanənin qəhrəmanı"na çevrilmək psixologiyasına əsir olanları "intihar kəməri" ilə istismar edə-edə yeni tipli terrorçular nəslini formalaşdırmağa başlamışdır. Terror öz müdhiş axtarışlarını bu istiqamətə yönləndirmişdir. Beləliklə, *geosiyasi xarakterə, beynəlmiləl coğrafiyaya* və *koalisiya yaratmaq* komponentlərinə malik olan beynəlxalq terror sosial-siyasi və hərbi mündəricəli kompleks qura bilmiş və kainatı özünə savaş meydanı seçmişdir. Başqa sözlə, beynəlxalq terror beynəlxalq münasibətlər sisteminin törəməsidir və onun aurası ilə sıx bağlıdır, yəni:

***a.*** *Beynəlxalq münasibətlər sisteminin siyasi-iqtisadi-hərbi strateji niyyətindən qaynaqlanır;*

***b.*** *Terrorçu dövlətdə Xeyir – Şər hibridinin, dövlətüstü sistemdə isə "sözə baxmayan" dövlətçiliyə müdaxilə fəlsəfəsinin realizəsinə xidmət edir;*

***c.*** *Oliqarx - transmilli kriminal dəstənin özünütəsdiq formalarından biri kimi çıxış edir.*

Bu terrorun mahiyyətinin çoxplanlı olduğunu və əsasən, aşağıdakı istiqamətlər üzrə kompleksləşdiyi qeyd edilir:

- Şəxsə, dövlət və cəmiyyətə qarşı dağıdıcılıq;
- ilk növbədə sosial-siyasi təhlükəsizliyi hədəfə almaq;
- ən vəhşətli cinayətlər törətmək formalarını tətbiq etmək;

- planlı və sinxronlaşdırılmış fəaliyyət mexanizmini qavramaq.[50]

Bu şərtlərin məkan, zaman və konyunkturaya uyğun olaraq bəzən qabarması, bəzən də çəkilməsi, ümumdünya gərginliyinin yüksəlməsi və azalması beynəlxalq terrorun kənardan idarə olunduğuna, hətta təşkilatlandığına işarədir. Başqa sözlə, müasir beynəlxalq terrorun keçən əsrdəki sələfindən əsaslı fərqi ondadır ki, o, artıq dünya miqyasında təşkilatlanmış bir təhdid forması almışdır. Geniş regionlar, o cümlədən Yaxın Şərq, Asiya, Afrika, Latın Amerikası regionu, hətta ABŞ, Fransa, Türkiyə, Azərbaycan, İspaniya, Rusiya, Böyük Britaniya və s. kimi dövlətlər beynəlxalq terrorun hədəfinə çevrilmişlər. Digər tərəfdən, beynəlxalq terrora qarşı antiterror məsələlərində həm də fəal dövlət görüntüsü yaratmaq elementləri sezilir. Bu cür tərs-mütənasiblik beynəlxalq terrora qarşı mübarizənin əsaslarına ziddir.

Beynəlxalq terrorun məqsədi beynəlxalq münasibətlər sistemində çaşqınlıq salmaq, beynəlxalq hüquq normalarına və dinc yanaşı yaşamaq qaydalarına birbaşa mənfi təsir göstərmək, demokratiya prinsiplərini təhlükə altına almaqdır. Müasir beynəlxalq terror belə bir qlobal şər doktrinası formalaşdırdığı üçün o bu gün "müharibə" anlayışının alternativi hesab olunur. II Dünya müharibəsindən sonra fövqəldövlətlər arasında müxtəlif növ kütləvi qırğın silahları üzrə müəyyən tarazlıq yaradıldıqdan sonra, raket hücumundan müdafiə komplekslərinin dünyanın ayrı-ayrı regionlarında keşik çəkməyə başlaması, kosmosun hərbiləşdirilməsi (hazırda Arktikanın da hərbiləşdirilməsi prosesi gedir) güclü dövlətlər arasında birbaşa açıq müharibə riskini, nisbətən, zəiflətmişdir, bəzi mütəxəssislər isə hətta qeyd edirlər ki, heçə endirmişdir. Bu səbəbdən də beynəlxalq terror formatı, onun maya dəyəri və realizəsi üçün tətbiq olunan gizli üsullar müasir "müharibə"nin əvəzləyicisi kimi qəbul edilir.

Bütün bunları nəzərə alaraq demək olar ki, ümumiyyətlə, terrora, o cümlədən də beynəlxalq terrora qarşı mübarizədə ilk növbədə onun təşkilat strukturlarının, idarəçilik sistemlərinin məhvindən başlamaq məqsədəuyğun hesab edilir. Hələ 1994-cü ildə BMT-nin Baş Assambleyası "Beynəlxalq terrorun aradan qaldırılması tədbir-

ləri haqqında" deklarasiya qəbul etmişdi. Bu sənəd problemi aradan qaldırmaq istiqamətində müxtəlif dövlətlər, eləcə də ayrı-ayrı qurumlar arasında həm ikitərəfli, həm də çoxtərəfli müqavilələr bağlanması və qabaqlayıcı tədbirlər həyata keçirilməsi məsələlərini tənzimləmək məqsədi daşıyır. Ümumiyyətlə, BMT-nin və digər beynəlxalq təşkilatların müvafiq sənədlərində, güc strukturlarının əsasnamələrində terrora qarşı genişmiqyaslı mübarizə aparmaq üçün sanballı informasiya bankının yaradılması, birgə fəaliyyətin koordinasiya edilməsi xüsusi vurğulanır.[51] Qəbul olunmuş direktiv sənədlər bu mübarizədə hər cür siyasi eqoizmi, ancaq öz partiyasının, şirkətinin, dövlətinin... təhlükəsizlik maraqlarının qorunması işini inkar edir, ümumdünya təhlükəsizliyini, vətəndaş cəmiyyətində sabitlik və əmin-amanlığın əsas götürülməsini vurğulayır.

Beynəlxalq terrorun təsnifatı üsulu müxtəlifdir. Onların ən geniş formalarından biri *ölkənin adı* (İtaliya terroru, Ermənistan terroru və s.), *milli-dini mənsubiyyət* (yəhudi terroru, erməni terroru, Xristian terroru və s.), *region* (Asiya terroru, Yaxın Şərq terroru, Avropa terroru, Latın Amerikası terroru və s.) üzrə aparılır. Ancaq terrorşünaslar tərəfindən geniş qəbul edilən bölgü forması bu istiqamətlər üzrədir:

***- ideoloji mahiyyətinə görə;***

***- forma və təsir dairəsinə görə;***

***- məqsəd və vəzifəsinə görə.***

11 sentyabr 2001-ci ildə ABŞ-dakı terror hadisələri, əl - Qaidə və İŞİD ilə müharibə, o cümlədən Qarabağ uğrunda Azərbaycanın Ermənistan dövlət terroruna qarşı mübarizəsi isə beynəlxalq terrorla mübarizənin forma və məzmununa tamamilə yenidən və dərindən baxılması zərurətini aktuallaşdırmışdır.

## "DÖVLƏT TERRORU" ANLAYIŞI

**D**övlət terrorunun yaranmasında və hazırda bəzi güc dövlətləri tərəfindən dəstəklənməsində əsas səbəb odur ki, "kapitalizm və demokratiya" anlayışı və ona yanaşma dəyişmişdir. "Kapitalizm

ölmüşdür, biz öyrəndiyimiz formada kapitalizm yoxdur. Hazırda o, öncədən görməyi bacarmayan qorxunc bir varlıqdır <...>. Bazar iqtisadiyyatı yoxdur. Marksın uzaqgörənliklə gördüyü bütün proses: pul – əmtəə, əmtəə – pul münasibətləri artıq yoxdur. Ancaq pul <...> və onun istehsalı var. Bu düzən <...> *kapitalizm deyil* (kursiv mənimdir. – E.C.), ona başqa ad vermək lazımdır. 3,5 mld. insanı əhatə edən Qərbin hakimiyyət strukturunda 200 – 300 şəxs var, bütün qərarları onlar qəbul edirlər. Liberal demokratiya ölüb <...> Dünyanı 200 – 300 adam idarə edir – məgər bu demokratiyadır?.. Dünya nəzarətdən çıxıb. Qərb elitasının əsəbləri pozulub. Onlar özlərini dəli kimi aparırlar <...>. Onlar silahlanmışlar, müharibə planlarına malikdirlər, müharibələri təşkil edirlər".[52] Dövlət terroru belə bir münasibətlər sisteminin daşıyıcısı və icraçısı kimi siyasi gündəmdədir və dəbdədir.

Bu terminin təməlində dövlət səviyyəsində qanunsuz yollarla tətbiq olunan dağıdıcı güc və zorakılıq, fitnə-fəsad ifadə edilir; ölkə daxilində mülki şəxslər arasında ictimai-siyasi, o cümlədən iqtisadi motiv bəhanəsi ilə qanunsuz həbslər aparmaq, siyasi baxışlarına görə adam oğurluğu təşkil etmək, məhkəmə qərarı olmadan vətəndaşa cəza vermək, yaxud qətl etdirmək, reyder üsulu ilə özgə mülkiyyətini ələ keçirmək və s. bu tipli dəhşətləri nəzərdə tutur; ölkə xaricində isə hər hansı dövlətin konstitusiya hüquqlarını pozmaq, orada ixtişaşlar salmaqla iqtidara təsir göstərmək, ərazi ilhaq etmək, müxtəlif iqtisadi-siyasi imtiyazlar qazanmaq və s. bu kimi niyyətlər üçün tətbiq olunan terror variantları ümimiləşdirilmiş mənada dövlət terroru adlanır. Dövlətin müəyyən strukturlarının terror aktlarına bu və ya digər formada dəstəyi də dövlət terroru kateqoriyasına daxildir. Son vaxtlar beynəlxalq münasibətlər sistemində *"məcbur etmək", "təhrik etmək", "diz çökdürmək", "müflisləşdirmək", "iflasa uğratmaq"* üsuluna əsaslanan yeni tipli təhdid forması özünü büruzə verməkdədir. Terrorşünaslıqda bu üsul ilə də törədilən əməllər dövlət terroru siyahısına daxil edilir və terrorçu diplomatiya kimi xarakterizə olunur.

**Terrorşünasların rəyinə görə, hüquqi dövlətin legitim metodlarla ölkə daxilində milli qanunvericiliyi, konstitusiya hü-**

**quqlarını, ölkə vətəndaşlarının təhlükəsizliyini, öz ərazi bütövlüyünü, dövlətçilik prinsiplərini və dövlət maraqlarını qoruması üçün hərbi-siyasi situasiyaya uyğun addımlar atması dövlət terroru kimi qəbul edilmir.**

Politologiyada Cenevrə deklarasiyası kimi tanınan və 1987-ci ildə qəbul edilmiş "The Geneva Declaration on Terrorism" adlı sənəddə, ümumiyyətlə, dövlət terroru aşağıdakı amillər üzrə belə səciyyələndirilmişdir:

*– polis-dövlətin öz vətəndaşlarına qarşı tətbiq etdiyi üsullar: güdmək, yığıncaqları dağıtmaq, informasiyaya nəzarət etmək, döymək, cəza vermək, əsassız həbs etmək, kütləvi həbslər aparmaq, saxta ittihamlar irəli sürmək, gizli mühakimə etmək, qətl törətmək;*

*– dövlət tərəfindən başqa bir dövlətin ərazisinə, məhəlli sularına, yaxud beynəlxalq sulara nüvə silahı daşımaq;*

*– bir dövlətin müstəqilliyini və ərazi bütövlüyünü təhlükə altına almaq üçün onun sərhədləri yaxınlığında legitim strukturlarla hərbi manevr etmək, hərbi təlimlər keçirmək;*

*– dövlətə aid legitim strukturlar ilə başqa dövlətdə yaşayan mülki əhali üçün təhlükə törədə biləcək hədəflərə hücum etmək;*

*– başqa dövlətin müstəqilliyinə son qoymaq məqsədilə muzdlu silahlı dəstələr, özəl hərbi şirkətlər yaratmaq və himayə etmək;*

*– hərbi zərbə, xüsusi əməliyyat, yaxud muzdlu agent vasitəsi ilə başqa dövlətin dövlət xadimi və ya milli-azadlıq hərəkatı xadimini qətlə yetirmək, yaxud onun qətlinə cəhd göstərmək;*

*– başqa dövlətdə, milli-azadlıq hərəkatında, yaxud beynəlxalq sülh hərəkatında qeyri-stabillik yaratmaq, yaxud onları özünə tabe etmək məqsədi ilə kəşfiyyat işləri aparmaq və ya bu məqsədlə dövlətin güc strukturlarını gizli əməliyyatlara cəlb etmək;*

*– başqa dövlətlərdə qeyri-sabitlik yaratmağa yönəldilmiş dezinformasiya kampaniyası aparmaqı;*

*– regional müharibələrin davam etdirilməsinə dəstək olmaq və münaqişələrin siyasi yolla həllinin qarşısını almaq üçün silah satmaq;*

*– terrorçuluğun qarşısını almaq bəhanəsi ilə vətəndaşların hüquq və azadlıqlarını, konstitusiyanı və qanunları ləğv etmək;*

*– genosid və ekoloji fəlakət ehtimalını artıran, məzlumları səfalətə sürükləyən və bütün bəşəriyyəti daim qorxu altında saxlayan nüvə silahları və kosmik silahlar işləyib hazırlamaq, sınaqdan keçirmək və bu işlərin daha da genişləndirilməsinə şərait yaratmaq.*

Hazırda terrorşünaslar dövlət terrorundan bəhs edərkən *"terrorçulara sığınacaq vermək", "terrorçularla ticarət münasibətləri qurmaq"* və *"terrora haqq qazandırmaq"* ifadələri ilə "dövlət terroru" anlayışının şərhini genişləndirməklə, onun mahiyyətinə yeni çalarların əlavə olunduğuna diqqət çəkirlər.

Məsələn, KİV-də yayılmış məlumatlara görə ABŞ məxfi kibersilaha malikdir və ABŞ-a qarşı hücum zamanı həmin silahdan istifadə edilə bilər. Həmçinin, mətbuata belə bir informasiya da sızmışdır ki, ABŞ hərbçi hakerlər "Rusiyanın telekommunikasiya və elektrik şəbəkəsinə, eləcə də Kremlin komanda sisteminə yerləşmişlər", yəni Amerikanın potensial hücumu zamanı həmin nöqtələri "ən zəif yer" etmək imkanı yaranmışdır. Mütəxəssislər bunu *dövlət kiberterrorçuluğu* kimi təsnifatlandırırlar.[53]

Bu sahədə daha bir "yenilik" *"hibrid müharibə", "preventiv müharibə"* və *"proksi müharibə"* terminləri ilə bağlıdır. Hazırda bir çox ölkələr, xüsusilə də super güc dövlətləri siyasi ambisiyalarını yerinə yetirmək üçün həm leqal, həm də qeyri-leqal yolların qarşılıqlı əlaqə üsulu ilə, yaxud üçüncü dövlətin, öz tabeşiliyində olmayan hansısa bir təşkilatın, qurumun vasitəsi ilə başqa bir suveren dövlətin daxili işlərinə qarışır; bu da dövlət terroru kimi səciyyələndirilir.

Müasir dünyada *"müharibə biznesi"* anlayışı da formalaşmışdır. Hərbi cəhətdən güclü dövlətlərin əksəriyyəti (Böyük Britaniya, Fransa, Çin, ABŞ, İsrail) bu biznesin içindədir. RF-də də bu məsələyə xüsusi diqqət yetirilir. Həmin "müharibə biznesi"nin hətta yeni bir istiqaməti də yaranmışdır, yəni dövlətə aidliyi olan, lakin *"dövlətin birbaşa müdaxiləsi olmadan onun milli maraqlarını həyata keçirən sistem"* kimi təqdim edilən **"Özəl Hərbi Şirkət"lər (ÖHŞ)**[*] bunun yeni növüdür.

---

[*]İlk belə şirkət 1967-ci ildə Böyük Britaniya ordusunun polkovniki Devid Sterlinq [o, Britaniya ordusunda həm də xüsusi təyinatlılar (SAS) qrupunun yaradıcısıdır] tərəfindən təsis edilmişdir. ÖHŞ xüsusi lisenziyaya malik və

Müasir dövrün dövlət terrorçuluğunun maliyyə dəstəyindən danışılarkən xüsusi xidmət orqanlarında, hətta xarici ölkə səfirliklərində, dövlət himayəsində olan özəl şirkət strukturlarında müəyyən qanunsuz əməllərin maliyyələşdirilməsi üçün qeyri-rəsmi nəğd pul fondunun yaradılması barədə fikirlər də etiraf olunur.

Hazırda siyasi cəhətdən etibarlı, maliyyə baxımından isə xeyli ucuz başa gələn ÖHŞ-in xidmətindən gələcəkdə dövlət terrorunda istifadə etməmək üçün güclü və işlək qanunvericilik bazasının yaradılması aktual problem kimi gündəmdədir.

---

dövlətin nəzarəti altında çalısan, birmənalı olaraq ancaq başqa dövlətin ərazisində fəaliyyət göstərmək şərtinə tabe olan, həmçinin iri biznesin də maraqlarına uyğun iş görən hərbi təmayüllü kommersiya şirkətidir. Bu şirkətin üzvlərinə *"çöl qazları"* da deyilir. Hazırda dünyanın informasiya məkanında ÖHŞ-nin statusu, fəaliyyəti, terrorun genişlənmə tendensiyası fonunda onun perspektivləri geniş müzakirə edilir. ÖHŞ ancaq hərbi sahədə fəaliyyət göstərmir, yəni kibertəhlükəsizlik, konsaltinq, kəşfiyyat, hərbi və xüsusi qrupların hazırlanması istiqamətində təlimlər, cangüdənlik, muzdlu hərbçilərin cəlb olunması işləri də bu şirkətin fəaliyyət dairəsinə daxildir. Mütəxəssislər yeni əsrin ilk on ilində bu şirkətlərin fəaliyyəti üçün 100 milyard ABŞ dolları xərcləndiyini bildirirlər. Təkcə 2012-ci ildə Əfqanıstan və İraq ərazisində 20 min ÖHŞ əməkdaşının çalışdığı açıqlanmışdır. RF-in Suriya və Liviyadakı maraqlarını "Vaqner" ÖHŞ-i həyata keçirir. Göründüyü kimi, bu tip şirkətlərin perspektivi həm Xeyir, həm də Şər istiqamətində genişdir. Bu rahatsızlığı 1979-cu ildə BMT Baş Assableysı da ifadə etmişdir. Lakin bu günədək ÖHŞ-in fəaliyyətini nəzarətdə saxlaya biləcək əhəmiyyətli beynəlxalq sənəd hazırlanmamışdır. Bir çox ölkələrin qeydiyyata aldığı bu tip şirkətlər isə **"qanunla qadağan deyilsə, deməli, icazə verilir"** prinsipi ilə və lokal xarakterli təlimatlar əsasında fəaliyyət göstərirlər. Ona görə də bu məsələnin də qanun çərçivəsində tənzimlənməsinin vacibliyi gündəmdədir. Əsas mübahisəli məqam həmin şirkətlərin fəaliyyətinə hansı qurum nəzarət edəcək sualı üzərindədir. ÖHŞ-in fəaliyyətinə dair qanunvericilik bazası üçün "dövlətin müdafiə nazirliyi və güc strukturları ilə məsləhətləşərək fəaliyyət göstərməli" məntiqi əsasdır.[54]

# III. ANTİTERROR SİYASƏTİ VƏ TERRORA QARŞI MÜBARİZƏ

## BƏZİ BÖYÜK DÖVLƏTLƏRİN ANTİTERROR SİYASƏTİ VƏ TERRORA QARŞI MÜBARİZƏ SİSTEMİNƏ DAİR

**M**ütəxəssislər terrora qarşı mübarizə probleminə aşağıdakı şərtlər əsasında yanaşmağı prioritet hesab edirlər:

***a.*** *Beynəlxalq hüquqda insan hüquqlarını və demokratik dəyərləri qorumaq daha vacib vəzifə olduğu üçün terrora qarşı ümumdünya miqyasında hamılıqla mübarizə aparılmalıdır;*

***b****. Mübarizə prosesində terrorun təbiətindəki çoxxüsusiyyətlilik xarakteri nəzərə alınmalı və buna uyğun əks üsullar müəyyənləşdirilməlidir;*

***c.*** *Terrora qarşı mübarizədə əsas istiqamətlərdən biri olan "mübarizənin qanunvericilik bazası" işlənib hazırlanarkən, yaxud müvafiq hüquqi baza təkmilləşdirilərkən mütəxəssislər arasında vahid fikir birliyinə nail olunmalıdır.*

Lakin terror - antiterror qarşıdurmasının ildən-ilə genişlənməsi və kəskinləşməsi, terrorçuluğun "peşə"yə çevrilməsi, forma və məzmunca daha da qəddarlaşması, qitələrarası xarakter alması ona qarşı mübarizənin xarakterinin yeni tipli baxışlar sistemi və yanaşma metodu ilə formalaşdırılması zərurətini gündəmə gətirmişdir. Uzun illərin antiterror təcrübəsi göstərir ki, dünya birliyi ancaq siyasi-iqtisadi və güc strukturlarının birgə səyi ilə, hərtərəfli düşünülmüş, ardıcıl və peşəkarcasına mübarizə yolu ilə bu problemi həll edə bilər. Ona görə də müasir vətəndaş cəmiyyətləri ictimai qınaqdan başlamış, sərt güclə mübarizə formalarının tətbiqinədək terrora qarşı mübarizədə eyni cəbhədən vuruşmalı, qabaqlayıcı tədbirlərin hazırlanmasında bir-birinə hərtərəfli dəstək olmalı, ikili standartlar ölçüsü bu mübarizənin ruhundan yox edilməlidir. Azərbaycan dövləti bu prinsiplərə əsaslanan mövqeyini dəfələrlə rəsmi səviyyədə və beynəlxalq tədbirlərdə ifadə etmişdir.[55]

XXI əsrin yeni antiterror təcrübəsi bir daha təsdiqləyir ki, terror probleminə təkbaşına qalib gəlmək mümkün deyil. Çünki o, artıq qlobal xarakter daşıyır və yaranma/yayılma səbəbləri də qlobal problemlərlə bağlıdır. Bu səbəbdən də hər ölkənin öz antierror siyasətinin işlənib hazırlanması və onu beynəlxalq elementlərlə birləşdirməsi vacib və aktual şərtdir.

Terrora qarşı mübarizə siyasəti üç konseptual bazaya əsaslanır:

***a. İqtisadi-siyasi və hərbi-mədəni güc kompleksi***;

***b. Qanunvericilik bazası;***

***c. İctimai rəy.***

Çünki mübarizənin səmərəsi bunlar arasındakı vəhdətdən və qarşılıqlı dəstəkdən asılıdır. Başqa sözlə:

*- mövcud qanunlar hərbi-siyasi-iqtisadi-mədəni gücün effektli fəalliyyət göstərməsi üçün imkanlar yaratmalıdır;*

*- güc kompleksi həmin imkanları realizə etmək hüququna malik olmalıdır.*

Dünyanın böyük dövlətlərinin antierror siyasətində bu şərtlər nəzərə alınmışdır.

Tanınmış amerikalı alim Frensis Fukuyama terrora qarşı mübarizədə güclü dövlətin "sərt güc" ilə terrorçuların olduğu, yaxud hədəf aldığı dövlətlərə müdaxilə etməsi kimi deyil, həmin dövlətlərin legitim rəhbərliyinə terrorçulara göz açmağa imkan verməməkdə hər cür dəstək olmaq konsepsiyasına üstünlük verməyi məqsədəuyğun hesab edir.[56]

Ümumiyyətlə, dünya miqyasında terrora qarşı mübarizədə böyük və güclü dövlətlərin xüsusi yeri və rolu vardır. Lakin bu da qeyd olunmalıdır ki, dünyada terror təşkilatlarının yaranması, terrorçuluğun idarə olunması və ona xüsusi maliyyə dəstəyi göstərilməsi işi də terrorun böyük və güclü dövlətlərlə əlaqəsini təsdiqləyir. Hətta ictimaiyyətə bildirilmişdir ki, "məşhur" Usama ben Ladenin terror imperiyasının formalaşmasında, Iraq Şam İslam Dövləti (İŞİD) hərbi qruplaşmasının yaranmasında, onların terrorçularının hərbi hazırlığında ABŞ dövlətinin bilavasitə rolu olmuşdur.*

---

* Aleksey Puşkov "Hillari, Qəzzafi və "Afrikanın oğlu" ("Известия", 24 октября 2016г.) adlı məqaləsində açıq yazır: "...Terrorçular ABŞ-a ona

"Əl-Qaidə" təşkilatını mifikləşdirən dövlət də məhz ABŞ-dır. Terrorla əlaqəsi olan dövlətlərin adının hallandırıldığı bu tipli faktlar ictimaiyyət arasında geniş yayılmışdır. Bütün bunlar bir daha sübut edir ki, terrorun xüsusi təşkilatlanmış və hərbiləşmiş tərəf kimi qoşulduğu beynəlxalq münasibətlər sistemi ona qarşı mübarizəni də qloballaşdırmağı, həmçinin mübarizənin yeni forma və metodlarının işlənib hazırlanmasını tələb edir.

1972-ci ildə Münhen Olimpiadasında İsrail idmançıları qətlə yetirildikdən sonra, həmçinin, XX əsrin axırlarında siyasətçilərə, partiya liderlərinə və diplomatlara qarşı terror aktlarının çoxalması faktı terrora qarşı mübarizədə dövlətin müxtəlif strukturlarının fəaliyyətini əlaqələndirmək zərurətini aktuallaşdırmış, beynəlxalq koordinasiya sisteminin yaradılması məsələsini gündəmə gətirmişdi. Bütün bunlar fövqəldövlətlərin antiterror siyasətində əsaslı dəyişikliklər aparmasını zəruri etmişdir. Həmin vaxtlar belə münasibətin səmərəli olacağı təcrübədə də təsdiq olunmuşdu. Beləliklə, dünya ölkələri diplomatik kanallarla əməkdaşlıq etməklə yanaşı, hüquqi və texniki sahədə yardımlaşma və birgə çalışmaların daha da genişləndirilməsini qərarlaşdırmışdılar.[58]

Ümumiyyətlə, əvvəllər bu sahədə lobbiçilik və güc tətbiq etməklə fəaliyyət göstərməyə üstünlük verən **ABŞ** dövlətinin antiterror siyasətindəki dəyişikliklər, öncə, terminoloji baxımdan da nəzərə çarpmağa başlamışdı, yəni gah *"terrorçuluğa qarşı <u>müharibə</u>"*, gah da *"terrorçuluğa qarşı <u>mübarizə</u>"* ifadələri bu sahədə dövlət siyasətinin mahiyyətinə prinsipial müdaxilə problemi, onu qavrama səviyyəsi ilə yanaşı, ona münasibətin ölçülərini də müəyyənləşdirirdi. Yəni müharibə və mübarizə ayrı-ayrı şərtləri tələb edir.

---

görə lazımdırlar ki, Amerikanın tələblərinə cavab verməyən iqtidarları məhv edə bilsinlər". Rusiyalı general Valeri Qerasimov isə açıqlamışdır ki, Suriyanın Ət-Tanf əyalətində yerləşən ABŞ hərbi bazasında İslam Dövləti təşkilatının silahlıları yerləşdirilmişdir. "Kosmik və digər kəşfiyyat növlərindən aldığımız məlumatlara görə həmin yaraqlılar orada döyüş hazırlığı keçirlər. Bizim onlara qarşı apardığımız işlərdən (döyüş zərbələri nəzərdə tutulur. – E.C.) sonra onlar başqa rəng alır, başqa ad – "Yeni Suriya ordusu" və s. götürərək regionda əmin-amanlığı pozurlar".[57]

Həmin vaxtlarda ABŞ-ın dövlət siyasətini formalaşdıran məmurlar arasında terror problemini dünyanın super güc dövləti üçün kiçik məsələ kimi qavrayanlar da tapılırdı. Buna görə də terrora qarşı mübarizə qısa müddətə olsa da arxa plana keçmişdi. Lakin terrorun iddiaları böyüdükcə, şəbəkəsi genişləndikcə, iqtidara gəlmək həvəsi artdıqca ona qarşı mübarizə daha genişmiqyaslı fazaya daxil olmuşdur. Təkqütblü dünyada demokratik dəyərlərin yayılması və müdafiəsi kontekstində xarici siyasət yaratmaq, yaymaq, tətbiq etmək üçün güc strukturlarının imkanlarından istifadə etməyə başladıqdan sonra isə ABŞ-ı artıq ayrı-ayrı terrorçular, onların mənsub olduqları qurumlar deyil, terrora dair fundamental məsələlər – dövlət terroru siyasətinə üstünlük verən iqtidarlar, "sözə baxma-yan" hakimiyyət, terrorçunun sığındığı dövlətlər, təlim keçdikləri, sağlamlıqlarını bərpa etdikləri ölkələr, geosiyasi oyunçu həvəsinə düşən siyasətçilər, şirkətlər, xalqlar və millətlər maraqlandırırdı. İctimai-siyasi situasiya problemin strateji mahiyyətini və buna uyğun da mübarizə formalarını işləyib hazırlamağı önə çəkirdi. Bütün bunların prizmasından baxarkən, silah satışına xüsusi önəm verən, Yaxın Şərqdə öz mövqeyini daha da möhkəmlətmək və davamlı etmək üçün hətta terrorçu qruplarla da əlaqə saxlamaqdan çəkinməyən ABŞ dövlətinin antiterror fəaliyyəti xüsusi diqqət tələb edir.

Ümumiyyətlə, ABŞ-ın terrora qarşı mübarizə sisteminin fəlsəfi bazası xeyli mütəhərrikdir. ABŞ-da terrora qarşı mübarizə məsələləri üzrə məsul idarə Federal Təhqiqat Bürosu hesab olunur.

**Rusiya Federasiyasının** antiterror siyasətinin əsasında terror və onu yaradan səbəblərə qarşı həm lokal, həm də beynəlxalq miqyasda koordinasiya aparılmaqla həyata keçirilən mübarizə durur. Rusiya dövləti terrora qarşı mübarizədə dövlətlərin müvafiq güc strukturlarının bir-birilə operativ informasiya mübadiləsini dəstəkləyən ölkələrdəndir.

**Böyük Britaniyada** antiterror əməliyyatları ölkənin xüsusi antiterror strategiyasına uyğun olaraq federal təsisatlar tərəfindən aparılır. Böyük Britaniyanın təşəbbüsü ilə terrora qarşı mübarizəyə dair kəşfiyyat xəbərlərinin mübadiləsi üzrə qlobal mərkəz yaradılmış və fəaliyyətə başlamışdır.

Terrora qarşı mübarizədə **Fransanın** təcrübəsi böyükdür. Ona görə yox ki, problemin əsasları bu ölkədə yaranmışdır. Fransa dövləti terrora qarşı mübarizəni bir neçə güc strukturunu özündə birləşdirən *xüsusi güc* sistemi vasitəsilə aparır. Ölkədə terrora qarşı qanunvericilik bazası və məxsusi fəaliyyət planı işlənib hazırlanmışdır. Bu sənədlərə əsasən müvafiq strukturlara potensial terrorçuluq hərəkətlərini nəzarətə götürmək səlahiyyətləri verilmişdir. Fransa dövləti terrora qarşı maliyyə sahəsində də mübarizənin gücləndirilməsinin tərəfdarıdır. Ölkədə terrora dəstək olacaq ayrı-ayrı qurumlara köçürülən pulun hərəkətinə nəzarəti artırmaq üçün hökumət xüsusi plan hazırlamışdır. Potensial terrorçuların bank hesablarının dondurulması və onlara aid daşınan və daşınmaz əmlaka həbs qoyulması məsələsi də nəzarətdədir. Çünki son illər Parisdə törədilmiş terror aktlarının istintaqından məlum olmuşdur ki, terrorçular Fransada qaldıqları müddətdə məişət xərclərini ödəmək üçün, o cümlədən hotel otaqlarının sifarişi üçün qonşu ölkələrdən aldıqları kredit kartlarından istifadə etmişlər.[59]

ETA terrorçuları ilə mübarizədə **İspaniyanın** xüsusi xidmət orqanları xeyli təcrübə qazanmışlar. Digər tərəfdən, bəzi xarici ölkələrdə törədilən terror aktları planlarının da İspaniya ərazisində işlənib hazırlanması faktı aşkarlanmışdır. Beləliklə, faktlar göstərir ki, terrogenlik baxımından İspaniya o qədər də sakit ölkə deyildir. 11 mart 2004-cü ildə ölkənin paytaxtı Madrid şəhəri yaxınlığında törədilən dəhşətli terror aktından sonra hakimiyyət antiterror işini sistemləşdirmək üçün yeni uyğun qurumlar yaratmışdır. İspaniyada terrora qarşı mübarizə güc strukturlarına və xüsusi xidmət sahələrinə həvalə olunmuşdur.[60]

Terrora qarşı mübarizə sahəsində **İsrail** dövləti də böyük və səmərəli təcrübəyə malikdir. II Dünya müharibəsindən sonra yəhudi genosidində əli olanlara qarşı mübarizə, Fələstinlə münasibətlərdə konseptual fikir ayrılığı və regionda siyasi-hərbi rahatsızlıq nəticəsində baş verən separatizmlə mücadilədə İsrailin xüsusi xidmət orqanları böyük təcrübə qazanmışdır. İsrail dövləti terrora qarşı mübarizədə bu təcrübədən daha çox faydalanır. Ölkənin antiterror

mübarizəsində ənənəvi güc strukturları ilə yanaşı, xüsusi təyinatlı birləşmələr də fəaliyyət göstərirlər.

Ümumiyyətlə, ABŞ-dakı 11sentyabr 2011-ci il terror hadisəsindən sonra bir çox dövlətlər daxili qanunvericilik bazalarında prinsipial dəqiqləşmələr aparmaq, mövcud qanunlara əlavələr etmək zərurəti ilə qarşılaşmışlar. Həmin faciədən sonra **Avropapolun** da antiterror səlahiyyətləri genişləndirilmişdir. **Avropa İttifaqı** (Aİ) səviyyəsində də beynəlxalq terrora qarşı mübarizə işində müəyyən sistem yaradılmışdır. Çünki bütün dünyada, o cümlədən Avropada da terrora qarşı mübarizədə əsas problem müxtəlif dövlətlərin terrora qarşı mübarizə işində xüsusi xidmət orqanları arasındakı koordinasiyanın zəif təşkilindən irəli gəlirdi.

Deyilənləri, həmçinin dövlətçilik institutlarında rəhbərliyin və idarəçiliyin əvəzlənmə faktlarını nəzərə alan terrorşünaslıq ümumdünya terrora qarşı mübarizə işinə bu tendensiyanın mənfi təsirini aradan qaldırmaq üçün mücadilənin aşağıdakı şərtlər əsasında qurulmasını tövsiyyə edir:

***1.*** *Mübarizə daimi olmalıdır;*

***2.****Məhz nəzəri və təcrübi cəhətdən özünü doğrultmuş mübarizə üsulları təkmilləşdirilməlidir*;

***3.****Xüsusi təlim keçmiş anti-terror qüvvələri formalaşdırılmalıdır;*

***4****.Müvafiq qanunvericilik bazası yaradılmalı və ona əməl edilməlidir;*

***5.*** *Hərtərəfli beynəlxalq əməkdaşlıq qurulmalıdır*.

## AZƏRBAYCAN RESPUBLİKASININ ANTİTERROR SİYASƏTİNİN ƏSASLARI VƏ TERRORA QARŞI MÜBARİZƏ SİSTEMİNƏ DAİR

**T**errora qarşı mübarizə Azərbaycan Respublikasının daxili və xarici siyasət konsepsiyasında xüsusi yer tutur. Dövlətin müstəqilliyini, ərazi bütövlüyünü qorumaq, vətəndaşın və xüsusi mülkiyyətin təhlükəsizliyini təmin etmək, milli-mənəvi dəyərlərin təminatçısı olmaq Azərbaycan dövlətinin daxili və xarici siyasətinin konseptual

bazası kimi müəyyənləşdirilmişdir. Bu kontekstdə terrora qarşı mübarizədə həm “sərt qüvvə”nin, həm də “yumşaq qüvvə”nin potensialından yararlanaraq milli maraqları müdafiə etmək prioritet istiqamətdir.

Dövlətin antiterror mübarizəsinin funksional istiqaməti Azərbaycan Respublikasının Konstitusiyasında xüsusi vurğulanmışdır: “Dövlətə qarşı qiyama və ya dövlət çevrilişinə müstəqil müqavimət göstərmək Azərbaycan Respublikasının hər bir vətəndaşının hüququdur”. Bu tip cinayətlərdə terror ruhu da olduğundan, Əsas Qanunun həmin tələbi terrora qarşı mübarizə işində də hər vətəndaşın hüququ və borcu olması kimi qəbul edilir.

***Azərbaycan dövləti terrora qarşı mübarizədə terrora səbəb ola biləcək çatışmazlıqları aradan qaldırmaq işindən başlamaq konsepsiyasına üstünlük verir.*** Buna görə də Azərbaycan Respublikası terrora qarşı mübarizədə ənənəvi güc strukturlarından əlavə, “yumşaq qüvvə”, xüsusilə də ictimai diplomatiya yolu ilə, yəni vətəndaş cəmiyyətinin institutları, mədəni-maarif festivalları və marafonları, idman yarışları, mədəniyyət paytaxtları, beynəlxalq forum məkanı və s. silsiləli ictimai-mədəni-humanitar formatların təşəbbüsçüsü, təşkilatçısı və təbliğatçısı qismində çıxış etməklə terrora qarşı mübarizəyə öz dəstəyini verir. Ölkədə cəzbedici investitsiya mühiti, təhlükəsiz həyat və turizm maraqları təmin etməklə humanitar əməkdaşlıq çərçivəsində də terrora qarşı təsirli mübarizə davam etdirilir.[61]

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasına sədrlik etdiyi ilk dövrdə müzakirəyə çıxardığı məsələlərdən biri məhz terrora qarşı mübarizəyə dair olmuşdur.*

---

*2012-ci ilin may ayının 4-də keçirilən və terrora qarşı mübarizəyə dair öhdəlik götürməklə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusuna həsr edilən beynəlxalq konfransa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev başçılıq etmişdi. Həmin tədbirdə terror bütün forma və məzmunu ilə rədd edilmiş, “üzv dövlətlər beynəlxalq münasibətlərdə hər hansı bir dövlətin ərazi bütövlüyü və ya siyasi müstəqilliyinə qarşı təhdid və ya gücdən istifadə etməmə öhdəliyini həyata keçirməyə və terrorçuluqda iştirak edən, onunla bağlılığı olan istənilən şəxs və ya qurumlara hər cür

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2017-ci ilin oktyabr ayının 4-də Avropa İttifaqının Brüsseldə akkreditə olunmuş səfirlərinin daxil olduğu Avropa İttifaqı Şurasının Siyasi və Təhlükəsizlik Komitəsinin nümayəndə heyətini qəbul edərkən terrora qarşı mübarizədə ölkənin ictimai-siyasi mövqeyini belə ifadə etmişdi: "Bizim mövqeyimiz ondan ibarətdir ki, beynəlxalq terrorizmlə mübarizədə yalnız hərbi vasitələrlə uğur qazanmaq mümkünsüzdür. Çünki əvvəlcə ideoloji təhlükələrdən qorunmaq lazımdır. İnsanları qane edəcək yaşayış standartları və rahatlıq təmin olunmalıdır ki, onlar həyatlarından məmnun olsunlar... Terrorizm prosesin son mərhələsidir. Manipulyasiya, savadsızlıq, təbliğat, narazılıq, sosial qeyri-bərabərlik, yoxsulluq, işsizlik və nəhayət, terrorizm. Yəni, bütün bu amillər aradan qaldırılmalıdır".

Beynəlxalq terrora qarşı mübarizədə 2008-ci ildən başlayaraq keçirilən və BMT tərəfindən də dəstəklənən "*Bakı Prosesi*" sosial-siyasi hərəkatı da xüsusi qeyd edilməlidir. Azərbaycanın Avropa qitəsini İslam dünyası ilə yaxınlaşdırmaq, mehribanlaşdırmaq ideyası həm də "İslam terroru" deyə fobiya xəstəliyinə qarşı tuşlanmış humanist təbliğat və təşviqat platforması funksiyasını icra etmədədir. Azərbaycan dövlətinin bu təşəbbüsü son illərdə beynəlxalq aləmdə təqdir olunan xeyirxah aura yarada bilmişdir. Bütün bunlar Azərbaycanın həm müsəlman aləmində, həm də digər regionlarda nüfuzunu artırır, ona barışdırıcı, əlaqələndirici dövlət kimi rəğbət yaradır.

Azərbaycan dövlətinin terrora qarşı mübarizəsində Avropa Birliyinin siyasi, iqtisadi, mədəni sahələrinə inteqrasiya, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Dünya Ticarət Təşkilatı ilə səmərəli əməkdaşlıqların qurulması, BMT, ATƏT, NATO, Qoşulmama hərəkatı kimi beynəlxalq qurumların fəaliyyətində yaxından iştirak etmək vacib vəzifə hesab olunur.

Ümumiyyətlə, Azərbaycan dövlətinin terrora qarşı mübarizə siyasəti insan və vətəndaş hüquq və azadlıqlarına riayət edilməsi, humanizm, dövlət və cəmiyyət qarşısında cavabdehlik prinsiplərinə əməl olunması əsasında həyata keçirilir. İnsan Hüquqları üzrə

---

yardım etməkdən çəkinməyə çağrılmışdır".[62]

Avropa Konvensiyasının tələblərinə uyğun aparılan bu siyasətin hüquqi əsasını Azərbaycan Respublikasının Konstitusiyası, "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Dövlət sirri haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncam və fərmanları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları, fəaliyyətə aid qanunvericiliyə əsasən qəbul olunmuş mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktları, habelə Azərbaycan Respublikasının qanunları çərçivəsində Azərbaycan Respublikası tərəfindən bağlanmış beynəlxalq müqavilələr təşkil edir.

"Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun 5-ci maddəsi ilə terrora qarşı mübarizəni həyata keçirən orqanlar belə müəyyənləşdirilmişdir: "Terrorçuluğa qarşı mübarizənin zəruri qüvvələrlə, vasitələrlə təmin edilməsini, habelə terrorçuluğa qarşı mübarizə sahəsində rəhbərliyi Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Azərbaycan Respublikasının digər müvafiq icra hakimiyyəti orqanları öz səlahiyyətləri daxilində bu qanuna uyğun olaraq terrorçuluğa qarşı mübarizədə iştirak edirlər."

Azərbaycan Respublikasında terrora qarşı mübarizədə güc strukturlarının rolu böyükdür. Uzun illərdir erməni terrorunun hədəfinə çevrilmiş Azərbaycan dövləti BMT ilə yanaşı, digər beynəlxalq və regional təşkilatlarla da (İnterpol, ATƏT, NATO, MDB, ADT, Ərəb Dövlətləri Liqası və s.) bu sahədə əməkdaşlıq edir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının bu beynəlxalq təşkilat çərçivəsində terrorçuluq əleyhinə qəbul olunmuş zəruri sənədlərini ratifikasiya etmişdir. Həmçinin, bütün nüfuzlu beynəlxalq hərbi-siyasi və ictimai qurumlar Azərbaycanın BMT çərçivəsində antiterror işlərinə verdiyi səmərəni, onun beynəlxalq terrora qarşı mübarizədə fəal iştirakını xüsusi qeyd edirlər.

Azərbaycan Respublikası beynəlxalq təşkilatlarla yanaşı, terrora qarşı mübarizə aparmaq üçün *ikitərəfli müqavilələr* də bağlamışdır. Bu baxımdan Türkiyə və Gürcüstan dövlətləri ilə səmərəli əməkdaşlıq münasibətləri qurulmuşdur. Azərbaycan, Gürcüstan və Türkiyə arasında Terrorçuluq, Mütəşəkkil Cinayətkarlıq və Digər Mühüm Cinayətlərlə Mübarizə üzrə müqavilə imzalanmışdır.[63]

Azərbaycanda terrora qarşı mübarizə işində Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) böyük rolu vardır. DTX-nin bu sahədəki fəaliyyəti fundamental qanunvericilik bazasına əsaslanır . DTX bu istiqamətdəki işində insan və vətəndaş hüquq və azadlıqlarına riayət olunması, humanizm, dövlət və cəmiyyət qarşısında cavabdehlik prinsiplərinə əməl edilməsinə xüsusi önəm verir.

Terrora qarşı mübarizədə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə (DİN) də mühüm səlahiyyətlər verilmişdir. DİN-in Əsasnaməsinə görə "...Nazirlik Azərbaycan Respublikasında ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin qarşısının alınması və açılması sahəsində Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır... və ... öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbay-can Respublikası Nazirlər Kabinetinin qərarlarını və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, bu Əsasnaməni, habelə Nazirliyin normativ-hüquqi aktlarını rəhbər tutur...ona həvalə edilmiş vəzifələri bilavasitə və tabeliyində olan orqanlar vasitəsi ilə həyata keçirir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin, təşkilatların və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir. Həmin sənəddə xüsusi vurğulanır ki, "...Nazirlik öz işini insan və vətəndaş hüquqlarına və azadlıqlarına hörmət, qanunçuluq, humanistlik, habelə təkbaşçılıq prinsiplərinin uzlaşdırılması əsasında qurur və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində..." öz funksiyalarını həyata keçirir.

Azərbaycanda terrora, xüsusilə də erməni dövlət terroruna qarşı mübarizədə Respublika Müdafiə Nazirliyi fəal iştirak edir. Bu fakt 27 sentyabr 2020-ci il əks-həmlə hərəkatında öz təsdiqini tapmışdır.

## TERRORA QARŞI MÜBARİZƏDƏ BƏZİ BEYNƏLXALQ TƏŞKİLATLARIN ROLU. TERRORUN DİGƏR QLOBAL PROBLEMLƏRLƏ ƏLAQƏSİ

**M**üasir terrorun mənşəyində sosial və ictimai-siyasi amillərin üstünlük təşkil etməsi, həmçinin onun genişlənərək beynəlxalq aləmə təpilməsi problemlə mübarizənin də miqyasını genişləndirərək buraya beynəlxalq təşkilatların da qoşulmasını zəruriləşdirmişdir. Helsinki Yekun Aktı (1975) və Madrid görüşünün (1983) yekun sənədlərində terror aktlarının qarşısının alınması və yox edilməsi üçün beynəlxalq əməkdaşlıq və beynəlxalq təşkilatların rolunun artırılması xüsusi vurğulanmışdı.

Bu məsələdə beynəlxalq təşkilatların tələbləri belədir ki, terrora qarşı mübarizə haqqında qanunlarda həm hüquqi, həm də ictimai-humanitar istiqamət nəzərə alınmalıdır, yəni qanun:

- *Vətəndaş cəmiyyətinin təhlükəsizliyini təmin etməlidir;*
- *Terrora qarşı səmərəli mübarizəyə dəstək verəcək informasiyaların mübadiləsinə və uyğun strukturların hərtərəfli əməkdaşlığına, antiterror fəaliyyətinin koordinasiyalı aparılmasına hüquqi əsas yaratmalıdır;*
- *Törədilmiş cinayətin məhz terror olduğunu müəyyənləşdirməyə nəzəri imkan verməlidir;*
- *Cinayətkarın insan hüquqlarını qorumalıdır;*
- *Cinayətkarın ədalətlə mühakimə olunmasını təmin etməlidir.*

Hazırda beynəlxalq təşkilatların bu istiqamətdə gördüyü işlər, prinsipcə, gələcəyə nikbin baxmağa kömək etsə də, ikili standartlar və bürokratik əngəllər müvafiq antiterror qanunları bazasını lazımı səviyyədə formalaşdırmağa və realizə etməyə imkan vermir. Buna baxmayaraq məsələnin ən önəmli və müsbət cəhəti odur ki, beynəlxalq ictimaiyyətin mövqeyindən və üzv dövlətlərin hərbi-

siyasi potensialının səviyyəsindən asılı olmayaraq bütün dövlətlər problemin ciddiliyini qavramış və mübarizənin qanunlar çərçivəsində aparılması üçün lazımlı sənədlər qovluğu hazırlayaraq, onların beynəlxalq və regional səviyyədə qəbul edilməsinə nail olunmuşdur.

Bu sahəyə aid sənədlərin işlənib hazırlanmasının xronologiyasının davamlılığı və sayının çoxluğu, beynəlxalq səviyyədə müzakirələrin aparılması, məxsusi qərar və aktların qəbul olunması terrora qarşı mübarizənin inkişaf tendensiyasını və coğrafiyasının genişlənməsini, evolyusiyasını izləməyə, həmçinin qanunvericilik bazasının təkmilləşdirilməsinə imkan yaradır.

1975-ci ildən başlayaraq terror problemi ilə bağlı qəbul olunmuş bir çox beynəlxalq sənədlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır. [Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə (ATƏM). Yekun akt. Helsinki, 1975; Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin iştirakçı dövlətlərinin nümayəndələrinin Yekun aktının qərarlarına əsasən illik Madrid görüşünün yekun sənədi... Madrid, 1983; Yeni Avropa üçün Paris Xartiyası, Paris, 19 - 21 noyabr, 1990; ATƏM-in 1992-ci il Helsinki sənədi. Dəyişikliklər dövrünün çağırışı. Helsinki, 9 - 10 iyul, 1992; Yeni epoxada həqiqi əməkdaşlıq yolu. Budapeşt, 5 - 6 dekabr, 1994; Avropada təhlükəsizlik Xartiyası. İstanbul sammiti, noyabr, 1999; Terrorla mübarizə və terrorla mübarizəyə dair Buxarest hərəkatı planı, 4 dekabr 2001; Transmilli təhlükələrə qarşı mübarizənin koordinasiyası və razılaşdırılmasına dair ATƏT-in qəbul etdiyi qərarlar və deklarasiya; ATƏT-in və BMT-nin antiterror strategiyasının konseptual bazasına dair müvafiq sənədlər, illik məruzələr və s.]. Beləliklə, problemlə bağlı həm görülmüş, həm də görüləsi işlər barədə mütəxəssis rəyləri kompleks halda terrora qarşı mübarizədə beynəlxalq təşkilatlarin rolu və potensialını təsəvvür etməyə imkan yaradır. Ona görə də üzv - dövlətlər terrora qarşı mübarizədə beynəlxalq təşkilatlarla iş birliyinə xüsusi diqqət yetirirlər.

Dünya dövlətləri terrora qarşı mübarizədə Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İnterpol, Avropol, NATO, MDB, Qoşulmama Hərəkatı Təşkilatı və digər uyğun beynəlxalq qurumlarla əməkdaşlıqda

maraqlıdır. Çünki bu qurumların terrora qarşı mübarizə konsepsiyası və strategiyası bir çox digər hökumət və qeyri-hökumət təsisatlarının müvafiq fəaliyyətində istinad nöqtəsi, ideya bazası, mübarizəyə başlamaq üçün milli-mənəvi vəzifə kimi qəbul edilmişdir.

Beləliklə, terrorşünaslıq terrora qarşı mübarizədə beynəlxalq təşkilatların da fəaliyyətinə xüsusi önəm verir.

Ümumiyyətlə, bu sahədə hərəkətverici qüvvə **Birləşmiş Millətlər Təşkilatı** hesab edilir. Onun terrora qarşı mübarizə konsepsiyası sosial-siyasi dəyərlər üzərində qurulmuşdur. BMT terrora qarşı mübarizədə münaqişələrin nizama salınması, xarici işğallara, zülm və əsarətə, yoxsulluğa, təhsilsizliyə, ərzaq qıtlığına son qoymaq, dinamik və tarazlı iqtisadi inkişafa mənəvi-ictimai dəstək vermək, qlobal tərəqqi, xoşniyyətli və ədalətli idarəçilik, insan hüquqlarının qorunması, bir sözlə, qanunun aliliyini təmin etmək, mədəniyyətlərarası anlaşmanı daha da təkmilləşdirmək, bütün milli-dini dəyərlərə tolerant yanaşmaq, multikultural düşüncəyə hörmət bəsləmək üzərində formalaşdırılmışdır.

Beynəlxalq təhlükəsizlik qlobal ərzaq qıtlığı, iqlim silahları, enerji təminatı, etnik-dini dəyərlərə qarşılıqlı hörmət və s. bu tipli məsələlərlə əlaqədardır; bu bazadakı çatışmazlıqların aradan qaldırılmasının yolları barədə müvafiq direktiv sənədlərin hazırlanması və realizəsi barədə öhdəliklərin götürülməsi isə BMT-nin terrora qarşı fəaliyyətinin səmərəli tərəflərindən biridir.

Dünyada beynəlxalq vəziyyətin yeni tipli hərb fəlsəfəcinə uyğun formalaşmağa başlaması ilə əlaqədar BMT TŞ-nin tərkibində xüsusi olaraq “Terrora qarşı komitə” yaradılmışdır. BMT-nin müvafiq sənədlərində həmin komitənin əsas vəzifəsi aşağıdakı istiqamətlər üzrə müəyyənləşdirilmişdir:

- Terrora qarşı mübarizə işi üçün fəal və operativ məxsusi qurum yaratmaq;
- Bu qurumun öz fəaliyyətini daim təkmilləşdirməsinə hərtərəfli dəstək vermək;
- Üzv dövlətlərin antitterror fəaliyyətinin səmərəli olması üçün dövlətlərarası və qurumlararası antiterror işinin koordinasiyalı aparılmasına kömək etmək;

- Antiterror koalisiyasının ehtiyac duyduğu istəklərə kömək məsələlərini operativcəsinə icra etmək.

BMT-nin Baş Assambleyası 2006-cı ilin sentyabr ayının 8-də "Qlobal Antiterror Strategiyası" adlı fundamental sənəd qəbul etmişdir. Üzv dövlətlər bu sənədin tələbləri çərçivəsində terrora qarşı mübarizənin səmərəsini artırmaq üçün müvafiq strateji və operativ fəaliyyət üsulları işləyib hazırlamışlar. Həmin sənəddə əsas strateji istiqamətlər aşağıdakı kimi müəyyənləşdirilmişdir:

*– Terrora qarşı mübarizədə daha səmərəli iştirak etmək üçün dövlətlərə göstərilən texniki köməklərin razılaşdırılması qaydalarının və texniki köməklərdən istifadənin keyfiyyərtinin yüksəldilməsi;*

*– Terrora məruz qalanların və onların ailə üzvlərinin ehtiyaclarını ödəmək üçün könüllü yardımlaşma sisteminin təşkili və onun icra mexanizmlərinin yaradılması;*

*– Dövlətin səhiyyə sisteminə xüsusi diqqət yetirmək, biotexnoloji nailiyyətlərin ancaq terror aktları zamanı, yaxud digər cinayətlərlə mübarizə üçün deyil, həm də ictimai rifah üçün istifadə olunmasının təmin edilməsi, bioloji münaqişələrə dair vahid, əhatəli məlumat bankının yaradılması, bioterror təhlükəsinin aradan qaldırılması;*

*– Terrorçuların internetdən istifadə etməklə təhlükə törətmələrinin qarşısını almaq üçün ənənəvi olmayan mübarizə metodunun işlənib hazırlanması;*

*– Terrorçuların və qeyri-qanuni materialların hərəkət sisteminin qarşısını almaq məqsədilə sərhədlərin təhlükəsizliyi, gömrük nəzarəti və yol sənədlərinin qoruyucu sistemlərinin modernləşdirilməsi;*

*– Çirkli pulların yuyulması və terroru maliyyələşdirmə sistemlərinə qarşı mübarizə sahəsində əməkdaşlığın daha da möhkəmləndirilməsi.*

Həmin sənədə əsasən nəzərdə tutulan əsas operativ üsullar isə belədir:

***1.** Terrora qarşı qabaqlayıcı tədbirlərin səmərəsini və uyğunluğunu yüksəltmək və ona qarşı birgə mübarizə aparmaq məqsədilə beynəlxalq əməkdaşlığı genişləndirmək;*

***2.** Bu sahəyə aid işlək qanunvericilik bazası yaratmaq;*

***3.** Terrorçuların aşkar olunması və tələb edilən dövlətə təslim edilməsi;*

***4.** Antiterror fəaliyyətində qarşılıqlı kömək və əməkdaşlıq;*

***5.** Terrora münasibətdə bəraət amilləri ilə barışmazlıq;*

***6**. Üzv dövlətlər arasında əməkdaşlıq;*

***7.** Terrorun potensial hücum obyektlərini müəyyənləşdirmək və onların təhlükəsizliyini təmin etmək;*

***8.** Silah, hərbi sursat və partlayıcı maddələr üzərində nəzarəti gücləndirmək;*

***9.** Antiterror fəaliyyətində vəzifə borcunu icra edən məhkəmə və hüquq-mühafizə orqanı əməkdaşlarının müdafiəsini təmin etmək;*

***10.** Terror aktına məruz qalanlara maddi-mənəvi kömək göstərmək işini təşkil etmək;*

***11.** Terrora qarşı mübarizədə medianın rolunu genişləndirmək;*

***12.** Bu sahəyə dair beynəlxalq cinayət məcəlləsinin təkmilləşdirilməsi və uyğun beynəlxalq cinayət məhkəməsinin təsis edilməsi.*

**Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) –** Avropa, Mərkəzi Asiya və Şimali Amerikada yerləşən region dövlətlərin təhlükəsizlik və əməkdaşlıq üzrə beynəlxalq regional siyasi birliyidir. Onun əsas vəzifəsi fəaliyyət dairəsinə aid ərazilərdə baş verən münaqişələrin sülh yolu ilə nizamlanması, münaqişələrin başlanma ehtimalı barədə erkən xəbərdarlıq etmək, onların qarşısını almaq, böhranları, qarşıdurmaları Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin Yekun Aktının (Helsinki, 1975) qarşılıqlı etimad və əməkdaşlıq prinsipləri əsasında nizama salmaqdan ibarətdir.*

---

* Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 51-ci Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə – Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsində (Sloveniyanın Prezidenti Borut Pahorun sədrliyi ilə keçirilirdi. – ***E.C.)*** bu istiqamətdə çox açıq və obyektiv fikir ifadə etmişdir:

**Prezident İlham ƏLİYEV:** "...Ərazilərimizin 20 faizi işğal altındadır və Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ zəbt olunub. Dağlıq Qarabağdan bütün azərbaycanlılar zorla çıxarılıb. 700 min nəfər əhalinin

Öz fəaliyyətini "insan ölçüsü" meyarı üzərində quran və *hərbi-siyasi, iqtisadi, ekoloji-humanitar* istiqamətləri prioritet olaraq müəyyənləşdirən ATƏT üzv dövlətlərə ancaq siyasi öhdəlik qəbul etdirmək səlahiyyətinə malikdir. ATƏT üzv dövlətlərə BMT-nin terrora qarşı mübarizə barədəki bütün konvensiya və protokolları ratifi-

---

yaşadığı 7 ətraf rayon da Ermənistanın işğalı altındadır. İşğal olunmuş ərazilərdə hər şey məhv edilib və biz hər hansı bir nəticə əldə etmədən 20 ildən çoxdur ki, danışıqlar aparırıq... ATƏT-in bu münaqişənin həlli ilə məşğul olan, BMT Təhlükəsizlik Şurasının üç daimi üzvünün – Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi Minsk qrupu adlı xüsusi qrupu var. İyirmi iki ildən artıqdır ki, bu qrup fəaliyyət göstərir, lakin heç bir nəticə hasil olunmayıb".
**Prezident Borut PAHOR**: Nəyə görə? Bunu necə izah edə bilərsiniz?
**Prezident İlham ƏLİYEV:** "Düşünürəm ki, Ermənistanın üzərində kifayət qədər beynəlxalq təzyiq yoxdur. Biz bəzən onu görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb. Çünki Ermənistan əsasən asılı olan ölkədir. Bu ölkə özünü təmin edə bilmir. Onlar inkişaf edə bilmirlər və hətta onların dövlətçiliyi belə sual altındadır. Ermənistana xarici dəstək göstərilmədən bu ölkə yaşaya bilməz. Onlara dəstək, əsasən, Minsk qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərilir. Bu da paradoksdur. Biz burada ikili standartları görürük və bu məsələ bizi məyus edir. Qeyd etmək istəyirəm ki, postsovet məkanındakı bütün münaqişələrə eyni münasibət göstərilməlidir. Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir... Ermənistan-Azərbaycan münaqişəsi həll edilmiş olsaydı, bəlkə də Ukrayna indi bu münaqişə ilə üzləşməzdi. Çünki burada eyni ssenari - ərazi bütövlüyünün eyni qaydada pozulması, eyni nəticə, işğal, separatizm var. Bunlar sanki bir-birinin güzgüdəki əksidir... Bu qətnamələrin icra olunmaması faktı onu göstərir ki, həmin qətnamələri qəbul edən ölkələr öz qərarlarına hörmət etmirlər".[65] Azərbaycan dövlətinin 2020-ci ildə erməni dövlət terroruna qarşı 44 günlük əkc-həmlə hərəkatı həm də ATƏT-in bu məsələdə səbatsız mövqeyinə tənqidi münasibət üzərindən icra olmuşdu.

kasiya etməyi öhdəlik kimi qəbul etdirsə də, öz strategiyasında "Terrora qarşı mübarizədə Buxarest fəaliyyət planı"na (2001-ci ilin dekabr ayında Nazirlər Şurasının 9-cu görüşündə qəbul olunmuşdur. – E.C.) istinad edir.[64]

ATƏT terrora qarşı mübarizə işində 7 dekabr 2012-ci ildə qəbul etdiyi **"Qərar No. 1063. Terrora qarşı mübarizədə ATƏT-in gücləndirilmiş konseptual bazası"** adlı sənəd çərçivəsində fəaliyyət göstərir.[66]

ATƏT-in terrora qarşı mübarizə strategiyasında terrorun məhz ***baş verməsinə və himayə edilməsinə şərait yaradan amillərə qarşı mübarizə*** məsələsi əsas istiqamətlər olaraq göstərilmişdir.

Terrora qarşı mübarizə aparan beynəlxalq təşkilatlardan biri də **Beynəlxalq Cinayət Polisi İdarəsi** (**ICPO** – International Criminal Police Organization –İnterpol) hesab olunur. Əsasnaməsinə görə İnterpol siyasi, hərbi, dini və irqi xarakterli işlərin istintaqı ilə məşğul olmur. Onun əsas vəzifəsi ümumi cinayətkarlıqla mübarizədə üzv dövlətlərin milli hüquq-mühafizə orqanlarının səylərini birləşdirmək və həmin qurumlarla ittifaqda fəaliyyət göstərməkdən ibarətdir; İnterpol, terrora qarşı mübarizədə terror əməllərinin istintaqını aparmaq üçün hüquq-mühafizə orqanları arasında əməkdaşlığın dünya miqyasında əlaqələndirmə mexanizmlərinə və müəyyən mərhələdə onlara dəstək olmaq səlahiyyətlərinə malikdir. İnterpol törədilmiş cinayətin xarakterinə uyğun olaraq dünyanın müvafiq qurumları ilə əməkdaşlıq edir, informasiya mübadiləsi aparır. Bu sahədə onun vəzifə və funksiyaları belə müəyyənləşdirilmişdir:

*- Antiterrorun hüquqi bazasına aid qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsi təşkil etmək;*

*- Antiterror fəaliyyəti üzrə müvafiq əsasnamələr, məsləhətlər və xidməti istifadə üçün digər sənədlər toplusu hazırlamaq;*

*-Antiterror sahələri mütəxəssislərinin peşəkarlığının artırılmasında yaxından iştirak etmək və beynəlxalq səviyyədə onların görüşlərini keçirmək;*

*- Terrorçuluqda şübhəli bilinən şəxslərin müəyyənləşdirilməsini, terrorçu qruplara aid məlumatların müvafiq dövlətlərə qabaqcadan verilməsi işini təşkil etmək;*

*- Antiterror işində, zərurət yaranarsa, güc strukturları və s. orqanlarla da əməkdaşlıq etmək.*

*"Daha təhlükəsiz gələcək üçün vəziyyəti nəzarətdə saxlamalı, güc və qarşılıqlı əlaqələrə nail olmalı"* – **NATO** terrora qarşı bu deviz altında çıxış edir və vəziyyətdən asılı olaraq prosesdə əsas, yaxud da köməkçi qurum qismində özünü ifadə edir.

NATO-da terrora qarşı mübarizə işinə yeni baxışın yaranmasında 2001-ci ilin sentyabr ayının 11- də ABŞ-da törədilmiş terror aktları həlledici rol oynamışdır. Məhz bundan sonra terrorun dünya miqyaslı cinayət əməli olduğu ABŞ siyasətində təsdiqlənmiş və ona qarşı mübarizənin ümumi konsepsiyasına "hərbi iş", "müharibə" mahiyyəti aşılanmışdır. Çünki bunadək ABŞ dövləti əsas diqqətini dünyada yeni siyasi düzənin, Amerikanın maraqlarına cavab verə biləcək rejimlərin formalaşdırılmasına yönəldirdi. Lakin 11 sentyabr hadisələri ABŞ ictimai düşüncəsində terrorun dəhşət miqyasını hiss etməkdə şər nümunəsi rolunu oynamışdır. Məhz bundan sonra NATO terrora qarşı mübarizədə fəaliyyət fəlsəfəsinə öz potensialından, nizam-intizamlı rəhbərlik prinsiplərindən istifadə edərək üzv dövlətlərə, həmçinin milli və beynəlxalq qüvvələrə dəstək vermək, koordinasiyalı fəaliyyət planlarını işləyib hazırlamaq, güc strukturlarını bir-birini tamamlamaq, mövcud olan ehtiyatlardan daha səmərəli yararalanmaq məsələlərində müvafiq qurumlara yaxından kömək göstərmək qərarına gəlmişdir.

NATO terrora qarşı mübarizədə beynəlxalq *sosial-siyasi, operativ, konseptual, elmi-texnoloji* sahələrə prioritet verir. Bu sahələr üzrə potensial təhlükələr barədə əvvəlcədən xəbərdar olmaq, qabaqlayıcı tədbirlər görmək üçün bütün mümkün vasitələrdən istifadə etmək, müttəfiqlərlə qarşılıqlı əlaqələr yaratmaq NATO-nun əsas məqsədidir.

NATO-nun terrora qarşı mübarizə işində fərqli özəlliyi ondan ibarətdir ki, alyansın antiterror konsepsiyasında terror hadisəsindən sonra ictimai həyatı yenidən normal vəziyyətə qaytarmaq məsələsi vacib vəzifə olaraq müəyyənləşdirilmişdir.

NATO beynəlxalq terrora qarşı mübarizədə Azərbaycan Respublikasını özünün ən yaxın tərəfdaşından biri hesab edir.

Terrora qarşı mübarizə aparmaq üçün **Müstəqil Dövlətlər Birliyinin** (MDB) nəzdində xüsusi qurum yaradılmışdır. Üzv dövlətlərin xüsusi xidmət orqanları ilə əlaqəsi olan həmin qurum keçmiş sovet məkanında terrora qarşı mübarizə istiqamətində fəaliyyət göstərməkdədir. MDB çərçivəsində terrora qarşı mübarizənin beynəlxalq hüquq normalarına uyğun aparılması üçün qurumun təşəbbüsü ilə müvafiq qanunvericilik bazası işlənib hazırlanmışdır. MDB ölkələri arasında Kollektiv təhlükəsizlik haqqında müqavilə 15 may 1992-ci ildə imzalanmışdır. 1999-cu ildə imzalanmış "Müstəqil Dövlətlər Birliyinin iştirakçı dövlətlərinin terrorçuluqla mübarizədə əməkdaşlığı haqqında" müqavilənin də bu sahədə böyük əhəmiyyəti vardır.

Ümumiyyətlə, bu sahə ilə əlaqədar MDB çərçivəsində qəbul olunmuş hüquqi sənədlər arasında vacibləri aşağıdakılardır: "Terrorçuluqla mübarizə sahəsində əməkdaşlıq haqqında", "Vahid məlumat bankının yaradılması haqqında", "Strateji obyektlərin təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlıq haqqında".

MDB-nin xüsusi xidmət orqanları terrora qarşı mübarizədə öz səlahiyyətləri çərçivəsində həm hüquqi, həm də təşkilatçılıq baxımdan geniş imkanlara malikdir. Təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərlərinin Şurası yaradıldıqdan sonra isə qaçaqmalçılıq, qanunsuz miqrasiya, çirkli pulların yuyulması, terrorun maliyyələşdirilməsi, terrorçuların təlim düşərgələri, yaxud terrorçuların müalicəsi üçün şərait yaradılması istiqamətində, bir sözlə, birbaşa, yaxud dolayısı ilə terrorla bağlı hər cür cinayətlərin təhqiqatına, bunlara qarşı kollektiv mübarizə aparılması və təhlükəsizlik məsələlərinin işlənib hazırlanmasına xüsusi diqqət yetirilir.

Qeyd olunduğu kimi, beynəlxalq hüquq terrora qarşı mübarizə işinin insan hüquqlarına hörmət və humanizm ruhunda aparılmasını dəstəkləyir, sərt və qəddar üsulları rədd edir. Bu səbəbdən də qurum terrora qarşı mübarizənin məhz müəyyən şərtlər daxilində aparılmasını müəyyənləşdirmişdir.

**Avropa Şurası və Avropa İttifaqında** da terrora qarşı mübarizə aparılır.

Beləliklə, beynəlxalq təşkilatlar terrora qarşı mübarizədə ilk növbədə aşağıdakı aspektlərə xüsusi diqqət yetirirlər:

***a.*** Mübarizənin qanunvericilik bazasını daha da yaxşılaşdıraraq, onu səmərəli və işlək etmək;

***b***. Terrora yol açan ümumdünya hərbi-siyasi, eləcə də kriminogen vəziyyəti öyrənmək üçün müxtəlif forma və məzmunlu mexanizmlərlə koordinasiya edilən iş prinsipinə üstünlük vermək;

***c.*** Dövlətlərarası münasibətləri yaxşılaşdıraraq terrora qarşı mübarizəni kompleks halda aparmaq;

***d.*** Bu mübarizədə üzv dövlətlərin bütün sahələrdə bir-birinə dəstək verməsinə və göstərilən humanitar-texniki köməyin, ondan səmərəli istifadənin koordinasiyalı formatda aparılmasına çalışmaq.

Hazırda dünyada terrora qarşı mübarizə kifayət qədər səmərəli aparılmır. Bu, ilk növbədə, problemin hüquqi təminat bölməsinə aiddir. Çünki terrora qarşı mübarizədə sərt tədbirlərə əl atan bəzi dövlətlərin antiterror siyasəti guya insan hüquqlarının qorunması anlayışına uyğun gəlmir və bu səbəbdən də beynəlxalq təşkilatlar tərəfindən tənqid edilirlər (məsələn, Aİ, Türkiyəni bu məsələdə tənqid edir və Türkiyənin terrora qarşı mübarizə qanununda dəyişikliklər aparması şərtini irəli sürür). Bu uyğunsuzluq terrogen situasiyaya yanaşmada müəyyən boşluqlar açır, ikili standart elementləri üçün şərait yaradır.

Digər tərəfdən, hazırda terrora qarşı daha çox ənənəvi, klassik formada mübarizə aparılır, yəni əsas güc təhlükəsizlik xidmətinin, xüsusi təyinatlı birliklərin və hərbiçilərin üzərinə düşür. Qarşıdıurma prosesində terrorçu daha yaradıcı, müvafiq strukturlar isə hüquq və səlahiyyət çərçivəsində məhdud olduğu üçün səmərəli mübarizəyə nail olunmur.

Mövcud vəziyyəti və şərtləri nəzərə alan beynəlxalq təşkilatlar ilk növbədə terrorun səbəblərinə qarşı mübarizə aparmağı prioritet hesab edirlər. BMT, ümumiyyətlə, antiterror fəaliyyətində terrora yol açan sosial-siyasi səbəbləri aradan qaldırmaq və ekstremist qrupların cazubədarlığını, terrorçunun “qəhrəman” obrazını cəmiyyətin gözündən salmaq məsələlərinə üstünlük verir. Mübarizə prosesində insan hüquqlarının pozulmaması prinsipini əsas tutur və bunu üzv

dövlətlərə, uyğun təşkilatlara tövsiyə edir* BMT-nin fəaliyyət fəlsəfəsinə görə bu cür yanaşmaya əks addımlar cəmiyyətin radikallaşmasına səbəb olur.

Bəzi beynəlxalq təşkilatların yerlərdəki nümayəndəliklərinə terrogen situasiyaya təkan verən mütəşəkkil cinayətkarlıq, korrupsiya, qaçaqmalçılıq və s. qanunsuz əməllərə qarşı mübarizə aparan hökumət və subregional təşkilatlara ictimai dəstək olmaq səlahiyyətləri də verilmişdir. Həmin nümayəndəliklər yüngül silahlar üzərində nəzarəti gücləndirmək, terrora maliyyə dəstəyində tərəf olan brakonyerliklə, təbiətin zənginlikləri ilə qanunsuz alış-verişə qarşı mübarizə aparmaq üçün dövlət strukturlarına fövqəladə tədbirlər planı işləyib hazırlamaqda köməklik göstərirlər. Onların regional strategiyasında ayrı-ayrı qitələr arasında ikitərəfli və çoxtərəfli dialoq formatında siyasi sammitlərin təşkili də xüsusi önəm daşıyır.[67]

Beləliklə, terrorun inkişaf tendensiyası və ona qarşı mübarizənin forma və məzmunu göstərir ki, davakar sosial-siyasi elementlərin yerli, milli, regional və qlobal reallıqları ilə mübarizədə beynəlxalq təşkilatlar müdrik və ədalətli mövqe tutmaqla, insan ölçüləri sahəsinə aid öhdəliklərə riayət etməklə, beynəlxalq hüququn və vicdanın təntənəsinə dəstək verməklə terrora qarşı mübarizəni daha səmərəli etmiş olar. **Çünki beynəlxalq təşkilatlar ümumi bəşəri dəyərlərin ifadəçisi, daşıyıcısı və qoruyucusu olduqları kimi, ümumi məsuliyyətin də ifadəçisi, daşıyıcısı və qoruyucusu olmalıdırlar.** Bu sahədə də BMT vacib və məsul qürum rolunu icra etməlidir.

Hazırda terrogen situasiyanın formalaşmasında ictimai və humanitar amillərin üstünlük təşkil etməsi dolayısı ilə təsdiqləyir ki, müasir terrorun yaranmasında müvafiq qlobal problemlərin həlledici rolu vardır. Yəni terrora qarşı mübarizədə bu sahə də nəzərdən qaçırılmamalıdır. Yoxsulluq, savadsızlıq, sosial-siyasi inkişafdan

---

* Insan hüquqları anlayışının müasir elmi-kütləvi standartı ***"dörd azadlıq"*** (bu "dördlüyü" vaxtilə ABŞ prezidenti F.Ruzvelt irəli sürmüşdür) deyilən sosial-siyasi bazada formalaşdırılmışdır: *Ehtiyacsızlıq azadlığı, qorxmamaq azadlığı, din azadlığı, fikir azadlığı.*)

geri qalma, silahlanma və s. qlobal problemlər həm ayrı-ayrılıqda, həm də birlikdə terrorun inkişaf tendensiyasına təsir göstərir. Bütün bunlar dünyanı bürüyən terror kabusunun əsas səbəbləri kimi də qəbul olunurlar. Buna görə də dünya birliyi 8 sentyabr 2006-cı ildə qəbul edilmiş "Birləşmiş Millətlər Təşkilatının Antiterror Qlobal Strategiyası"[68] adlı Qətnaməni və ona əlavə olan Fəaliyyət planını çox ciddi və işgüzar sənəd kimi dəyərləndirir.[69]

Terrora qarşı mübarizədə həm milli və regional, həm də beynəlxalq və lokal miqyaslı gücü daha da artıran bu sənəd dünya birliyinin terrora qarşı fəaliyyətini dəstəklədiyini bəyan edir, terrorun bütün forma və metodlarının qəbul edilməzliyini vurğulayır, ona qarşı ayrı-ayrı dövlətlərin həm fərdi qaydada, həm də kollektiv şəkildə mübarizəyə hazır olduqlarını bildirir. Qlobal strategiya antiterror fəaliyyətində həm hər dövlətin potensial imkanlarını, həm də beynəlxalq birliyin koordinasiyalı fəaliyyətini daha da səmərəli etmək məsələlərini nəzərdə tutur.

Terror və terrorçuluğa şərait yaradan amillərin müəyyənləşdirilməsi antiterror kompleksinin əsas elementlərindən biridir və hər şeydən əvvəl terror probleminin digər qlobal problemlərlə əlaqəsini təyin etməyə imkan yaradır. Buna görə də dünyanın aparıcı beynəlxalq təşkilatlarının antiterror proqramında terrorun başvermə və terrorçuluğa qoşulmanın əsas səbəblərinin elmi-nəzəri və praktiki cəhətdən tədqiq edilib öyrənilməsinə xüsusi diqqət yetirilir. Çünki bu istiqamətdə əldə olunan bilgilər terrora qarşı qabaqlayıcı tədbirlərin işlənib hazırlanmasında xüsusilə əhəmiyyətlidir. Buna görə də beynəlxalq təşkilatların təşəbbüsü ilə bu sahələrə dair ictimai-praktik tədbirlərin keçirilməsi formatı da terrora qarşı mübarizənin səmərəli üsullarından biri kimi dəyərləndirilir.

Məsələn, BMT-nin VIII Beynəlxalq konqresində terror aktlarının törədilməsinin əsas səbəbləri aşağıdakı kimi sistemləşdirilmişdir: *zəif təhsil sistemi; yoxsulluq; işsizlik; evsizlik; dezinformasiya; KİV-də zor və işgəncənin təbliği; insanlar arasında həyat (yaşamaq) eşqinin azalması; insanların bir-birinə "soyuqluğu", biganəlik; cəmiyyətdə sosial ədalət prinsipinin pozulması; cəmiyyətdə təbəqələşmənin ədalətsiz şəkildə sürətlə genişlənməsi; ailə*

*dəyərlərinin zəifləməsi; qanunsuz miqrasiya; milli özünəməxsusluğun subyektivcəsinə dağıdılması; etik normalara cavab verən kütləvi mədəni obyektlərin çatışmazlığı.*

Belə bir silsilə mənfiliklə mübarizə digər beynəlxalq təşkilatların da diqqət mərkəzindədir.

Beləliklə, terror probleminin digər qlobal problemlərlə əlaqəsinin müəyyənləşdirilməsi və onlara qarşı koordinasiyalı fəaliyyətin qanunlar və sənədlər əsasında aparılması beynəlxalq təşkilatların antiterror siyasətinin əsasını təşkil edir.

# IV. AZƏRBAYCANDA TERRORA QARŞI MÜBARİZƏNİN İCTİMAİ-HUMANİTAR ƏSASLARI

Azərbaycan coğrafiyasında yaşayan insanların keçdiyi təkamül prosesinin, xüsusilə də xeyir və gözəllik anlayışının etnopsixoloji cəhətdən dərki və qəbulu yerli sosiumun milli-mənəvi dəyərlər kompleksinin ictimai-humanitar əsaslarını müəyyənləşdirməklə sıx bağlıdır. Bu insanların cəmiyyətdə davranış qaydalarını, yaşamaq eşqini, azadlıq ideallarını, diriliş-dirəniş strategiyasını araşdırmaq məhz bu məntiqə əsaslanır. Qeyd olunan amillər toplusu Azərbaycan dünyabaxışında antiterror düşüncəsini formalaşdıran mənəvi baza kimi də qəbul edilə bilər. Problemə bu kontekstdə yanaşmada ümumvəhdət konsepsiyasının sosiomədəni problemlərin elmi tədqiqi prosesinə müsbət təsiri məsələsinin də əhəmiyyətli rolu qeyd olunmalıdır.

İnsan amili əsasında baş vermiş vəhşətli hadisələrin mahiyyəti və bu günün terrogen reallıqlarının analizi göstərir ki, keçmişdə də, hazırda da terrorun kökündə cəmiyyətin mədəni - psixoloji tənəzzülü faktı durur. Problemə bu istiqamətdən diqqət etdikdə aydın olur ki, Azərbaycan insanının cəmiyyətdə sağlam mühit yaratmaq və yaşatmaq amalı hər cür vəhşət törətmək hissindən uzaq tərbiyə formalaşdırmış və bu həyatabaxış uzun proses keçmişdir. Azərbaycan insanının "dirilik ağacı" haqqındakı görüşlərə, təbiətin ölməsi və yenidən dirilməsi barədə humanist inanca malik olması, həyat eşqi düşüncələri, ümumiyyətlə, vəhşət saçmaq, nahaq qan tökmək iddiaları bir-birinə yad və ögey düşüncə olaraq bu prosesin süzgəcindən keçmişdir.

Erkən tarixdə Azərbaycan insanının əqli səviyyəsi ətraf mühiti müşahidə və ona diqqət yetirmək əlamətləri ilə dəstəklənən sitayiş üsuluna bağlı olmuşdur. Azərbaycan ərazisindəki Azıx mağarası, Qobustan qayaüstü rəsmləri üzərində aparılan araşdırmallər göstərmişdir ki, bu coğrafiyanın insanı dağıdıcı düşüncədən uzaqdır (yeri gəlmişkən, əlavə edək ki, bəzi müəlliflərin ümumiləşdirici qənaət olaraq qeyd etdikləri "ibtidai icma quruluşu dövründə primitiv

insanların həyatda sağ qalmaq üçün bir-birinin canına qəsd etməsi ilk terrorçuluqdur" mülahizəsi səhvdir). Qobustandakı əski təsvirlərdə qadın məhz ana – qadın başlanğıca işarə kimi humanist düşüncədən qaynaqlanır, analıq duyğusunun mahiyyətindəki qorumaq, müdafiə etmək, həyatı sevmək və sevdirmək anlayışlarının realizəsi kimi xatırladılır. Qayaüstü rəsmdəki yallı rəqsi məhz birlik və dinc yanaşı yaşamaq ideyasının rəmzi tərənnümüdür. Bunlar və digər maddi-mənəvi dəyərlər kompleksimiz Azərbaycan insanının düşüncəsində vəhşət törətmək hissinin yer almadığının göstəricisi kimi qəbul edilə bilər.

Azərbaycan mifik təfəkkürünün qaynaqları göstərir ki, təbiətlə harmoniyada yaşamaq və sosial ədalət prinsipini insanlararası münasibətlərin zirvəsi hesab etmək qədim azərbaycanlıların yaşamaq və düşünmək tərzi, həyata tətbiq mədəniyyəti olmuşdur.

Tarixin müəyyən dönəmində bu insanların yaşadığı coğrafiyada müxtəlif inancların yaranması və tədricən müxtəlif etno-psixoloji xüsusiyyətlərin və ictimai-humanitar qanunların həyatda hegemonluq qazanması insan və cəmiyyət arasındakı münasibətlərə siyasət əlamətləri və savaş motivləri aşılamışdır. Bu düzən ən qədim və ilkin strateji təfəkkürün – "Xeyir və Şər" qüvvə daşıyıcılarının həyata baxış ölçüsü olmasına birbaşa təsir etmiş, buradan qaynaqlanan "Hərb və Sülh" dünyagörüşünə yanaşmada "nəyin seçimi" və "hansının tərəfdarı" əxlaqını müəyyənləşdirmişdir. Azərbaycan coğrafiyasında yaşayan xalqın etnogenezi məhz bu strateji təfəkkür üzərindən böyük təkamül prosesi keçmişdir. Bu prosesdə, Şər, məhz insana qəsd kimi təfəkkürə hopmuş və Şərə qarşı mübarizə amal, xarakter olaraq formalaşmışdır.

Azərbaycan coğrafiyasında əski fəlsəfi baxış kimi Zərvanilik qeyd olunur. Bu təlimə görə həyatda iki qüvvə: bütün varlığın yaradıcısı və bütün varlığın məhvedicisi olan qüvvələr bir-biri ilə mübarizədədir. İctimai mühit o dövrün insanını birinci qüvvəyə tapınmaq üçün inandıraraq tərbiyyələndirirdi. Bu təlim özündən sonra bir çox dünya fəlsəfi fikirlərinin əsaslarına təsir göstərmişdir. Zərdüştilik bu təlimi tənqid etsə də, sonra ondan bəhrələnmişdir. İlk utopik cəmiyyət və onun sosial ədalət, insan azadlığı, xeyir işlər kompleksini özündə ehtiva edən Zərdştilik orta əsrlər dövrünədək bir

çox həyata baxış sistemlərinə təsir göstərmiş, ictimai və humanitar elm sahələrinin inkişaf tendensiyasına təkan vermiş, insana azadlıq, ədalət və hüquq bərabərliyi kimi konseptual dəyərlər aşılamışdır. Həmin təsir sahəsində maqlar və manilik də olmuşdur. Maqlar insanın mənəviyyatı məsələlərinə xüsusi önəm vermiş və öz dövrünün təbiyyət elmlərinin nailiyyətlərindən çıxış etmişlər. İşıq və Zülmət qarşıdurması haqqındakı sosial təlimləri kahinlər vasitəsilə insanlar arasında yaymışlar.

Bütün bunlar tədricən insan amilinin sosial dəyərini qətiləşdirmişdir. Ona görə də hər bir haqsızlığa insana dəyən zərər üzərindən yanaşılmış və onun aradan qaldırılmasına cəhd edilmişdir.[70]

İlk kütləvi etiraz səsi olan Məzdəkin başçılıq etdiy üsyanın (481 – 529-ci illər) qayəsi insanın insanlıq üçün sosial ədalətə dəvət və tələb addımı idi. "Avesta"da da fikrə dəstək yetərincədir. Əsərin 3-cü fraqardı[71] "Torpaq" adlanır və tanrı Hörmüz bərəkətli və bərəkətsiz yurd yerlərini xeyir və şər motivləri əsasında şərh edir, əkinçi əməyinin və maldarlığın, torpağa sevinc bəxş edən insanın uca tutulması ilə yanaşı, torpağı təhqir edənə, insan qanına bulaşdırana veriləcək cəzaları da göstərir. Buradakı dünyaya baxış sülh, əmin-amanlıq içərisində əkib-becərmək, günahın ədalətlə çözülməsi üzərində kamala çatır; insanın ölümü günahın son həddi, qatillik Şərin zirvəsi kimi təqdim edilir. 4-cü fraqardın ikinci yarımbaşlığında ("Zorakı hərəkətlərin siyahısı və bunların qarşılığında cəzalar") insanın əlinə silah alması, başqasına hədə-qorxu gəlməsi, hücum etməsi, qan tökməsi günah olaraq təqdim edilir və həmin günahların hər birinin xarakterinə uyğun cəza növləri göstərilir. Və yaxud "Divlər üzərində qələbə" fraqardında tanrı Hörmüz onu öldürməyə gələn divlər Divi ilə mübarizəyə silahla deyil, məhz sözlə – Həqiqəti ifadə edən sözlərlə başlayacağını bəyan edir.

Sonralar Qurani-Kərimin mənəvi qüdrətinə bağlılıq və onun vicdan ölçüləri ilə düşünən ["<...> yazıb hökm etdik ki, hər kəs <...> yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur <...>"]

Azərbaycan insanının multikultural dəyərlərinin daha da zənginləşməsi yeni mədəniyyət məntiqini – bərabərlik, itaət və ancaq tək olan Allaha səmimi sitayiş – ictimai fikir sisteminə çevirmişdir. Həmin məntiq Azərbaycan dünyagörüşündəki çoxmədəniyyətliliyə və sosial dözümlülüyə xüsusi rənglər əlavə etmiş, uzun əsrlərdən keçərək bu günə gəlib çatmışdır.[72]

Sonrakı dövrlərdə yaranan Xürrəmilik (VIII əsrin sonu – IX əsrin I yarısı) də sosial xarakterli ədalət prinsipinin gündəmə gətirilməsi və qorunması çərçivəsini genişləndirərək, siyasi xarakterli məsələlərin də kollektiv qərar qəbulu şəklində ədalətli həllini önə çəkmiş, o dövrün milli düşüncəsində azad insan və düşməndən azad vətən anlayışını qabardaraq həyat eşqi səviyyəsinə yüksəltmişdir.[73] Bu yoldakı davalar nə hakimiyyət davası idi, nə də qılınc xöşbəxtliyi idi; Azərbaycan insanı, sözün ən geniş mənasında, sosial ədalət tələb edirdi və onun uğrunda çarpışırdı.

XI əsrdə Səlcuq türklərinin fəallaşması və geniş coğrafiyaya yiyələnməsi, XII əsrdən başlayaraq Azərbaycan intibahına doğru müxtəlif elm və sənət sahələrinin inkişafı özünün yüksək zirvəsinə çatmışdır. Bu tarixi xronologiyanın hüdudlarında məhz humanizm, sosial ədalət və müdrik hökmdar axtarışı o dövrün özünəməxsus demokratizmi ilə yaşamaq eşqini yaratmışdır.

Orta əsrlərin silah qəhrəmanlığı və hərb şücaəti, əslində, Vətən və xalq qarşısında mənəvi borc əxlaqı idi, insanı qanına qəltan etmək həyatın mənası deyildi, lənət obyekti idi; beləliklə, silahın təntənəsi ilə tökülən insan qanı süjetlərinə əsaslanan əski qəhrəmanlıq eposlarına yeni baxış yaranırdı. Yeni mərd, müdrik, elmli insan tərbiyəsi – mənəvi saflıq, ruhən ucalıq yeni tipli humanizm göstəricisi əsasında aparılırdı. Bu xronologiyanın davamında formalaşan "Ənəl-həqq" dünyagörüşü İnsanın ən uca varlıq kimi qəbulunu və təbliğini önə çəkmişdir. Qan tökməklə deyil, humanist, müdrik və elmli sözlə (bunu "Avesta"da təqdir olunan idrakın təntənəsi kimi də xatırlatmaq mümkündür) fatehlik bəyənilən idi. Beləliklə, azərbaycanlı ictimai-siyasi və bədii-fəlsəfi fikrində məhz Xeyir istiqamət öz inkişafını davam etdirmişdir. Ona görə də azərbaycanlı dünyagörüşündəki əzazil və adil hökmdar qarşıdurması, hakimiyyətin dinc yolla müdrik, ədalətli və humanist dövlət başçısı

ilə əvəzləndirilməsi fikri və yolları cəmiyyətdə silah gücünə vəhşətlər törətməklə deyil, tarixin insansevərlik yaddaşı və ictimaiyyətdə sosial ədalətin zirvəsindən təbliğ edilirdi. Bu səbəbdən də hətta şahlara və hökmdarlara yazılmış mədhiyyələr də, əsasən, kiməsə yarınmaq, kimdənsə maddi qazanc almaq üsulu deyildi, insanı həyatda kamilliyə səsləməyin, bəşəri gözəlliyi qavramaqda insansevərliyin əsas ölçü və bəyənilən olmasının konsepti idi.

Qədim dini-mifoloji təsəvvürlər və adət-ənənələr üzərindən yol aşaraq, çoxəsrlik formalaşma taleyi yaşayan "Kitabi-Dədə Qorqud" eposu "insan və cəmiyyət", "vətəndaş və dövlət" münasibətləri, vicdan dəyərlərinin daha da güclənməsi, yayılması və s. vacib tarixi inkişaf mərhələlərinin yüzilliklərlə ölçülən alın yazısını ifadə etmədədir. Bu dastandakı "Hərb və Sülh" dünyagörüşünün ancaq humanizm prinsipləri, yeni ictimai-humanitar gözəllik ölçüləri ilə bitkinləşməsi müasir azərbaycanlıların əcdadının ədalət və sədaqət, müdriklik və mərdlik, Vətənə, yaşca böyüyə, ata-anaya, sevgiyə-qadına sədaqət və məhəbbət, hökmdara və qanuna hörmət süjetləri ilə bəslənmişdir; ona görə də "Kitabi-Dədə Qorqud" hücum, işğal deyil, müdafiə olunmaq, işğaldan azad etmək doktrinasını təbliğ edən bədii abidədir və özünə qədərki vicdan azadlığı və sosial ədalət prinsipləri ilə formalaşmış qədim azərbaycanlıların dünyabaxışındakı humanizm və vətənpərvər döyüşçü-müdafiəçi təsəvvürlü cəngavərliyin təntənəsi kimi qəbul olunur. Bu dastanın yaradıcısı, yaşadıcısı olan xalq Şərə qarşıdır.

Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələri arasında da bu fikrə dəstək ola biləcək faktlar çoxdur.

Beləliklə, zaman keçdikcə, Şərə qarşı olmaq düşüncəsi bu günün şəri olan terrora, hətta terrorun oxşarına münasibətdə yad tərbiyə alaraq, həmin tərbiyə ilə də yaşamaq ölçüsünə çevrilmişdir. Azərbaycan dövlətinin erməni dövlət terroruna qarşı 27 sentyabr 2020-ci il tarixli əks-həmlə hərəkatının forma və məzmunu bunun əyani göstərisisidir.

Azərbaycan nəsrində də bu ideyalar boldur. M.F.Axundovun "Kəmalüddövlə məktubları" Şərqdə, Asiya xalqlarının yaşadığı regionda mənəvi düşkünlüyün, dövlətdəki haqsızlıqların, xalqı zülmətdə və zillətdə saxlamaq şərtinin, bütövlükdə, ümumsavadsız-

lığın səbəb olaraq kəskin tənqidi, Şərə xidmətin qarşısının alınması üsulu kimi təqdim edilir. Üsyan və qətllərə şərait yaratmamaq fikrini təbliğ edən ictimai-siyasi traktat müəllifi “<...> hər bir yaxşı və pis əməlin mükafatı və cəzası müəyyən edilmiş” “Peymani-fərhəng” – <...> qanun məcəlləsinin adını bu baxımdan xüsusi olaraq xatırlatması da təsadüfi deyil. M.F.Axundov həmin məcəlləni belə təqdim edir: “ <...> məmləkətin heç bir yerində vilayət hakimlərindən bir nəfərinin də olsun adam öldürməyə ixtiyarı yox idi. Hətta qətli vacib olan adamlar haqqında belə əvvəlcə yazıb, padişaha bildirməli idilər. Ancaq padişah “Peymani-fərhəng” ehkamına müvafiq olaraq necə fərman versəydi, onu icra edərdilər. Ümumiyyətlə, adam öldürmək cəzasından mümkün qədər çəkinərdilər <...>”.[74]

Beləliklə, Azərbaycan ictimai-humanitar fikrində məhz elm, zəka aləmi, yaradıcı təfəkkür yüksək dəyər ölçüsü idi, ağır zəhmətlə həyatına davam edən insan haqq-ədalət işığında müdafiə olunurdu, ona zülm verən əzazil ədalətə dəvət edilir, ya da ədalət müstəvisində mühakimə edilirdi.

Xronoloji ardıcıllığın davamında da təsdiq olunur ki, sonralar Azərbaycan ictimai-mədəni həyatında yaranan əsas ictimai-mədəni cərəyanların, birlik, məclis və dərnəklərin, ədəbi-mədəni məktəblərin təbliğat, təşviqat və təşkilatçılıq ideyası insanı öldürmək deyil, insanı yaşatmaq, xilaskarlıq, elm və maarifin yayılması, insanı vicdan dəyərlərilə qorumaq üzərində formalaşdırılmışdı.

Qeyd edək ki, Azərbaycan coğrafiyasına münasibətdə işğalçılıq siyasətinin davamlı olması üçün bu regiona gəlmə elementlərin etno-siyasi psixologiyasındakı boşluqlardan hərbi-siyasi təzyiq vasitəsi kimi istifadə edən dairələr burada terrorun oxşarlarının, sonra isə terrorun özünün təhdid sistemi olaraq kök salmasında maraqlı idilər.[75] Bu amil Azərbaycan cəmiyyətində terrora münasibət və ona qarşı mübarizə məsələlərinə xüsusi yanaşma düşüncəsini yaratmışdır. Buna görə də müasir Azərbaycan ictimai-humanitar fikrində terror probleminə münasibət milli tarix yaddaşına bağlılıqla fərqlənir, onun tələblərilə terrora qarşı mübarizə strategiyasının işlənib hazırlanması və təcrübədə tətbiqi dövlət tələbi olaraq qəbul edilir.

Təbiidir ki, minilliklər ərzində müasir azərbaycanlıların əcdadlarının yaşadıqları ərazilərdə, qurduqları dövlətlərdə bu və ya

digər motivlərə bağlı terrorun forma və məzmununu xatırladan hadisələr olmuşdur; onların əksəriyyətini terror hadisəsi kimi qəbul etmək terrorşünaslığın nəzəri prinsiplərinə cavab vermir.

Ümumiyyətlə, terrogen situasiya hər dövlətin öz ictimai-siyasi və milli-mənəvi dəyərlər sisteminin gözəlliyə münasibət ölçüsündən, son vaxtlar isə həm də təbii ehtiyatlarından, coğrafi mövqeyindən, maliyyə imkanlarından necə istifadə etmək bacarığından və ənənəsindən, vətəndaşının elmi-mədəni səviyyəsindən və yaşam tərzindən asılıdır. Bu müstəvidə hər hansı yanlışlıq dövlətin daxilində terror üçün səbəb yarada bilir. Buna görə də müasir Azərbaycanın ictimai fikrində terrora münasibətin və terrora qarşı mübarizənin məntiqi məhz terrogen situasiya yaradan səbəblərə qarşı mübarizədən başlamaq strategiyası üzərində qurulmuşdur. Göründüyü kimi, bu strategiyanın qədim və güclü fəlsəfi bazası mövcuddur.

Beləliklə;

***a.*** Terror Azərbaycan əxlaqına ziddir;

***b.*** Müasir Azərbaycan dövlət quruculuğu fəlsəfəsində ənənəvi ictimai-humanitar baxışlar və fundamental milli-mənəvi dəyərlər güclüdür;

Qeyd olunanlar səbəbindən Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etdikdən sonra onun milli-mənəvi dəyərlər sisteminin təbii yolla və öz axarı ilə ölkənin müasir dövlətçilik fəlsəfəsinə hopması və yeni reallıqlar üzərində humanist insan ölçüsü ilə canlanması qanunauyğunluq olaraq qəbul edilir; buna görə də:

***1.*** Azərbaycan Respublikasında terroru dəstəkləyən siyasət aparılmır;

***2.*** Azərbaycan Respublikasında terrogen situasiya yarada biləcək səbəblər islah edilir;

***3.*** Azərbaycan dövlətinin daxili və xarici siyasətində milli qisasçılığın təbliği və təşviqi qanundankənar hesab olunur, dövlətin mövcud qanunvericilik bazası hər cür Şər formatını qadağan edir;

***4.*** Azərbaycan dövləti mövcud münaqişələrin yumşaq diplomatiya – danışıqlar prosesi və hüquq normaları əsasında həllinə üstünlük verir;

***5.*** Azərbaycanda dövlət büdcəsi social yönlü formalaşdırılır;

***6.*** Ölkədə investisiya yönlü siyasət prioritetdir;

*7.* Dövlətin əsas məqsədi və hədəfi humanist insan ölçüsünün səviyyəsini yüksəltməkdir.

Ümumiləşdirici qənaət olaraq: Azərbaycan Respublikasında terrora qarşı mübarizə onun tarix yaddaşına uyğun yaradılan hüquqi baza, humanist milli-mənəvi dəyərlər və bəşəri gözəllik meyarı daxilində aparılır. Bu prosesdə insan hüquqlarının qorunması əsas şərt olaraq qəbul edilmişdir.

Azərbaycan dövləti uzun illər terror təzyiqinə məruz qalmış və onun dinc yolla həlli taktikasına üstünlük vermişdir. Bu yanaşmanın fəlsəfi-tarixi qaynaqları məlumdur. Lakin XX əsrin sonu – XXI əsrin əvvəllərinin siyasi reallıqları Azərbaycanın antiterror konseptinin özəlliyini də göstərmişdir: terrora qarşı mübarizənin müəyyən mərhələsində ictimai-siyasi ədalətin təntənəsi üçün "sərt qüvvə"nin tətbiqi istisna edilmir.[76] Bunu erməni dövlət terroru üzərində 2020-ci ildə qazanılan qələbə tam təsdiq etdi.

# V. ERMƏNİ TERRORUNUN ETNO-SİYASİ PSİXOLOGİYASINA DAİR

## V FƏSLƏ ÖN SÖZ

Terrorşünaslıqda terrorun yaranmsı və genişlənməsində etnopsixologiya və siyasi psixologiya amillərinin xüsusi rolunun olması fikri qətiləşmişdir. Həm bu səbəbdən, həm də Azərbaycan XVIII əsdən başlayaraq, əsasən, erməni terroruna məruz qaldığı üçün bu terrorun etnik-siyasi mahiyyəti ilə yanaşı, bəzi psixoloji xüsusiyyətlərinə də nəzər salmaq zərurəti vardır. Erməni terroruna qarşı mübarizədə qabaqlayıcı tədbirlərin hazırlanmasında bu yanaşmanın əhəmiyyətli rolu mümkündür. Digər tərəfdən, bu yanaşma erməni terrorunun yaranmasının qaynaqlarına da aydınlıq gətirə bilər.

Tarixən fantaziya və xəyalpərəst təsəvvürlərlə "icma və kilsə"nin siyasi vəhdətini yaradıb, milli dövlətçilik iddiasına qapanmaq və onun həyata keçməsi yolunda hətta düşmənçilik, qisasçılıq, xəyanət və qarşıdurma yaratmaqdan da çəkinməmək, öz hərbi-siyasi problemini birbaşa nüfuzlu üçüncü tərəfin müdaxiləsi ilə həll etmək əqidəsi erməniçi düşüncənin baza elementidir*.

---

* XVII əsrin sonları - XVIII əsrin əvvəllərindən başlayaraq erməni elitasının Avropaya, xüsusilə də çar Rusiyasına siyasi oriyentasiyasını qətiləşdirməsi erməni etnopsixologiyasını və siyasi psixologiyasını bu mərhələlər üzrə kökləmişdir (erməni terroru bu mərhələlərin tərkibində realizə edilirdi): ***1.*** O dövrün qabaqcıl xristian dövlətlərinin siyasi qəyyumluğunu qəbul etməklə yanaşı, erməni özəlliyini, xüsusilik hissini qoruyub saxlamaq; ***2.*** Erməni qriqoryan kilsəsinin mərkəzləşdirici və birləşdirici funksiyasını təcrübədə daha da dərinləşdirmək və məsuliyyətli etmək; ***3.***Xəyali tarixi torpaqlarda ermənilərin statistik çoxluğuna nail olaraq, oradakı demoqrafik vəziyyəti öz mənafelərinə uyğun dəyişdirmək; ***4.*** Qisasçı-millətçi ictimai-siyasi partiyalar yaradaraq, onların ətrafında təşkilatlanaraq birləşmək; ***5.*** Çar Rusiyasının və Sovet hakimiyyətinin şərtləri və tələbləri çərçivəsində etnik-dini özəlliyi qoruyub saxlamaq və mərkəzi hökumətlə münasibətlərdə optimal özünüidarə funksiyasını mənimsəmək; ***6.*** 1991-ci ildən başlayaraq "millət dövləti" \ "dövlət milləti" ideyasını gündəmdə saxlamaqla "qalib xalq", 2015-ci ildən

İdarə etmək və idarə olunmaq xarakter göstəricisidir. İctimai münasibətlər və ictimai-siyasi fəaliyyət də bu xarakterə (həmçinin xalqın xarakterinə) təsir göstərə bilir. Bu baxımdan sadalanan mərhələlərin erməni xarakterinə təsiri labüddür.

Müasir tibb elmi isə "müxtəlif mədəniyyətlərdə norma və patologiya"nın xarakterə təsiri mövzusunun bir çox istiqamətlərini etnopsixologiya müstəvisində analiz etmişdir. Bu tədqiqatlar psixopatologiyanın dəyişkənliyini və onun etnomədəniyyətdən asılılığını göstərmiş, etnik psixoz elementini elmi dövriyyəyə qatmışdır. Bütün bunların fonunda xarakterdə gedən dəyişiklikləri görmək mümkündür. Buraya "insan və cəmiyyət" münasibətlərində, təfəkkür tərzində, hiss-həyəcanı ifadə etməkdə normadan yayınmaq, qorxaqlığı qaddarlıqla ört-basdır etmək xarakteri hakimdir. Erməniçi dünyagörüşünün formalaşdırdığı "Böyük Ermənistan" məqsədi və ona xidmət edən faktlar və fəaliyyət taktikası uzun illər elə interpretasiya edilmişdir ki, o, erməni cəmiyyətində etnik psixoz səviyyəsinə çatmışdır. Bir çox müəlliflər bunu "erməni xəstəliyi" olaraq elmi dairələrdə gəzdirirlər. Belə bir ağır psixoloji və social xəstəliklər keçirdiyi üçün patoloji yalançılıq və qorxaqlıq ermənilikdə elmi mistifikasiya və falsifikasiyanın, eləcə də qəddarlığın tərkib hissəsinə çevrilmişdir.

Ermənilərin mədəni ideyalarının ("Böyük Ermənistan", "erməni genosidi", "ermənilər Qafqazın avtoxton xalqıdır") nəsildən-nəslə ötürünüşünün psixoloji mexanizmlərinin patoloji mahiyyəti ondan ibarətdir ki, erməni cəmiyyəti erməni mədəni ideyasını və ermənilərin əcdadlarının zədələri haqqında təsəvvürləri inkar edənlərin hamısının ədalətsizliyi haqqında yaddaşlarını müntəzəm olaraq təzələsinlər.

Erməni dünyabaxışında azad olmaq, azad yaşamaq hissi bu istəyin kənar qüvvə tərəfindən təmin olunması və müdafiə edilməsi düşüncəsi əsasında qavranılır. Buna görə də erməniçi psixologiyada müstəqillik deyil, özünə himayədar axtarıb tapmaq əqidəsi daha güclüdür. Bu ictimai-siyasi baza təmin olunmayanda, seperatçılıq və

---

(xüsusilə də 2020-ci il məğlubiyyətindən sonra) isə "qisasçı xalq" imicini formalaşdırmaq.

üsyankarlıq gündəmə gətirilir. Himayədar axtarışında erməni-qriqoryan kilsəsinin mövqeyi həlledicidir. Bu baxımdan İ.Orinin erməni kilsəsinin “mandatı” ilə Avropa hakim dairələrini qapı-qapı gəzməsi, Mərkəzi Avropadan “yox” cavabı alıb, milli iradəni Rusiyaya bağlaması təsadüfi deyildir. Buna görə də erməni dövlətçiliyi baxışlarında teokratiyanın nadir bir forması yaranmışdır.

Sosial eqoizm və ehtimallara qapanaraq özündən qürur duymaq hissi erməni tarixinin demək olar ki, bütün dövrlərində nəzərə çarpır[*]. Buna görə də ermənilik, adətən, vətən tarixini deyil, mənsub olduğu etnik mənşəyin tarixini öyrənməyə və bu bazadan çıxış edərək xüsusilik, birincilik və nəhayət, özəl iradə azadlığı, xüsusi din və dövlət içində dövlət maraqları amilini və bu maraqlar uğrunda ən qəddar savaş üsullarını təbliğ və təşviq etməyə aludədir.

Bu nəzər nöqtəsi mövzu üçün vacib olan digər bir elementi – “Qafqaz xarakteri” amilinə də diqqət yetirməyi aktuallaşdırır.[77] Erməniliyin Qafqaz mentaliteti fonunda ögey görünməsi onların regionda avtoxton olmamasından irəli gəlir. Erməni tərəfinin eyni zaman-məkan, region dairəsində həm Azərbaycan, həm də Gürcüstan ilə problem yaşaması bir daha təsdiq edir ki, gərginliyin səbəbi gəlmə xalqın etnopsixologiyasındakı qafqazlı xarakterinə yadlıqdan, süni xüsusilik, ədalı və iddialı ehtimallar, subyektiv maddi-mənəvi tələblərdən irəli gəlir.

---

[*]“Бакинский Листок” qəzeti 6 mart 1871-ci il tarixli 1-ci sayında Bakıda formalaşmaqda olan rus-azərbaycanlı-erməni ictimai mü- hitini milli-mənəvi dəyərlər fonunda qarşılıqlı müqayisə ilə xarakterizə etmişdi. Həmin məqalədə “gəlmə” təyini ilə təqdim olunan erməni azlığının xislətindəki etnopsixoloji elementləri müəllif – redaktor Xristian Tsink belə ifadə etmişdir: “Biz (rus ictimai mühiti. – E.C.) istərdik ki, ermənilər bizə inansınlar, yalnız erməni olmaqdan, hətta yalnız ermənini ən yaxşısı olmaqdan da əl çəkməyin vaxtı çatmışdır. İnsan olmaq üçün həyat geniş imkanlar açır, başa düşün, ancaq rus insanı olmaqdan söhbət getmir, sözün mütləq mənasında insan olmaqdan gedir. Bilirik, ruslaşmaq fikri Sizi qorxudur, bu – təbiidir <...> Biz Sizə öz şii şorbamızı, kvasımızı, trepak rəqs musiqimizi, al-qırmızı koynəyimizi zorla qəbul etdirmək fikrində deyilik; biz Sizə bütün bəşəriyyətin ümumi müqəddəs dəyərlərini təşkil edən şeylərdən bəhs edirik”.[78]

Etnik taleyindəki *köç* sindromu da erməni etnopsixologiyasında və siyasi psixologiyasında xarakter formalaşdırıcı rol oynamışdır.

Beləliklə, yuxarıda şərh olunanlara əsasən demək mümkündür ki, erməniçi siyasi mədəniyyətdə həm kreativ, həm də konservativ xüsusiyyətlər bir-birini həm cəlb, həm də rədd etdiyindən "mən özüm" və "məni əhatə edənlər" anlayışı qətiləşərək etnopsixologiyada müəyyən özünüidarə və özünü təsdiqetmə istiqamətləri yaratmışdır. Bunu qısaca olaraq belə sistemləşdirmək mümkündür:

***1.* Siyasi müştərilik;**

***2.* Siyasi mütilik – satelitlik.**

Göründüyü kimi, özünüifadə və özünütəsdiq etnik psixozun, etnik psixoz isə erməni terror düşüncəsinin təkan nöqtəsi kimi etnik xarakterdə yer almışdır.

Beləliklə, erməni elitasının israrla haqq qazandırmağa çalışdığı "erməni terroru özünümüdafiə formasıdır və milli-azadlıq hərəkatıdır", – iddiasının heç bir elmi əsası yoxdur.

## ERMƏNİ TRAYBALİZMİ VƏ ERMƏNİ TERRORU

Erməni etnopsixologiyasında dominantlıq edən etnik xüsusilik və xüsusi din mənsubluğu onda digər etnik-din mənsubları üzərində imtiyazlı üstünlüyə maliklik məntiqi formalaşdırmışdır. Erməniliyin ictimai-siyasi hegemonluq iddialarının təminatçısı olan bu məntiqin evalyusiyası hay dualizmini formalaşdırmışdır: traybalizm* və probabilizm.

---

* "Tribus/tayfa" sözündən yaranmışdır, tayfalararası mədəni-məişət məsələlərində öz tayfasının xüsusiliyini, ictimai-siyasi münasibətlərdə tayfa düşmənçiliyinin realizəsi kontekstində qəbul edilir, klassik mənada məhz tayfanın yuxarı təbəqəsinin mövqeyini və fəaliyyətini vurğulamaq üçün elmi dövriyyəyə qatılmışdır;[79] hazırda bu terminin məna və əhatə dairəsi xeyli genişlənmiş, onun tərkibinə etnonasionalizm, modernləşmiş traybalizm qənaəti əlavə olunmuşdur. Müasir sosial-siyasi münasibətlər çərçivəsində erməniliyin hegemonluq hikkəsi, öz iradəsini qeyd-şərtsiz qəbul etdirmək, dövlət içində dövlət olmaq iddiası, türkfobiya/azərbay-

canfobiya mövqeyi yeni tipli traybalizm göstəricisidir. Mənsub olduğu etnik xüsusiliyinə və dominantlığına əsaslanaraq digər etnik qruplara qarşı düşmənçilik, milli qisas, ictimai-siyasi eqoizm və qısqanclıq hissləri ilə yanaşmaq bu terminin məzmununu daha da genişləndirmiş, onun mahiyyətinə total qəddarlıq və terminatorçu davranış tərzi əlavə etmişdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev azad edilmiş Füzuli şəhərindən xalqa müraciət edərkən mənzərəni belə xarakterizə etmişdi: "...Şəhərdən... əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi... Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir".[80] Beləliklə, terminin məna tutumunda etnik mənsubiyyət və qəbilə düşüncəsinin ictimai-siyasi münasibətlərdə əsas rol oynaması, başqa etnik-dini qrup mənsublarının hərtərəfli diskriminasiyası, bunların formalaşmasında isə "etnik yuxarı təbəqə"nin fəal mövqe tutması "erməni traybalizmi" anlayışını təsdiqləyən xüsusi göstəricidir. Erməni etno-siyasi psixoligiyasında traybalizminin dərin kök saldığını aşağıdakı dialoq da təsdiqləyir:"Amerika Birləşmiş Ştatları Ali Hərbi Dəniz Donanma Məktəbinin müəllimi, professor **Brenda Şafer:** ... Siz (Azərbaycan Respublikasının prezidenti İlham Əliyevlə müraciətlə. – E.C.) Ermənistanın davranışı və münaqişə haqqında danışdınız... Bu münaqişədə isə minalardan xüsusi olaraq istifadə edilib. Bu, yalnız müdafiə xətlərinin yaradılması deyil, hətta Kəlbəcərdə humanitar məqsədlərlə 10 günlük əlavə vaxt istənilən zaman belə orada əlavə olaraq minlərlə mina yerləşdirilmişdir. Bununla yanaşı, Azərbaycan Ordusunun şəhidlərinin cəsədləri altına minalar yerləşdirilirdi ki, onları daşımaq və ailələrinə təhvil vermək üçün yaxınlaşan həkimlər və tibb işçiləri qətlə yetirilsin və yaralansın. Bu, müasir dövrdə misli görünməmiş hallardır. Beynəlxalq ictimaiyyət buna rəvac verməlidirmi? Məsələn, ABŞ Konqresi demək olar ki, hər il Qarabağın minalardan təmizlənməsinə vəsait ayırırdı. Ancaq mənə elə gəlir ki, həmin vəsait minalı ərazilərin yaradılmasına sərf edilib...

Erməni yuxarı təbəqəsi tarixən müxtəlif sosial-siyasi istiqamətlərin etnik düşüncə və etnik faydalılıq mövqeyinin simbiozu olaraq formalaşmışdır. Buraya mənsub olduğu xalqın xüsusiliyinə və dominantlığına əsaslanaraq özgə etnik qruplara qarşı düşmənçilik, milli qisas, eqoizm və qısqanclıq münasibətləri ilə yanaşmaq hissi ilə mövqeləşmək, panermənizm düzən və düşüncə formasına vurğunluq və s. etnik-dini düşüncəyə xidmət göstərən amillər də daxildir; psixopatizm və sosiopatiyaya məruzluq isə hazırda bu terminin qavranma dairəsinə yeni mənalar əlavə etmiş, ilkin mənasının sərhədlərini genişləndirərək, əsasən, radikallığın və fanatizmin proobrazı, ərazi ilhaqı və siyasi güzəştlər qazanmaq arzuları, genefondun fanatikcəsinə qorunması, təketnikli icma anlayışı, diskriminasiya ətrafında yayılaraq, ictimai-siyasi vəziyyətə uyğun dəyişkənlik xarakterinin, qeyri-stabil cəmiyyətin göstəricisi olmaq keyfiyyətini də mənimsəmişdir; bu müstəvidə formalaşan tayfa mənsubluğu və din qardaşlığı əsasında yaradılan etnik terror təşkilatlarının fəaliyyətinin etnopsixoloji məntiqi də buradan qaynaqlanır.

V.Veliçkonun erməni yuxarı təbəqəsinin təbliğatını "qəbilə ideya"sı adlandırması təsadüfi deyildi. O yazırdı ki, bu xalq dövlətçilik, zadəganlıq hissinə deyil, gizli siyasi teokratik quruculuğa meyilliyə, başqa xalqların gözəllik amillərinə həsəd apararaq formaca assimilyasiyaya uğramaq həvəsinə malikdir; bu fikir, bütövlükdə, erməni etnopsixologiyasında traybalizm və probabilizmin mövcudluğunu təsdiq edir.[81]

---

**Prezident İlham Əliyev:** ...biz onlara (Ermənistan tərəfinə. – E.C.) 10-20 gün arası vaxt verdik ki, noyabrın 10-da imzalanmış razılaşmaya əsasən tərk etməli olduqları ərazilərdən çıxsınlar. Lakin onlar bu müddəti minaların basdırılması, özlərinə məxsus olmadığı, lakin içində yaşadıqları evlərin yandırılması, ağacların kəsilməsi və digər ekoloji fəlakətlərə yol açan əməllərə sərf etdilər. Yəni, bu, onların davranışını göstərir və bu, açığı desək, təkcə hökumətin davranışı deyil. Bu, onlara heç bir pislik etməmiş, oraya yalnız sahib olduqlarını qaytarmağa gələnlərə və doğma yurdlarında yaşamağa gələnlərə qarşı olan nifrətin səviyyəsidir."[79a]

Siyasi təşkilatlar müstəvisində isə traybalizm, əsasən, etno-nasional hərəkatlarda sistemli radikal və dağıdıcı mövqe tutmaqla, terrorçuluqla təmsil etdikləri etnik qrupun ictimai-siyasi mövqeyini və cəmiyyətdəki imkanlarını daha da yüksəltmək istiqamətindəki fəaliyyətdə özünü ehtiva edir. Çar gizli polisinin məktubunda bu xüsusiyyət birbaşa vurğulanmışdı: "<...> onlar (ermənilər.– E.C.) muxtariyyətə layiq deyillər, çünki inqilabi təşkilatdan (o dövrdə çar hakim dairəsinin leksikonunda işlədilən "inqilabi" sözü terrorçu anlayışının daşıyıcısı idi. – E.C.) başqa erməni xalqının istək və tamahını ifadə edən heç bir təşkilatları yoxdur <...>. Fransanın baş naziri Brian, Poqos Nubar paşanı (erməni katolikosunun Fransada təmsilçisi. – E.C.) yanına çağırıb təəssüflə bildirmişdi ki, erməni xalqı ancaq inqilabi təşkilatlara malikdir, məsələn, Daşnaksutyun kimi. <...> Bundan sonra Poqos Nubar paşa yanında olan daşnakçı doktor Zavriyevin geri çağırılmasını tələb etmişdir. <...> Brianla görüşdən sonra Poqos Nubar paşa katolikosa və Ambarsum Arakelyana məktub yazaraq <...> xahiş etmişdir ki, inqilabi xarakterə malik olmayan yeni bir cəmiyyət, yaxud siyasi təşkilat yaradılsın <...>. Bu ilin (1917-ci il.- E.C.) yanvarında keçirilən müşavirədə Erməni Milli-Xalq Partiyasının yaradılması qərara alınmışdır <...>. *Polkovnik Pastryülkin*".[82] Erməni lobbi[*] hərəkatının da etnonasional xarakteri bu kökdəndir və traybalizmi müasir humanitar diplomatiya elementləri ilə pərdələməklə özünü ifadə edir.

---

[*]"Lobbiçilik" sosial anlayışdır və bu mövqedən də onun fəaliyyətinə imkan verilir. Lakin erməni diaspor quruculuğu traybalizmin təsiri altında bu anlayışın əsasındakı humanitar düşüncəyə panermənilik, hakim dairəyə hər vasitə ilə təsir etmək vasitəsi, hətta "sərt diplomatiya"ya meyllik motivi də aşılamışdır. Beləliklə, erməni lobbiçiliyi erməni hegemonluğuna nail olmağı son məqsəd göstəricisinə çevirmiş, bu müstəvidə modernləşmiş erməni traybalizminin hüdudlarını genişləndirmiş, "sərt qüvvə"nin müxtəlif formalarına dəstək verməyin qürurunu yaşamaqdadır. ABŞ konqresinin Azərbaycana qarşı qəbul etdiyi 907-ci düzəliş ətrafında cərəyan edən işlər və erməni lobbisinin fəaliyyəti bunun göstəricisidir; Azərbaycan ərazisinin 2020-ci ilədək işğalını öz nailiyyəti kimi təbliğ edərək, "erməni xalqının tarixi ədaləti uğrunda mübarizədə bütün üsullar məqbuldur", – yezuitçi deviz erməni lobbisinin amalıdır.

Beləliklə, erməniliyin tarixən radikal mövqe tutması nəticə etibarilə siyasi prosesdə vacib tərəf kimi görünmək ehtirasından, hətta etnik xarakterdəki siyasi oyuncaq olmaq hissindən çəkinməməkdən irəli gəlir: bu oyunun sonu terror kompleksini formalaşdırmağa gətirib çıxarır. Azərbaycana qarşı erməni terrorunun son əsrlər tarixi göstərir ki, həmişə regional ictimai mühitdə sistem dəyişiklikləri ərəfəsində ermənilik müxalif siyasi proseslərə daha operativ qoşularaq siyasi arzular icra etməkdə maraqlıdır.

XVIII əsrdən başlayaraq ictimai-siyasi hadisələrin inkişaf tendensiyasını dini mənsubiyyət mövqeyindən həll etməyi qətiləşdirən erməniliyin XX əsrin əvvəllərində, xüsusilə də Rusiyada inqilablar dövründə müxtəlif məsləkli siyasi-inzibati dairələrə sızaraq məhz etnik-dini toplum halında təşkilatlanması, siyasi məqsədlərinin qanunsuz silahlı təhdidlərlə həll olunmasını israrla davam etdirməsi traybalizmin mənimsədiyi etnonasionalizmə məftunluqdan irəli gəlir. Ermənilikdə etnonasionalizm həm də ondan irəli gəlir ki, hətta muxtariyyətdən üstün status aldıqdan, respublika qurduqdan sonra da etnik erməni terroru davam etmiş və davam etməkdədir. Çünki onun “türksüz Ermənistan” arzusu, ictimai fikrə “erməni soyqırımı” termini ilə total təzyiq edib qisas almaq yanğısı ilə tayfa təbliğatı formasıdır. Buna görə də ermənilik öz problemlərini demokratik dəyərlər müstəvisində çözməkdə israrlı deyil, çünki obyektiv tarixi yaddaşa münasibətdə ancaq öz həqiqətinə inanır, parlamentariliyi deklarativ formada dəstəkləyib, “sərt güc”ə üstünlük verməkdə maraqlıdır. Bu, etnopsixologiyada traybalizmi təsdiqləyən əlavə göstəricilər silsiləsindən bir qrup kimi qəbul edilə bilər.

Erməni traybalizmi başqa bir müstəvidə də özünü ifadə edir: Kiçik Asiya və Cənubi Qafqazda toplum halında məskunlaşmaq imkanları qazandıqdan sonra ermənilik türk olmayan digər region xalqları ilə də münasibətdə bu və ya digər problem yaradaraq onun içində yaşamaqdadır.

Bu gün “Ermənistan” adlanan bir dövlətin “erməni məsələsi”ni növbəti dəfə diriltməklə özəl milli-mənəvi dəyərə malik xalq imicini qabartması və gərginləşmiş beynəlxalq münasibətlər sisteminə təpilərək sistemli terror üsulu ilə Azərbaycanı müharibəyə təhrik

etməsi ədalət və demokratiyanın ermənisayağı qavramına – öz azadlığı, öz həqiqəti, öz ədaləti prinsipinə xidmət göstərir.

Tarixən erməni azlığı yaşadıqları dövlətdə tez-tez üsyan edər, titullu xalqla dinc yanaşı yaşamaq prinsiplərini pozar. Bu səbəbdən də türk xalqlarının cazibə dairəsinə düşəndən sonra onların ilk dövrlərdə qazandıqları etibarlılıq imici sürətlə aşağı düşmüşdür. Çünki həmin etibarlılıq tayfaçılığa xidmət edən mülahizələri dəstəkləyən erməni yuxarı təbəqəsini konyunkturaçı münasibətlərə meylləndirmişdir.

1701-ci ildə İ.Orinin canfəşanlığı nəticəsində erməni elitasının tamamilə Rusiyaya meyilli siyasi mövqe qəbul etməsi, 1844-cü ildə isə İstanbuldakı erməni patriarxlığının çar Rusiyası imperiyasının hüdudlarında fəaliyyət göstərən Eçmiədzin katalikosluğunun tabeliyinə keçməsi erməniliyin bu dəfə Rusiyanın təsiri altına düşməsi prosesini sürətləndirmiş və qətiləşdirmişdir. Beləliklə, tayfa xəyanəti ilə qəyyum axtarışının vəhdəti traybalizimi formalaşdıran yeni xüsusiyyətə çevrilmişdir.

XVII əsrdən başlayaraq Avropada bu və ya digər dərəcədə özünü büruzə verən iqtisadi-siyasi dəyişikliklər Şərqdə, Afrika regionunda ilk növbədə traybalizm xarakteri olan etnik-dini azlıqlardan istifadə edərək, forpostlar yaratmağı yeni hərbi taktika və siyasi təsir vasitəsi kimi dövrün qabaqcıl hərbi-diplomatik strategiyasına çevirmişdi.

Bu cəhətdən traybalizmli xalqlar ən münasib variant idi. Belə yanaşma dövrün gərginliyini daha da yüksəldən əlavə bir amili formalaşdırırdı, yəni traybalizmli regional xalqlar hərbi-siyasi sistemdə özlərinin "vacibliyini" dərk etməyə başlamışdılar, buna görə də onların özəl milli-mənəvi dəyərə malik xalq hissi realist düşüncəni üstələmiş, öz iradəsini yeritmək üçün daha radikal mövqe tutmağın zamanı yetişmişdir qənaəti ilə yaşam tərzini önə keçirmişdir. Erməni terrorunun keçdiyi yol bunun klassik nümunəsidir.

Regionda erməni traybalizminin oyanışında Avropa səyyahlarının və missionerlərinin xüsusi rolu olmuşdur. Regionda gedən hərbi-siyasi proseslərdə "tayfa amili"nə bağlılığı da hərtərəfli öyrənmək üçün buraya səyyahlar və missionerlər göndərmək humanitar taktika idi. XVII əsrdə fransalı Rafael dü Man, Jan Batist Tavernye,

holland Yan Streys və başqaları buralarda olmuşlar. Guya Azərbaycanda kənd təsərrüfatının inkişaf səviyyəsinə xüsusi diqqət yetirirmişlər. Ancaq regionda yaşayan əhalinin etnik-dini tərkibində xristian amilini "öyrənib" vurğulamaqla Avropa ictimai fikrinə sızdırmalar etməyi də unutmamışlar. Çünki bu "xırdalığa" dair məsələlər xeyli vaxt idi ki, Xristian dünyasını rahatsız edirdi; gələcəyin böyük strateji niyyəti həmin amildən çox asılı idi.

Kilsə əlaqələri çərçivəsində bu tipli xəbərlərin sürətlə yayılması Yaxın Şərqdə, xüsusilə də Türkiyə və İranda yaşayan ermənilәri tez-tez üsyan və təxribatlar törətməyə, muxtariyyət barədə düşünməyə vadar edirdi.

Azərbaycanda terrogen situasiyanın yaranmasında çar Rusiyasının bu coğrafiya ilə bağlı siyasi strategiyası təsirsiz qalmamışdır. Erməniçi düşüncədəki traybalizm elementləri bu hərbi strategiyanın həyata keçirilməsində mühüm rol oynamışdır.

Azərbaycana hərbi müdaxilə ərəfəsində erməni arxi- yepiskopu İosifin knyaz Q.A.Potyomkinə və general-poruçik A.V.Suvorova region, o cümlədən Qarabağ məlikləri barədə kəşfiyyat xarakterli məlumatlar ötürməsi faktları vardır. Ermənilіyin Rusiyaya agentlik etməsi faktları I Pyotrun vaxtında da olmuşdur.[83]

Ezov yazır ki, məhz arxiyepiskop İosif kilsə mənsub- larının beyninə yeritmişdi ki, erməni xalqının həqiqi maraqları Rusiyanın maraqları, onun Şərqə olan ali istəkləri ilə üst-üstə düşür.[84] O dövrdən də başlayaraq çar Rusiyası erməni muxtariyyətinin yaradılması fikirini siyasi dairələrdə səsləndirməyə başlamışdı.

Məhz rus çarının yüksək rütbəli məmurları, xüsusilə də Q.A.Potyomkin ermənilərin müsəlman dövlətlərindən azadlığı məsələsinin Rusiyanın tələbi kimi deyil, Eçmiədzinin təşəbbüs göstərib rus çarından xahiş etməsi formasında olmasını erməni şüuruna yeritmişdi[84a].

Erməni mənşəli ABŞ tarixçisi Herand Pasdermaciyan "Erməni tarixi" kitabında yazır: "II Yekaterina Rusiyanın himayəsi altında bir Ermənistan ölkəsinin (məhz "ölkə", "dövlət" demir. Bir çox illər sonra, I Dünya müharibəsinin sonuna uyğun yeni dünya düzəni üçün ABŞ prezidenti Vilson bu fikri "milli ocaq" kimi siyasi dövriyyəyə atacaq.– E.C.) yaranması üçün plan da hazırlamışdı. Bu plan ciddi

şəkildə kraliça Yekaterina ilə onun bu işin icrası üçün nəzərdə tutduğu Potyomkin arasında müzakirə edilmiş və hətta qərara alınmşdı ki, plan həyata keç- dikdən sonra Potyomkinin özü həmin ölkənin başçısı olsun. Bu işin icrası üçün geniş hazırlıq da görülmüşdü".[85]

Birinci cahan müharibəsindən sonra yeni dünya ni- zamından razı olmayan dövlətlərdən biri Rusiya idisə, xalqlardan biri də ermənilər idi. Buna görə də "erməni məsələsi"nin öz istəklərincə həll olunmadığını duyan erməni ideoloqları revanşizmə meyillənmiş, azərbaycanlılara qarşı soyqırımı siyasətini planlı şəkildə və daha qəddar formada davam etdirməyə başlamışdılar.

1918-ci ilin mart ayında geniş Azərbaycan coğrafiya- sında minlərlə insan vəhşicəsinə öldürülmüşdü.* Erməni müəllifləri özləri də traybalizm göstəricisi olan tayfa lovğalığı ilə törətdikləri qətllərin vəhşilik dərəcəsini xüsusi pafosla ifadə etməkdən çəkinməmişdilər. Eyni xarakterik əlaməti 1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə Xocalıda törədilən erməni vəhşətinin icrasında və mətbu

---

* 31 mart 1918-ci il cinayətinin terror olduğu qənaətini belə şərh etmək mümkündür:

Terror *ancaq dinc dövrdə* cəmiyyətdə sosial-siyasi məqsədə çatmağın sakit-çiliklə mümkün olmadığı şəraitdə tətbiq olunan zorakılıq taktikasıdır; insanlar arasında fərdi, yaxud kütləvi qorxu hissi yaratmaq, əhalini siyasi liderlərə təzyiq göstərməyə vadar etməklə sosial- siyasi məqsədlərə çatmaq üsuludur. terrorism | Definition, History, & Facts | Britannica) 24/03/22

Genosid isə *həm dinc, həm də dinc olmayan* (məs.: müharibə vaxtı) dövrdə milli-dini, irqi qrupu tamamilə, yaxud qismən məhv etmək məqsədilə törədilən öldürmək, ağır bədən xəsarəti yetirmək, yaxud psixi zərər vurmaq, fiziki məhvə hesablanmış social şəraitsizlik yaratmaq, demoqrafik vəziyyəti qəsdən pisləşdirmək, irqi-dini ayrı-seçkilik yaradaraq bu tərkibi qəsdən dəyişdirmək üsuludur. Конвенция о предупреждении преступ-ления геноцида и наказании за него — Конвенции и соглашения — Декларации, конвенции, соглашения и другие правовые материалы (un.org) 24.03.22.

Hər iki cinayətin müqayisəli təhlili 1918-ci ilin 31 mart vəhşətinin terror üsulu ilə icra olunduğunu bildirir. Beləliklə, niyyətə çatmaq yolunda soyqırım – məqsəd, terror – səbəb olaraq özünü göstərir.

ifadəsində də görmək mümkündür (bax: Zori Balayan: "Ruhumuzun dirçəlişi", David Herdiyan: "Xaç uğrunda"). Eduard Robertoviç Qriqoryan adlı birisinin başçılığı ilə 27–29 fevral 1988-ci ildə Sumqayıtda törədilən etnik təxribatçılıqda məhz erməni əsilli insanların erməniləri öldürülməsi isə erməni traybalizminin göstəricisini təsdiq edir.

XX əsrin əvvəllərində Azərbaycana qarşı erməni terror aktlarının ideoloqu Stepan Şaumyan idi. Onun inqilabi fəaliyyəti məzmun və forma etibarilə tamamilə traybalizm üzərində qurulmuşdu. Bakı kommunasında ən vacib vəzifələrin əksəriyyətini erməni mənşəli komissarlara tapşırmışdı. Şəhərdə yaradılan hərbi hissələrin də tərkibini ancaq rus (bolşevik) – erməni qarışığı təşkil edirdi. 1918-ci il mart ayının 3-də V.Leninin Almaniya ilə bağladığı Brest sülh müqaviləsinin şərtlərinə görə cənub-qərb cəbhəsindəki Rusiya əskərlərinin Gürcüstandan keçib, Azərbaycan yolu ilə Rusiyaya qayıtması fürsətindən istifadə edən Şaumyan bu ordunun tərkibindəki erməni əskərlərinin Bakıda qalmasına nail olmuşdu. * Çünki, o,

---

* Sovet Rusiyası erməni terror birləşmələrinin leqallaşmasında xüsusi siyasi məharət göstərmişdi. İ.Stalinin göstərişinə diqqət edək:

"İnqilab komitələrinin, inqilab qərargahlarının, şuraların və s. Sovet idarələrinin nəzərinə çatdırılır ki, erməni inqilab təşkilatları sərbəst şəkildə könüllü erməni dəstələri təşkil etmək və onların maliyyələşdirilməsi məqsədilə ödənişlər yığmaq hüququna malikdir. Qeyd olunan Sovet təşkilatlarına vəzifə olaraq tapşırılır ki, vətənini alman-türk qəsbkarlarından müdafiə etməyə cəlb olunmuş bu dəstələrin Ermənistan istiqamətində irəliləməsinə maneə törətməsinlər. Milli məsələlər üzrə Xalq komissarı Cuqaşvili-Stalin. 16 mart 1918-ci il, N-325" .[86]

Azərbaycanda 1918-ci il mart soyqırımının başlanmasına iki gün qalırdı...

Erməni-bolşevik cütlüyünün münasibətlərini İ.Cuqaşvili – S.Şaumyan yazışmaları əsasında sübut etmək üçün bu fakta da diqqət yetirək. Bu dəfə azərbaycanlıların mart soyqırımından üç ay sonra göndərilmiş bir məktuba nəzər salaq:

"18.VI.1918. Yoldaş STALİNƏ.

Əziz Soso!

Bu məktubu təqdim edən Tiqran Qazançıyan şəxsən tanıdığım köhnə qınçaqçıdır ("Qnçaq" erməni terror təşkilatı. – E.C.). O, Şimali

Bakıda "vətəndaş müharibəsi" adı altında etnik-dini "təmizlik" apararaq şəhərin azərbaycanlı əhalisini minimuma salıb, ermənilərin sayını artırmaqla Abşerona sahib çıxmaq, dolayısı ilə Azərbaycan neftini işğal etmək planını gerçəkləşdirirdi.[87] "Bizim siyasətimiz vətəndaş müharibəsidir. Kim bu siyasətin əleyhinədirsə, o da bizim düşmənlərimizin nökəridir. Vətəndaş müharibəsi gələcək üçün çox vacibdir" .[87a]

Həmin hadisələr həm də bir neçə ildən sonra Azərbaycana münasibətdə təbliğ olunacaq "Bakısız Azərbaycan" siyasətinin başlanğıcı idi. Şaumyanın dediyi "gələcək üçün" ifadəsi bunu təsdiq edə bilir.

1917-ci ildə Rusiyada hakimiyyət bolşeviklərin əlinə keçsə də, sovetlər Qafqazda möhkəmlənə bilməmişdilər. Brest müqaviləsindən sonra Almaniya, Osmanlı dövləti və Sovet Rusiyası Azərbaycan nefti uğrunda müxtəlif gizli planların icrasına başlamışdılar.

İctimai-siyasi gündəmdə yer almış "millətlərin öz müqəddəratını həll etməsi" ideyası regionda xüsusi maraqları olan Osmanlı dövlətində Qafqaz müsəlmanlarının üsyanını təşkil edərək, onların öz dövlətlərini qurmalarına çalışmaq mövqeyi yaratmışdı.[89] Həmin siyasətin bəzi istiqamətləri üzrə hərəkət I Dünya müharibəsinin axırlarınadək hərbi-siyasi gündəmdə idi.[*] Qafqazı Rusiyanın təsir

---

Qafqazdadır. Burada (Bakıda. – E.C.) olarkən danışırdı ki, Tiflisdə tərk-silah olunmuş 500 nəfər yoldaşı əllərinə silah götürüb yenidən bizim sərəncamımıza keçməyə hazırdırlar. Mən ona söz vermişdim ki, sənin adına məktub yazacağam ki, bütün vəziyyəti aydınlaşdırmaq üçün orada bir nəfərə tapşırıq verəsən, əgər bizə bir faydaları olacaqsa, onlara kömək edilsin, bizim dəstələrə qatılsınlar <...> Yoxlamaq üçün Aykuni və Qriqor Vardanyandan (hər ikisi daşnakçıdır.– E.C.) soruşmaq olar, onlar Armavirdədir.

Hələlik işlərimiz yaxşıdır. Sənin S.Şaumyanın".[88]

[*] I Dünya müharibəsində İran bitərəf dövlət idi, lakin Cənubi Azərbaycan bölgəsi Türkiyə, Rusiya və digər dövlətlərin maraq dairəsində olduğu üçün müxtəlif qüvvələr regionda milli-dini qarşıdurmalar yaradıb, ondan hərbi-siyasi mənada faydalanır, azərbaycanlılar yaşayan şəhər və kəndlərdə erməni-aysor birləşmiş silahlı dəstələrinin terror yolu ilə qarətlər etməsinə fürsət verirdilər. Erməni qarətçilərin traybalist düşüncəsini ifadə edə biləcək əlavə bir xarakter göstərici – onlar tez-tez təkrar edərmişlər:

dairəsində görən bolşeviklər isə öncə regionun ən fəal müsəlman millət olan azərbaycanlıların qətiyyətini qırmaq üçün önləyici addım olaraq erməni terror qaragüruhu ilə birgə Bakıda milli qətliama rəvac vermişdi.

Mart ayının siyasi burulğanı regionda böyük narazılığa səbəb olmuşdu. Erməni milli şurasının üzvləri situasiyadan istifadə edərək əvvəlcə hadisələrin bütün məsuliyyətini bolşevik rusların üzərinə atmış, azərbaycanlılarla bolşevikləri qarşı-qarşıya gətirdikdən sonra öz silahlı dəstələri ilə bolşeviklərə sığınmış və martın 18-dən 21-dək Bakıda, ətraf yerlərdə qırğınlar, talanlar və qarətlərə başlamışlar. Bu dövlət terrorunun davamı Azərbaycanın bölgələrini də bürümüşdü. Kənar siyasi dəstək və traybalistcəsinə üsullarla Azərbaycana qarşı terrorçuluq bu günədək davam edir.

## ERMƏNİ PROBABİLİZMİ VƏ ERMƏNİ TERRORU

**E**rməni terrorunun yaranmasında və formalaşmasında mühüm rol oynayan özəl dualizmin ikinci tərəfi probabilizm* xüsusiyyətidir. Probabilizm, əsasən, obyektiv elmi dərkin mütləq və labüd xarakterinə müxalif nəzər nöqtəsi kimi şərh edilir. Erməni etnopsi-

---

"Müsəlmana möhürü, təsbehi və səccadəsi qalsa bəsidir, qalan bütün əşyaları bizimdir". Cənubi azərbaycanlı tədqiqatçıların qeydlərindən məlumdur ki, quldurlar talanmış əşyaları daşıyıb aparmaq üçün arvadlarını da yardımçı kimi özləri ilə dağıtdıqları yaşayış yerlərinə gətirirmişlər.

* Doğruya oxşarlıq, həqiqətə bənzərlik fikri, ehtimallara əsaslanmaq və ehtimallarla əsaslandırmaq düşüncəsi; obyektiv elmi dərkə şübhə pərdəsi çəkən müxalif nəzər nöqtəsi; bu termin də müasir dövrdə əlavə çalarlar, xüsusilə də patoloji yalançılıq amilini, post-həqiqət siyasətini yeritmək xarakterini mənimsəmiş, elmi dürüstlüyün mütləq və qətilik xarekteri ilə deyil, hiss-həyəcanla cəmiyyətdə öz məqsədinə uyğun ab-hava yaratmaq keyfiyyəti qazanmışdır, yəni fakt şişirdilərək elə şərh edilməlidir ki, o, ictimaiyyət tərəfindən qəti həqiqət kimi qəbul olunsun; bir problem barədə bir neçə nəzər nöqtəsi varsa, özün üçün əlverişli və məqbul olana üstünlük verilsin; probabilizimli əxlaq prinsiplərinə görə məhz "öz azadlığı", "öz həqiqəti" və "öz ədaləti" prioritetdir.

xolojisinin formalaşmasında mühüm rol oynayan probabilizmin tənqidi son dövrün tədqiqatlarında geniş təqdim olunur. Bu tədqiqatların fəlsəfəsi traybalistik və probabilistik xüsusiyyətlərə malik bir toplumun perspektivində terrorçu olmaq məntiqinə dəstək var.

Etnopsixologiyada probabilizm amilindən cəmiyyətə təqdim edilmək üçün istifadə olunur. Bu baxımdan erməniçi təsəvvürlərdə bilavasitə içində (yaxud əhatəsində) yaşadığı titullu millət ilə münasibətdə münaqişə fonunda özünü cəmiyyətə haqlı göstərmək anlayışı ilə tanıtmaq üsulu daha dərin kök salmışdır. Burada da yezuit əxlaq prinsipləri özünü göstərir.

Yalançı baxışlarla ictimai-siyasi intriqalar yaratmaq ustalığı sayəsində məqsədə çatmaq üçün bütün vasitələr məqbuldur əqidəsi terrorçuluğa qurşanmanın əsaslarındandır. Məhz yezuit əxlaqı, xüsusilə də katolik dini dəyərlərindən subyektivcəsinə bəhrələnmək planları, ümumiyyətlə, probabilizm xüsusiyyəti erməniçi psixologiyada müstəqillik deyil, kənardan özünə himayədar axtarıb tapmaq, öz problemini üçüncü tərəfin əli ilə həll etmək əqidəsini formalaşdırmışdır.

Himayədar, qəyyum axtarışında erməni-qriqoryan kilsəsinin mövqeyi həlledicidir. Bu mövqe erməniçi düşüncədə ancaq etnik-dini seçilmişliyi probabilizmli israrla erməni dünyagörüşünə yeritməyə səy göstərir. Buna görə də erməni dövlətçiliyi baxışlarında teokratiyanın “fərqli” bir forması yaranmışdır və onun dəyərlər sistemi “vətən – kilsə – dövlət” üçbucağı ətrafında cəmləşmişdir.

Müasir reallıq odur ki, erməni etnopsixologiyası həmin üçbucaq arasında burulğana düşmüşdür. Buna görə də erməniçi düşüncədə “vətən və milli dövlət” cütlüyü ayrı-ayrı qütblərdədir, milli psixoz bu ayrımçılıqdan yaranmışdır. Və mahiyyət etibarilə, “dövlət içində dövlət olmaq” iddiası ilə fəaliyyət göstərmək həvəsindən başqa heç nə törədə bilməmişdir. Sosial eqoizm və ehtimallara qapanaraq özündən qürur duymaq hissi erməni tarixinin demək olar ki, bütün dövrlərində bu və ya digər dərəcədə nəzərə çarpır.

Azərbaycan tarix elminin xüsusilə son illərdə elmi dövriyyəyə cəlb etdiyi faktlar da erməni etnopsixologi- yasındakı probabilistik xüsusiyyətlərin mövcudluğunu təsdiqləyir. Bu baxımdan akademik

Yaqub Mahmudovun tədqiqatları mühüm əhəmiyyətə malikdir. Akademikin “Real tarix” əsəri erməni etnopsixolojisindəki xarakterik dualizmim genezisini və xronologiyasını açmaqla yanaşı, bu sahəyə dair dolaşıq, “elmiliyə” iddialı erməniçi fikirlərin təxribat olduğunu da təsdiqləyir. Akademik Yaqub Mahmudov “ermənilərin mənşəyinin qədim Şərq tarixinə bağlamaq cəhdləri boşa çıxmışdır”, “ermənilərin Anadolu mənşəli olmaları iddiası da təsdiq olunmamışdır”, “ermənilərin qədim tarixini Qafqaza bağlamaq cəhdlərinin də saxtakarlıq olduğu sübuta yetirilmişdir”, “ermənilərin qədim Urartu irsinə sahib çıxmaq iddiaları da baş tutmamışdır”, “ermənilərin sahib çıxdığı qədim “Arminiya”, “Armeniya”, “erməni” adlarının bu gün “erməni” adlananlarla heç bir əlaqəsi yoxdur”, “Böyük Ermənistan” kimi “erməni yaylası” coğrafi anlayışı da uydurmadır, “tarixdə heç vaxt “Böyük Ermənistan” adlı dövlət olmamışdır”, “erməni elitasının sahib çıxdığı Selevki sərkərdəsi Artaksi (Artaşes?) və Zariadri erməni deyillər” və “Atropatena heç zaman II Tiqran tərəfindən işğal olunmamışdır” və bu kimi qətiyyətli fikirləri birbaşa erməni probabilizminin ruhunu dağıdır. Müəllif yazır: “<...> e.ə. VI əsrə qədərki tarixi dövrdə Yuxarı Fərat və Yuxarı Dəclə vadilərində nə əhalinin ermənidilli olmasını, nə də hər hansı bir erməni çarlığının mövcudluğunu təsdiqləyən ilk mənbə yoxdur <...> bu məsələdə İ.M.Dyakonov kimi tanınmış dilçi və tarixçi <...> ilk mənbələrə deyil, yalnız gümanlara, ehtimallara əsaslanmağa məcbur olmuş və bununla özünün heç bir elmi əsası olmayan subyektiv mövqeyini büruzə vermişdir” .[90] O, qətiyyətlə qeyd edir ki, “ermənilərin ulu babaları güman olunan etnos Kiçik Asiyanın yerli əhalisi deyil və onlar Fərat çayının yuxarılarına, həqiqətən, Balkan yarımadasından köçüb gəlmişlər”.[90a] Bu fikrin davamı başqa bir istiqamətdən də diqqət çəkir.[*]

---

[*] “X əsrin ikinci yarısında Kilikiyanın və Suriyanın şimal hissəsinin Vizantiya imperatoru Nikifor Fokoü tərəfindən işğalından sonra xristian immiqrantlar – böyük hissəsi ermənilər idi – müsəlman əhalinin qovulduğu şəhər və qalalarda məskunlalaşmışdılar <…> XI əsrdə buraya yeni erməni immiqrantlar axışmağa başlamışdı <...> Ermənilərin Kilikiyaya köçü onların tarixində yeni səhifə açmışdı. Onların Kilikiyada kök salması xaçlı

Beləliklə, akademik Yaqub Mahmudov bugünkü er- məniliyin böyük vətən arzularının sosial-siyasi dayaqlarının elmi saxtakarlıq üzərində qurulduğunu diqqətə çatdırmaqla yanaşı, həm də erməni etnik terroruna yol açan etnik probabilizm xüsusiyyətlərinin öz xalqını uçruma yuvarladığını bildirir: “Erməni saxtakarları və onların yedəyində gedən bəzi “tarixçilər” heç bir mənbəyə əsaslanmadan “Böyük Ermənistan” anlayışının e.ə. III əsrin sonlarında meydana gəldiyini iddia edirlər. <...> “guya “Böyük Ermənistan” anlayışı iki mənada – coğrafi və siyasi mənalarda işlənmişdir; coğrafi anlayış kimi bu ifadə guya e.ə. 220-ci ildən məlumdur”. Əslində həmin ildə Selevki hökmdarı “erməni çarlığını” işğal edir, üstəlik Van gölü hövzəsini ələ keçirir və bu da “Velikaya Armeniya”nın yaradılması kimi qələmə verilir”.[90b] Saxta ictimai-siyasi dəyərlərlə tərbiyə edilən və həmin “dəyərlərin” müdafiəsinə fanatikcəsinə qoşulmaq arzusunda olan toplumun terrora qurşanması labüddür.

Etnik taleyindəki köç sindromu da erməni probabilizminin formalaşmasında mühüm rol oynamışdır.

Ermənilik probabilizm kontekstində özünüdərk və özünü qəbul etdirməyə aludədir və məhz özünə sərf edən qənaətə nail olmaq üçün yezuit xüsusiyyətlərdən faydalanmaqdan da çəkinmir. Burada “köç etmək” ehtirası xüsusi rol oynamış və oynamaqdadır. Erməni köçü bəşər tarixində tamamilə fərqli təsirlərdən irəli gələn amildir və heç də həmişə milli arzu və iradədən asılı olmamışdır; ermənilər daha çox köç etməyə məcbur olmuşlar, yaxud da məcbur edilmişlər. Proses hazırda da təkrarlanır.

Z.Bjezinskinin də qeyd etdiyi kimi, XIX əsrədək dünyada köç, adətən, sosial-iqtisadi məsələlərlə bağlı olmuşdur, maarifçilik, sənətkar əməyinin tətbiqi və s. sosial mənşəli işlər xatirinə xalqlar köç edirdilər. Lakin erməni köçü, adətən, siyasi məsələ olmuşdur. Yaxın dövrə aid bir klassik fakt: 1978-ci ildə DQMV-nin rəhbərliyi erməni elitasının dəstəyi ilə bu regiona köçmələrinin 150 illiyini təntənə ilə qeyd etmiş və Azərbaycan SSR-nin Mardakert (Ağdərə) rayonunun Marağaşen (Leninavan) kəndində xüsusi abidə qoymuşdular. Həmin

---

yürüşlərinin, latın krallıqlarının və Levanta ölkələrinin yaradılması ilə bir dövrə düşmüşdü” .[91]

köç hadisəsi də, abidənin qoyuluşu da XVIII əsrin əvvəllərindən Rusiyaya siyasi orientasiyasını qətiləşdirmiş ermənilіyin siyasi mənafeyinə xidmət edirdi. DQ ətrafinda ictimai-siyasi münasibətlər gərginləşəndə onun uçurulması faktı da erməni köçünün məhz siyasi mahiyyət daşıdığını, dolayısı ilə həm də xarakterdəki traybalizmi sübut edən əlavə təsdiq faktıdır.

"Erməni köçü" anlayışına repatriasiya siyasəti də daxil edilməlidir. Bu məsələ də bir neçə dəfə baş vermişdir; bəzən erməni şovinist partiya və təşkilatların, bəzən isə hətta başqa dövlətlərin təşəbbüsləri və razılığı ilə həyata keçirilmişdi. Rotmister Lebedevin Tiflis Jandarm İdarəsinin rəisinə göndərdiyi məxfi qrifli 15.09.1908-ci il tarixli, 1088 saylı məktubda deyilir ki, avqustun 25-də Müqəddəs Məryəm kilsə- sində Daşnaksutyun partiyasının toplantısında Türkiyə erməniləri ilə yanaşı, bir neçə yüz Rusiya təbəəsi ermənінin də geriyə – Türkiyəyə göndərilməsi məsələsi müzakirə edilmişdi ["Bidza" ləqəbli Stepan Ohanezov Türkiyədən qaçqın ermənilərin planlı şəkildə geriyə qaytarılmasına başçılıq etmiş, onların uçotunu aparmışdır.[92]

"Erməni köçü" siyasəti, bir çox hallarda razılaşdırılmış meyarlarla reallaşdırılsa da, son dövrlərdə xarici ölkələrdən indiki Ermənistan ərazisinə gələnlər özləri ilə anti-Türkiyə/anti-Azərbaycan intiqamı da gətirərək, əhali arasında, xüsusilə də Qarabağ erməniləri arasında revanşizm, irredentizm ideyaları fonunda terroru yaymışlar.

Bu amilin etnosiyasi kökünü Devid Lenq (David M. Lang) də müşahidə etmişdir: "Bəzən elə olurdu ki, onları zorla öz yurdlarından qovub Bizans imperiyasının digər regionlarına yerləşdirirdilər. Bunu Yustinian (Bizans imperatoru, 527 – 565-ci illər. – E.C.) başlamışdı. <...> Daha böyük deportasiyalar isə II Tiberi və Mauritsinin dövrünə aiddir. 578-ci ildə 10 min *erməni* (kursiv mənimdir. – E.C.) Kiprə sürgün olunmuşdu <...>. Daha iri deportasiyaları Mauritsi (Flavius Mauricius Tiberius Augustus, Bizans imperatoru, 582–602-ci illər; Rusiya tarixşünaslığında "Mavrikiy" kimi keçsə də, tərcüməçi onu belə təqdim etmişdir. – E.C.) etmək istəyirdi, deyilənə görə erməni mənşəli imiş. Lakin buna baxmayaraq, hesab edirdi ki, ermənilər bir yerdə uzun müddət yaşayanda təhlükəyə çevrilirlər. O, adlı-sanlı ermənilərin hamısını yaxınları ilə birlikdə olduqları yerdən köçürmək

üçün hətta İran şahənşahı ilə əməkdaşlıq planı da tərtib etmişdi. Tarixçi Sebesuya görə, Mauritsi İran şahına yazıbmış ki, "ermənilər – ipə-sapa yatmayan və fırıldaqçı xalqdır. Onlar sənin və mənim içimizdə yaşayır və ara verməyən ixtişaşların mənbəyidirlər. Mən öz torpaqlarımda yaşayanların hamısını toplayıb, Frakiyaya göndərmək istəyirəm, siz isə özünüzünküləri şərqə qovun. Əgər onlar orada ölsələr, deməli düşmənlərimizdir ölənlər; əgər əksinə, onlar orada kimisə qətlə yetirsələr, deməli, düşmənlərimizi öldürmüşlər. Biz isə əmin- amanlıq içində ömür sürərik. Yox, əgər onlar öz yurdlarında qalsalar, bizim heç birimizə dinclik olmayacaq <...> ".[93]

D.Lenq bəzi arxeoloqlara istinad edərək bildirir ki, " <...> daş dövründə insanların Avropaya miqrasiyası Ermənistandan, yaxud da ona qonşu rayonlardan başlamışdır". Bundan bir neçə sətir sonra isə yazır: "Ermənilərin mənşəyi və irqi xüsusiyyətləri müəmmalıdır".[93a] Yaxud dünyaya elm və mədəniyyət yayan ermənilər olub, ancaq çar Tiqranın tarixini yunan yazıb, həmin əsər də itib(?!).[93b] Bir xalqın tarixi eyni zamanda həm məlum, həm də qeyri-məlum ola bilməz. Beləliklə, həm var, həm də yox məntiqi erməni etnopsixolojisində ciddi dəyişikliklər yaratmış, "şifahi erməni tarixi"ni əsas elmi istinad forması, meyar, beləliklə də, probabilizm xarakterinə məhəbbət formalaşdırmışdır.

XVIII əsrin II yarısından başlayaraq ermənilərin "köç" anlayışına yeni elementlər sızmışdır. Bu tendensiyanın yaranmasında olduğu kimi, inkişaf etməsində də "yəhudi taleyi" xüsusi rol oynamışdır. Ancaq yəhudi köçü ilə erməni köçü arasında çox ciddi ictimai-siyasi fərq vardır. Bu fərq nəzərə alınmalı və qarışdırılmamalıdır. L.N.Qumilyovin etnoqenezes təliminə əsasən elmdə belə bir fikir formalaşmışdır ki, ümumdünya yəhudi icması I minillikdə dünyanı dolaşan, sərgər- dan olan super etnos idisə, XX əsrin əvvəllərində, həmin super etnos təşkilatlanmış və strukturlaşmış, əslində, yenidən formalaşmış və Fələstində torpağa olan hüquqlarını bəyan edən güclü mənliyə çevrilmişdi. Ümumiyyətlə, erməni köçü ilə yəhudi köçü arasında paralellərə meyl etməkdə məqsəd öncəliklə erməni probabilizmindəki total plagiatın öncə mənbəyini, sonra isə sosial-siyasi forma və məzmununun ünvanını göstərmək, sonra isə

onu mənimsəmək üsuluna diqqət yönləndirməkdir[*]. Yəhudi "köç" prosesləri və ondan törənən, yaxud onun ətrafinda cərəyan edən fikir və mülahizələr, atılan addımlar, demək olar ki, xarakterik detalları və forması ilə ermənilik tərəfindən özününkləşdirilərək təkrar olunur. Lakin erməniçi təfəkkürün yaradıcılıq potensialı ilə etnik iddiası yəhudilərdəki kimi mütənasib olmadığı üçün qlobal oğurluq total plagiat kimi elmi ictimaiyyət arasına sızmışdır [bu mülahizənin əsaslarını rus imperatoru I Pavelin gizli tapşırığı ilə imperiyada yəhudilərin həyat şəraitini öyrənib çara bu istiqamətdəki siyasətini müəyyənləşdirməkdə kömək göstərmək üçün xüsusi yoxlamalar aparmış senator Qavril Derjavinin hesabatında qeyd olunan xarakterik detalların bu və ya digər forma və məzmunda ermənilikdə mənimsənildiyini təsdiq edə biləcək xeyli faktlar vardır[†].

---

[*] Əvvəlki yəhudu köçlərindən fərqli olaraq XVIII əsrin II yarısı yəhudi tarixində xüsusi mərhələdir. Çünki budəfəki yəhudi köçü siyasi-dini-etnik qarşıdurmanın finalı xarakterini daşımırdı. Sadəcə, dünya istehsal münasibətlərində sənaye üsulunun perspektivlərini digər xalqlardan daha tez dəyərləndirib, öz gələcəklərini buna bağlamağı planlaşdıran yəhudilərin könüllü qərarı idi. Erməni köçü isə etnik arzuları ilə etnik potensialı tərs-müntənasib olanların köçü idi.

[†] Q.R.Derjavinin məruzəsində qeyd olunurdu: " <...> məskunlaşdıqları ərazidə kaqal (kaqal // kaxar – yəhudi diasporlarındakı icmaların yerli yəhudilərlə dövlət arasında vasitəçi olan özünüidarə forması. İcma üzvlərindən vergi yığılır və kaqala verilirdi.– E.C.) dairələrinə bölünmüş gizli İsrail çarlığı yaratmışlar; kaqallar yerli özünüidarə orqanına çevrilmişlər, başqa sözlə, dövlət daxilində dövlət olmuşlar; Rusiya qanunları yəhudilər üçün vacib deyil, Talmud və kaqalın qanunlarına tabe olmayanlar lənətlənirlər (herem)]".[94] XVIII əsrin II yarısından yeni vüsət alan etnik köç mərhələsi şəhərləşmək ehtirası ilə daha sıx bağlı olmuşdur. Şəhər mühitində istehsal və ticarət münasibətlərini tarazlayaraq, xoş və dinc həyat qurduqdan sonra yəhudilər arasında milli dövlətçiliyin bərpası tələbinin yenidən baş qaldırması prosesi güclənmişdi. Cəmiyyətdə hörmətlə qarşılanan mövqelər tutan yəhudilər ictimai həyatda fəallaşaraq siyasətə meyillənmişlər. Tədricən siyasi sionizm, hətta müxalif yəhudi birlikləri və qrupları təşəkkül tapmışdır. Lakin bu müxaliflik onların tarixi vətənə qayıtmaq, yaxud öz dövlətlərini qurmaq ehtirasına mane olmurdu, əksinə,

onları daha da birləşdirirdi. Bir vaxtlar Osmanlı imperiyasının tərkibində olan Fələstinə qayıtmaq üçün sultanla danışıqlar (1901 – 1902) nəticəsiz qaldığından, İngiltərənin isə yəhudilərə yeni vətən yeri kimi Keniyada ərazi təklif etməsi beynəlxalq yəhudi birliyinin siyasi heysiyyatına toxunmuş, tarixi vətənə qayıdış ideyasının tezliklə reallaşdırılması ətrafinda fikirləri daha da gücləndirmişdi. Bu istiqamətdə ilk ciddi addım 1916-cı ildə Yerusəlim ingilislərin əlinə keçdikdən sonra atılmışdı. İlk olaraq Böyük Britaniya parlamentində yəhudi məsələsinə dəstək verən lobbinin yaradılmasına başlanılmışdır. Beləliklə, dünya ictimai fikrində yəhudi dövlətinin yaradılması ideyası getdikcə daha gur səsləndirilmişdir. Yəhudilər, hələlik, parlament üsulu ilə mübarizəyə qoşulmuşdular. Dünyanın, xüsusilə də Avropadakı iqtisadi-siyasi dəyişikliklərin fonunda gedən bu proses Yaxın Şərqdə də bu və ya digər dərəcədə özünü büruzə verirdi. Rusiyanın cənub qonşuları ilə müharibəyə başlaması dünya geosiyasətində çaxnaşma salmışdı. Həmçinin, Xaçlı yürüşlərinin acı təcrübəsi də yeni tipli dövlətçilik tələbləri və dövlətlərarası münasibətlər anlayışında etnik-dini azlıqların potensialından istifadə etmək, forpostlar yaratmaq və ondan hərbi-siyasi təsir vasitəsi kimi faydalanmaq metodunu gündəmə gətirmişdi. Bu cəhətdən: ***a.*** Avropada Balkan xalqları, Yaxın Şərq və Kiçik Asiyada isə erməni qövmü yeni geosiyasi münasibətlərin formalaşdırılması üçün Xristian dünyasının münasib siyasi müştəri variantı idi; ***b.***Yəhudilərin tarixi vətən anlayışını siyasi dövriyyəyə qatması özünü seçilmiş millətlər sırasında görən erməni plutarxiyası və teokratiyasını da dövlət qurmaq iddiası ətrafında birləşdirmiş, bu yolda total plagiatlığın erməni düşüncəsinin özəl xüsusiyyətinə çevrilməsi üçün müvafiq təbliğat, təşviqat və təşkilat bazalarının formalaşdırılmasını ümumerməni məqsədinə çevirmişdi. Total plagiatın fəlsəfəsinə aydınlıq gətirək: yəhudilər qəzavüqədərin içindən milli dirilişləri üçün həyata baxış formalaşdırmışlar; bu tale və yaşam tərzini Musa peyğəmbər "Tövrat"da ilahiləşdirmişdir. Ona görə də yəhudi tarixinin əsaslarında "millətin tarixi ilə milli dövlətin tarixi" vəhdətdədir, səmavi kitabla səsləşir, saxtakarlıq və uydurmadan uzaqdır. Ermənilik isə bu formadan bəhrələnərək öz taleyini səmavi "İncil"dən saxtakarcasına bəhrələnərək "qədimləşmək" və "müqəddəsləşrmək" üçün oradakı dini rəvayətlərə uyğunlaşdırmışlar (bu fikrin kifayət qədər dəstəkləyiciləri var, məsələn, A.Frenkel yazır ki, alim-rahib Mxitar Qoşun "Qanunlar" toplusu Musa peyğəmbərin qanunlarından <...> götürülmüş yararsız qarışıqdan ibarətdir). Peyğəmbər nəslindən olmaq yöndəki iddialarını isə (guya Nuh peyğəmbərin övladlarından birinin adı Hayk olub

Probabilizm xüsusiyyətləri Cənubi Qafqaza köç prosesini erməniçi dünyaya tarixi vətənə qayıdış kimi yeritməkdədir. Azərbaycanlılar isə bu prosesə sosial məsələ kimi baxmış, "erməni köçü" siyasətinin mahiyyətinə və strateji dərinliyinə varmadan ona məişət-təsərrüfat sadəlövhlüyü ilə yanaşmış və yanılmışlar, yəni bizə əkin-biçini bacaran, yaxşı sənətkar olan yeni qonşular gəlmişdir. "Кавказ. Русское дело и междуплеменные вопросы" əsərində bu amil xüsusi vurğulanır. Bu məsələdə "Qafqaz müsəlmanları"nın milli kodundakı multikultural dəyərlərlə yanaşı, İslam dinindən gələn tərbiyə də mühüm rol oynamışdır. Qurani-Kərimə görə insanlara sığınacaq vermək, təqibdən qaçanlara Allah yolunda kömək etmək savab işdir. Beləliklə, məhz erməni tərəfinin özəl dualizmi

---

və məlum tufandan sonra ermənilər Haykın soyundan törəyiblər) hətta bir çox erməni alimi də bunu uydurma adlandırmışdır. Erməni tarixinin Xristian dininin tarixindən pis köçürmə olmasını bəzi erməni müəllifləri, məsələn, Leo (Arakel Babaxanyan) da qeyd etmişdir. Buna görə də ermənilik vətən, milli dövlət tarixinin əvəzinə, din kitabı fonunda etnik-dini mənsubiyyət tarixini yazmağa üstünlük verir və "yaradıcılıq prosesində" qarşılaşdıqları boşluqları ehtimal, yalan, hətta plagiatlıq üzərindən bütövləşdirməyə çalışırlar. Bütün bunlar bir daha təsdiq edir ki, yəhudi tarixinin təqdimatından forma və məzmunca bəhrələnərək onlara bənzəmək, qədimləşmək, şəhərləşmək və xüsusiləşmək iddiası ilə "orijinal" görünmək erməniçi total plagiatın anasıdır, erməni probabilizminin məhək daşıdır. Vəziyyətə sosial dəstəyi gücləndirmək üçün ictimai-humanitar elm sahələrinə, ciddi qəbul edilməsə də, hətta "ermənilər və yəhudilər" mövzusu pərçim olunmuşdur. Ümumiyyətlə, semit xalqları ilə hay arasında bənzərlik elmi dairədə gəzişən fikirdi. Lakin burada mahiyyət bənzərlikdən deyil, özəl millət şöhrətinə pay çıxmaqdan, yəhudiliyin beynəlxalq ictimai-siyasi mövqeyinə şərik olmaqdan gedir. Göründüyü kimi, mahiyyətcə həmişə yəhudiləri yamsılamaqla "orijinal" görünməyə və özlərini seçilmiş qövm kimi təqdim etməkdə maraqlı olan ermənilik özəlliklə siyasi məqsəd güdmüşdür. Yəhudi-erməni münasibətlərində ikincinin birincidən qidalanması erməni terrorunun etnopsixologiyası və siyasi psixologiyasına da güclü təsir göstərdiyindən, ermənilik bu mülahizələrin cazibə dairəsindəndir. Beləliklə, yəhudiliyə aid bir çox fəaliyyət elementlərinin erməni həyat tərzində demək olar ki, eyni ilə təkrar olunması təsadüf deyildir.

nəticəsində sosial-siyasi qonşuluqda separatizm elementi güclənmiş, qarşılıqlı münasibətlər siyasiləşərək qarşıdurmaya çevrilmişdir. Bax, bütün bunlara görə də keçmiş erməni prezidenti Sarqsyanın dünyaya car çəkdiyi "ermənilər patoloji cəhətdən azərbaycanlılarla birgə yaşaya bilməzlər" avantürası milli psixozdan irəli gəlir.

Beləliklə, tarixən bu prosesi bir neçə dəfə yaşadıqları üçün "köç" amili erməni etnopsixologiyasında siyasi özəllik qazanmışdır. Erməni ictimai fikri bu günədək "erməni köçü" siyasətini "qovulmaq", "qovulmuşlar", "qayıdış", "intiqam" və s. şər kontekstində təbliğ edərək qisas addımı olaraq terrora keçid almaqdadır.

Mövzuya əlavə bir istiqamətdən də diqqət yetirək. Şota Vadaçkoriyanın gürcü-erməni münasibətlərinin istiqamətləri üzrə apardığı tədqiqatların ruhundan duyulur ki, bu münasibətlərin Qafqaz dövrü məhz erməni yuxarı dairəsinin iddialı tələbləri səbəbindən dəyişkən ehtimallar (probabilizm elementidir) üzərində olmuşdur. Bu fikir gürcü-erməni münasibətlərinin hüdudlarının müəyyənləşdirilməsində Gürcüstan tərəfi üçün xüsusi siyasi ölçüdür. Və bunu hazırda da müşahidə etmək mümkündür. Beləliklə, yuxarıda şərh olunan təbiət elmləri və ictimai-humanitar elm sahələrinə aid xarakte- rik amillərə əsasən demək mümkündür ki, Ermənistanın eyni zaman-məkan dairəsində həm Azərbaycan, həm də Gürcüstan ilə problem yaşaması regiona gəlmə xalqın etnopsixologiyasındakı süni xüsusilik, ədalı və iddialı ehtimallar, subyektiv maddi-mənəvi tələblərdən irəli gəlir.

Erməni etnopsixolojisindəki separatçılıq tarixən si- yasiləşmiş erməni mənəviyyatının xəyali prinsiplərlə fəaliyyətinə güclü dəstək göstərmişdir. Buna görə də ermənilik öz müqəddəratını həlletmə ilə əlaqədar problemlərini demokratik dəyərlər müstəvisində çözməkdə israrlı deyil, çünki obyektiv tarixi yaddaşa münasibətdə öz iradəsinə uyğun ciddi düzəlişlər etməkdə israrlıdır, parlamentariliyi deklarativ formada dəstəkləyib, sərt gücə üstünlük verməkdə maraqlıdır. Bu, etnopsixolojidə probabilizmin göstəricilərindən biridir. Bu səbəbdən də indiki erməni ictimai-siyasi fikri milli tarixi-siyasi coğrafiyanı və problemləri həmin problemlərin tərəfləri ilə demokratik yaradıcılıq ittifaqında dərindən və obyektiv araşdırmaqda maraqlı deyil. Əvəzində milli tarixlərinə dair yüzlərlə variant işləyib hazırlanmışlar;

bunlar arasında bir-birini dəstəkləyən müəlliflərin say əmsalı çox azdır.[95] Belə bir qarışıq və ləkəli keçmişi Parfiya, Qədim Yunan və Roma mədəniyyəti, sonra isə Xristian dininin yaranma-yayılma xronologiyası üzrə şərh etmək forması böyüklərin və qədimlərin yanında böyük və qədim erməni kimi görünmək həvəsidir, probabilizmdən doğulan özəl milli-mənəvi dəyərə malik xalq iddiasını qoruyub saxlamaq və milli qısqanclıqla[*] daha da dərinləşdirmək ehtirasıdır. Dünya ictimai fikri tərəfindən dəstəklənməyən və dəfələrlə tənqid olunan bu tip mövqelər ancaq hərbi-siyasi konyunktura ilə müdafiə edilir ki, bundan da erməni terroru məharətlə faydalanır. Bu gün Azərbaycanın Dağlıq Qarabağ probleminin, həmçinin Türkiyə Respublikası ilə 1915-ci il hadisələrini dinc yolla, beynəlxalq qanunlar, tarixi faktlar və arxiv sənədləri çərçivəsində həll edilməsinə erməniçi etirazlar da birbaşa erməni etnopsixologiyasındakı probabilizmə sədaqət amili ilə bağlıdır.

"Ermənistan" adlanan bir dövlətin "erməni məsələsi"ni probabilizm kontekstində növbəti dəfə diriltməklə özəl milli-mənəvi dəyərə malik xalq imicini qabartması və gərginləşmiş beynəlxalq münasibətlər sisteminə təpilərək sistemli terror üsulu ilə Azərbaycanı müharibəyə təhrik etməsi ədalət və demokratiyanın ermənisayağı qavramına – öz azadlığı, öz həqiqəti, öz ədaləti prinsipinə xidmət göstərir.

SSRİ-də yenidənqurma və aşkarlıq siyasətinin ilk il- lərində erməniliyə xidmət edən ictimai və humanitar sahə müəlliflərinin

---

[*]Erməni probabilizmində milli qısqanclıq yeni element deyil. 1916-cı ildə dərc olunmuş "Erməni operettası Rostov na Donda" adlı məqalədə yazılmışdı: "Armeniana truppası Qafqazda səs salmış "Arşın mal alan" <… > və "O olmasın, bu olsun" adlı yeni əsərlərlə qastrola başlamışdır. Məlum olduğu kimi, belə bir şit şərq əsərlərinin erməni səhnəsində yer alması erməni opera sənətinin böhran keçirdiyini göstərir <… >. Aşağı təbəqənin primitiv həyatının təzadla- rını ifadə edən bu bayağı əsərlər sanki son illərin rəmzi-mistik axta- rışlarına qarşıdır <...>".[96] Məqalədə həmin əsərlərin müəllifinin (Üzeyir Hacıbəyov) kim olduğu qeyd edilmir, dünya şöhrətli operalar "şit" və "bayağı" deyə qiymətləndirilir. Beləliklə, böhran keçirən erməni yuxarı dairəsi öz mənəvi əzabını və fiziki qəzəbini milli qısqanclıqla ifadə etmişdi.

probabilizmli məntiqlə yaydığı radikallıq müasir erməni terrorunun mənəvi qaynaqlarına təhrikçilik elementi qatmışdır. Azərbaycanı müharibəyə cəlb etmək istəyi həmin probabilist düşüncənin əsas məqsədidir. Ona görə də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və terror əməllərinin bu mərhələsi daha nümayişkəranə və vəhşətli keçmişdir. O dövrün Ümumittifaq mərkəzi mətbuatında, o cümlədən "Pravda", "İzvestiya" qəzetlərində, "Oqonyok" jurnalında Azərbaycan SSR-nin DQMV-a aid şəhər və rayonlarında hətta təsərrüfat işlərinin gedişini işıqlandıran yazılarda da coğrafi vahid kimi "Ermənistan SSR" göstərilir, Şuşanın, Gəncənin, Naxçıvanın və b. qədim Azərbaycan şəhərlərinin real tarixini saxtalaşdıran elmi-publisistik yazılar dərc olunur, bunun davamı olaraq Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin milli mənsubiyyəti şübhəyə alınır, beləliklə, probabilizm üsulu ilə Azərbaycan cəmiyyətində total psixoz yaradılaraq, kortəbii xalq hərəkatına, oradan "kiçik müharibə"yə və sürətlə "böyük müharibə"yə keçid üçün obyektiv fürsət qazandırılırdı.[97] Elmi rəyçilərin, KİV-in "müəllifin bütün mülahizələri qəbul edilən deyil və diskussiyalıdır" şərti nəzəri mövqeyi və "bəzi məsələlərdə redaksiyanın fikri müəllifin fikri ilə üst-üstə düşmür" qeydi ilə sığortalınaraq nəşr olunan S.Voskanyan soyadlı birisinin probabilizmli kitabı yuxarıda sadalanan fikirləri müxtəlif fakt- larla təmin edir.[98]

Beləliklə, Azərbaycan məhz öz mədəniyyəti ilə siyasətini həyata keçirməkdə israrlıdır, qanunun aliliyi və tarix həqiqəti onun dövlətçilik mədəniyyətinin əsasıdır, Ermənistan isə məhz öz siyasətinə uyğun mədəniyyət göstərməkdə davam edir. Bu, regionda terror və terrora qarşı mübarizə məsələlərində daha qabarıq nəzərə çarpır.

# ERMƏNİ TERRORU SİYASİ PSİXOLOGİYA MÜSTƏVİSİNDƏ: "SİYASİ QƏYYUM AXTARIŞI", "SİYASİ MÜŞTƏRİ", "İRREDENTİZM", "SATELİT DÖVLƏT", "OYUNCAQ HAKİMİYYƏT"

**E**rməniçi siyasi düşüncə tərzinin spesifik sosial as- pektlərinin analizi ümumermənicəmiyyətində özünüifadəni bu istiqamətdən də müəyyənləşdirməyə imkan verir. Buna görə də erməni siyasəti mədəniyyətində siyasi ənənə və siyasi təcrübə normalarına nəzər salmaq, erməni özəl dualizminin tərkibini formalaşdıran etnik xarakter və ictimai-iqtisadi-siyasi mentallığa diqqət yetirmək zərurəti vardır. Qeyd edək ki, erməni siyasət mədəniyyətində məqsədə çatmaq əsasdır, onun əxlaq normaları önəmli deyil. Başqa sözlə, siyasi məqsəd və nəticə bütün forma və məzmunları məqbul hesab edir. Erməni siyasəti mədəniyyətində yezuit əxlaqının hegemonluğu bundan qaynaqlanır.

Qeyd etdiyimiz kimi, erməni siyasət mədəniyyəti üçün millətin tarixi milli dövlətin tarixindən daha vacibdir, belə bir mentalitet etnik xarakter və özünüifadə formasının müəyyənləşdirilməsinə birbaşa təsir göstərir. Bu mövqenin biçimlənməsində kilsə xüsusi rol oynayır, çünki erməni siyasət mədəniyyətinə görə insanı dövlət deyil, kilsə tərbiyələndirir.

"Ey Aram <...>, sənin düşmənin türkdür (Anadolu və Azərbaycan türkləri. – E.C.) <...> Vətən Tanrıdan irəlidir. Vətəndən irəli kilsədir. Kilsədən irəli Böyük Tiqrandır. Böyük Tiqrandan irəli isə "Böyük Ermənistandır", – S.Kaputikyanın ifadə etdiyi bu fikir erməni siyasi psixologiyasının təsviri ola bilir. "Böyük Ermənistan" çağırışı, əslində, işğalçılıq şüarıdır, erməni siyasət mədəniyyətində "ərazi işğalı" amilinin əsas təhrikçi xüsusiyyətidir. Bu proses etnik-mədəni müstəvidə kollektiv ideya və özgə ərazilərinin işğalı qənaətinə çevrilərək XX əsrin I yarısında erməniçi siyasi psixologiyada faşizm və nasional-sosializmin simbiozu formatında yenitipli seçilmişlik – arilik, hay lebensraumu – qənaətini siyasi mentalitet səviyyəsinə çatdırmışdır.

Erməni etnopsixologiyasında siyasət mentaliteti özəl dualizm, özəl dualizm isə “siyasi qəyyum”, “siyasi müştəri”, “irredentizm”, “satelit dövlət” və “oyuncaq hakimiyyət” anlayışlarının bazasında formalaşmışdır. Bu amillərin hər biri ayrı-ayrılıqda müəyyən fərqliliklərə malik olsalar da, aralarında çox ciddi sosial-siyasi bağlantının mövcudluğu da vurğulanmalıdır.

“Köç” amili erməni siyasət mədəniyyətində “siyasi qəyyum” axtarışı ilə yanaşı, “siyasi müştəri” olmaq bacarığını da formalaşdırmışdır. Bu amillərin ideya mənbəyi dini mənsubiyyətdir. Məlumdur ki, 1677-ci ildən başlayaraq Eçmədzinin xeyir-duası ilə erməni yuxarı təbəqəsi Avropa dövlətləri arasında özlərinə siyasi qəyyum axtarışına başlamışlar. Bir-biri ilə hərbi ixtilaflar yaşayan Avropa üçün erməniçi qəyyum olmaq yalvarışları ciddi əhəmiyyət daşımırdı. İsrail Orinin 1701-ci ildə I Pyotrla görüşüb, erməni xalqının nicatının Rusiya olduğunu rus əyanlarına inandırdıqdan sonra “siyasi qəyyum” və “siyasi müştəri” qarşılıqlı münasibətləri paralel həll edilmişdi. Belə ki, “<...> əgər XVII əsrdə Rusiya ilə ermənilər arasında əlaqələr ticarət-iqtisadi xarakter daşıyırdısa, XVIII əsrdə münasibətlər siyasi rəng almağa başlamışdı. Maraqlar qarşılıqlı idi. Ermənilər Rusiyaya azadlıqlarının ünvanı kimi baxırdılar, Rusiya üçün isə *ermənilər* (kursiv mənimdir. – E.C.) rusların möhkəmləndikləri *cənub* (kursiv mənimdir. – E.C.) əyalətlərində xristian əhalinin güclənməsi üçün xeyli sərfəli idi”.[99]

Beləliklə, “siyasi qəyyum” və “siyasi müştəri” mə- sələsinin ünvanı 1677–1699-cu illərdə erməni seperatizminin səyi nəticəsində işlənib hazırlanmış, 1701-ci ildə qətiləşdirilmişdi. Bundan sonra Azərbaycan coğrafiyasında etnik ermənilərin terrorun oxşarları və terrorçuluq fəaliyyətləri ilə təhdidləri xüsusi dəstəklə yayılmağa başlanmışdır.

Erməniliyin Rusiyaya siyasi orientasiyasının qəbulundan sonra beynəlxalq münasibətlər sisteminə nəzər salsaq, aydın olur ki, həmin dövrdə prinsipcə, iki istiqamət daha aktual olmuşdur:

***a.*** Avropa qitəsində hegemonluğa nail olmaq uğrunda hərbi-siyasi diplomatiya;

***b.*** Osmanlı imperiyasını parçalamaq diplomatiyası.

K.Marks bu dövrü xarakterizə edərkən, 1853-cü ildə, yazırdı ki, həmişə Avropada inqilablar tufanı səngiyəndə, bədnam "şərq məsələsi" gündəmə gəlir.[100] Hər iki istiqamətin realizəsi üçün "siyasi müştəri"nin müəyyənləşdirilməsi və ondan faydalanmaq əminliyi vacib amil idi. Avropa üçün müəyyən mərhələlərdə polyaklar, moldovanlar, bolqarlar, balkan xalqları bu funksiyanı icra edə bilmişdilər. Şərqə münasibətdə isə mürtəce dualizmli erməni amili daha münasib hesab olunmuşdu.*

Həmin vaxtlar missioner-kotoliklərin ermənilərin ya- şadıqları ərazilərə ayaq açmaları, erməniləri Roma Papasının təsiri altına

---

* Erməni terroru "erməni məsələsi"nin, "erməni məsələsi" isə "şərq məsələsi"nin içindən boy atan problemdir. Bu baxımdan "şərq məsələsi"nin realizəsi erməniçi siyasi psixologiyanın mahiyyətinə uy- ğun gəlirdi. O dövrün əsas problemi bu istiqamətləri əhatə edirdi:

***a.*** Fələstin ərazisindəki müqəddəs ocaqlara sahib olmaq;

***b.*** Osmanlı İmperatorluğunda yaşayan xristian xalqlarının üsyanına yardım etmək;

***c.*** Osmanlı İmperatorluğunu tədricən zəiflədib dağıtmaq, ərazilərini işğal etmək.

"Erməni məsələsi"ni "ölüm-dirim məsələsi"! – kimi təbliğ edən erməniliyin bu planın əsas ünsürlərindən birinə çevrilməsi o dövrün böyük xristian dövlətlərinin strateji maraqlarından irəli gəlirdi və si- yasi ifadə kimi ilk dəfə 1878-ci ildə Berlin Konqresində səslənmişdi. Buna görə də məsələnin mərhələlərinə tarix kontekstində və siyasi psixologiya baxımdan yanaşma əlavə informasıya verə bilir. Beləlik- lə, tarixin təcrübəsi göstərir ki, "erməni məsələsi" Avropa dövlətləri üçün Osmanlı imperiyasının daxili işlərinə qarışmaq vasitəsi kimi gündəmdə saxlanılsa da, əslində, onlar bu məsələnin həllində o qədər də maraqlı deyildilər. Həmçinin, Fransa, İngiltərə və Almaniya bu problemin çözülməsində Rusiyanın da fəal iştirakını istəmirdilər. Bu münasibət erməni tərəfinə məlum idi. Sonrakı dönəmlərdə isə "erməni məsələsi" Azərbaycan coğrafiyasında türk-müsəlman dünyasının bir-biri ilə qarşılıqlı münasibətlərinin qarşısına sədd çəkmək məqsədi daşımışdır. Ona görə də müasir Ermənistanın satelit diplomatiyası DQ probleminin həllində status kvonun uzun illər saxlanılmasına xidmət edirdi və problemin həlli istiqamətində əsas iştirakçı dövlətlərin və beynəlxalq təşkilatların səbatsız mövqeyi köhnə siyasətin regene- rasiyası idi.

salmaq planları Avropa dövlətləri tərəfindən qəyyumluq etməklə dəstəklənirdi, dövrün nüfuzlu dövlət başçıları İran şahına və Osmanlı sultanına qayğılı məktublar yazırdılar. Məktubların ruhu ermənilərin Avropa dövlətləri tərəfindən himayəyə götürüldüyü anlamını ifadə edirdi. Beləliklə, İ.Orinin və M.Vardapetin separatçı-yalvarıcı fəaliyyəti ilə regionda erməni amili formalaşdırılmağa və ciddiləşdirilməyə başlanılmışdı.

Beləliklə, XVIII əsrin əvvəllərindən çar Rusiyasının cənub-şərq geosiyasətində "erməni amili" mühüm rol oynamağa başlamışdır. Bir müddət sonra Avropa ictimai-siyasi mühitindən gələn müxtəlif fəlsəfi-siyasi cərəyanlar və xəfiyyə-missioner təzyiqləri isə erməni etno-psixologiyasını yezuit əxlaqı, siyasi psixologiyasını isə radikal dəyişikliklər istiqamətində kökləməyə başlamışdı.

Çar Rusiyasının xəzərsahili regiona, o cümlədən Azər- baycana hərbi kampaniyalarında "siyasi müştəri" amili xüsusi rol oynayırdı. Azərbaycana hərbi müdaxilə ərəfəsində erməni arxiyepiskopu İosifin knyaz Q.A.Potyomkinə və general-poruçik A.V.Suvorova region, o cümlədən Qarabağ məlikləri barədə kəşfiyyat məlumatları ötürməsi faktları vardır. Ermənilîyin Rusiyaya agentlik etməsi I Pyotrun vaxtında da olmuşdur. O dövrdən də başlayaraq çar Rusiyası erməni muxtariyyətinin yaradılması fikirinin rüşeymlərini siyasi dairələrdə səsləndirməyə başlamışdı. Bu məqsədlə öncə rus imperiyasının daxilində "siyasi müştəri"nin arzusuna ilkin xidmət olaraq qondarma "erməni vilayəti", az müddət sonra isə "Böyük Ermənistan" planı təbliğ olunmağa başlanılmışdı. Həmin ideyaların həyata keçməsi yolunda ermənilik vəd olunan coğrafiyada terrorun müxtəlif formalarından istifadə edirdi*.

---

*1918-ci ilin may ayının 29-da Batumda erməni nümayəndə heyəti ilə danışıqlarda Türkiyə nümayəndə heyətinin başçısı Xəlil bəyin A.Xatisyana dediyi sözlər məsələnin hər iki tərəf üçün, o cümlədən ermənilərin Cənubi Qafqazdakı rolunu dəstəkləyən beynəlxalq ko- alisiya üçün strateji əhəmiyyətini anlamağa kömək edir: "Qardaş- larımız Bakıda, Dağıstanda, Türküstanda və Azərbaycandadır. Bu bölgələrə bizim yolumuz olmalıdır. Lakin siz ermənilər yolumuzun üstündə durmusunuz <...>. Əslində bütün davalarımız bu bölgəyə görə davam edir".[101] Beləliklə, "erməni məsələsi"nin beynəlxalq problem olduğunu qəbul edərək onun

“Siyasi müştəri” mövqeyindən “irredentizm”ə keçid siyasətdə ciddi dəyişiklik hesabına baş vermir. Çünki XVII əsrin sonlarından başlayaraq Avropada bu və ya digər dərəcədə özünü büruzə verən iqtisadi-siyasi dəyişikliklər etnik-dini azlıqların da potensialından faydalanmaq taktikasını siyasi təsir vasitəsi kimi XIX əsrin axırlarında dövrün qabaqcıl hərbi-diplomatik üsuluna çevirmişdi. Bu yanaşma dövrün gərginliyini daha da yüksəldən əlavə bir amili formalaşdırırdı, yəni bəzi regional xalqlar hərbi-siyasi sistemdə özlərinin “vacibliyini” dərk etməyə başlamışdılar, buna görə də onların özəl milli-mənəvi dəyərə malik xalq eqoizmi realist düşüncəni üstələyir, daha radikal mövqe tutmağın zamanı yetişmişdir qənaəti ilə hərbi-siyasi yaşam tərzini önə keçirirdi.

Bu dövrdə regionda yaşayan əhalinin etnik-dini tərkibində xristian amilini “öyrənib” vurğulamaqla Avropa ictimai fikrinə müəyyən sızdırmalar da edilirdi. Çünki bu “xırdalığa” dair məsələlər xeyli vaxt idi ki, Xristian dünyasını rahatsız saxlayırdı; gələcəyin böyük strateji niyyəti həmin amildən çox asılı idi.

Etnik-dini azlıqların potensialından istifadə edərək ərazi işğalı taktikasından İtaliyada irredentizm cərəyanı adı altında istifadə olunmuşdur*. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi-

---

müstəqilliyinin Türkiyə tərəfindən tanınacağı bildirilmişdi. Danışıqların son nəticəsi kimi həmin il iyunun 4-də imzalanmış “Dostluq və əməkdaşlıq haqqında müqa- vilə”də dövlətlərin sülh yaradıb, hərbi sahədən başqa bütün sahələr üzrə əməkdaşlıq etməsi, “Osmanlı dövləti ilə Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri arasındakı sərhəd xətləri, Ermənistandan Osmanlı ərazilərinə silahlı dəstələrin keçməməsi, Ermənistanın <…> qanunsuz silahlı birləşmə yaratmayacağı barəsində, Ermənistan Res- publikası ərazisində yaşayan müsəlmanların dininə, adət-ənənələrinə hörmətlə yanaşılacağı, mövcud nəqliyyat vasitələrindən müştərək istifadə ediləcəyi, Bakıdan bütün erməni silahlı birləşmələrinin çıxarılacağı kimi məqamlar öz əksini tapmışdır”.

* İrredentizm (italyan dilindəki irredento – «geri alınmamış» sözün- dəndir) İtaliyada yaranmış, XIX əsrin sonu XX əsrin əvvəllərində ora- da geniş yayılmışdır; İtaliya ilə sərhəd ölkələrdə italyan mənşəli əha- linin sıx yaşadığı qonşu ərazilərin İtaliyaya birləşdirilməsi uğrunda aparılan mərkəzləşdirici ictimai-siyasi hərəkat kimi meydana gəlmiş- dir.[102] Qonşu

nin nüvəsi erməni irredentizmi ilə birbaşa bağlıdır. Erməni irredentlərin terrorun müxtəlif formalarından istifadə edərək Ermənistan Respublikasına birləşmək, yaxud da Ermənistan Respublikasına qonşu ərazilərdə yaşayan etnik ermənilər hesabına ikinci erməni dövləti yaratmaq planları müasir irredentizm nümunəsidir. Digər tərəfdən, erməniçi cəmiyyətdə irredentizmin realizəsi məqsədilə öz qonşuları ilə total münaqişə istiqamətinə üstünlük verildiyindən, problemin mahiyyəti terror təhdidləri ilə ey- niləşir və bu bazada təkmilləşərək müxtəliflik qazanır. Təsadüfi deyildir ki, Daşnaksütyun partiyasının proqramında irredentizm xüsusi yer tutur.

Satelit* dövlətin yaranmasında və formalaşmasında ictimai-siyasi münasibətlər sistemi qarşısında acizlik və xaraktersizlik göstərməklə yanaşı, xalqın etnopsixolojisindəki elementlərin də xüsusi təsiri vardır. Müasir Azərbaycan siyasət mədəniyyətində bugünkü Ermənistan Respublikası "satelit dövlət" olaraq xarakterizə olunur. Bu fikrin qədim faktlara bağlantısı çoxdur, ancaq onun

---

dövlətin tərkibində azlıqda olan bir xalqın nümayəndələrinin yaşadıqları ərazilərin etnik-dini baxımdan eyni olduqları sərhəd dövləti tərəfindən konsolidatsiya edilməsinə yönəlmiş siyasi düşüncə, zorən deportasiya, işğal planı kimi qəbul edilir və diaspor təşkilatları tərəfindən xüsusilə geniş dəstəklənir. 1878-ci ildə İtaliyada siyasi dövriyyəyə qatılan bu cərəyan sonra (1901) Almaniyada lebensraum (1901, yaşayış məskənləri), anşlüs (1938, birləşdirmək) kontekstində ifadə olunmuşdur. Erməniçi düşüncə bu siyasəti probabilistik tərzdə mənimsəyərək, miatsum – ilhaq ideyası üzərindən icra etmədədir.

* Formal olaraq müstəqil, əslində isə başqa dövlətin (dövlətlərin) ictimai-siyasi təsiri altında olan və həmin dövlətlərin hərbi-siyasi qəyyumluğu ilə beynəlxalq münasibətlər sistemində öz müstəqilli- yini yamısılayan oyuncaq hakimiyyətdir. Politologiyada bunun yum- şaq ifadəsi də vardır: "müştəri-dövlət" (client state – cüzi də olsa müstəqil olan, lakin bir çox əsas cəhətdən digər dövlətdən asılı "döv- lət"; başqa dövlətin hərtərəfli yardımına möhtac olduğundan onun siyasi planlarının icrasına müştəri çıxaraq, mövqe bildirən subyekt). Proksi müharibə terror üsulunun geniş tətbiqində hər iki terminin baza qismində kor-korən itaət edən ölkə. Ümumiyyətlə, "satelit" ifadəsi latın dilindən tərcümədə cangüdən, yol yoldaşı, Qədim Romada sahibini müşayiət edən muzdlu əsgər mənalarında işlədilmişdir.[103] Hazırda onun məna dairəsi xeyli genişlənmişdir. Politoloji planda, əsasən, dövlətlərə münasibətdə işlədilir.

müasir politologiyada yenidən dövriyyəyə qatılmasının obyektiv səbəbləri vardır. Tarixşünaslıqda geniş yayılmış fikrə görə, ermənilərin tarixdə qurduqları “dövlət” orqanizmləri başqa dövlətlərdən asılı olmuşlar. Bugünkü Ermənistan Respublikası erməni dövlətçilik tarixində ənənəviliyin yetirməsidir. Çünki tarixən erməniçi etnopsixologiyada başqa qüvvə tərəfindən müdafiə edilərək duruş gətirmək hissi hakim mövqe olduğundan, himayədar axtarışı xarakter olaraq qalmaqdadır.

Digər tərəfdən, “Böyük Ermənistan” iddiası fövqəlmahiyyət daşıdığından, tamamilə hərbi-siyasi taktikanın məqsədinə hopdurulmuşdur. Bu taktika nəticə etibarilə erməniliyi satelitlitliyə gətirib çıxarmışdır. Əsrlərin belə bir ictimai-siyasi tərbiyəsi nəticəsində erməniçi milli iradə siyasi müştəri xarakteri üzərində köklənmişdir.

Satelitliyin üç ən əsas ictimai-humanitar bazası vardır:

***1.*** Milli ideologiyanın olmaması;

***2.*** Milli dövlət xadiminin olmaması;

***3.***Posthəqiqətə əsaslanmaq və posthəqiqətlə inandır- maq, yəni ictimai-siyasi fikri, yaxud mövqeni hiss-həyəcan, şəxsi qənaət və subyektiv faktlarla formalaşdırmaq*.

---

*İdeologiyası olmayan xalq, hər şeydən əvvəl, sədaqət hissindən məhrumdur, siyasi konyunkturaya uyğun tərbiyələnməyə məcburdur. Erməniliyin Qədim Roma, Parfiya, Vizantiya, Türkiyə, Rusiya... dövlətlərinə sədaqətsizliyi məlumdur. Digər tərəfdən, ideologiyasızlıq tayfaçı (traybalizm) baxışlara işarədir. Hər hansı xalqın özü üçün dövlət xadimi formalaşdıra bilməməsinin, yaxud öz içindən dövlət xadimi böyüdə bilməməsi səbəblərindən biri də məhz traybalist düşüncədən irəli gəlir. Bugünkü erməni etnomədəniyyəti biçimləndikdən sonra ermənilik milli-mənəvi ölçülərdən, əsl Xristian dəyərlərindən bəhrələnən ideologiya formalaşdırıb mənimsəyə bilməmişdir. “Böyük Ermənistan” uğrunda hərəkat, yaxud “erməni genosidi”nin dünya ictimaiyyətinə qəbul etdirilməsi canfəşanlığı ideolojiyanın dəyər daşıyıcıları deyil, hərbi-siyasi doktrina üçün ideyadır. Beləliklə, məhz milli ideologiyanın yoxluğu səbəbindən ermənilik hamiləri olan dövlətlərin ümidinə qalmış, onların siyasi maraqlarının xidmətində durmuş və hazırda da hami yedəyində xəyal qurmaqdadır. Bu, klassik satelitlikdir!

Ermənilik ayrı-ayrı dövrlərdə ideologiya oxşar müxtəlif sənədlər hazırlamışdır, ancaq həqiqi ideologiya formalaşdıra bilməmişdir. Bu da ermənilik arasında özgə məslək və iradəsinə xidmət etmək həvəsini gücləndirən amillərdən biridir. Erməniliyin münaqişə yaratmaq, qarşıdurma salaraq himayəçinin kölgəsində yaşamaq, ancaq öz həqiqətinə çatmaq xarakteri həm də buradan qaynaqlanır. Erməniliyin tarix boyu məğlub duruma düşməsinin də başlıca xüsusiyyəti məhz bu psixologiya ilə yaşamaqdan irəli gəlir.

Ümumdünya IV kilsə toplantısından sonra ermənilər demək olar ki, həmişə məğlub durumdadırlar. Nə üçün? Təsiri altında olduq- ları siyasi rejimə ya haqq qazandırmaq, yaxud da sahibinə xəyanət edərək, ixtisaslar saldıqları üçün. Bu nəzəri bazada indiki erməniliyə diqqət yetirsək görürük ki, o qədər də çox dəyişməmişlər, onların təfəkkür tərzi və davranış normaları, sosial fəaliyyət üslubu cəmiy- yətlərindəki təbəqələr dövrlərə, mərhələlərə uyğun gələ biləcək işlərə, hansısa güc dövlətinə xidmət üzrə hazırlanmağa xüsusi önəm verir. Belə bir həyat fəlsəfəsi ermənilik üçün öz ideologiyasını yaratmaq qənaətini təxirə saldıraraq, ayrı-ayrı cari məqsədlərə bağlılığı aktualaşdırmışdır. Ermənistanın keçmiş prezidenti Serj Sarqsyanın bir müsahibəsi bu mövzuya xarakterik illüstrasiya ola bilər:

- Əgər böyük arzu haqqında danışsaq, Ermənistanın gələcəyini necə görmək istərdiniz?

- Bilirsiniz, mən istəyirəm ki, bizim milli ideyalarımız həyata keçsin.

-Məsələn hansı?

-İşləmək. Səhərdən axşamacan işləmək lazımdır.

-Budur milli ideya?

-Bəs nədir milli ideya? Güclü dövlət olmaq lazımdır. Qüdrətli dövlət. Nə Azərbaycanla, nə də Türkiyə ilə heç bir problemi olmamaq. Başqa sözlə, o günü arzu edirəm ki, Qarabağ ya Ermənistanın tərkibində olsun, ya da müstəqil dövlət olsun.[104]

Müasir erməni cəmiyyətində rəsmi Ermənistanın ideologiyasının olmadığını açıq şəkildə ifadə edən erməni müəllifləri də vardır; onlar ancaq ideoloji xarakterli partiya sənədlərinin mövcudluğunu təsdiq edirlər. Son illərin müasir erməni siyasətçiləri həmin partiya sənədlərindən irəli gələn çağırışlar arasında manevr etməklə demokratiyadan dəm vurur, hakimiyyətə gəlir və özünü səbatsız duruma salır. Nikol Paşinyanın siyasi portretinə baxsaq, bunun necə olduğunu görə bilərik.

“Milli ideologiya və milli dövlət xadimi» bir-birinə bağlı məsələdir. Ona görə də erməni tarixinin xüsusilə son dönəmlərinə məxsus dövlət

xadimi yoxdur. Ayrı-ayrı dövrlərdə hansısa ermənin partiya işi, ya da inqilabi hərəkat dalğasında cari dəyərli iş görməsi nəzərdə tutulmur. Söhbət milli dövlət maraqlarını geniş panoramda düşünən dövlət xadimindən gedir. Bunun ən parlaq nümunəsini keçmiş Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ətrafinda cərəyan edən hadisələr fonunda da görmək mümkündür. Başqa sözlə, ERMƏNİSTANDA MİLLİ DÖVLƏTÇİLİYİN GƏLƏCƏYİ BARƏDƏ ƏSL DÖVLƏTÇİLİK SƏVİYYƏSİNDƏN REALİST DÜŞÜNƏN DÖVLƏT XADİMİ OLMADIĞI ÜÇÜN DQ PROBLEMİ UZUN MÜDDƏT DİNC YOLLA HƏLL OLUNMAMIŞ QALDI, "SƏRT GÜC"ÜN TƏTBİQİNİ LEGİTİMLƏŞDİRƏRƏK ÖZ XALQINI FƏLAKƏTƏ SÜRÜKLƏDİ.

1989-cu ilin baharında Moskvaya pənah aparan erməni irredentlərin liderləri: Robert Köçəryan və Maksim Mirzoyan Yevgeni Primakovla da məsləhətləşmək üçün onunla görüşə nail olurlar. Y.Primakov xatirələrində yazır: "Onları qarşılayan kimi soruşdum: açıq söhbətə hazırsınız? Bildirdilər ki, hazırıq <...> Söhbətimiz o qədər sərbəst gedirdi ki, qonaqlarımın xətirinə dəymək təhlükəsindən çəkinmədən dedim: ermənilər tarixən alim, böyük tacir, mədəniyyət və incəsənət xadimi, sərkərdə kimi ad çıxarmışlar (bu siyahıya inqi- labçı, terrorçu, bolşevik partiyası xadimi və b. bu tipli ictimai-siyasi təbəqə mənsublarını da daxil etmək olar. – E.C.), ancaq siyasətçi yetirə bilməmişlər. Bəlkə də buna görə itirdikləri daha çox olub".[105]

Y.Primakov bu mövqedə tək deyil. Bir neçə əlavə fikir:

**A.Frenkel** (çar Rusiyasının yüksək rütbəli dövlət məmuru): "Erməni xalqının tarixi taleyi təkzib olunmaz dəqiqliklə sübut etmişdir ki, bu xalq müstəqil dövlət yaratmaq qabiliyyətinə malik deyildir".[106]

**"Məxfi" qrifli bir məktubdan**: "Aldığım agent məlumatına əsasən <...> Fransanın baş naziri Brian, Poqos Nubar paşanı (erməni katolikosunun Fransada təmsilçisi. – E.C.) yanına çağırıb təəssüflə bildirmişdir ki, erməni xalqı ancaq inqilabi təşkilatlara malikdir, məsələn, Daşnaksutyun kimi <...>. Bundan sonra Poqos Nubar paşa yanında olan daşnakçı doktor Zavrievin geri çağırılmasını tələb etmiş və onun yerinə, müşavir qismində, Türkiyənin keçmiş xarici işlər naziri Qabriel Noranduqiyanın və İranın Berlində keçmiş səfiri Ovanes xan Masexiyanın təyin olunmasını xahiş etmişdir. Katalikos onun bu xahişini yerinə yetirmişdir <...>. Brianla görüşdən sonra Poqos Nubar paşa katolikosa və Ambarsum Arakelyana məktub yazaraq <...> xahiş etmişdir ki, inqilabi xarakterə malik olmayan yeni bir cəmiyyət, yaxud siyasi təşkilat yaradılsın <...>. Bu ilin (1917-ci il.-

Ümumiyyətlə, erməni yuxarı təbəqəsi milli ideologiya kimi daşnakçı Qaregin Njde və Ayk Asatryanın keçən əsrin 30-cu illərində işləyib hazırladığı "Tseğakronutyun"u xüsusi vurğulayırlar və etiraf edirlər ki, bu mətn müstəqil erməni dövlətinin olmadığı dövrdə işlənib hazırlandığı üçün şovinist ruhdadır. Onun əsas məqsəd və vəzifəsi erməni xalqını tarixi vətən ərazisində qurulmuş vahid erməni dövlətinin tərkibində birləşdirməkdən ibarətdir.

Göründüyü kimi, ancaq siyasi məsələlərin həllinə ruhlandıran mətndir. Və njdeizmin əsas atributlarından olan silahlı təhdid onun icra forması kimi vurğulanmışdır. Njdeizm terroru heç vaxt inkar etməmişdir. Bu sənəd daha çox erməni etnopsixologiyasının səviyyə ölçüsü, ictimai-hərbi and kimi səciyyələndirilir*.

Müasir ermənilikdə ideologiyanı Njdenin ideyalarının yeni reallıqlar şəraitində davam etrdirilməsini təkid edənlərlə yanaşı, ona erməni şovinizminin konseptual bazası kimi yanaşanlar da var. L.Ter-Petrosyan isə, ümumiyyətlə, milli ideologiyanı yalan müddəa, uydurulmuş fenomen adlandırmışdır. Bu kontekstdə əsas məqsəd

---

E.C.) yanvarında keçirilən müşavirədə "Erməni milli-xalq partiyası"nın yaradılması qərara alınmışdır <...> *Polkovnik Pastryülkin*".[107]

**İosif Vissariaonoviç Cuqaşvili – Stalin** (bolşevik-inqilabçı): "<...> siyasətdə heç də uzaqgörən olmayan və imperialist diplomatiyası yırtıcıları tərəfindən dəfələrlə aldadılan Ermənistan övladları".[108]

**İlham Heydər oğlu Əliyev** (dövlət xadimi): "<...> Bizə deyirlər ki, məsələni (Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsini. – E.C.) sülh yolu ilə həll edin. Biz də çalışırıq ki, bunu edək. Amma bunu etmək üçün gərək sənin qarşında adekvat bir tərəf olsun. Biz bu adekvatlığı görmürük. İndi Ermənistanın qeyri-adekvat addımları, hərəkətləri, yüksək kürsülərdən səslənən bəyanatları bu ölkəni daha da ağır vəziyyətə salacaq".[109]

* Bu məsələdə də erməniçi dünyagörüş orijinal deyil, yəhudilərin müqəddəs Sion arzusunun (eramızın 70-ci əsrində Yerusəlimdən qovulub, yer üzünə səpələndikdən sonra Sion dağını tarixi vətənə qayıdışın yol bələdçisi kimi qəbul etmişlər. Sionçuluq, sionizm – yaşamaq və fəaliyyət göstərmək idealı əsrlər keçdikdən sonra yəhudi millətini bəşəri qayıdışa çatdırmışdır. Njde də bundan şəxsən ruhlanmış və ermənilərə nümunə göstərmişdir.) təsiri erməniliyi məhz şovinizm və qisasçılıq formatında fəaliyyətə təhrik etmişdir.

“millət dövləti” qurmaq və bu yolda milli ideyanın hazırlanması və realizəsi üzərində yetkinləşdirilir*.

Şimali Azərbaycanın XIX–XXI əsrlər tarixi kontekstində “oyuncaq hakimiyyət” termini əsasən, 1991-ci ildən sonra Ermənistan Respublikasında və DQ-nin separatçı rejiminin hakim dairələrinin fəaliyyətinə münasibətdə işlətmək mümkündür. Keçmiş tarixdən bəhs edərkən, əsasən, vassal (hərfi mənası tabeçiliyində olduğu hakim dairəyə müxtəlif vergilər ödəmək məcburiyyətində olan torpaq sahibi, faktiki mənası qalib-məğlub münasibətlərinin asılılıq anlayışı) terminini işlətmək məqsədəuyğundur.

Məlumdur ki, vaxtilə rus imperiyasının daxilində qondarma “erməni vilayəti”nin yaradılması və s. sonrakı müvafiq təsisatlar, bu kökdən qida alan siyasi variasiyalar idi və rus çarının Qafqaz siyasəti

---

* Müasir erməni elitası ideologiyadan daha vacib iş olan “Mədə- niyyətin siyasi konsepsiyası” adı altında erməni etnopsixologiyasın- dakı xüsusilik iddiasına haqq qazandırmanın ictimai-siyasi bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirməkdədir. Yəni vaxtilə er- məni dövlətçiliyi itirildiyi üçün milli dünyəvi və din xadimləri birlikdə (bundan “vahid axın” cərəyanının təsiri duyulmaqdadır) ilk olaraq milli düşüncədə yeni dövlət qurmaq və siyasi müstəqilliyə nail ol- maq əqidəsini qoruyub-saxlamağın forma və məzmununu müəy- yənləşdirməlidirlər. Bunun dörd amil üzərində formalaşdırılması vurğulanır: Dil; Ideya; Mədəni müstəqillik; Birlik. Və milli ideyanın qoruyucusu kimi dövlət dini (Xristianlıq) ilə milli əlifbanın vəhdəti qəbul edilir. Beləliklə, müasir ermənilikdə humanitar amili ictimai-si- yasi amilə çevirərək, onu ideologiyalaşdırmağa cəhd istiqaməti də mövcuddur. Belə bir “ideoloji” bazada “erməni xalqı dünyanın ən sivil xalqları ilə yaşıddır, öz mövqeyini yenidən bərpa etmək bu xalqın təbii hüququdur”, – şüarının həyata keçirilməsində bütün qarşıdurma formatlarının məqbulluğu qəbul edilir. “Böyük Ermənistan” siyasətinin reallaşdırılması bu müstəvidə təbliğ olunmaqdadır. Erməni kilsəsi isə əlifba və dinin vəhdətini saxlamaq, həmçinin dövlətin idarəçiliyində öz yerini müəyyənləşdirmək və dövlət siyasətinin formalaşdırılmasında fəal olmaq funksiyasını öz üzərinə götürür. Beləliklə, yeni tipli erməni dövlətçiliyi konsepsiyası ölkə daxilində etnik təmizləməni “millət dövləti” kimi qəbul etdirir, bütün ermə- nilərin demokratiyasına nail olmağı, milli azadlığı, bərabərliyi milli xüsusiliyin atributları kimi dəyərləndirir. Şərqi və Qərbi Ermənistanı birləşdirmək, DQ-yə müstəqillik qazandırmaq uğrunda mübarizə bu dəyərlərin əsas məqsədi kimi təbliğ edilir.

və Xəzər dənizinə tam sahib olmaq iradəsinə bağlanırdı. Rus çarının təsiri altında olduqları üçün ondan xüsusi imtiyazlar alan, bir çox vergilərdən azad olan, çar dövlətinin maliyyə dəstəyi ilə gəlirli biznes layihələrinə sahib çıxaraq şəhərləşən, beləliklə, hətta Azərbaycan neft sənayesində söz sahiblərindən biri səviyyəsinə qalxaraq çox sürətlə burjuala- şan erməniliyin qəddar üsullarla imperiyanın cənub hü- dudlarında yeni vətən quruculuğu yolunda separatçılıq hərəkatına başlaması və bu yolda çarın xüsusi xidmət orqanlarından, Qafqaz çanişinliyindən, maliyyə-bank sistemindən dəstək alması, yerli azərbaycanlıların, o dövrün leksikonunda daha geniş işlənən müsəlman əhalinin hüquqlarının tapdanması fonunda reallaşdırılırdı. Çar idarəçilik sistemi regionda öz hakimiyyətini qoruyub saxlamaq üçün vassallıq tələbi ilə siyasi qəyyumluq mövqeyinin vəhdətində yenitipli "oyuncaq etnik təbəqə" formalaşdırmışdı.

Azərbaycana qarşı erməni terror təhdidlərinin ma- hiyyətində kənar dövlət və kənar hərbi-siyasi qüvvə tərəfindən idarə olunmaq amili güclü olmuşdur. Belə mövqe beynəlxalq münasibətlər sistemində deyuro müstəqil, defakto asılı dövlət motivi daşıyır. Heç bir beynəlxalq qurumun tanımadığı "DQR"-in kənar hərbi-siyasi qüvvənin müdaxiləsi ilə yaradılması faktı da "oyuncaq hakimiyyət" anlayışının təsvirinə xidmət göstərə bilir. Kənar hərbi-siyasi protektaratlıq sayəsində Azərbaycana qarşı erməni dövlət terrorunun davam etməsi də "oyuncaq hakimiyyət" anlayışından irəli gəlir. Ümumiyyətlə isə, bu terminin mahiyyətində qeyri-qanunilik və siyasi mütilik xüsusiyyəti də vardır. Beləliklə, Ermənistan Respublikasının DQ probleminin nizamlanması prosesində qeyri-konstruktiv mövqe tutması "oyuncaq dövlət" və "oyuncaq hakimiyyət" anlayışları- nın təyinatına uyğun gəlir. Son illərin müasir erməni ictimai-siyasi cəmiyyəti posthəqiqət müstəvisində çağırışlarla siyasi manevr edərək, hakimiyyətə gəlir və sonra da səbatsız duruma düşərək siyasi fəaliyyətdən çəkinməklə xarakterikdir. Nikol Paşinyan və xələflərinin siyasi portretinə diqqət yetirilsə, bunu aydın sezmək olar.

Beləliklə, hazırda Ermənistanın Azərbaycana qarşı terror təhdidlərinə son verməməsinin səbəbi tarixin müəyyən mərhələlərində erməni elitasının müxtəlif təbəqələrində özünü göstərərək, xroniki hal alan etnopsixoloji və siyasi psixoloji amillərin simbiozundan qaynaqlanır.

# VI. AZƏRBAYCANDA TERRORA QARŞI MÜBARİZƏNİN BƏZİ İSTİQAMƏTLƏRİ

## AZƏRBAYCANA QARŞI TERROR. ONUN NÖVLƏRİ VƏ TENDENSİYALARI

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ona qarşı yönəldilən təzyiqlərin ən dəhşətlisi terror və ondan qaynaqlanan, yaxud dolayısı ilə ona xidmət edən müxtəlif hərbi və ictimai-siyasi təhdidlər olmuşdur. Azərbaycana qarşı təzyiqlərdə tərəf olmaq ənənəsinə, eyni zamanda əvəzində faydalanmaq təcrübəsinə malik erməniliyin uzun illər regionda həyata keçirdiyi etnik-siyasi separatçılıq Ermənistan – Azərbaycan münaqişəsinin alovlanmasına səbəb olmuş və bu kontekstdə beynəlxalq münasibətlər sisteminə Azərbaycanın ərazi bütövlüyünə qarşı *miatsum* siyasətini pərçimləmiş, beləliklə də, Ermənistan Respublikasının xarici siyasətində dövlət terroru özünün yeni – açıq fazasına keçmişdir. Azərbaycan həm çar və sovet dövründə, həm də müstəqillik illərində sistem forması almış bu terrorun müxtəlif üsullarına məruz qalmış, ona qarşı davamlı mübarizə aparmış və aparmaqdadır.

Azərbaycana qarşı erməni terrorunun məhz planlı və strateji xarakterli olması faktını təsdiqləyən əlavə bir kompleks amil gürcü – erməni münasibətlərində də özünü ifadə edir: erməni siyasi elitası Gürcüstana qarşı da eyni formatda fəaliyyətdə olmuşdur, yəni öncə "yumşaq qüvvə"nin bütün imkanları ilə qəddar, eqoist, antidemokratik Gürcüstan obrazı yaradılmış, çıxılmaz vəziyyətə düşmüş ermənilərə heç bir kömək göstərməyən din qardaşı gürcü hakim dairəsinin insanlıqdan və Xristianlıqdan kənar siması portretləşdirilmiş, beləliklə, silah gücünə, o cümlədən terrorla erməni həyatını yaxşılaşdırmaq variantına ədalətin təntənəsi məntiqi aşılanmışdır.

Digər tərəfdən, erməni siyasi elitasının Gürcüstana qarşı ictimai-siyasi təhdidlərini paralel olaraq həm "yumşaq", həm də "sərt qüvvə" ilə aparması göstərir ki, erməni terroru, bəzi müəlliflərin qeyd etdiyi kimi, özünümüdafiə düşüncəsinin məhsulu deyil, bu üsul

hərtərəfli işlənib hazırlanmış və yaxşı təşkilatlanmış bir mərkəzdən idarə edilməklə, strateji maraqlara xidmət göstərən vəhşətli əməldir. Bunun reallaşdırılması üçün Azərbaycana qarşı təhdidlər erməni-müsəlman/türk münasibətləri fonunda, Gürcüstana qarşı isə I Dünya müharibəsi dövründə Osmanlı imperiyasından Gürcüstana köç edən ermənilərə burada yarıtmaz münasibətdən yaranan etirazlar fonunda aparılırdı.[110] Bu etirazların forma və məzmununun, prinsipcə, eyni olması yuxarıdakı fikri təsdiqləyə bilər.

***Azərbaycanda olduğu kimi, Gürcüstanda da erməni tərəfi ərazi məsələsini tarixi, ictimai-siyasi beynəlxalq hüquqa aidiyyət prinsipi ilə deyil, erməni kökənli insanların sayını süni şəkildə artıraraq miqdar çoxluğunun məntiqi əsasında həllinə üstünlük vermiş və verməkdədir.*** Ona görə də ilk vaxtlar Gürcüstana, bir müddət sonra oradan Rusiyaya köç etmək vədi ilə Türkiyədən Gürcüstana qaçan ermənilərin gəldikləri torpaqlarda möhkəmlənmək planları, yerli əhalini öz yurd-yuvalarından həm silah, həm də xəstəlik salıb epidemiya (ermənilər özləri ilə birlikdə vəba, taun, qızdırma və s. yoluxucu xəstəliklər gətirmişdilər, daşnaklar həmin xəstələrin yerli əhalidən təcrid edilməsinə, başqa yerlərdə məskunlaşmalarına düşünülmüş şəkildə mane olurdular) hədə-qorxusu ilə qovaraq say çoxluğuna nail olmaları strateji mahiyyət daşıyırdı ("Daşnaklar gürcü hakimiyyətindən xəbərsiz bu respublikanın şəhər və kəndlərinə keçici azarlara mübtəla olmuş erməniləri yerləşdirirdi"; o dövrün yerli mətbuatında bu barədə xeyli fakt tapmaq mümkündür).[111]

Yerli hakim dairəni erməni qaçqınları ilə əlaqədar məsələlərə loyal münasibətdə günahlandıraraq siyasi avantüraya əl atan erməni elitası və onların havadarları "doğma xalqına kömək göstərmək iqtidarında olmayan hökumətdən erməni qaçqınları üçün yardım istəmək ədəbsizliyi" (Şota Vadaçkoriya) nümayiş etdirməyə başlamışdılar. Bunu daşnakçıların məkrli siyasəti kimi əsaslandıran gürcü müəllifi açıq yazırdı: "Bəlalara düçar olmuş həmyerlilərinə bilərəkdən soyuqqanlılıq bəslənməsinin başlıca səbəblərini qabaqcadan düşünülmüş hiylələrdə aramaq lazımdır ki, məqsəd erməniləri, qaçqınlar olmaq şərti ilə silahlandırmaq və onları gürcü dövlətinə qarşı yönəltmək idi."

Erməni mətbuatı “Ənvər Türkiyədə, Xan Xoyski Azərbaycanda, N.Jordaniya hökuməti isə Gürcüstanda erməniləri qırıb çatırlar”, “Sırf siyasi ambisiyaların xatirinə Gürcüstan siyasəti erməni qaçqınlarını gücdən salmaq, sonra isə onları məhv etmək niyyəti güdür”, “Gürcüstanda yeni Mesopatamiya yaradılır” böhtanları ilə təbliğat aparırdı. Vəziyyət o həddə çatmışdı ki, gürcü mətbuatı açıq qeyd edirdi: “Erməni qaçqınları daşnaklardan ötrü elə bir “ağır artilleriya”dır ki, onun “mərmisi” Gürcüstan Respublikasının ürəyini parçalaya bilər. Məgər bundan imtina etməkmi olar”?[112] Bütün bu işlərin sonu erməni plutarxiyası üçün erməni qaçqınların və yerli ermənilərin total şəkildə silahlandırılmasnı şərtləndirdi. Beləliklə, erməni tərəfi təxribat və sui-qəsdlər törətməyə başlamışdı. Hətta bolşeviklərin Gürcüstanda hazırladığı üsyanlarda da erməni qaçqınları xüsusi fəallıq göstərirdilər. Ş.Vadaçkoriya yazır ki, erməni qaçqınlara maddi və tibbi yardım göstərmək üçün xeyriyyə yolu ilə toplanmış 80 mln rubl pul daşnaklar tərəfindən mənimsənilmiş və silahlanmaya sərf olunmuşdu. Gürcüstanın siyasət adamları və milli mətbuatı öz xalqına açıq şəkildə bəyan edirdi ki, ermənilərin antigürcü siyasəti müharibəyə istiqamətlənmişdir. Mətbuat vasitəsilə bildirilirdi ki, məs., Dzeqvi stansiyasında törədilən təxribat ermənilərin işidir, Məlik Kazaryantsın evində, Mantaşevin karvansarayında silah anbarları tapılmışdır, erməni dövlət adamları Gürcüstan, Ukrayna və Rusiyada erməni gənclərin hərbi səfərbəyliyini təşkil edirdilər. Həqiqətən də, bir müddət sonra Gürcüstana qarşı başlanmış erməni terroru açıq müharibəyə çevrilmişdi. Göründüyü kimi, İngiltərənin Yaxın Şərq siyasətini və Denikinin Qafqaza dair hərbi-siyasi planlarıönın cazibə dairəsinə əsir düşmüş erməni elitası Azərbaycana və Gürcüstana münasibətdə irredentizm siyasətini etnik terror istiqamətində eyni üsullarla icra edirdi. Bu fakt da təsdiq edir ki, XX əsr və XXI əsrin 20-ci illərinədək Azərbaycana qarşı erməni terroru əvvəlcədən planlaşdırılmışdı və strateji xarakterli idi. Onun dövlət terroru xarakteri alması dövrün ictimai-siyasi prosesləri fonunda formalaşmışdır.

Yuxarıda qeyd olunan mülahizələrin fonunda erməni traybalizmi və erməni probabilizmi əlavə çalarları ilə diqqət çəkməkdədir.

Müstəqillik illərində Azərbaycan Respublikasına qarşı digər etnik-dini mənşəli təhdidlərə də cəhdlər olmuşdur. Lakin erməni terroru qəddarlığı və statistik çoxluq göstəriciləri, həmçinin strateji maraqlarının genişliyi və dərinliyi baxımından daha amansızdır.

2016-cı ilin mart ayının 10-da Azərbaycanda "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumu keçirilmişdir. Həmin beynəlxalq tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev müasir dövrdə terror probleminin kəskinliyini belə ifadə etmişdir: **"**Bu illərdə, xüsusilə müstəqilliyin ilk illərində <...> Azərbaycan terror hücumlarının hədəfinə çevrilmişdir. 1990-cı illərin əvvəlində erməni terror təşkilatları dəfələrlə mülki vətəndaşlara qarşı terror aktları törətmişlər<...>".

Problemin siyasi tərəfi dövrün beynəlxalq münasibətlər sistemindəki əsaslı yeniliklər və fövqəldövlətlər arasındakı qütbləşmədə kəskin dəyişikliklərin yaranması ilə, sosial baxımdan isə etnik-dini özəlliklərin siyasi ambisiyalara istiqamət vermək, yaxud onları yerinə yetirmək üçün aktivləşməsilə sıx bağlıdır. Buna görə də Azərbaycan hərbi strateji hədəflərin ünvanı və təbii zənginliklər məkanı kimi regionda maraqları olan bəzi yaxın və uzaq dövlətlər üçün vacib coğrafiya hesab edilir. Digər tərəfdən ölkənin müstəqil, milli maraqlar naminə siyasət aparması, öz dövlətçilik maraqlarına və milli-mənəvi dəyərlərinə hesablanmış ideologiya formalaşdırması onun perspektivini yenidən təsir altında görmək istəyən xarici hərbi-siyasi planların icra sxeminə terror "romantikası" da qatmışdır.[113] Ermənistan Respublikasının beynəlxalq hüquq normalarına etinasızlıq göstərərək Azərbaycan Respublikasının ərazi bütövlüyünü pozması, dövlət terrorunu davam etdirməsi və beynəlxalq təşkilatların bu münaqişəyə səbatsız münasibətindən yaranan ikili standartlar təcrübəsini də nəzərə alsaq, görərik ki, müasir dünya siyasətində birbaşa hərbi müdaxilə tədricən arxaikləşdiyi üçün hadisələrin içində dolayısı ilə mövcud olmaq, güc tətbiq etmək məharəti dövlət eqoizminin ən "hörmətli" üsuluna çevrilmişdir;

beləliklə, “<...> silahlı zorakılığın əsas kanalı kimi qeyri-konvensional (qeyri-ənənəvi) müharibə taktikası Qərb ölkələrində geniş populyarlıq qazanmağa<...>”.[114] başlamış, beynəlxalq münasibətlər sisteminin hərb diplomatiyasında yeni kabus – TERROR söz sahibi olmuşdur. Terrorşünaslıq bunu terrorun “proksi müharibə” növü kimi səciyyələndirir. Qarabağın dağlıq hissəsindəki seperatçı erməni rejiminə beynəlxalq dəstək “proksi müharibə” taktikası ilə icra olunurdu.

Azərbaycanın müstəqillik dövründə üzləşdiyi terror aktları müxtəlif formatlı olsa da, onların məqsədi: ölkədəki sabitliyi pozmaq, vətəndaşı qorxudaraq iqtidardan incik salmaq, dini ayrıseçkilik və uydurulmuş təməlçilik prinsiplərinin kölgəsi altında cəmiyyət quruculuğunda təşəbbüsü ələ keçirmək, onun ərazi bütövlüyünü pozmaq və s. bu tip məzmundan ibarət olmuşdur.

Tolerant və multikultural dəyərlərlə formalaşan Azərbaycan dövlətinin ona qarşı istiqamətləndirilmiş terrora qarşı mücadiləsi respublika ərazisində inzibati-administrativ və milli-dini ideyalar altında terror fəaliyyəti ilə məşğul olmaq istəyən ayrı-ayrı qrupların cəhdlərini zərərsizləşdirməkdə qətiyyətli hərəkətləri, beynəlxalq antiterror koalisiyanın tərkibində ümumdünya terror şəbəkəsinə qarşı mübarizəyə qoşulması ilə ifadə edilir. Təəssüf ki, ABŞ Dövlət Departamentinin 2000-ci ilin iyul ayının 11-də yaydığı məruzədə qlobal terrorçuluğu bu və ya digər dərəcədə dəstəkləyən ölkələr sırasında Azərbaycanın da adı çəkilmişdi. Bu fakt Prezident Heydər Əliyevi son dərəcə hiddətləndirmişdi. O, ABŞ-ın Azərbaycandakı səfiri Stenli Eskuderonu yanına çağıraraq bəyan etmişdi: “Mən təsəvvür edə bilməzdim ki,  ABŞ Azərbaycan barəsində bu qədər ədalətsiz olsun”. Ümummilli lider hələ o vaxtı xüsusi vurğulamışdı ki, terror və separatçılıqla mübarizə Azərbaycanın daxili və xarici siyasətinin ən mühüm cəhətlərindən biridir, bu sahədə bütün dövlətlərlə, o cümlədən ABŞ-la fəal əməkdaşlıq edilir. Azərbaycan özü erməni terrorundan əziyyət çəkən ölkədir, buna görə də hər hansı formada separatçılığı və terroru dəstəkləyə bilməz.[115] Səfir ABŞ Dövlət Departamentinin məruzəsindəki fikri “səhv müddəa” adlandırmışdı.

Hazırda dünyanın müxtəlif regionlarında terror aktları törədən hərbi-siyasi təsisatlarla müxtəlif sosial-siyasi müstəvidə mübarizə aparan dövlətlərə dəstək verən Azərbaycan Respublikasının beynəlxalq terrorla mübarizədə fəal mövqeyi beynəlxalq ictimaiyyət və beynəlxalq təşkilatlar, xüsusilə də ABŞ Dövlət Departamenti tərəfindən yüksək qiymətləndirilir.[116]

Ümumiyyətlə, terror, Azərbaycan ”mən”ini formalaşdıran xüsusiyyətlərə yad əməl olduğundan, terrorçuluq azərbaycanlılar arasında geniş yayılmamışdır. Azərbaycan etnogenezisində haqsız yerə “can almaq” eqoizmi yoxdur; bu əxlaq əski zamanlardan qaynaqlanaraq azərbaycanlıların sadiq qaldıqları milli-mənəvi dəyərlərin, xüsusilə də tapındıqları bütün dinlərin özəl prinsiplərindən biri kimi inkişaf edib ictimailəşərək tolerant və multikultural dünyagörüşə malik bir millət formalaşdırmışdır.

Azərbaycan Respublikasında terrora qarşı mübarizə onun Konstitusiyası, formalaşdırdığı hüquqi baza, beynəlxalq hüquq normaları və humanist milli-mənəvi dəyərlər daxilində aparılır.

Azərbaycanın terrorun həm “gizli”, həm də “açıq” növlərinə qarşı mübarizəsi tarix baxımından o demək deyil ki, bu kabusla mücadilə ancaq ölkənin öz müstəqilliyini elan etdiyi, yaxud da müstəqilliyini bərpa etdikdən sonra yaşadığı problemdir. Azərbaycan uzun illərdir ki, terrorun hədəfinə çevrilmişdir. Bu, regionda hərbi-siyasi qüvvələr nisbətinin dəyişdiyi XIX əsrin əvvəllərindən daha kəskin hiss olunmağa başlanmışdı. Çar Rusiyasının Qafqazı işğalından sonra burada etnik-dini tərkibin süni surətdə sürətlə dəyişdirilməsi, gəlmə etnik ünsürlərin separatçılığı gücləndirməsi, beynəlxalq münasibətlər sistemində xristian amilinin siyasi ambisiya daşıyıcısı olaraq *simpatiya/antipatiya* meyarına çevrilməsi avtoxton xalqların taleyində müxtəlif faciələrə səbəblər yaratmışdı. Şübhəsiz ki, bu faciələrin törədicisi kimi terror *forma – məzmun – nəticə* üçbucağında daha böyük potensiala malik məcburedici format idi.[*] Bunun “gizli” növü Sovet hakimiyyəti illərində olmuşdur.

---

[*]Ümumiyyətlə, Azərbaycan torpaqlarının çar Rusiyası tərəfindən işğalından sonra Azərbaycan zaman-zaman terrora məruz qalmışdır. Azərbaycana qarşı terrorçuluq, əsasın, iki kompleks formatda keçmişdir:

Cənubi Qafqaza istiqamətlənmiş beynəlxalq geostrateji siyasət Azərbaycanın daha çox erməni terroruna məruz qalması ilə xarakterikdir. Bu terrorun ideya-siyasi mahiyyəti çox dar və birtiplidir, o, patoloji türkfobiya və sinizm üzərində qurulmuşdur. Analitiklərin erməni terroru barədəki fikirləri bu qənaəti daha da qətiləşdirir. Erik Fayql yazır: "Erməni terrorçuluğu tarixən formalaşmış konsepsiya ilə sıx bağlıdır. Onu yaradanlar üçün terror qisas almağa çağırış vasitəsidir. Dava-dalaşa və qisasa çağıran konsepsiya, əsasən, tarixi həqiqəti bilməyən və onu öyrənməyə imkanı olmayan gənc ermənilərin şüuruna yeridilir. Ancaq terror konsepsiyasının saxtakarlığını və mücərrədliyini sübut etməklə terror haqqında xəyallara qarşılıqlı qalib gəlmək, qarşılıqlı anlaşma və qarşılıqlı əfv etmək üçün şərait yaratmaq olar. Uzun düşüncələrdən sonra qərara gəldim ki, bu – yeganə çıxış yoludur, çünki xüsusi

---

***a.*** "YUMŞAQ QÜVVƏ";
***b.*** "SƏRT QÜVVƏ".
"Yumşaq qüvvə" vasitəsilə:
***1.***İctimaiyyət arasında konkret bir problem barədə (məs., ərazi ilhaqına başlamaq üçün müxtəlif səbəblər haqqında və s.) münasib fikir formalaşdırılır;
***2.***Həmin problemin formalaşdırılmasının qarşısını almaq istəyən dövlətin müvafiq məsul sahələri ictimai-humanitar təhdid vasitəsilə neytrallaşdırılır;
***3.***Problemin çözülməsi prosesi uzadılaraq onun daha da dərinləşməsinə, gərginləşməsinə, hətta unudulmasına fürsət verilir.
"Sərt qüvvə" vasitəsilə:
***1.***Problemi həll etmək görüntüsü yaradılır, səmərəsiz və gecikmiş sərt addımlar atılaraq cəmiyyət daha da gərginləşdirilir, beləliklə də "sərt qüvvə"nin tətbiqi reallaşdırılır;
***2.***Pproblem daha da sərtləşdirilərək, onun miqyası və dağıdıcı gücü böyüdülür;
***3.*** Terror üsulu problemin həlli variantı kimi ictimai-siyasi dövriyyəyə çıxarılır.
Digər formalar məhz bu kompleksin içindən yaranmışdır.
Bu xarakteristikanın elementlərinə Azərbaycana qarşı erməni terrorununicra sistemində aydın görünür; buna həmçinin dünyanın ayrı-ayrı regionlarında qarşılaşılan digər terrorçuluq işlərinin ssenarisində də rast gəlmək mümkündür.

seçilmiş və hazırlanmış, dözümsüz və ideoloji hazırlıq keçmiş erməni oğlanları belə bir çirkin terror kampaniyasında nəyə nail olmaq istədiyini yaxşı bilənlərin əlində, həqiqətən, oyuncağa çevrilmişlər. Terror aktı törətməyə razılıq vermiş hər kəs öz həyatını təhlükəyə atır və buna görə də o mənəvi dayağa möhtacdır, o motivdə ki, müvafiq prinsip, konsepsiya və nəzəriyyə irəli sürərək onun qəbul etdiyi qərarın düzgünlüyünü inandırmaq mümkün olsun.

...Erməni terrorçuluğunun fenomeni ondadır ki, o, özünü ifadə etməyi və özünə haqq qazandırmağı müasirliyə keçmiş tarixin prizmasından, məsələn, 1915-ci il hadisələri üzərindən baxmaqla nail ola bilir. Erməni terrorçuluğunun prinsipi qisasdır...”[117] Erməni terrorunun Azərbaycana qarşı terrorunun forma müxtəlifliyi məhz bu xarakterik xüsusiyyətlərindən qaynaqlanır.

Beləliklə, hadisələrin inkişafı göstərir ki, Şaqan Natalinin “***yumşaq qüvvə”*** ilə “qan-qan” deyən terrorçu təbliğatı ilə şişən erməni toplumunun nə vaxtsa haqq - ədalət yoluna gələcəyini soyuqqanlıqla gözləmək xəyalpərvərlikdir. Bu, həm də erməni ictimai fikrinin israrlı etirafıdır. 2015-ci ilin aprel ayında, 1915-ci il hadisələrinin 100 illiyində qəbul olunmuş “Unutmamışam və tələb edirəm” devizli ümumerməni deklarasiyası da bunu sübut edir. Həmin sənəd “alçaldılmış və təhqir olunmuş” məzlumun göz yaşları deyil, ümumdünya ermənilərinin beynəlxalq aləmdən siyasi tələbi, kin - küdurətinin daimiliyi, gələcək nəslə milli vəsiyyətidir. Ona görə də N.Paşinyan iqtidarı dövründə “Qarabağ – Ermənistandır”, “Yeni müharibə - yeni ərazilər işğalı” şüarları ilə özünü ifadə edən erməni dövlət terroru az sonra “açıq müharibə” formatına keçmişdir.

Bütün bunlar təsdiqləyir ki, **müasir Azərbaycan Respublikasının terrora qarşı mübarizə tarixi Azərbaycan xalqının separatizmə qarşı mücadilə tarixi ilə sıx bağlıdır.**

Azərbaycan dövləti öz müstəqilliyini yenidən bərpa etdikdən sonra məruz qaldığı terror isə erməni terrorunun keçmiş hərbi-siyasi ambisiyalarının forma və məzmunca davamıdır. Lakin sovet Azərbaycanı dövründə ona qarşı separatçılıq və terror müxtəlif formatlı idi.

1920-ci ilin aprel ayının 28-də Azərbaycanda dövlət terroru yolu ilə hakimiyyətə gələn bolşeviklər sovet hakimiyyəti quruculuğu

sahəsində mərhələlərlə xalqlar arasında nifaq salmaq, milli-mənəvi dəyərləri əvvəlcə aktivləşdirib, milli elitanı üzə çıxarmış, sonra da kollektivləşmə və mədəni inqilab pərdəsi altında ilk növbədə onlara qarşı repressiyalar (kütləvi terror növü) etməyə, süni inzibati bölgülər və yeni tipli sovet xalqı birliyinin yaradılması ideologiyasının həyata keçirilməsinə başlamışdılar. Onların bu siyasətinə qarşı çıxmaq qüdrətinə malik milli elitanı hər cür üsullarla, o cümlədən terror ("qırmızı terror" növü) yolu ilə aradan qaldırmaq bolşevik idarə üsulunun əsas silahlarından idi. Çar dövründən qalma erməni terrorçuların bir qisminin sonra bolşeviklər sırasında səf tutması isə Azərbaycana qarşı terror aktlarının təşkilinin daha mütəşəkkil, dəhşətli və müxtəlif formatda aparılacağı təhlükəsini artırmışdır. Nəriman Nərimanovun Lenin, Stalin, Orconikidze və o dövrün başqa partiya-sovet dövlət xadimlərini bu barədə məlumatlandırması gözlənilən nəticəni verməmişdi. N.Nərimanovun V.Leninə ünvanladığı bir məktub Azərbaycana qarşı terrorun sovet dövrü tarixinin qaynaqlarını və müvafiq formalarını izləmək baxımından xarakterikdir.*

---

* "Ə.V.İ.

Bir teleqramımda bildirdiklərimi demək olar ki, təkrar etmək lazım gəlir.

Dəhşətli vəziyyət yaranmışdır: Mərkəz Gürcüstanın və Ermənistanın istiqlaliyyətini tanımışdır, Azərbaycanın müstəqilliyini tanımışdır, ancaq bununla yanaşı, mərkəz, qeyd-şərtsiz Azərbaycanın olan əraziləri Ermənistana verir. Əgər bu ərazilər Gürcüstana güzəşt edilsəydi, ictimai rəy ilə birtəhər mübarizə aparmaq olardı, ancaq Ermənistana, daşnaklara vermək – bu, düzəldilməsi mümkün olmayan fəlakətli səhvdir...

Əziz Vladimir İliç, məgər "müstəqil Azərbaycan" sözünü deyən Siz deyildiniz?..

İndi vəziyyət belə şəkil almışdır: həmişə Denikini (rus-çar generalı, bolşeviklərin, sosialist inqilabının düşməni. – E.C.) müdafiə edən Ermənistan müstəqillik, üstəlik də Azərbaycanın ərazisini almışdır. Bu günədək ikili oyun oynayan Gürcüstan, müstəqillik almışdır.

Sovet Rusiyasının ağuşuna bu üç respublikadan birinci atılan Azərbaycan həm ərazisini, həm də müstəqilliyini itirir.

Vladimir İliç! Çoxmilyonlu əhalinin hüquq və heysiyyəti ilə bu cür zarafat etmək olmaz...

Ermənilərin ərazi iddiaları və Azərbaycana qarşı terror və separatçılıq fəaliyyətini dəstəkləyən bolşeviklər ilk növbədə öz liderlərinin – V.İ.Leninin şəxsən işləyib hazırladığı və 1917-ci ildə Rusiya Müvəqqəti Hökumətinin devrilməşindən cəmi bir gün sonra qəbul olunmuş ilk sovet sənədi – Sülh haqqında Dekretin müddəalarına zidd idi. Həmin sənəddə "özgə ərazilərin ilhaqı və tutulması", "hər hansı ərazinin birləşdirilməsi", "güc tətbiqi ilə ərazi birləşdirilməsi" və gizli diplomatiya üsulu qətiyyətlə rədd edilirdi. Sovet Ermənistanının və erməni mənşəli bolşeviklərin mövqeyi isə tamam başqa idi. İllər sonra SSRİ-də hazırlanan başqa bir sənəddə də həmin gizli diplomatiyanın qalıq-larına rast gəlinmişdir. Müstəqil Azərbaycan Respublikasının BMT-də ilk daimi nümayəndəsi, Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri Həsən Həsənov "New Baku Post" qəzetinə (10 noyabr 2012-ci il) müsahibəsində Dağlıq Qarabağa dair rəsmi sənədlər hazırlığı prosesindəki diplomatik gərginliyi belə ifadə etmişdir: «Bizim əsas həll etməli olduğumuz məsələlər Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi, Dağlıq Qarabağın Azərbaycana aid olduğunun təsdiqlənməsi və əsas şərt

---

Mən qətiyyətlə bəyan edirəm: əgər Siz bizim qənaətlərimizə diqqət yetirməsəniz, biz Mərkəz qarşısında geri çağırılmamız barədə məsələ qaldıracağıq. O zaman tarixən dolaşıq salınmış milli məsələləri bu cür asanlıqla həll edənlər (İ. Stalinə işarədir. – E.C.) buraya gəlsinlər. Biz onda biləcəyik: Şərqə doğru, məzmunsuz hayqırışımızın əhəmiyyətini...

Və bütün bunların günahı kimdədir?

1) Mərkəzin məlumatsızlığında və 2) Mərkəzdə oturuşmuş erməni-daşnak-kommunistlərin iyrənc işində.

Mən Sizin diqqətinizi buna istiqamətləndirirəm.

Əgər qısa müddətdə Mərkəz daşnak-kommunistlərin bütün alçaqlıqlarına son verməк istəməsə, bütün müsəlman şərqi bizdən üz döndərəcək. Mən bu barədə Sizi ciddi xəbərdar edirəm və xahiş edirəm bu məsələyə ciddiyyətlə yanaşasınız...".[118]

Məktubun diplomatiya və siyasi nəzakət qaydalarından kənar tərzdəki müraciət forması (Ə.V.İ., yəni Əziz Vladimir İliç. – E.C.) və üslubu Nəriman Nərimanovun Vətən və millət eşqinə hətta sovet dövlətinin dahi rəhbəri ilə də nə qədər sərt, qətiyyətli və tələbli davrana biləcək mətin iradəyə malik olduğunu sezməyə imkan verir.

olaraq o dövrdə zəbt olunmuş Azərbaycan ərazilərindən qoşunların çıxarılması idi...Qətnamələrin məhz bu səpkidə qəbul olunması üçün bir il yarım BMT-də 150-ə yaxın rəsmi sənəd yaydıq və 200-ə yaxın görüş keçirdik. Nəticədə Dağlıq Qarabağ haqqında 4 qətnamə və 4 bəyanat qəbul olundu. Biz nəyə nail olduq bu qətnamələrlə? Əsas nailiyyətimiz ondan ibarətdir ki, Dağlıq Qarabağın və Naxçıvanın məhz Azərbaycan regionu olduğu BMT sənədlərində təsdiq olundu. Bu çox vacib amil idi. O dövrə qədər... heç bir beynəlxalq sənəddə Dağlıq Qarabağın Azərbaycana məxsusluğu qeyd edilməmişdi. Hətta SSRİ-nin konflikt dövrünə aid sənədlərində sadəcə Dağlıq Qarabağ məfhumu var idi, arxasında Dağlıq Qarabağın Azərbaycan regionu olması məfhumu yox idi".

Azərbaycanda 28 aprel hərbi çevrilişi ərəfəsində və ondan sonra daşnak silahlı dəsdələrinin həyata keçirdiyi terror aktlarının obyekti dinc əhali və ADR-in quruculuğunda, idarəçiliyində böyük xidmətləri olan dövlət adamlar idi ("fərdi terror" növü). Məqsəd öncə azərbaycanlıların milli elitasını yox etmək, sonra isə millətə havadarlıq edə biləcək qüvvələrin olmadığı bir cəmiyyətdə xalqın, necə deyərlər, gözünün odunu alıb ata-baba torpaqlarından qovaraq həmin coğrafiyaya sahib çıxmaq, digər tərəfdən, milli təəssübkeşliyi zəiflətmək idi. 28 aprel çevrilişindən az öncə, yəni 19 apreldə Ağdam rayonu ərazisində Qarabağ əhalisinə tutulan divan və həmin ilin may ayının 20-də Nəsib bəy Yusifbəylinin, iyun ayının 19-da Fətəli xan Xoyskinin qətli, Xəlil bəy Xasməmmədovun ağır yaralanması,[119] bundan bir ay sonra isə tanınmış ictimai-siyasi xadim Həsən bəy Ağayevin öldürülməsi Daşnaksutyun partiyasının "fərdi terror"u idi; bolşeviklərin susaraq onlara həmrəylik nümayiş etdirməsi isə II Dünya müharibəsinədək davam etmişdir.

Azərbaycan sovetləşdikdən sonra bolşevik cildində respublikaya qayıdan keçmiş daşnaklar bolşevik partiyasının müxtəlif təşkilatlarında və hakimiyyət orqanlarında məsul vəzifələr tutaraq antiazərbaycan fəaliyyətlərini bu dəfə yeni siyasi quruluşun şüarları ilə pərdələnmiş halda davam etdirmişlər. Strateji hədəf Azərbaycanın mənafeyini müdafiə edə biləcək milli qüvvəni tamamilə zərərsizləşdirmək, taktika isə "kommunistlər sırasında (sonra bu

proses daha da genişləndirilərək, cəmiyyətin bütün təbəqələrinə tətbiq olunmuşdur. - E.C.) təmizliyin aparılması" ("kütləvi terror") fürsətindən tam faydalanmaq idi, yəni Kremlin nəzərində etibarlı azərbaycanlı kadr yoxdur qənaəti formalaşdıraraq, burada dövlət işində vəzifələrə qeyri-azərbaycanlıların təyin olunması zərurətini qətiləşdirmək və idarəçilik sistemində çoxluq yaradıb, erməniçi maraqları yeni tipli terror üsulları ilə həyata keçirmək.*

Sovet hakimiyyəti qurulduqdan sonra xaricə qaçmış yüzlərlə daşnakın Ermənistan SSR-ə, hətta Azərbaycan SSR-ə qayıtmasına icazə verilsə də (1920-1930-cu illərdə), sadə mühacir azərbaycanlıların müvafiq istəkləri yerinə yetirilməmişdi. Azərbaycana qarşı ikili standartlar o vaxtlar da mövcud idi. Məsələn, hələ RK(b)P MK siyasi bürosunun 1923-cü il 22 noyabr tarixli iclasında (47 nömrəli protokol) SSRİ Xalq Xarici İşlər komissarının müavini M.Litvinovun təqdimatı əsasında Türkiyədən olan ermənilər

---

* N.Nərimanov məsləkdaşı Şirvaniyə ünvanlandığı bir məktubda (1922-ci ilin mart ayının 16-dan gec olmayan tarixlidi. Bəzi qüvvələr N. Nərimanovu Lenin və Stalinin gözündən salmaq üçün məktubun surətini ələ keçirib onlara təqdim etmişlər. – E.C.) yazırdı: "Mənə bildirdilər ki, yol. Mavrin təmizliyin (kommunist partiyasının üzvlüyünə layiq olub-olmamaq məsələsinin o dövrdə geniş tətbiq edilən həlli üsulu: "kütləvi terror" – E.C.) nəticələri barədə məruzə edərkən belə deyib: "Azərbaycanda kommunistlər arasında etibarlıları yoxdur. ...Mən yol. Mavrini yekəbaş-kommunistlər xüsusi cinsinə aid edirəm, belə mərifətsizlərdən hər şey gözləmək olar... Yekəbaş-kommunist meymunluq etməyi sevir, tənqidi təfəkkürə malik olmur. İnqilabın gərgin vaxtında Rusiyada nə edilibsə, o da heç kimlə məsləhətləşmədən onu olduğu kimi *burada* (kursiv mənimdir.-E.C.) təkrar edir. Azərbaycandakı müsəlman kommunistlərin əksəriyyəti bu keyfiyyətə malik deyillər. Yol. Mavrin belə düşünür ki, *...buradakı* (kursiv mənimdir. - E.C.) çoxluq millətçilik əhval-ruhiyyəsindədir, əgər həmin çoxluq millətçi əhval-ruhiyyəsində olsaydı, inanın, Ermənistan Zəngəzuru ala bilməzdi, Gürcüstan nefti havayı qazana bilməzdi və partiyanın sağlamlaşdırılması işində öz taleyini Mavrin kimi beynəlmiləlçilərə tapşırmazdı... Yol. Mavrinin təmizlik barədə verdiyi xarakteristika ali orqanı aldatmaqdır. Bu – cinayətdir, çünki ali orqanda yerli işçilərə etimadsızlıq yaradır və bununla da bizim sıralarımızı çürüdür, dağıdır".[120]

haqqında məsələ müzakirə edilmişdi. Qərarda 10 min erməninin Türkiyədən gətirilib SSRİ hüdudlarında məskunlaşdırılmasına etiraz edilməmiş, hətta bu iş sovet dövləti tərəfindən maliyyələşdirilmişdi. Məhz bu tipli sovet qərarları nəticəsində erməni terrorçuları da asanlıqla köçkünlərin sıralarına sızıb sovet ərazisinə keçmiş və təşkilatlanmışlar (bu problem 30 – 40-cı illərdə də olmuşdur). 1921-ci ilin fevral-mart aylarında "kommunistlərlə mübarizə" ideyası ilə fəaliyyət göstərən "Sovet hakimiyyətinə qarşı erməni mübarizə təşkilatı" azərbaycanlılara divan tutmuşdur (onun qurucusu və rəhbəri Simon Vratsanyan 1926-cı ildə xaricə qaçaraq ABŞ-da məskunlaşmış, hətta Dövlət Departamentində Yaxın Şərq məsələləri üzrə məxfi müşavir qismində çalışmışdır.1942-ci ildə Krım türklərinin, 1942/43-cü illərdə çeçen və inquşların, 1943/44-cü illərdə isə məhsəti türklərinin, Gürcüstanda yaşayan azərbaycanlıların deportasiya edilməsində SSRİ rəhbərliyində erməni məsələsinə lobbiçilik edən Anastas Mikoyana agentura yolu ilə təsir göstərmiş, məsləhətlər vermişdir.[121]) Faktlar var ki, erməni terror təzyiqləri nəticəsində hətta sovet hakimiyyətinin ilk günlərində də Azərbaycana (Şamaxı uyezdinin Firuzbəyli kəndinə) İrəvan quberniyasından azərbaycanlıların qaçqın axını olmuşdur.[122]

20-ci illərin axırlarından isə erməni terrorunda taktiki dəyişikliklər sezilməyə başlanılmışdı. Bu, erməni terrorunun yenidən formatlaşmasına ciddi təsir göstərmişdir. Bəzi daşnakçılar, ümumiyyətlə, erməni şovinistləri arasında ***"Daşnaksutyun" partiyasının fəaliyyəti nəticəsində erməni xalqının başına gələn müsibətlər"*** fikrinin təsiri altında ciddi daxili ixtilaflar, həmçinin ***ayrı-ayrı fərdlərə qarşı terror uşulunun səmərəsizliyi və perspektivsizliyi*** barədə fikirlər baş qaldırmış, partiyadaxili ziddiyyətlər güclənmişdi.[123] Eləcə də sovet dünyagörüşündə süni etnik dözümlülük təbliğatının dövlət siyasəti səviyyəsinə qaldırılması ilə əlaqədar keçən yüzilliyin 20-ci illərinin axırlarından başlayaraq silahlı terror taktikasından("açıq müharibə") əl çəkməyin təxminləri yaranmışdı.

Pərdələnmiş daşnakçılar silah əvəzinə, qələmlə, "elmi-bədii" sözlə ("yumşaq qüvvə") şovinizm və qisasçılıq motivlərini yayaraq

bilavasitə düşüncələrdə yeni tipli terror kompleksindən qorxmaq psixologiyası formalaşdırmağa başlamışdılar.

1928-ci ilin sentyabr ayının 9-da AK(b)P MK-nın Rəyasət heyətinin iclasında Aqasi Vartanyanın "Xorurdain Karabaq" ("Sovet Qarabağı") qəzetində dərc olunmuş "Dağlıq Qarabağ Muxtariyyatında ideoloji mübarizə" məqaləsi ətrafında aparılan müzakirələr öncə məsələnin ciddiliyinin və aktuallığının göstəricisi kimi xüsusi diqqət çəkir. Məqalədə Qarabağda baş qaldırmış şovinist təbliğata qarşı yerli rəhbər orqanların xəyanətkarcasına biganə qalmalarından bəhs olunur (vaxtilə Rusiya K(b)P Zaqafqaziya Vilayət Komitəsi redaksiyanın yenidən təşkil edilməsi barədə Katibliyin qərarının Azərbaycan KP MK tərəfindən icra olunmadığını ona irad tutmuşdu,[124] Qarabağın bolşevik rəhbərliyi ***spesifizimdə*** [*] təqsirən-

---

[*]Sinfi təlimlərlə bəzədilmiş nasional, meşşan düşüncə, davranış və zorakılıq tərzi, sosial-siyasi mühitə təzyiq göstərmə metodlarını dəstəkləyən fikir tərəfdarları olmuşlar. Əsasən siyasi fəallığın zəiflədiyi mühitdə, mühafizəkar görüşlərin üstünlük təşkil etdiyi, güc metodlarına qarşı müqavimətin zəif olduğu cəmiyyətlərdə baş qaldırır. Nasional-bolşevizm əlamətlərinə malik qeyri-kommunist ideologiyanın növlərindən biridir və kommunist ideyalarını milli-vətənpərvərlik görüşlərilə birləşdirməyə cəhd etmək vəzifəsinə əsaslanan istiqamətlərdən hesab edilir. Spesifiklər güc tətbiq etmənin müxtəlif formalarından faydalanmağa üstünlük verirdilər, yəni *spesifizim* həm "yumşaq qüvvə"nin, həm də "sərt qüvvə"nin birbaşa və ya dolayı yollarla təsirindən istifadə edərək cəmiyyətə müdaxilə etməyin baxışlar sistemidir. Spesifist rəhbər dairə neqativ qəbul etdiyi siyasi sistemin mövcudluğunu məhv etməyi və sərt siyasi hakimiyyət qurmağa istiqamətlənməni dəstəkləyir. Buna görə də V.İ.Lenin erməni "spesifistlər"ini "intizamsız, pozucu-ədəbiyyatçıların quldur dəstəsi" adlandırmışdır; erməni müəllifləri isə erməni spesifizminin siyasi mahiyyətindən bəhs edərkən onları "erməni sosial-demokrat federasiyası", "millətçi cəmiyyət" kimi təqdim etmiş, müxtəlif növ "spesifiklik", "xüsusilik" pərdəsi altında erməni inqilabi fəhlə hərəkatını ümumproletar hərəkatından ayırmaq, onları "milli" maraqlarla ovsunlayıb, erməni milli burjuaziyasının iradəsinə tabe etmək məqsədini güdmüşlər. Bəzi erməni müəllifləri spesifistlər barədə "daşnakların uğursuz agentləri" ifadəsini də işlətmişlər. Özlərini "Erməni Sosial-Demokrat Federasiyası" adlandıran erməni spesifikləri sovet

dirilirdi. Səbəb kimi isə Q.Seyranyan adlı birisinin Tiflisdə nəşr olunan “Qarabağın iqtisadi həyatı və onun perspektivləri” kitabı göstərilmişdi. “Daşnak qələminin məhsulu” kimi dəyərləndirilən bu kitab və bunun mənəvi davamçıları [G.K.Xalapovun (M.Bağırovun tapşırığı ilə onun mənşəyi xüsusi öyrənilmiş və şamaxılı erməni əsilli olması barədə müəyyən faktlar da üzə çıxmışdı) “Огни в бухте” romanı (casusların macəralı həyatını təsvir edən  ziyanlı əsər kimi tənqid edilmişdi, müəllif, azərbaycanlılara qarşı 1918-ci il mart genosidini erməniçi mövqedən işıqlandırmış, Bakıda təşkil olunan təxribat işlərinin təşkilatçısının İranda təcrübə keçmiş azərbaycanlı olduğunu yazmışdı. Ümumiyyətlə, azərbaycanlılar əsərdə mənfi rənglərlə təsvir olunmuş və Bakı nefti ətrafında qurulmuş əsas süjet xətti həmin dövrün reallıqlarını obyektiv təsvir etməmişdir,[125] M.Şaqinyanın “Sovet Zaqafqaziyası” kitabı, Nizami Gəncəvi haqqında tədqiqatı, “Zəngəzura səyyahət” oçerki  və s. bu qəbildəndir. Əvvəlki üç əsər barədə çox yazılmışdır. Ancaq “Zəngəzura səyahət”[126] oçerkinə etinasız yanaşılmışdır. Son bir neçə əsrin təcrübəsi göstərir ki, erməniçi müəlliflər hər fürsətdə Azərbaycanın keçmişinə və bu gününə xidmət edən milli-mənəvi və elmi həqiqəti gizlətmək, yaxud da aşağılamaqda xüsusi təcrübə qazanmışlar. M.Şaqinyan da həmin dəsdədəndir. Oçerkdə Azərbaycan coğrafiyasında qədim türklərin rolu, ümumiyyətlə, göstərilmir və xüsusi vurğulanır ki, Zəngəzur camaatı ona görə qıyıqgözdür ki, buraların

---

hakimiyyəti illərində, Zakfederasiya dönəmində Ermənistan partiya təşkilatına iqtisadi seperatizm, federalizm, daşnaklarla barışıq və şovinizm siyasəti aşılamaq istiqamətində fəaliyyətlərini davam etdirmişlər. Erməni elitası qürur hissi ilə qeyd edir ki, sovet dövründə gənc Ermənistan KP-yə ancaq “spesifistlər” rəhbərlik etmişlər. Spesifistlər siyasi cəhətdən iflasa uğradıqdan sonra onların bir çox ideya və ictimai-siyasi “dəyərləri” “vahid axın” adlanan növbəti erməniçi yeni mürtəce cərəyanına hopmuşdur. Müasir erməni elitasında müşahidə olunan milli təmayülçülükdə hər iki siyasi istiqamətin yenidən baş qaldırması özünü göstərir. Bunu keçən əsrin 60 – 70-ci illərindən başlayaraq Ermənistan SSR-nin Azərbaycan SSR-yə, ümumiyyətlə, erməni terrorunun azərbaycanlılara qarşı tətbiq etdiyi həm “yumşaq qüvvə”, həm də “sərt qüvvə” terrorunun realizəsi prinsiplərinə əsasən görmək mümkündür.

qәdim sakinlәri Çin mәnşәli knyaz Orbelyanın törәmәlәridir.] Azәrbaycandakı ermәni ictimaiyyәtinә yanlış fikirlәr aşılayırdılar.[*] Ermә-

---

[*] Ermәni terrorunun bu formatdakı fәaliyyәtinin total xarakter aldığını sezәn Azәrbaycan SSR rәhbәrliyi, nәhayәt, bunun qarşısına sәdd çәkmәk üçün 20 noyabr 1946-cı il tarixli iclasında "Sovetakan Qarabağ" vә "Sovetski Karabax" qәzetlәrinin işinin yaxşılaşdırılması tәdbirlәri haqqında" qәrar qәbul etmişdi. Qәrarda deyilirdi: "<...> vilayәt qәzetlәri son dәrәcә qeyri-mәğbul, aşağı ideya vә mәdәni sәviyyәdә dәrc olunur". Azәrbaycan K (b)P MK-nın Bürosu "Sovetski Karabax" qәzeti redaksiyasına qarşı "DQ-nin tarixini kütlәvilәşdirmәk üçün antielmi, siyasi cәhәtdәn sәhv materiallar (Ts.Ağayanın "Dağlıq Qarabağın әsilzadә ailәlәri", A.Balayanın "Dağlıq Qarabağ ziyalılarının növbәti vәzifәlәri" mәqalәlәri) dәrc edәrәk, Zaqafqaziya xalqlarının tarixinә qarışıqlıq salır, oxucuları tarixә dair mәsәlәlәrdә çaş-baş edir, DQ tarixi idealizә vә tәhrif olunur" tәnqidi mövqeyini bildirmişdi. Qәzet, Qarabağda yaşayan ermәni lәhcәsindә yazan "Vani" tәxәllüslü moskvalı aşığın ermәni xalqının xüsusiliyini, sovet hәqiqәtlәrinә böhtan atan şovinist şerlәrini dәrc etmişdir. Azәrb. SSR EA-nın Tarix İnstitutunun әmәkdaşı Ts.Ağayan isә ermәni tarixçisi Leonun "Tacir kapitalı" kitabından köçürmәlәr edәrәk yazdığı mәqalәdә Qarabağın qәdim tarixini müstәqil dövlәtin tarixi <...> kimi tәqdim etmişdir. Azәrb. SSR EA-nın Stepanakert (Xankәndi. – E.C.) bazasının tapşırığı ilә işıq üzü görәn (Ter-Qriqoryanın "Qarabağın tarixinә dair materiallar" әsәri) vә qarşısına DQ әrazisindәki tarixi abidәlәr üzәrindәki qәdim yazılıarı oxuyub rus dilinә vә müasir ermәni dilinә çevirmәk vәzifәsi qoyulan hәmin әsәrin müәllifi yazır ki, buradakı әski yazılar "<...> X-XIII әsrlәrә aiddir. Әrәb dövlәtinin zәiflәmәsi nәticәsindә siyasi arenaya Orta Asiya türk qәbilәlәri çıxdılar vә yerli feodalları qәddarcasına mәhv etdilәr <...> Ermәnistanın zәngin şәhәrlәri vә mәdәni mәrkәzlәri oddan vә qılıncdan keçirildi <...>. Gәlmә fanatiklәr xristian әhali ilә qәddarcasına rәftar edәrәk onlara divan tutdular <...>. Qarabağ çöllәri gәlmә qәbilәlәrin dayanacaq yerinә çevrildi, belәliklә, onun aşağı vә yuxarı hissәlәri arasında sәd çәkildi. Buna görә dә XI әsrdәn başlayaraq bu rayonlar arasında soyuqluq yaranmışdır". Bu tip sәhvlәrә hәmin regionun radioqovşaqlarının efirә verdiyi materiallarda da rast gәlinir.[128] Sonrakı dövrlәrdә dә belә tәxribat xarakterli faktlara sıx-sıx rast gәlinir. DQMV-nin rәhbәr mәmurlarından olan Şahnәzәrov soyadlı biri çar Rusiyasının XVIII әsr tarixinә ermәni mәhәbbәti, XX әsr tarixinә isә sinfi düşmәn mövqeyini

ni əsilli səlahiyyətli işçilər kəndlərdə insanlararası təfriqələr salır, əhalinin savadsızlığı və sadəlövhlüyündən istifadə edərək “qolçomaq”, “mülkədar” adı ilə kütləvi sürgünlərin təşkilində fəallıq göstərirdilər. “Tarixin qanlı yaddaşı” kitabının “Naxçıvan Muxtar Respublikası Şahbuz rayonu Keçili kəndində 9 mart 1930-cu ildə nələr olmuşdur? Və yaxud kolxozlar necə qurulurdu” bölməsində bu barədə çoxlu fakt vardır.[127]

Ümumiyyətlə, keçən əsrin 30-cu illərində dövrün güc dövlətləri sovet Azərbaycanının neftinə sahib olmaq üçün yenidən fəallaşmağa başlamışdılar. Bunun üçün “böyük müharibəyə” başlamazdan öncə, “kiçik müharibə” planlarına üstünlük verirdilər. O dövrün “kiçik müharibə”ləri terrorun oxşarlar sistemində də xüsusi yer tuturdu. Bu prosesi “yumşaq qüvvə” vasitəsilə yaratmaq və davamlı etmək taktiki variant idi.

Azərbaycan tarixinə “Keçili üsyan hərəkatı” (9 mart 1930-cu il) kimi düşmüş, “Keçili işi” adlanan həmin qiyamın istintaqı Xalq Daxili İşlər Komissarlığının (XDİK) əməkdaşı A.Orbelyana tapşırılmışdı. Azərbaycan Baş Siyasi İdarəsinin operativ müvəkkili olan A.Orbelyan yekun ittihamnamələrində heç yerdə o vaxtın Konstitusiyasına “Naxçıvan Sovet Sosialist Respublikası” rəsmi adı[130] ilə daxil olmuş ifadəni işlətməmişdir, əvə-zində “Naxçıvan diyarı” yazmışdır. “<...>Dindirmə prosesində Orbelyan tərəfindən qəsdən kənddəki bir tayfa digəri üzərinə qaldırılırdı. Onları məcbur edirdi ki, digər tayfalar barəsində mənfi söz söyləsinlər. Rus dilində aparılan dindirmə protokollarında isə elə şeylər yazırdı ki, savadsız

---

qabarıq hiss etdirməklə, regionda azərbaycanlıların mövqeyini ancaq erməni əhalinin həyat və fəaliyyəti fonunda qısa xatırlatmalarla kifayətlənmiş, Qafqaz Albaniyasına aid tarixi ümumerməni tarixinin Arsaq hissəsi kimi təqdim etmişdir. Şuşanın inşasını “Qarabağın əməkçi xalqı” ümumi ifadəsi ilə vurğulamışdır.[129] DQMV-nin Azərbaycan SSR-nin tərkibində bir qurum kimi deyil, müstəqil bir inzibati ərazi vahidi həvəsi ilə təsvir edərək, vilayətin həyatında azərbaycanlıların rolu sovet milli siyasəti koloritini yaratmaq üçün ümumi soyadlar siyahısında bir azərbaycanlı fəhlə-kəndli adı göstərməklə təqdim olunmuş, region ermənиləşmiş formatda portretləşdirilmişdir.

kəndlilər ağıllarına belə gətirmir və şübhələnmirdilər ki, Orbelyan bu dindirməni onların uşaqları, nəvələri arasında qəsdən daimi düşmənçiliyə çevirir”.

Bu üsulun uzun illər davam etməsi və ulu öndər Heydər Əliyevin bu tip erməni təxribatçıları ilə mübarizəsi sənədlərdə öz təsdiqini tapmışdır. Azərbaycan SSR DİN Əks-kəşfiyyat idarəsinin keçmiş rəisi Damazyan Semyon Yakovleviç adlı biri işdən haqsız yerə qovulduğu barədə SSRİ-nin rəhbəri N.Xruşşova şikayət ərizələri yazmaqla öz “ədalətinə” nail olmağa çalışsa da, rəsmi komissiya onun fəaliyyətindəki xəyanəti, saxtakarlığı, azərbaycanlılara şər atıb ləkələmək məqsədini sübuta yetirərək, onun təqsirini təsdiq etmişdi. Bu məsələ ilə əlaqədar hazırlanmış rəsmi arayışda deyilir ki, Damazyan: “1955-ci ilin mart ayında Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-ya ərizə yazaraq Heydər Əliyevin ona qarşı mübarizə apardığını.., onu gözdən salmağa çalışdığını bildirmişdi”. Onun ərizəsi yoxlanılmış və əsassız hesab olunmuşdu. Həmin ərizə əsasında aparılan yoxlamanın nəticəsi olaraq bildirilirdi ki, “...onun (Y.S.Damazyanın. – E.C.) operativ uçot işlərini saxtalaşdırması nəticəsində günahsız sovet adamları həbs olunmuş, Dövlət Nəzarəti və SSRİ Çay Donanması Nazirliyinin rəhbər işçiləri ləkələnmiş, bəzi agentlərin xarici kəşfiyyatla əlaqələrinin təsdiqi barədə məlumatın olmasına, onların (həmin agentlərin. – E.C.) operativ tədbirdən çıxarılması və aktiv agentura təhqiqatına götürülməsi haqqında təlimatın verilməsinə baxmayaraq “...” və “...” adlı agentləri agent-operativ işlərə cəlb etdiyi üçün...” və s. səhvlərinə görə Damazyan Sov. İKP sıralarından xaric olunmuşdu.

SSRİ-də 30-cu illərin haqsızlıqlarının öz xalqına qarşı dövlət terroru səviyyəsindən (“kütləvi terror”, repressiya) aparılması İ.Stalinin şəxsiyyətə pərəstiş siyasətinin ifşasından sonra bütün çılpaqlığı ilə ictimaiyyətə açıqlanmışdı.*

---

* 1954 – 1959-cu illərdə partiya xətti ilə apelyasiya şikayətlərinin sayının artmasının əsas səbəbi 37-ci il haqsızlıqları, qırmızı terror ilə bağlıdır. ARPİİSSA-nın 1-ci fondunda (Siyahı:40-43.) bu barədə xeyli material var. Azərbaycan SSR-nin prokuroru A.S.Babayevin Azərbaycan KP MK-nın katibi İ.D.Mustafayevə 3 may 1955-ci il tarixli Arayışında (“Azərbaycanda

Ümumiyyətlə, **sovet dövrünün 20-ci illərində terrorçuluqla mübarizə, əsasən, sinfi düşmənlər və onlara qarşı mübarizə, 30-40-cı illəri isə oğru-quldur qanunları ilə əhalini qorxudan, sovet hakimiyyətindən küskün vəziyyətə salacaq fəaliyyət göstərən residivistlərlə savaş istiqamətində getmişdir. 50 - 70-ci illərdə terrorun oxşarlar sistemi yayılmağa və təkmilləşməyə, beləliklə, terrorun yeni növlərinin yaranması istiqamətində yeni səbəblər formalaşmağa başlamışdır. Tarixən terrorun keçdiyi yolun xarakteri ictimai-siyasi əlamətlərinə görə fərqləndirildiyindən (ağ, qırmızı terror), bu ənənənin davamı olaraq sovet dövrünün terrorunu, ümumiyyətlə, "qırmızı terror" və "qara terror"un bir-birini tamamlaması kimi qəbul etmək mümkündür.**

Beləliklə, II Dünya müharibəsinin başlanması ilə əlaqədar antisovet qüvvələr yeni situasiyaya uyğun manevrlər etmək məcburiyyətində qalmışdı. Bu məsələlərdə xüsusi təcrübəsi olan erməni antisovetləri də cildlərini dəyişmişdilər. Xaricdə məskunlaşmış daşnakçıların fəal üzvləri faşist Almaniyası ilə əməkdaşlıq yaradaraq Cənubi Qafqaza qalib əsgər xülyası ilə gəlmək və Azərbaycana ərazi iddialarını reallaşdırmaq arzusunda idi. Erməni əsgərlərdən təşkil olunmuş bəzi hərbi hissələr müharibədə almanlara qarşı həvəssiz döyüşür, digər əsgərlər arasında satqınçı əhval-ruhiyyə

---

əks-inqilabi cinayətlər barədəki cinayət işlərinin təhqiqatı və həlli zamanı yol verilmiş ziyankarlıq və sosialist qanunçuluğunun kobud surətdə pozulması haqqında") əks-inqilabi cinayətlər kateqoriyasına aid cinayət işlərinin təhqiqatında xeyli qanun pozuntusuna yol verildiyi göstərilir. Prokuror yazırdı: " Bəzi hallarda əks-inqilabi cinayətlərin məhkəmə və məhkəmədən kənar baxışı vicdanlı sovet vətəndaşları üzərində birbaşa zərərverici xarakter daşımış və böyüyərək terrorçuluqla divan tutmağa çevrilmişdi... Bütün bunlar (kütləvi həbslər, "səmimi" etiraflar, dindirmələr, donosçuluq və s. – E.C.) ona gətirib çıxarmışdı ki, DİXK-nın məlumatlarına əsasən, guya Azərbaycan əhalisinin bütün təbəqəsi əks-inqilabi fəaliyyətə qurşanmış və müxtəlif əks-inqilabi təşkilatların üzvü olmuşlar. Köhnə partiyaçılar – gizli iş aparanlar sovet hakimiyyətinin düşmənləri imiş, rəhbər partiya-sovet işçiləri imkan yaranan kimi bir-birilərini müxtəlif əks-inqilabi təşkilatlara cəlb edirmişlər, ... əldən düşmüş professorlar isə terror birliklərinin üzvü imiş". [131]

təbliğ etməklə, cəmiyyətdə psixoloji düşkünlük aurası formalaşdırırdılar. Bu mövzuya M.Bağırov ilə orduda xüsusi şöbə rəisi olmuş DT kapitanı Yefimenko arasındakı bir söhbətdə geniş və ətraflı toxunulmuşdu.[132] [*] Mövzunun davamı göstərir ki, II Dünya müharibəsinin gedişində və ondan sonra erməni separatçılığı klassik "yarınmaq" metodundan əl çəkməmiş, həm faşizmin, nasizmin, həm də sovetlərin qələbəsinə hesablanmış iki variantlı planın realizəsinə başlamışdır. Lakin onların bu riyakarlığının hətta faşist Almaniyasının rəhbərliyində də ikrah hissi ilə qarşılanması barədə də faktlar vardır.[†]

II Dünya müharibəsi ətrafında cərəyan edən hərbi-siyasi oyunlara Türkiyədən ərazi qoparmaq iddiası ilə təpilərək özünü

---

[*]Azərbaycan KP MK-nın "Bakı şəhərinin və respublikanın vacib rayonlarının arzuolunmayan elementlərdən təmizlənməsi tədbirləri haqqında" 24 oktyabr 1941-ci il tarixli qərarının yerinə yetirilməsinə dair müşavirəsində deyilirdi ki, döyüş bölgəsindən evakuasiya olunan sərnişin qatarları,yük, eşalon ilə birgə insanlar da gəlir və Bakıda məskunlaşırlar. "Onların bəziləri idarələrdən yaşamaq hüququ verən arayışlar alır, beləliklə, əksəriyyəti şəhərdə sərgərdanlıq edir, bazarlarda, maqazalarda iş rejimini pozur, şəhərin normal həyatına mənfi təsir göstərirlər. Gələnlərin arasında düşmənçilik etmək fikrində olanlar da var. Onlar hərbi şəhərçiklərdə, hərbi təhsil müəssisələrində, aerodrom yaxınlığında vurnuxurlar. Sayıqlığı artırmalı, təxribatçılara yol verilməməlidir.Qalustyan adlı keçmiş hərbi əsir ... Stalin rayonundakı qospitalda palataları gəzərək faşistləri tərifləməklə əks-təbliğat aparır... Bakının təhlükəsizliyi həmin elementlərdən təmizlənmə səviyyəsindən asılıdır. Faşistlər 5-ci kolon yaratmaq istəyirlər. Yaralı əsgərlər arasında yaralılardan kəşfiyyatçılar da göndərirlər.[133] Müharibədən sonra isə Bakıda sahibsiz uşaqlar problemi yaranmışdı. Bunlar respublikada ictimai-siyasi durumun, kriminogen situasiyanın, dolayısı ilə terrorun oxşarlar sisteminin yeni çalarla formalaşmasına və qara terrora keçid almasına şərait yaradan amilləri çoxaldır və genişləndirirdi.

[†]Bütün bunlara rəğmən keçən əsrin əvvəllərində Naxçıvanda, Vedibasarda, Zəngəzurda, Şərqi Anadoluda minlərlə insanı qətlə yetirən, sonralar isə faşist Almaniyası ilə sıx əməkdaşlığa başlayan erməni terrorçusu Qaragin Njdeyə 2016-cı ilin may ayının 28-də (Azərbaycan üçün tarixi bir günün seçilməsi erməni xislətindən qaynaqlanır) İrəvanda heykəl qoyulmuşdur.[134]

qaliblər tərəfindən göstərməyə çalışan erməniçi qüvvənin arzuları puç olduqdan sonra başqa varianta - deportasiyalar və repatriasiyalar formatına keçilmişdir. Xaricdən gələn ermənilər Azərbaycan SSR-nin də ərazisində məskunlaşdırılır, yerli vətəndaşların böyük ehtiyacı olmasına baxmayaraq, onlar təcili surətdə iş və mənzillə təmin edilirdilər. Bu proses keçən əsrin 60-cı illərinin ortalarınadək davam etmişdir. Və gəlmələrin özləri ilə bərabər gətirdiyi ögey dünyagörüş sovet reallıqlarına ciddi mənfi təsir göstərirdi.* 70-80-ci illərdə SSRİ məkanında, o cümlədən Azərbaycan SSR-də baş verən qanunsuzluqların mənəvi-siyasi bazasında bu elementin xüsusi rolu olmuşdur.

II Cahan müharibəsində Almaniyanın məğlubiyyətindən sonra erməni separatizmi başqa formatda biçimlənməyə başlamışdı. Bu "yenilik" erməni terrorunun formasına və icra mexanizmlərinə təsirsiz qalmamışdır. Bu dəfə SSRİ daxilindəki və xaricindəki etnik ermənilər, o cümlədən erməni patriarxlığı fəallaşmışdı.** Sovet

* Azərbaycan KP MK Katibliyinin "Siyasi mühacirlərin və repatriantların yaşayış sahəsi ilə təmin olunması haqqında" 11 may 1963-cü il tarixli məxvi qərarında (28 saylı protokol, §16, 17) aidiyyəti qurumlara göstəriş verilirdi ki, gəlmələr üçün Bakıda 45, Kirovabadda (Gəncə) 25, Sumqayıtda 10 mənzil ayrılsın; digər qərarla isə siyahı üzrə gəlmələrin mənzil şəraitlərinin yaxşılaşdırılması tapşırılmışdı. İran, İraq, Livan, Misir və İspaniyadan gələn repatriantların arasında erməni mənşəlilər çoxluq təşkil edirdi.[135] Bu siyasətin dalğaları fonunda çox keçməmişdir ki, ermənilərin də yaşadığı Sumqayıtda zəhmətkeşlərin7 noyabr bayram nümayişinddən sonra iştirakçıların ciddi ixtişaşı baş vermişdi. Azərbaycan KP MK-nın 19 noyabr 1963-cü il tarixli qərarı ("Sumqayıt şəhərində 7 noyabr 1963-cü ildə xuliqan elementlərin törətdiyi qarışıqlıq haqqında") bu şəhərdə ictimai vəziyyətin tədricən ağırlaşdığını göstərirdi.[136]

** BVM-dən sonra Azərbaycan rəhbərliyinə məlum olmuşdu ki, Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin İrandakı Mədəniyyət evində çalışan erməni əsilli şəxslər hər fürsətdə şovinistlik edərək müharibənin iştirakçısı olan erməni hərbçilərini məşhur rus sərkərdələrindən öndə təqdim-təbliğ edir, ədəbiyyat xadimləri arasında isə ancaq erməni və rus nümayəndələrini nümayiş etdirərək – terrorun probabilizm üsulu ilə xarici ölkə vətəndaşlarının təsəvvüründə azərbaycanlılar haqqında yanlış fikirlər yaradırlar.[137]

dövlət aparatında, xüsusilə də hüquq-mühafizə orqanlarında nüfuzlu vəzifələrə soxulan erməni mənşəli kadrlar kommunist partiyasının iş prinsipindən, xüsusilə də ali rəhbərlikdə hazırlanıb təsdiq olunmuş direktiv sənədlərin qeyd-şərtsiz icrası prinsipindən, zəhmətkeş məktublarına operativ reaksiya vermək tələbindən maksimum faydalanmaq üsuluna üstünlük verməklə tamamilə yeni tipli terror formasına keçmişlər. Beləliklə, XX əsrin 40-cı illərinin axırlarında erməni terrorunda "yumşaq qüvvə"nin ***"partiya-sovet qərar və qətnamələri", "şikayət məktubları"*** ilə terror üsulu nəzərə çarpmağa başlamışdı. Bu üsuldan sovet dövləti süquta yetənədək istifadə olunmuşdu.

Digər tərəfdən, beynəlxalq vəziyyət də gərginləşmişdi. Cənubi Azərbaycanda inqilabi əhval-ruhiyyə genişlənirdi. Onla-rın Sovet Azərbaycanı nümunəsində azad Vətən arzuları getdikcə qüvvətləndi-yi üçün Amerika və İngiltərənin hakim dairələri SSRİ-yə təzyiq vasitəsi kimi xaricdəki erməni daşnaklarının da Ermənistan SSR-nin sərhədlərinin Azərbaycan (DQMV, Naxçıvan MSSR, Gəncə və s. ərazilərin) və Gürcüstandan (Axalsık, Axalkalaki, Borçalı və s.

---

Bu tipli məsələlərin getdikcə xarakterik hal almasının qarşısını kəsmək üçün Azərbaycan SSR-nin rəhbərliyi məhz DQ partiya təşkilatının vilayət partiya fəallarının 12 – 13 noyabr 1948-ci il tarixli iclasını çağırmış və regiondakı ideoloji durumu müzakirə etmiş, ədəbiyyat, siyasi mühazirələr, orta məktəblərdə dərslərin keyfiyyəti, siyasi maarifçilik və s. məsələr ətrafında geniş müzakirələr aparmış, həmçinin sosializm realizmindən geri çəkilmə, dardüşüncəliyin təbliği barədə həyəcanlı faktlar sadalamaqla erməni probabilizminin təsirindən qurtulmağın yollarını göstərmişdir.[138] Ümumiyyətlə, o dövrdə Azərbaycanın ictimai-siyasi həyatı, tarixi və mədəniyyəti barədə hər cür təhriflərə qarşı operativcəsinə ciddi cavablar verilmişdir. M.Bağırovun İ.Stalindən etdiyi bir xahiş bu cəhətdən xarakterikdir. O, 2 fevral 1949-cu il tarixli məktubunda yazırdı: "…Yoldaş Stalin, Sizdən yeganə xahişimiz odur ki, Sovet Yazıçıları İttifaqına və digər ittifaq təşkilatlarına göstəriş verəsiniz ki, Azərbaycan xalqının tarixinə, mədəniyyətinə, ədəbiyyat və incəsənətinə dair məsələlərdə bizə saymazlıq etməsinlər, bizimlə məsləhətləşsinlər".[139] Bu addım Azərbaycan SSR-ə yönəldilmiş "yumşaq güc" terror əməllərinin qarşısını almaq üçün dövrünə görə oprimal variant idi.

ərazilərin) ilhaq vasitəsilə genişləndirilməsi siyasətini dəstəkləyir, repatriasiya prosesində Azərbaycana təxribatçılar, Ermənistana isə təbliğatçılar göndərir, şifahi və mətbu təbliğat yolu ilə, pozuculuq işləri ilə Azərbaycan tarixi və mədəniyyəti aşağılanırdı. Vəziyyət o həddə çatmışdı ki, Azərbaycanın rəhbəri M.Bağırov Azərbaycan K (b) P-nin XVII qurultayında (1949-cu ilin yanvar ayının 25-28-də Bakıda keçirilmişdir) bu məsələni xüsusi olaraq diqqətə çatdırmışdı: "...İngilis-amerikan imperialist vəhşiləri öz labüd süqutlarını hiss edərək, öz fəaliyyətlərində heç bir üsuldan iyrənmirlər, mətbuat, radio, şantaj, rüşvətlə satın alma işləri görürlər, casus və təxribatçı göndərirlər, mütərəqi insanları və əməkçi kütlələrin rəhbərlərini tindən çıxaraq vurub öldürməklə qətl törədirlər".[140] Bu məsələdə Azərbaycanla yanaşı, Gürcüstana da kömək üçün öncə İ.Stalinə, siyasi nəzakət xatirinə A.Mikoyana acizanə xahişlər edilirdi.[141] Azərbaycan SSR DT naziri S.Yemelyanov isə həmin qurultaydakı çıxışında bu problemi daha əhatəli və konkret faktlarla qabardaraq ifşa edirdi. Onun səsləndirdiyi faktların əksəriyyəti (diversantlar və imzasız məktubla Azərbaycan SSR-ə böhtan atanlar) erməni əsilli elementlər, yaxud onlarla əlaqəsi olanlar idi.[142] Yenicə müharibədən çıxmış cəmiyyətdə terrogen situasiya formalaşdırılır, "qara terror" və ona qarşı mübarizə siyasəti bu yolla həyata keçirilirdi.[*]

Müharibənin SSRİ-nin qələbəsi ilə başa çatacağına əminlik yarandıqdan sonra, 1945-ci ilin əvvəllərindən başlayaraq erməni ictimai-siyasi həyatında, o cümlədən terrorunda kilsənin rolu yenidən fəallaşmışdı. 1945-ci ilin aprel ayının 19-da erməni arxiyepiskopu Gevork Çörəkçiyan SSRİ-də yüksək mənsəb sahibi Anastas Mikoyanın dəstəyilə sovet dövlətinin başçısı İosif Stalin ilə

---

[*] Bakıda 13 nəfərdən ibarət erməni quldur dəstəsi (başçıları Aleksandr Qriqorieviç Akopov idi) 1947-ci ildə 2 qətl, 17 qarət, 18 oğurluq hadisəsi törətmişdi. [143]Bu problem digər formada da – kadr siyasəti ilə də icra olunur, yerli idarəçilik sistemi total şəkildə zəiflədilirdi. Azərbaycan K(b)P MK bürosunun 19.06.1948-ci il tarixli iclasında (Protokol № 668) DQMV rəhbərliyinin kadr seçiminə qeyri-ciddi, laqeyd yanaşması nəticəsində vacib vəzifələrə təsadüfi, müəmmalı,öz xeyirini güdən adamların soxulması bildirilirdi.[144]

görüşmüş, ondan SSRİ ərazisində yeni erməni-qriqoryan kilsələrinin tikintisini və hər kilsə üçün bankda xarici valyuta hesabının (müharibə edən bir ölkə üçün bu təklif xüsusilə cəlbedici idi!) açılmasını, erməni diaspor təşkilatları ilə əlaqələrin genişləndirilməsini xahiş etmişdi. Ateist dövlətin başçısı dini rəhbərin xahişlərini operativcəsinə yerinə yetirmiş və çox keçməmişdir ki, Suriya, İraq, Yunanıstan, Livan və s. ölkələrdən Sovet Ermənistanına erməni repatriasiyası başlamışdı.[**] Səbəb kimi belə bir amil qabardılmışdı ki, Qərb cəbhəsində müharibə qələbə ilə yekunlaşmaqdadır, Balkanlarda isə müharibə Türkiyə torpaqlarına keçiriləcək, orada işğal olunacaq ərazilərdə köçkün ermənilər məskunlaşdırılacaqdır. Lakin müttəfiqlər arasında Balkan cəbhəsi haqqında hərbi-strateji fikir ayrılığı yarandığından, SSRİ-nin Türkiyəyə hücumu təxirə salınmışdır. Bundan sonra repatriantlara məskən hazırlamaq üçün azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya siyasəti gündəmə gətirilmişdi. Digər əlavə səbəb isə Mingəçevir SES-nin tikintisində işçi qüvvəsi çatışmazlığı göstərilirdi. Ermənipərəst qüvvələr Kür – Araz ovalığına köçürülən azərbaycanlılar hesabına bu problemin də həll olunacağı iddiası ilə Sovet rəhbərliyini müvafiq qərarın qəbul edilməsinə inandırmışdı.

Ermənistandan deportasiyanın digər motivi "tezliklə Türkiyə, İngiltərə və Amerika SSRİ-ə qarşı müharibəyə başlayacaq, buna görə də Türkiyəyə gizli rəğbət bəsləyən azərbaycanlıarı SSRİ-nin dərinliklərinə, o cümlədən Azərbaycan SSR-ə köçürür, yaxud Ermənistanın torpağı azdır, boşaldılmış ərazilərə xaricdən gətirilən ermənilər yerləşdiriləcək və s. bu tipli şaiyələrlə müşaiyyət edilən "qara terror" üsulu ilə Azərbaycan və azərbaycanlılar barədə həm səhv fikir formalaşdırılır, həm də etnik təmizləmə işi aparılırdı.[145] N.Nərimanovun Şirvaniyə məktubunda ifşa etdiyi üsul başqa kontekstdə təkrar olunurdu. Yenə azərbaycanlılar etibarsız millət kimi mərkəzi

[**]1946-cı ilin aprel-may aylarında dünyanın müxtəlif regionlarında, xüsusilə də ABŞ-da Ermənistan SSR-nin ərazi iddialarını dəstəkləyən erməni mitinqləri keçirilərkən, sovet erməniliyi artıq həmrəylik mövqeyindən çıxış edirdi. İ.Stalin isə artıq buna göz yumurdu.

rəhbərliyin gözündən salınır, respublikanın gələcək taleyini erməniçi mövqedən həll etmək üçün sosial-siyasi şərait yaradılırdı.

Erməniçi tərəf israrla təbliğ etsə də nəticə etibarilə məlum olurdu ki, bu siyasətin arxasında sovet dövlət quruculuğu ehtirası deyil, Ermənistan SSR-ni "türkdən təmizləmək", monoetnik respublikaya çevirmək, ərazi genişliyinə nail olmaq planları dururdu. Ona görə də Sovet Azərbaycanının ictimai-siyasi reallığına qarşı aparılan elan olunmamış "qara terror" erməni terrorunun "deportasiya etmək" formatında başqa yöndən davamı idi.

II Dünya müharibəsinin ilk illərində iki xalq arasındakı nifaq müəyyən mənada yumşalsa da, sonra xaricdən gələn ermənilər arasında daşnak ideologiyası ilə tərbiyələnmiş yeni nəsil terrorçuluq düşüncəsinin bölgəyə ayaq açması regionda erməni revanşizmi, separatçılığı, ümumiyyətlə, terroçuluğa yol açan digər əməllərin yenidən baş qaldırmasına təkan vermişdi. Azərbaycanlıların deportasiyası ilə bağlı qısa fasilələrlə qəbul olunmuş rəsmi dövlət qərarları və onların qeyd-şərtsiz icrası üçün dövlət orqanları tərəfindən tətbiq edilən qorxu, hədə, incitmə yolu ilə məcburi köç etdirmək taktikası "siyasi sənədlərlə terror" üsulunun kəsərini daha da artırmışdı. Bu işlərin planlı şəkildə icrasında həmin dövrdə millətçi "vahid axın" nəzəriyyəsinin təsiri şübhəsizdir.*

---

*Keçən əsrin 40-cı illərinin sonu-50-ci illərinin əvvəllərində Ermənistanda təbliğ olunan millətçi "vahid axın" siyasi baxışının tərkibində spesifizm elementləri geniş təmsil olunurdu. "Ermənistan SSR-də alim, yazıçı və jurnalistlər "ümumi maraqlar naminə" erməni cəmiyyətini siniflərsiz, siniflərin fövqündə duran kimi təbliğ edir, "vahid axın" nəzəriyyəsini əsaslandırmağa çalışırdılar. Bu nəzəriyyə ümumi məqsədlər naminə Daşnaksütyun və Ermənistan Kommunist Partiyası arasında ideoloji fərqlərin aradan qaldırılmasını, onların barışdırılmasını, daşnakların və erməni kommunistlərinin birlikdə fəaliyyət göstərməsini nəzərdə tuturdu...".[146] Azərbaycan tərəfinin ciddi iradlarından sonra Kremlin sərt tapşırıqları nəticəsində vaxtilə erməni alimləri özləri "vahid axın"a qarşı "millətçi nəzəriyyədir" ruhunda tənqidə bənzər çıxışlar etmişdilər. SSRİ dağılandan sonra tam sərbəstlik hiss edən erməni elitası isə yenidən qatı millətçiliyi nisbətən başqa ritmlə ifa etmədədir. Bu baxımdan A.Nazaretyanın "Zaqafqaziya konfederasiyası"? adlı məqaləsi həm də erməniçi

"yumşaq qüvvə" terroru baxımından xarakterikdir. Yazıda planetar təkamül fazasına keçid zamanı regionun öz taleyinə aydınlıq və rahatlıq gətirməsinin bəzi aktual məsələlərinə toxunulsa da, vahid axınçı yanaşması aydın nəzərə çarpır. Çağırış xarakterli faktların arxasında gizlənərək, "Avropa konfederasiyası", "Avropa Birləşmiş Ştatları" və s. buna ekiztay fikir və ideyalardan ilhamlanan A.Nazaretyan nəzəri hazırlığını "Regional geosiyasətin perspektivləri meqatarix işığında" tezisi ilə gizlətsə də, onun "vahid axın" fəlsəfi görüşündən dəstək alan yeni ibarələrlə ortaya qatılması diqqət çəkir. Mövzunun üst qatında bəşəriyyətin gələcəyi ilə bağlı rahatsızlıq vəsf olunsa da, dərin qatda Ermənistan – Azərbaycan Dağlıq Qarabağ probleminin həllinin fərqli bir forması barədə demaqogiya aparılır. Həmin yazıdan bəzi sitatlar A.Nazaretyanın yeni tipli vahid axınçı olmasını göstərə bilir. O, yazır: "...gələcəyin qeyri-xətti modelləşdirilməsinə həsr olunmuş fənlərarası tədqiqatların gəldikləri nəticələrdən biri ondan ibarətdir ki, yaxın onilliklərdə planetar sivilizasiyanın sağ qalmaq ssenarisi ənənəvi anlamdakı milli dövlətlərin yox olmasını ehtiva edir... Dünya ictimaiyyətinin təkamülünün konfederativ münasibətlərə istiqamətlənməsi – tamamilə zəruri şərtdir", "Zaqafqaziya konfederalizmə doğru mütərəqqi hərəkatda dünyanın liderlərindən biri ola bilər", "Zaqafqaziya unitar dövlətlərdir və muxtariyyat unitar dövlətdə ziddiyyətli qərardır" [doğrudan da, Azərbaycan Respublikasının Konstitusiyasının 7-ci maddəsində deyilir: "Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublikadır". A.Nazaretyanın isə unitar dövlət haqqında fikri səhv tənqiddir. "Unitar dövlət — ərazisində hər hansı siyasi müstəqilliyə malik inzibati ərazi vahidlərinin olmadığı bir dövlətdir.Tərkibi inzibati ərazi vahidlərindən... ibarətdir. Bu dövlətin ciddi və fərqli xüsusiyyətləri vardır, yəni bütün ölkə üçün vahid konstitusiya, vahid qanunvericilik orqanı, vahid icra orqanları sistemi, vahid vətəndaşlıq onun əsas və ciddi əlamətləridir. ... Dövlət quruluşunun unitar forması dünyada daha geniş yayılmışdır. Belə dövlətlərdə vahid hökumət, vahid maliyyə-kredit və pul sistemi və s. olur".[147] "İnteqrativ təkliflərin müzakirəsi ancaq o zaman əhatəli və məzmunlu ola bilər ki, Zaqafqaziya ölkələrinin hər biri öz Konstitusiyasını federativ münasibətlərin xeyrinə yenidən nəzərdən keçirsin", "Zaqafqaziyanın federallaşması oradakı etnik qruplar arasındakı qarşılıqlı inam, eləcə də Zaqafqaziya düyününü açmaq üçün mütləq addımdır", "...federativ münasibətləri inkişaf etdirib konfederativliyə nail olmaq lazımdır...", "İnformasiya texnologiyalarının sürətli inkişafı nəticəsində Konfederasiya "keçici" inzibati mərkəzə malik ola bilər.., beləliklə, mərkəzləşdirilmiş

Keçən əsrin 40-cı illərinin axırlarından başlayaraq ümummilli lider Heydər Əliyev SSRİ Nazirlər Sovetinin birinci müavini vəzifəsindən istefa verənədək erməni terrorunda "yumşaq qüvvə"nin yeni bir forması kimi *siyasi, iqtisadi-siyasi niyyətli* <u>"imzasız məktublarla (bəzən saxta imzalarla) terror</u>*"* üsulu geniş tətbiq olunmağa başlanılmışdı (İttifaq rəhbərliyində ulu öndər haqqında mənfi fikir formalaşdırıb onu işdən azad etdirmək, sonra öz məqsədləri uğrunda terror üsulları ilə hücuma keçmək).*

---

idarəçiliyin arxaik forması sosial özünü təşkilin mütərəqqi metodu ilə əvəzlənər" və bütün bu evolyusiya prosesi regionu didib dağıdan etnik münaqişələrə son qoya bilər.[148]

A.Nazaretyan ictimaiyyətə başa salmaq istəyir ki, tərkibində milli azlıqların da yaşadığı Azərbaycan dövləti öz Konstitusiyasını dəyişməli, unitar deyil, federativ dövlət olmasını ümumxalq səsverməsi yolu ilə təsdiq etməlidir. Beləliklə, o, məlum münaqişənin dinc yolla həlli istiqamətində 2020-ci il 44 günlük müharibəyədək aparılmış Ermənistan – Azərbaycan danışıqlarının fəlsəfəsini şübhə altına salır, həm də Azərbaycan dövlətinin perspektivinə tuşlanmış terrogen şəraitin gərginləşdirilməsinə səbəb olacaq erməni yeni "yumşaq qüvvə" terrorunun əlavə bir səbəbini göstərir.

* Azərbaycanın görkəmli övladlarını ictimaiyyətin gözündən salmaqda erməni "qara terroru" xüsusi təcrübəyə malikdir. Hələ 1959-cu ildə "Bir qrup köhnə kommunist" imzası ilə "Pravda" qəzeti redaksiyasına (Sov.İKP-nin mərkəzi orqanı) göndərilmiş məktub bunun klassik nümunəsidir. Məktub müəllifləri (mövzuya yanaşma tərzindən bilinir ki, erməni əsillidirlər) sual formasında görkəmli dövlət xadimi Nəriman Nərimanovu aşağılamağa çalışaraq, bütövlükdə Axərbaycan milli-mənəvi-siyasi xarakterini şərləməkdən çəkinməmişlər: A.Mikoyan N.Nərimnovu xatırlayırmı, yaxud onu necə tanıyır? Bağırov və Beriyanı KP sıralarına N.Nərimanov gətirib? 26 Bakı Komissarlarının ölümündə N.Nərimanovun əli var? S.Orconikidze və S.Kirov ilə N.Nərimanov arasında hansı toqquşma olub? A.Mikoyan və N.Nərimnov arasında necə münasibət olub?" Məktub müəllifləri "Nərmanizim" termini ilə Azərbaycan tarixinin konkret bir dövrünü ən ağır siyasi ittihamlarla böhtanlayır, N.Nərimanovu L.Beriya - M.Bağırov xətti ilə əlaqələndirərək xalq düşmənləri cərgəsinə keçirməyə çalışır, hümmətçini müsavatçılığa, dolayısı ilə şovinizmə çəkməyə çalışırdılar.[151] Bu tipli məktubların əsas vəzifəsi Mərkəzi dairələrə Azərbaycandakı yerli kadrların keçmiş xan-bəy, mülkədar, musavatçı

SSR İttifaqının və Azərbaycan SSR-nin rəhbərliyinə ünvanlanan imzalı-imzasız məktublarda DQMV-nin rəhbər kadrlarının əxlaqsızlığı, knyaz kimi yaşamaları, rüşvətxorluğu xüsusi qeyd edilirdi.[149] DQMV-dən göndərilən şikayət məktublarında bölgədə ictimai-siyasi həyatın düşkünlüyü, sovet qanunlarının pozulduğunun kütləvi xarakter aldığı göstərilirdi.[150] Ümumiyyətlə, DQMV- də ictimai-siyasi həyatın ziyanlı istiqamətdə cərəyan etdiyi keçən əsrin 50-60-cı illərində daha kəskin duyulurdu.*

---

olduğu barədə yalan informasiyalar göndərərək onları İttifaq rəhbərliyinin gözündən salıb, yenidən bütün işlərin erməni və b. gəlmə kadrların ixtiyarına verilməsinə nail olmaq, N.Nərimnovun bəraət almasına səd çəkmək, o dövrdə yaxınlaşmaqda olan yubileyini dağıtmaqdan ibarət idi.[152] Ulu öndər Heydər Əliyevin jurnalist Elmira Əhmədovaya müsahibəsində bu məsələlərə də toxunulmuşdur.[153]

* Ermənistan SSR-də geniş şəbəkəyə çevrilmiş "vahid axın" şovinist cərəyanının Bakıdakı fəaliyyəti də həmin illərə təsadüf edir və bu fikri A.Petrosovun məktubu da təsdiq edir. O, M.Bağırovun həbsini bəhanə gətirərək yuxarı təşkilatlara ermənilərin Azərbaycanda acınacaqlı vəziyyətdə yaşamasına son qoymaq üçün şantaj və böhtan dolu məktub yazaraq respublikanı gözdən salmağa çalışmışdı. Bütün çatışmazlıqların səbəbini M.Bağırovun rəhbərlik etdiyi azərbaycanlıların üzərində cəmləşdirməklə, ictimai-siyasi və-ziyyətdən ermənisayağı istifadə etmişdi[154]. Mardakert (Ağdərə. – E.C.) rayonundan gələn imzasız məktub axını barədə rəhbərliyə arayış hazırlayan Azərbaycan SSR KP MK-nın inspektoru Ş.Petrosyan isə həmin rayonda daşnaklara rəğbət bəsləyənlərin olmasını xüsusi vurğulamışdı[155]. Ümumiyyətlə, həmin dövr siyasi xarakterli imzasız şikayət məktublarının dəb olduğu [xüsusilə də DQMV və Şaumyan (kənd) rayonunda] kimi xarakterizə edilə bilər ki, bu da başqa bir istiqamətdən cəmiyyətdə ictimai-mənəvi düşkünlüyün ifadəsi kimi qəbul olunur.[156] Azərbaycan KP MK-nın Bürosu 12 dekabr 1967- ci il tarixli qərarında, nəhayət, bu faktları qabartmaq məcburiyyətində qalmışdı. "Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Komitəsinin işi haqqında" adlı qərarda xalqlar arasında qardaşlıq və dostluğun qanunauyğunluqlarının təbliğinə yerli KİV-də, tematik mühazirələrdə az yer verildiyi qeyd olunur, erməni ziyalıları və gəncləri arasında ideya-tərbiyəvi işin qeyri-qənaətbəxş aparıldığı vurğulanırdı. Qərara alınmışdı ki, keçmişin idealizə olunmasının qarşısı alınmalı, gənclərin səhv tərbiyəsinə xidmət edən faktların qabardılmasına yol

Erməni “qara terror”unun *“məktublar”* üsulu forma və məzmun cəhətdən o həddə çatmışdı ki, hətta sovet dövlətinin inzibati-siyasi tərkibinə düzəlişlər etdirmək tələblərindən də çəkinməməyə başlanılmışdı. A.K.Qasparyan (onu A.Nazaretyanın səfəfi kimi də tənqid etmək mümkündür) SSRİ Nazirlər Sovetinin sədri Q.M.Malenkova ünvanlandığı 21.01.1954-cü il tarixli məktubunda yzırdı: “Naxçıvan MSSR Azərbaycan SSR-nin tərkibinə muxtar respublika kimi daxildir, baxmayaraq ki, əhalisinin 90% azərbaycanlılardır. Soruşmaq lazımdır, nə üçün Naxçıvan respublikasında yaşayan azərbaycanlılar Azərbaycan SSR-dəki azərbaycanlılardan muxtar olmalıdırlar. Bu, çox inanılmaz olsa da, faktdır. Belə muxtariyyat kimə lazımdır?.. Bu ona bənzəyir ki, RSFSR-in tamamilə ruslardan ibarət olan hər hansı bir vilayəti muxtardır, RSFSR-in tərkibinə muxtar respublika kimi daxildir...

---

verilməməlidir.[157] Azərbaycan KP MK üçün hazırlanmış 7dekabr 1967-ci il tarixli Arayışda[158] isə yerli partiya-sovet rəhbərlərinin ideoloji sahədəki ziyanlı faktlara qarşı vaxtında kəskin mövqe bildirməmələri açıqlanır, problem “vilayət diyarşünaslıq muzeyində tarixə aid hadisələr müəyyən məhdudiyyətlə göstərilir, müasir nəslin düzgün tərbiyyələndirilməsinə xidmət etməyən faktlar qabardılır” kimi ümumi sözlərlə ört-basdır edilirdi. “Ekspozisiyanın başlanğıcında çar II Tiqranın böyüdülmüş barelyefi diqqəti cəlb edir. Orada yazılmışdır: “Dağlıq Qarabağ (tarixi Arsaq) b.e.ə 66-cı ildən b.e.387-ci ilinədək Böyük Ermənistanın onuncu quberniyası...Dağlıq Qarabağın Rusiyanın tərkibinə daxil olması stendi də qeyri-qənaətbəxş tər-tib olunmuşdur... bu mütərəqqi faktın açılması üçün çar generalı Sisianovun 1805-ci ildə dediyi fikir diqqətə çatdırılır: “Əvvəlki qəhrəmanlıqlarınızı xatırlayın, qələbələrə hazır olun və göstərin ki, siz fars süvarilərini qorxuya salan həmin qarabağlı ermənilərsiniz”.[159]
Azərbaycan SSR-nin bir qrup erməniəsilli mənsubu A.Mikoyanın ünvanına şikayət məktubları göndərərək respublikanın rayon və yuxarı təşkilatlarında çalışan rəhbər kadrların ünvanına müxtəlif hədyanlar söyləyir, özlərinin sovet qanunçuluğunun tərəfdarı və müdafiəçisi qismində Moskvaya müraciət etmək məcburiyyətində qaldıqlarını məsumcasına təsvir edərək, Azərbaycan SSR-ni və onun yerli vətəndaşlarını gözdən salırdılar. Yuxarı təşkilatların tapşırığı əsasında aparılan yoxlamalar həmin məktublarda qeyd olunanların həqiqəti əks etdirmədiyini bildirilmişdir.[160]

Sadəcə, *Naxçıvan MSSR-in* (kursiv mənimdir. E.C.) 5 yaxud 6 olan rayonunun... icraiyyə komitəsi heç bir sədd yaratmadan birbaşa Azərbaycan SSR Nazirlər Sovetinə tabe edilsin, sovet milli siyasəti baxımından heç kimə lazım olmayan, tamamilə artıq – süni yolla yaradılmış və özünü saxlamaq üçün çoxmilyonlu sovet vəsaitini yeyən respublika təşkilatı ləğv edilsin... Yuxarıda qeyd olunan nəzər nöqtəsinə görə, Azərbaycan SSR-nin Millətlər Sovetinə 25 deputatdan əlavə, Naxçıvan MSSR-dən 11 deputat göndərməsi yolverilməzdir”.[161] Bu mövqe siyasi savadsızlıq deyildi. “Yumşaq qüvvə” ilə Naxçıvanın muxtariyyatını ləğv etdirmək, sonra onun Azərbaycandan qoparılıb, Ermənistana birləşdirməsini siyasi cəhətdən rəvanlaşdırmaq avantürasından irəli gəlirdi…

Əhalinin gur izlədiyi idman yarışlarından, xüsusilə də futbol yarışından da təxribat törətmək üçün “qara terrorçuluq” vasitəsi kimi istifadə etmək sahəsində də erməni terrorunun təcrübəsi vardır (bu üsul hazırda dünyanın müxtəlif regionlarında işlək vəziyyətdədir; “Qarabağ FK-nın UEFA-nın bayrağı altında keçirdiyi bir çox rəsmi səfər oyunlarında Azərbaycana qarşı törədilən erməniçi təxribatlar bu qəbildəndir).

Bunun erməni terroru ilə bağlılığna keçən əsrin II yarısından rast gəlmək mümkündür.12 oktyabr 1955-ci ildə “Spartak” İrəvan ilə Sverdlovsk (Yekatrinburq) hərbi dairəsinin futbol komandası arasındakı yarışda stadiona toplaşanlar hakimin bəzi qərarları ilə razılaşmayaraq şovinist və antisovet çağırışlar etməyə başlamış, cəmiyyətdə gərginlik yaradaraq “qara terror” toxumu səpmişlər.[161a] Az sonra bu taktika Azərbaycana qarşı tətbiq edilmişdir.

11 oktyabr 1959 cu ildə Gəncədə keçirilən “Toxucu” Kirovabad (Gəncə. – E.C.) – “Şirak” Leninakan (Gümrü. – E.C.) futbol yarışından sonra qarışıqlıq baş vermişdi.[162] Həmin günün səhərisi isə Gəncənin keçmiş Şaumyan küçəsindəki avtobus dayanacağında (Zabitlər parkı ilə üzbəüz) ağaca milli ədavət ruhlu vərəqə yapışdırılmışdı. Təxribatçılar yazırdılar: “Sevimli atalar, bacılar, qardaşlar, nə vaxtadək bizi onların (azərbaycanlıların. – E.C.) əsarəti altında saxlayacaqlar. Biz işləyirik adama oxşamaz azərbaycanlılar isə yeyib-içir, bizim arvadlarımızı, bacılarımızı, analarımızı zorla-

yırlar, sonra da balacadan böyüyə kimi bizə baxıb gülürlər. Biz hamımız yaxşı bilirik ki, ayın 11-də 15 yaşlı bir qızın döşünü kəsiblər, onlarla gənci, uşağı yaralayıblar... Sevimli millət.., xahiş edirik bütün əməkçi xalq işə çıxmasın, şəhər sovetinin (Gəncədəki.- E.C.) qarşısına gəlsin və Moskvadan adam gəlməsini tələb etsinlər. N.”[163]

Bu fikrin məntiqi davamı kimi 1965-ci ildə Ermənistan SSR-nin Qafan şəhərində yerli “Lernaqorts” (Mədənçi) futbol komandası ilə Bakının “Dinamo” komandası arasındakı SSRİ birinciliyi (o vaxtlar “II liqa”. – E.C.) futbol yarışında və ondan sonra törədilən erməni təxribatı[*] regionda milli qarşıdurma üçün qığılcım rolunu oynamışdır. Bu hadisələri bəhanə gətirən erməni tərəfi, ara sakitləşəndən sonra, azərbaycanlıları sıxışdırıb oradan köçməyə məcbur etmişdi. Həmin hadisədən sonra həyata keçirilən azərbaycanlıların məcburi köçkünlüyü keçən əsrin 60-cı illərinin axırlarından başlayaraq Ermənistan SSR-dən azərbaycanlıların məcburi miqrasiyasının növbəti mərhələsi olmuşdur.

1976-cı ilin iyul ayında Xankəndində (Stepanakertdə) azərbaycanlılara qarşı öncədən planlaşdırılmış təxribat nəticəsində üç

---

[*]Həmin matçda “Dinamo”nun qapıçısı olan, futbol veteranı Çingiz İsmayılovun müəllifə danışdığı xatirədən: “Matç, qrupun lideri “Dinamo”nun xeyrinə 1 – 0 hesabı ilə yekunlaşmağa az qalmış, hakim bizdən xeyli zəif olan Qafan komandasının xeyirinə 11 m-lik cərimə zərbəsi təyin etdi. Hakimin ədalətsiz qərarına Naxçıvan, Ordubad, Zəngilan, Ağdam, Qubadlı və s. yaxın Azərbaycan rayonlarından Qafana, futbola tamaşa etməyə gəlmiş azərbaycanlılar etiraz edəndə, yerli erməni futbolsevərlər onları təhqir etmiş və qarşıdurma başlamışdı.» Yarışın ertəsi günü səhər tezdən Çingiz İsmayılov və bir nəfər digər azərbaycanlı futbolçu (guya onların hakimin qərarına etirazları azərbaycanlı tamaşaçıları ictimai təhlükəsizliyi pozmağa təhrik etmişdi) Qafan milisinin uydurduğu “qalmaqalın səbəbkarları” iddiası ilə mehmanxanadan aparılıb müvəqqəti təcridxanaya salınmışdı. “Dinamo” komandası “yoldaşlarımız azad olunmayanadək mehmanxananı tərk etməyəcəyik” tələbini irəli sürdükdən sonra vəziyyət daha da gərginləşmişdi. Məsələyə Azərbaycan SSR DİN-nin rəhbərliyi qarışandan sonra onlar sərbəst buraxılmış, komanda erməni vandaizmi nəticəsində bərbad hala salınmış xidməti avtobusu ilə Qafandan çıxmışdır. – E.C.).

nəfər azərbaycanlının məhkəmə prosesinin sonunda mühafizəçilərin əlindən alınıb daş-qalaq edilərək öldürülməsi də erməniçi "qara terror"unun məqsədyönlü nəticəsi idi. * Tarix elmləri doktoru,

---

* DQMV-nın müxtəlif regionlarından respublikanın və sovet ittifaqının rəhbər şəxslərinin adına gələn, həm erməni, həm də azərbaycanlı qarabağlıların imzalı-imzasıs məktublarındakı şikayətlərdən məlum olur ki, vilayətdə vəziyyət hədsiz dərəcədə dözülməzdir. O dövrdə Azərbaycan SSR DTK-nın sədri olan Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibinə, Moskvadakı rəhbərliyə müntəzəm arayışlar təqdim edirdi. Həmin arayışlardan məlum olur ki, regionda milli qarşıdurma hər an labüddür. Erməni mənşəli rəhbər işçilər sovxoz və kolxozda çalışan dinc, əməksevər və peşəsinin sirrlərinə yaxşı bələd olan həm erməni, həm də azərbaycanlı kadrlarla yola getmir, istehsalat məsələləri ilə əlaqədar onların tənqidlərinə dözmür, həmin kəndlini gözümçıxdıya salır, məsuliyyətə cəlb etdirir, hətta yaşadığı kənddə, rayonda işlə təmin olunmasına maneə törətməklə yurd-yuvalarından didərgin salırlar, şovinist-erməniçiləri SOV. İKP sıralarına qəbul edib mənsəbdə irəliləməsinə şərait yaradır, Vilayət Sovetinə deputatlığa namizədliyini irəli sürürülər.[164] Bütün bu məsələlərlə bağlı Azərbaycan rəhbərliyindən kömək ümidilə məktublar çoxdur. DQMV-də hazırlanan "ütülü" hesabatların ruhundan erməni əhalisi arasında yerli hakimiyyət ilə xalq arasında sağlam münasibətlərin olmadığı da aydın sezilir. Arzu olunmayan kolxoz sədrini, sovet sədrini, vilayət sovetinə deputatlığa namizədin "ləkələndirilməsi" tendensiyası regionda xarakterik hal idi.[165] Məktublarda açıq şəkildə yazılırdı ki, DQMV-nin I katibi Melkumyan vəzifə səlahiyyətindən istifadə edərək rəhbər vəzifələrə öz qohumlarını irəli çəkir. Şikayət məktublarında "odda yanmaz, suda batmaz" mövqeyi ilə adı keçən antisovet ruhlu yerli erməni rəhbər işçilərinin hətta xaricdə də havadarlarının olması bildirilir və bu informasiyanı da erməni məktubyazarları qeyd edirdilər. Məktublarda erməni vətəndaşların yazdığı belə bir qeyd də var:"...onları bizim şəhərdən qovmaq, işdən çıxarmaq lazımdır, onda görəcəksiniz burada hər şey necə də sakitləşəcəkdir... Onlar təkcə azərbaycanlıları deyil, bizim sovet sistemimizi sevmirlər".[166]

Azərbaycanlı sakinlər isə yazırdılar (məktubun üslub və orfoqrafiyasını saxlayırıq. – E.C.) ki, "...Martuni (Xocavənd. - E.C.) rayonunun bütün yerli hökuməti ərmənilərdi. Bizə iş vermirlər, ancaq öz millətlərini təmin edirlər, axşama kimi küçələrə çapdan çıxmış kağızlar tökürlər, belə yazırlar, biz

Yerevana qarışırıq, Azərbaycan milləti pisdi, onlarnan bizim aramız duzalmaz, iş o yerə çatıb ki, 5 azərbaycanlını günahsız yerə vəhşicəsinə öldürdülər bizimlə dolanmırlar. Axşam sabah ailəmizə sataşırlar, uşqalarımızı döyürlər və şikayətimizə baxmırlar. Həmi döyülən biz oluruq, həmi türməyə düşən biz oluruq. Sizdən xahiş edirik ya bizi bunlardan ayırın, ya ərməniləri bizdən ayırın, yoxsa sonra yaxşı nəticə verməyəcək orada toqquşma davam ədəcək, çox xahiş edirik bizim işimizə yaxından cavab verəsiniz və qəmisiyə göndərəsiniz. Yoxlayıb özləri görələr...” İmza yerinə 18 nəfərin adı, soyadı sadalanır.[167] Azərbaycan SSR-nin I katibi Vəli Axundova ünvanlanmış digər məktubda isə yazılırdı: “...Əgər ələ belə qalarsa bu iki millətin arasında yaxşı nəticə olmayacaq. Millət bir-birini qıracaq.... hər şeyi yaza bilmirik çünki nahaqdan bizi damlayırlar (həbs etdirirlər. – E.C.)”.[168]

Regiondakı qarşıdurmanın motivi göstərir ki, daşnakçılar “vahid axın”çı mənsubu olaraq vilayətdə yaşayıb fəaliyyət göstərmişlər; bu həm də onun göstəricisi idi ki, sovet hakimiyyəti XX əsrin 20-ci illərinin ortalarında Azərbaycan SSR-də də aparılan “Respublikanı daşnak qalıqlarından təmizləmək” siyasətini yerinə yetirməmişdir (AKP MK-nın komissiyası 11.06.1925-ci ildə “Daşnaksutyun” la bağlı xüsusi məsələ müzakirə edərək, respublikada “bu təşkilatın aşkar edilmədiyini” qərarla təsdiq etmişdi, lakin respublikada cərəyan edən ictimai-siyasi hadisələrin gedişi, “qara terror” taktikası bu qənaətin reallığı əks etdirmədiyini göstərmişdir.[169] Xaricdən gələn yeni erməni köçmənlərin gətirdiyi qisasçılıq, yeni ərazilər qoparmq, dövlət idarəçiliyi sistemində daha da genuş təmsil olunmaq avatürası idi. Əvvəl spesifizm, bir müddət sonra “vahid axın” cərəyanlarının təsiri altında olan vilayət rəhbərliyi bütün bunların qarşısını ala biləcək kadrlar formalaşdırmağa maraq göstərməmişdir. Azərbaycan SSR-nin rəhbərliyi isə bu faktların qarşısını almaqda prinsipial olmamışdı. İş ancaq kağız üzərində qərarlar, hesabatlar, arayışlar hazırlamaqla yola verilmişdir.

Beləliklə, faktlar göstərir ki, spesifizm və “vahid axın” nəzəriyyəsinin cazibə dairəsində qalan DQMV-də:

***a.*** Yerli kommunist kadrlarla iş vilayət rəhbərliyi tərəfindən düşünülmüş şəkildə ciddi nöqsanlarla, ümumerməniçi mövqedən aparılmışdır; [170]

***b.*** Regionda cinayətkarlığın artım tendensiyası davam etmiş və bunun qarşısının alınması üçün əməli tədbirlər görülməmişdir (“Cinayətkarlığa qarşı mübarizəni gücləndirməyə dair Azərb.KP MK-nın 16 avqust 1966-cı il tarixli qərarının həyata keçirilməsi haqqında MK-ya məlumat hazırlayan Melkumyan 1965-ci il ilə müqayisədə 1966-cı ildə vilayətdə

professor, AMEA-nın müxbir üzvü Musa Qasımlının da qeyd etdiyi kimi: "Qanlı hadisənin törədilməsində başlıca məqsəd milli nifaqı qızışdırmaq, azərbaycanlıların DQMV ərazisindən köçürülməsinə və vilayətin Ermənistana birləşdirilməsinə nail olmaq idi".*

---

cinayətkarlığın 14,9% artdığını bildirmiş, 8 ölüm hadiusəsinin olduğunu, 2 şəxsə ölüm cəzası kəsildiyi barədə məlumat vermiş, regionda hökm sürən əməli və təşkilati zəiflikləri statistika ilə ört-basdır etməyə çalışmışdı;[171]
*c* **.** Muxtar vilayətdə orta məktəblərdə təlim-tərbiyə, ideoloji iş yarıtmaz vəziyyətdə olmuşdur.[172]
Keçən əsrin 80-ci illərində Xankəndində antiazərbaycan şüarları ilə küçələrə axışanlar məhz həmin dövrün müəllim və şagirdləri, cinayətkar ünsürləri, spesifizm və "vahid axın" nəzəriyyəsinin daxilindən çıxanlar idi.
* 22 oktyabr 1966-cı ildə Martuni (Xocavənd) rayonunda ailə-məişət ədavəti zəminində qətl hadisəsi törədilmişdi. Azərbaycan KP MK-nın katibi P. Yelistratov hadisə və istintaqın gedişi barədə 14 mart 1967-ci ildə Sov. İKP MK-ya ətraflı yazılı məlumat (№7588) göndərmişdi. Azərbaycan KP MK-nın Bürosu Sov. İKP-nin bir qrup rəsmi nümayəndəsinin iştirakı ilə 11 iyul 1967-ci ildə Stepanakertdəki (Xankəndi) özbaşına hökm (samosud) çıxararaq üç müttəhimi (ilk məhkəmənin hökmü ilə Ərşad Məmmədov güllələnməyə məhkum olunmuş, Ələmşad Məmmədov 15 il azadlıqdan məhrum edilmiş, Söhrab Məmmədov isə bəraət almışdı; erməni qaragüruhu bu hökmü bəyənməmiş və məhkəmə salonundan çıxarılarkən müttəhimləri nəzarətçilərin əlindən alaraq, xüsusi amansızlıqla qətlə yetirmiş, sonra üstlərinə benzin töküb yandırmışdı; öncədən "daş, benzin" götürüb gətirmək faktı da təsdiqləyir ki, erməni tərəfi cinayətə öncədən hazırlaşmışdır) amansızcasına öldürməklə başlanan iri ixtişaşların səbəb və nəticələrini müzakirə etmişdi [Azərbaycan KP MK Bürosunun11 iyul 1967-ci il tarixli iclasının "tam məxfi" qrifli Protokolu (№ 49;). DQMV-nın katibi H. Melkumyan 3 iyulda baş vermiş, 11 iyul 1967-ci ildə Bakıda müzakirə edilmiş təxribat barədə ancaq 12 iyulda Azərbaycan KP MK-ya arayış yazmışdır[173]]. Bu hadisə barədə erməniçi demaqoqiya səngimədiyi üçün onun detallarının açılmasına ehtiyac var. Həmin faciə vaxtı Xankəndində yaşayan (Stepanakert şəh., Lenin prospekti, 7/5, 3-cü mərtəbə, mənzil 9.) və oradakı Nizami Gəncəvi adına 4 saylı orta məktəbdə tədris işləri üzrə müavin (sonra uzun müddət, məcburi köçkün olanadək, həmin məkəbdə direktor işləmişdir) olan, 17 avqust 1931-ci il doğumlu Sabir Həsən oğlu Əliyevin (şəxsiyyət vəsiqəsi: AZE, № 03748291) müəllifə danışdığı

xatirədən: "...erməni uşağının qətlində "müqəssir" bilinənlərdən biri – Məmmədov Ərşad ilə həmin uşağın atası arasında ailə-məişət zəminində ədavət var imiş, guya Ə. Məmmədov erməninin arvadına sataşıb. Ermənilər Ərşadı öldürmək üçün imkan axtarırdılar, həmin imkanı tapa bilmədikləri üçün, öz niyyətlərini başqa formada həyata keçirməyə qərarlaşmışlar və onu uşaq qatili qismində şərləmişdilər. Vilayət camaatı bilirdi ki, uşağın dayısı daşnakçıdır.Yerli daşnakçılar bu intriqadan siyasi məqsədləri üçün faydalanmışdır: kiçik uşağı öldürmüş, meyid üzərində xüsusi amansızlıq etmişdilər ki, vəhşilikdə "azərbaycanlı izi" sarsıdıcı görünsün. DQMV-ni Azərbaycan SSR-dən ayırıb Ermənistana SSR-ə birləşdirilməsini tələb edənləri riqqətə gətirmək üçün daşnakçılar hərtərəli düşünmüşdülər. Stepanakert hadisələri başlayanda oraya ezam olunan respublika DTK-nın sədri Heydər Əliyevin rəhbərliyi ilə pozuculuq işlərinin fəal iştirakçılarının əksəriyyəti həbs olunmuş, dindirilmənin nəticəsi əsasında həmin cinayət hadisəsinin yenidən təkmil istintaqa qaytarılması təmin edilmişdi. Yeni istintaq nəticəsində hər üç azərbaycanlı məhkum ölümündən sonra bəraət almışdır. 4 saylı orta məktəbdə fizika müəlliməsi işləyən Zərifə Məmmədova ərinin (Ərşad Məmmədovun) bəraət almasından sonra cəsarətlə deyirdi ki, gördünüz, ərimin günahı olmamışdır. Məhkəmədən sonra dövət başsız qalmış ailəyə (iki qız, bir oğlan yetim qalmışdı) kömək olaraq Xankəndinin mərkəzində, DQMV-nin yeni rəhbəri Kevorkovun yaşadığı binada (xalq arasında "obkomun binası" deyərmişlər) onlara mənzil vermişdi. Bu faktları uzun illər həmin məktəbdə Zərifə Məmmədova ilə birgə pedaqoji fəaliyyət göstərmiş (bu müddətdə həmin hadisə haqqında onun Z.Məmmədova ilə söhbət etmək imkanı olmuşdur), Qarabağ məcburi köçkünü, 1955-ci il doğumlu Elman Şahlar oğlu Quliyev (şəx. vəs.: AZE, № 05589059, Stepanakertdə yaşadığı ünvan: Bakı şossesi küç., bina 2, mənzil 38) də təsdiq etmişdir. – E.C.)

Regionda hadisələrin sonrakı inkişafı göstərir ki, vilayət rəhbərliyi baş vermiş milli-siyasi gərginliyin qarşısını almaqda düşünülmüş şəkildə səbatsız mövqe tutmuş, Azərbaycanın kommunist rəhbərliyi isə burada cərəyan edən şovinizmin qarşısını almaqda qətiyyətsizlik etmişdir. Keçən əsrin 60-cı illərinə aid kommunistcəsinə ümumi sözlərlə, şablon üslubda DQMV-nin rəhbərliyi tənqid olunmuş, antiazərbaycan qüvvələr qarşısında qorxaqlıq göstərilmişdir. Azərbaycan KP MK Bürosunun 12 dekabr 1967-ci il tarixli "Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Komitəsinin işi haqqında" qərar və 7 dekabr 1967-ci il tarixli Arayışın ümumi ruhu bunu təsdiq edə bilər. Qərarda deyilir ki, Lenin milli siyasəti, xalqlar arasında qardaşlıq və

Ermənistandan deportasiyanın sonrakı dalğası da öncə rəsmi sənədlər qəbul etdirilərək icra olumuşdu. “Qara terror”un yenitipli səbəb və nəticə aktı olan həmin sənədlərin hazırlanmasının təşəbbüskarı və müəllifi A. Mikoyan idi; qərarın icrasına nəzarət Ermənistan tərəfindən XDİK-nın general-mayoru Qriqoryan, Azərbaycan tərəfindən isə Kremlin nümayəndəsi, erməni mənşəli N.Brutens və R.Sevumyan təyin edilmişdi.*

---

dostluğun qanunauyğunluqları haqqında təbliğatçı mövzulara yerli KİV-də, tematik mühazirələrdə az yer verilir, ziyalılar və gənclər arasında ideya-tərbiyyəvi iş qeyri-qənaətbəxş aparılır. Qərara alınmışdır ki, keçmişin idealizə olunmasının qarşısı alınmalı, gənclərin səhv tərbiyəsinə xidmət edən faktların qabardılmasına yol verilməməlidir.[174] Azərbaycan KP MK üçün hazırlanmış 7dekabr 1967-ci il tarixli Arayış qorxaqcasına tərtib edilmiş, vilayətdə gedən “qara terror”çuluq siyasi cəhətdən ümumi tənqidi fikir daşıyan ifadələrlə tənqid olunmuşdur. Beləliklə, vilayətdə davam edən ziyanlı faktlara qarşı vaxtında kəskin mövqe bildirilməmiş, erməni “qara terror”unun davamlılığına fürsət verilmişdir.

*Bu mövzu ilə əlaqədar gürcüstanlı soydaşlarımızın 1944-cü ildə zorla Orta Asiyaya “köçürülməsi”ni və onların müharibədən sonrakı taleyinə Gürcüstan SSR-nin (o zamankı rəhbəri - V.Mjavanadze) və SSRİ-nin rəhbərliyində olan bəzi dövlət adamlarının qəddar yanaşması faktı da tarixin yaddaşındadır. Bu tip problemlərin yaradılmasında və sənədləşdirilməsində xüsusi bacarığı olan A.Mikoyanın sədr olduğu dövlət komissiyası Sov. İKP Rəyasət heyətinin tapşırığı ilə həmin məsələni araşdıraraq, MK-ya belə bir layıhə təqdim etmişdi: “...Dövlət Müdafiə Komitəsinin qərarına əsasən 31 iyul 1944-cü ildə Gürcüstan SSR-nin sərhəd rayonlarından türk, kürd və həmşinlər (müsəlman-ermənilər. – E.C.) köçürülmüşlər (əslində, sürgün edilmişdilər. – E.C.). DİN-nin məlumatına görə köçürülənlərin 28 mindən çoxu azərbaycanlı olmuşdur. Sonra bu vətəndaşlar DİN orqanları tərəfindən xüsusi köçkünlər kimi qeydiyyata alınmışlar. SSRİ Ali Sovetinin 28 aprel 1966-cı il tarixli Fərmanı ilə Gürcüstandan köşürülmüş bütün türk, kürd və həmşinlər əvvəlki yaşayış yerlərinə qayıtmamaq hüququ ilə xüsusi köçkün qeydiyyatından çıxarılmışlar, azərbaycanlılar barədə isə bu Fərmanda, ümumiyyətlə, heç nə deyilməmişdir. Buna görə də Azərbaycan millətindən olan... Gürüstan köçkünlərinin də üzərindən məhdudiyyətin götürülməsi barədə Fərmanın qəbul edilməsi məqsədəuyğun olardı. Gürcüstan KP MK-sı onların təssərüfatda

Tamamilə ermənişləşdirilmiş qərarın icrası məskunlaşmış əraziləri dinc yolla boşaldılaraq özününküləşdirmək, yeni tipli ilhaq mahiyyəti daşıyırdı, o mənada ki, SOV. İKP-nin əli ilə boşaldılmış yaşayış, əkin, həyətyanı sahələrə ya xaricdən gətirilən ermənilər yerləşdirilirdi, ya da yerli ermənilər üçün komfortlu şərait yaradılır, monoetnik dövlət quruculuğu işi davam etdirilirdi.[175]

SSRİ-də Nikita Xruşşovun hakimiyyəti illərində erməni separatçılığında müəyyən "yumşalmalar" hiss edilsə də, beynəlxalq ermənilik öz niyyətindən əl çəkməmişdi. Həmin dövrdə Krım yarımadasının Ukrayna SSR-nin inzibati ərazisinə verilməsindən sonra ermənilər xüsusilə fəallaşmışdılar (2015-ci ildə Rusiya Krımı geriyə ilhaq etdikdə də erməniçi cəbhədə ümid dolu gözləntilər təkrarlanmışdı). Bu dəfə Naxçıvan MSSR-in Ermənistan SSR-ə ilhaq edilməsinə çalışan erməniçi dairələr və onların havadarları Türkiyənin SSRİ ilə sərhədyanı bölgələrindən, hətta Gürcüstandan ərazi qopartmaq iddiaları və dənizə çıxış tələbləri barədə ərizə və məktublarla Kremli "bombardıman" etməyə başlamışdılar.

"Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 4 fevral 1999-cu il tarixli Fərmanında deyilir: "Ermənistanın həm daşnak hökuməti dövründə, həm də sovet hakimiyyəti qurulduqdan sonra Naxçıvanı Azərbaycandan ayıraraq özünə birləşdirmək üçün göstərdiyi səylər Naxçıvan əhalisinin birmənalı qəti mövqeyi sayəsində uğursuzluğa düçar oldu".

...Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından, onu Ermənistana birləşdirmək niyyətlərindən əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə

---

təşkil olunmalarının mürəkkəbliyini nəzərə alaraq əvvəlki yaşayış yerlərinə qayıtmalarını qeyri-mümkün hesab edir. Sürgün yerlərində qalmaq istəməyən Azərbaycan millətindən olan vətəndaşlara Azərbaycan SSR KP MK-nın təklifinə uyğun olaraq Azərbaycan SSR-yə köçmələrinə şərait yaradılmalı və bu işdə onlara zəruri kömək göstərilməlidir. *A.Mikoyan, M.Suslov, R.Rudenko və b.*dörd imza".[176]

Naxçıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İnqilab Komitəsinin qərarı ilə Naxçıvanın 657 kvadrat kilometr ərazisi – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorçevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Əldərə, Ləhvaz, Astazur, Nüvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxçıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmişdir və o, indi də bu çirkin niyyətlərindən əl çəkmir.

XX əsrin 90-cı illərində SSRİ-nin dağılması nəticəsində yaranmış şəraitdən istifadə edən Ermənistanın hakim dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı öz ərazi iddialarını artıq müharibə yolu ilə gerçəkləşdirmək qərarına gəlmişdilər. Naxçıvan çətin sınaqlar qarşısında qalmışdı. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıya hücumundan 8 saat əvvəl sovet qoşun birləşmələri və erməni silahlı dəstələri Naxçıvan Muxtar Respublikasına hücum etmiş, qan tökülmüş və erməni quldur dəsdələri Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişdir.

Ermənistanın apardığı təcavüzkar siyasət nəticəsində vaxtilə Ümumittifaq şəbəkəsinə daxil olan, Azərbaycanı Naxçıvanla bağlayan dəmir yol xətləri və avtomobil yolları kəsilmiş, Naxçıvana Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq taleyi qismət olmuşdur. Məhz belə ağır bir şəraitdə Naxçıvan əhalisi böyük mərdlik və yenilməzlik nümayiş etdirərək Azərbaycanın bu qədim torpağını ermənilərin işğal təhlükəsindən xilas etdi və onun muxtariyyət statusunu qoruyub saxladı.”*

---

*Ədəbiyyatşünas Abbas Zamanovun vaxtilə bu problemlə bağlı önləyici addımı xüsusi əhəmiyyət daşımış və erməni iddialarının əsaslarını dağıtmışdır. T.Y.Şvarts soyadlı kommunist məmurun Azərbaycan SSR KP-nin Rəyasət Heyəti üçün hazırladığı arayışda oxuyuruq: “29.03.1960-cı ildə Xalq şairi Səməd Vurğunun doğum gününə həsr olunmuş ədəbi gecədə Abbas Zamanov şairin aztanınan əsərləri barədə məlumat vermək üçün

Traybalizm və probabilizmin təsiri altında olan və zamana və şəraitə görə yeni üsullarla zənginləşən erməni "qara terror"u sovet dövründə, əsasən, iki istiqamətdə fəaliyyət göstərirdi:

***a.*** Azərbaycan SSR-nin (ictimai-siyasi konyuktura münasib olanda, həm də Gürcüstan SSR-nin) tərkibindən ərazi qoparıb, Ermənistan SSR-ə birləşdirilməsinə dəstək vermək;

***b.*** Ermənistanan SSR-dən və ermənilərin sıx yaşadığı Azərbaycan SSR-nin bəzi bölgələrindən azərbaycanlıları leqal/ qeyri-leqal təhdid formaları ilə, o cümlədən həmin məkanlarda heç bir sosial planlar icra etməyib, camaatı könüllü köçməyə məcbur etməklə orada azərbaycanlı əhalinin sayını minumuma endirmək və tədricən etnik təmizləmə apararaq regionun siyasi perspektivi üçün çox ciddi real amil işləyib hazırlamaq.

Hər iki bəndə dair xeyli sənəd-sübut var və onlar elmi ictimaiyyətə və siyasi dairələrə məlumdur (məs., Gədəbəy rayonunun Tağlar kəndinin və Gorus rayonunda azərbaycanlıların yaşadığı Şurnuxu kəndinin taleyini ermənilərin xeyrinə həll edən məktubda (Azərbaycan KP MK-ya göndərilən rəsmi sənədin daxili qeydiyyat nömrəsi: 6.XI.1968, № 5014) deyilir: "Ermənistan SSR Şəmşəddin meşə təsərrüfatının ərazisində yerləşən Azərbaycan SSR Gədəbəy rayonunun Tağlar xutorunun və bir hissəsi Azərbaycan SSR-nin Qubadlı rayonunun ərazisində yerləşən Ermənistan SSR Gorus

---

rəyasət heyətindən çıxış üçün söz istəmişdir. Səməd Vurğunun 1937-ci il yaradıcılığına toxunan və Mətbuatda Dövlət Sirlərini Qoruyan İdarə tərəfindən çapına izazə verilməyən bir neçə şerinin adını çəkdikdən sonra, şairin yaradıcılığı ilə heç bir əlaqəsi olmayan mövzu barədə tədbir iştirakçılarına müraciət edərək, "Ermənistanda Naxçıvan MSSR-in Ermənistan Respublikasına birləşdirilməsi məsələsi qarşıya qoyulmuşdur,"- demişdir. Zamanov A.F. əlavə etmişdir: "Əgər bizim Səməd sağ olsaydı, o buna imkan verməzdi..."A.Zamanov çıxışını belə yekunlaşdlrmışdır: "Naxçıvan Azərbaycanın müqəddəs, ayrılmaz hissəi olmuş, var və olacaqdır və biz onu heç kimə verməyəcəyik". Təəsüf ki, A.F.Zamanovun təxribatçı-milliyətçi bəyanatı zaldakı düşüncəsiz tələbə gənclər tərəfindən dəstəklənmişdir..." KP sənədlərində A.Zamanovun davranışı "kobud siyasi səhv, qiybət, antipartiyalı, təxribatçı, burjua millətçiliyi" kimi təqdim olunmuşdur.[177]

rayonunun Şurnuxu kəndinin gələcək inkişaf perspektivi olmadığı üçün oralarda yeni quruculuğun aparılması qadağan edilir...”).

(***b.)*** bəndinə dair isə belə bir əlavə fakt-forma nümunəsi təqdim etmək mümkündür: Azərbaycan SSR KP MK Bürosunun 27 yanvar 1961-ci il tarixli iclasında (Protokol № 43, bənd 84) qərar qəbul olunmuşdu ki, “...Mardakert (Ağdərə. – E.C.) rayonunun Kamari adına kolxozundan 30 ailə Mir Bəşir rayonuna (Tərtər. - E.C.) köçürülsün.”

Göründüyü kimi, sovet hakimiyyəti illərində də erməni “yumşaq qüvvə” terrorunun antiazərbaycan istiqaməti yeni çalarlarla üzə çıxırdı: məskunlaşdıqları ərazidə yerli azərbaycanlılar sıxışdırılır, döyülür, milis orqanları ilə təhdid edilir, silahlı zorakılıqla qorxudulur, onların kolxozları erməni kolxozları ilə zorla birləşdirilərək təsərrüfatın idarəçiliyi erməni millətindən olan şəxsə tapşırılır, xaricdən gələn ermənilər azərbaycanlıların kolxozlarına cəlb olunaraq ilk növbədə statistik çoxluq yaradılır, sonra onlar üçün iş şəraiti yaradılır, idarə heyətinə cəlb edilir, süni təfriqələr salınır, azərbaycanlıların haqsızlıqlara qarşı etirazı ictimai dövriyyəyə onların mənfi obrazının formalaşdırılması istiqamətində təqdim olunurdu.[178] KİV-də antiazərbaycanlı məqalələr dərc etdirilir, kitablar çap olunurdu. SSRİ-də 24 aprel erməni soyqırımı günü kimi leqal təbliğ edilməyə başlandıqdan sonra isə “türkdən intiqam almaq” niyyəti ilə İttuifaqın müxtəlif regionlarında məhz azərbaycanlılara qarşı “qara terror” aktlarının təşkili ənənəsi sovet erməniləri üçün milli qəhrəmanlıq kimi dəyərləndirilirdi.

Keçən əsrin 70-ci illərindən başlayaraq türk diplomatlarına qarşı qəsdlərin yenidən tüğyan etməsi isə klassik terrora qayıdış deyildi, erməni məsələsinin yenidən gündəmə gətirilməsi ilə Azərbaycan SSR-də “hər şeyə qadir erməni” xofu yaratmaq idi. Bu dövrdə erməni terroru və separatizmi ilə qətiyyətlə mübarizə aparan şəxsiyyət DTK generalı, görkəmli dövlət xadimi Heydər Əliyev idi. Respublikamızın xüsusi xidmət orqanlarının mətbuatda dərc olunmuş materiallarında bu barədə xeyli məlumat vardır.[179] Ulu öndər Heydər Əliyev erməni şovinistlərinin separatçı işlərinin qarşısını həmişə qətiyyətlə kəcmişdir, buna görə də erməniçi qüvvə ondan qisas

almaq məqsədilə Moskvadakı havadarlarının dəstəyi ilə keçən əsrin 80-ci illərinin axırlarında ümummilli liderə qarşı cinayət işi açdırmağa da təşəbbüs göstərmişdilər... və özləri də məğlub olmuşdular.[180]

Sovet dövründə erməni terroru birmənalı olaraq DQ-nin Ermənistan SSR-ə birləşdirilməsi istiqamətində qızğın fəaliyyət göstərmişdir. Və hər dəfə SSRİ-də dövlət başçısı dəyişikliyi olanda erməniçi qüvvə və onların İttifaq rəhbərliyindəki havadarları sayəsində bu məsələ gündəmə gətirilmişdi. O illərin erməni gizli diplomatiyasının ən xarakterik cəhəti belə idi ki, onlar DQ uğrunda apardıqları mübarizəni guya "qanun çərçivəsində", demokratik yolla həll etməyə çalışırlar. Yəni Kremlə məktublar yazıb göndərir, petisiyalar təşkil edir, KİV-də ictimai fikri ermənipərəst ruhda kökləmək üçün materiallar dərc etdirirdilər və s. Hər cür antisovet hərəkatda bayağı sovet şüarlarının pərdəsi arxasında gizlənir, mövcud qanunlara və ictimai qaydalara riayət etdiklərini göstərməyə çalışırdılar.*

---

*70-ci illərdə erməni gizli təşkilatları, əsasən, Ermənistan SSR-nin SSRİ-nin tərkibindən çıxması üçün plebissit keçirilməklə SSR İttifaqının rəhbərliyini şantaj edərək, DQMV və Naxçıvan MSSR-in Ermənistan SSR-ə verilməsinə çalışır, bu tələblə vərəqələr yayır, rus şovinizmini tənqid edirdilər. "... 1977-ci ildə Ermənistan kommunist partiyasının rəhbərinin milli maraqlar naminə yerli terrorçuları müdafiə etməsi faktı məlumdur. "Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyan (sonralar ER-nın spikeri, 1999-cu ildə erməni terrorçular tərəfindən Ali Covetin binasında qətlə yetirilmişdir. – E.C.) istintaq qrupunun rəhbərinə (Moskvada metronu partladan terrorçu Zatikyanın işi ilə bağlı yaradılmış istintaq qrupunun rəhbərinə. – E.C.) şəxsən zəng edərək tələb etmişdi ki, Moskvadan olan müstəntiqlər onun respublikasının ərazisində qanundan kənar hərəkətlərə son versinlər. Əks halda Leonid Brejnevin qəbuluna gedib şikayət edəcək... Öz katiblərinin əsəbi hay-küyünə Ermənistan SSR DTK-nın rəhbərləri də qoşulmuşdular".[182] Onlar həmin terrorçuların erməni olmalarını qəbul etmirdilər. Lakin istintaq terrorçuların erməni olmasını sübut etmişdir. Xüsusi xidmət orqanları əməkdaşlarının fikrincə, həmin vaxtlar İrəvan SSRİ-də əldəqayırma partlayıcı qurğu hazırlayan mərkəzə çevrilmişdi. Erməni terroru vaxtilə rus çarına da təsir göstərmək üçün silahlı təhdidlərdən geniş istifadə

1985-ci ildə Mixail Qorbaçov SSRİ-də yenidənqurma və aşkarlıq siyasətinə başladıqdan sonra erməni separatizmi öz işini, müəyyən mənada leqal müstəviyə keçirmiş, ***miatsum – ilhaq*** siyasətini reallaşdırmaq üçün daha ciddi hazırlaşmağa başlamışdı. Yeni siyasi mühitin sərbəstliklərindən tam yararlanmaq istəyən erməniçi ictimai-siyasi fikri dəstəkləyən müəlliflər tarixi saxtalaşdıraraq, probabilizm üsulu ilə "seçilmiş millət", "incidilən və alçaldılan qədim Ermənistan", "Qafqazda xristian dünyasının müdafiə qalası" obrazlarını yaratmağa çalışır, digər tərəfdən *partizan taktikası ilə terror* əməliyyatları aparırdılar. Bunun nəticəsi olaraq 1985-ci ildə terrorçu Vartanov Bakıda 106 saylı marşrut avtobusunu partlatmış, 3 nəfər Azərbaycan vətəndaşının yaralanmasına və bir nəfər qadının ölümünə bais olmuşdu.[181]

Bəzi müəlliflər XX əsrin axırlarında başlayan erməni-azərbaycanlı münaqişəsinin kökünü 1987-ci ilin oktyabr ayında Azərbaycanın məşhur Çardaxlı kəndində etnik ermənilərlə milis əməkdaşları arasındakı qaşıdurma ilə bağlayırlar (lakin faktlar 1965-ci ildəki Qafan hadisələrindən sonra baş verən məcburi köçkünlüyə şahidlik edir). Həmin vaxt Çardaxlının nümunəsində Ermənistan SSR-nin Azərbaycan SSR-nin daxili işlərinə müdaxiləsinin (Azərbaycan SSR-nin ərazisindəki strukturlarda çalışan bəzi etnik ermənilər miatsum siyasətinin realizəsi istiqamətində konkret tapşırıqlar yerinə yetirirdilər, onların hüquqi müdafiəsi üçün Ermənistan SSR-nin bəzi qurumları hətta həmin şəxsləri müəyyən vəzifələrə işə götürmüşdülər ki ifşa olunduqları zaman Ermənistana sığınaraq qoruna bilsinlər) və Rusiyadakı erməniçi qüvvələrin dəstəyi ilə orada keçirilməsi nəzərdə tutulan tədbirlərə antiazərbaycan istiqamətinin verilməsinin qarşısının alınması, ictimai asayişi pozan ermənilərin neytrallaşdırılması, kənd camaatının orada həyatı sabitləşdirməyə səy göstərən Azərbaycan milisinə və sovet qanunlarına tabe olmaması qarşıdurma yaratmışdı.* Bu olayları milli

---

etmişdi. Bu dəfə sırada sovet hakimiyyəti idi.

* "...Beynəlxalq ermənilik həmin il Çardaxlıda 3 hadisəni qeyd etməyi nəzərdə tutmuşdu: 1987-ci ilin 24 aprelində "erməni soyqırımı" ilə bağlı tədbir.., avqustun 25-də... terrorçu Andranikin, dekabrın 1-də isə sovet

münaqişə zəmininə çevirən Ermənistan SSR-də etiraz nümayişi başlamış, noyabr ayında isə Mehri və Qafan rayonlarından yerli azərbaycanlıların zorla köçürülməsinə bəhanə formalaşdırılmışdı.

Çardaxlıdakı antiazərbaycan çıxışlarında Şəmkirə qonşu rayonlardan dəstək qüvvə axınının potensialını, yerli rəhbərliyin mətin və iradəli olduğunu dərk edən erməniçi təxribatçılar növbəti həmləni erməni separatizminə sipər olan H.Ə.Əliyevin sovet dövlətinin rəhbərliyindən istefasını tezləşdirməkdən başlamışlar (23 oktyabr 1987-ci il, Çardaxlı hadisələrindən az sonra). * Abel

---

marşalı Baqramyanın 90 illik yubileyinin keçirilməsi... Yerli rəhbərliyə məlumat daxil olub ki, erməni seperatşıları hər 3 hadisədən Azərbaycanın əleyhinə istifadə edəcəklər və dekabrın 1-dəki tədbirlə isə həlledici fəaliyyətə başlayacaqlar. Əjdər Əsədov (1983-1987-ci illərdə Şamxor//Şəmkir Rayon Partiya Komitəsinin I katibi. – E.C.) və o zaman Şamxorun milis rəisi olan Hüseyn Allahyarovun səyləri nəticəsində bu 3 tədbirdən heç biri baş tutmamışdır. Onların qətiyyətili mövqeyi ilə bu tədbirlərin qarşısı alınmışdır. Bununla da ermənilərin dirənişi qırılmış və Çardaxlı planı darmadağın olmuşdur. Ermənilər miatsum hərəkatına Çardaxlıdan başlaya bilməyəcəklərini aydın dərk etdiklərinə görə, başqa bir yumşaq nahiyyəyə – Stepanakertə (Xankəndinə) üz tutmuşlar” .[183]

*20 fevral 1988-ci ildə XX çağırış DQMV Xalq Deputatları Sovetinin növbədənkənar sessiyası DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb, Ermənistan SSR-yə verilməsi məsələsini qaldırmış və müvafiq qərar qəbul etmişdi.[184] Fevralın 22-də isə DQMV partiya təşkilatı fəallarının yığıncağı bu fikri tənqid etmiş, “DQMV-də mövcud milli-ərazi quruluşunun dəyişdirilməsi məqsədini güdən hərəkətlər və tələblər Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə ziddir, millətlərarası münasibətlərə zərər vurur”, - kimi mənfi qiymət vermişdir.[185] 24 fevral 1988-ci ildə bu barədə Sovet İttifaqı Teleqraf Agentliyi də məlumat yaymışdı.13 iyun 1988-ci ildə Azərbaycan SSR Ali Soveti DQ deputatlarının məlum xahişini müzakirə etmiş, onu respublikanın azərbaycanlı və erməni xalqlarının mənafeyinə zidd məsələ kimi qeyri-məqbul saymışdı. Bundan sora Azərbaycan KİV-də barışdırıcı üslub və xalqlar dostluğu ritorikasına üstünlük verilmişdir. Ermənistan SSR partiya fəallarının 23 fevral 1988-ci il iclasında bu məsələlərə ümumi toxunularaq prinsipial konstitusiyalı mövqe bildirilməmiş, diqqət DQ problemlərinə kompleks yanaşma üzərində qurulmuşdu. Həmin ilin fevral ayının 27-də

M.Qorbaçovun Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinə, xalqlarına müraciəti də DQMV-dəki problemlərin həlli zərurəri üzərində qurulmuşdu. Bütün bunlara baxmayaraq DQMV XDS-i 12 iyul 1988-ci ildə keçirilən sessiyasında Azərbaycan SSR tərkibindən çıxıb Ermənistan SSR-yə birləşməsini elan etmişdi. Azərbaycan SSR Ali Soveti dərhal bu qərarı rədd etmiş, qanuni cəhətdən əsassız saymışdır. Erməni tərəfi mitinq və nümayişlərə, "yumşaq" və "sərt qüvvə" terroru ilə sovet hakimiyyətini təhdidlərə başlamışdır. Bölgədə cərəyan edən hadisələrin fonunda yaranan "Qarabağ" komitəsinin rəhbəri İ.Muradyan mitinqlərin təşkili və ssenarisi barədə göstərişlər verir, yerli əhalini milis işçiləri ilə əməkdaşlıq etməyə çağırırdı, mühafizə dəstələri yaratmağı bildirirdi, Əmanət kassasında komitə üçün pul-hesab nömrəsi açılmasını tələb edirdi.[186] 28 fevral 1988-ci ildə Sumqayıtda baş verən erməni-sovet təxribatından sonra erməniçi qüvvələr sırasında qisas almaq ritorikası önə keçmişdi [istintaqa məlumdur ki, Sumqayıtda yaşayan ermənilərin əksəriyyəti "Krunk" terrorçu təşkilatına xeyli pul köçürmələri etmişlər və Qriqoryan Eduard Robertoviçin başçılıq etdiyi 27 – 29 fevral 1988-ci il Sumqayıt hadisələrində məhz həmin cəmiyyətə pul verməyən ermənilər öldürülmüşlər. Şahidlərin izahatına görə toylarada musiqiçi kimi çalışıb pul qazanan erməni musiqişiləri qazanclarının bir hissəsini həmin hesaba köçürürmüşlər.[187] Azərbaycan tərəfi isə ("Kommunist" qəzeti, 22 mart 1988-ci il) "Təmkinli olmalı, sovet xalqlarının dostluğunu möhkəmlətməli", "Qardaş qardaşı darda qoymaz" (Azərinform) ruhunda təbliğatçı materiallar yayırdı. Erməni mitinqlərində sosial-iqtsadi, etnik və mədəni-tarixi amillər qabardılaraq, DQ-nin Ermənistana verilməsi tələb olunurdu. "Известия" qəzeti 25 mart 1988-ci il tarixli sayında yazırdı ki, İrəvanda "Qarabağ" təşkilatı öz fəaliyyətini dayandırmışdır, 26 mart tarixli sayında isə məlumat verirdi ki, "Qarabağ" komitəsinin imzası ilə çap olunub yayılan vərəqələrdə ermənilərin hərəkatı bitirməyəcəyi bildirilir, Qarabağ uğrunda erməni hərəkatı Qarabağdakı hadisələrin necə inkişaf edəcəyi formata uyğun cərəyan edəcəkdir. Digər erməni təşkilatı olan "Krunk"un fəllarından biri – Stepanakert (Xankəndi.- E.C.) Pedaqoji İnstitutunun dosenti Q.Qriqoryan "partizan müharibəsi ilə təhdid etmək" barədə çağırışlar etməyə başlamışdı. Yazıçı, Sosialist Əməyi Qəhrəmanı S.Xanzadyan açıq şəkildə deyirdi: "Qarabağ bizim olmayacaqsa, yenidənqurma siyasəti bizə lazım deyil".[188] 23 mart 1988-ci ildə Ermənistan SSR Ali Sovetinin Rəyasət heyəti "Respublikanın şəhər və rayonlarında vətəndaşların təşəbbüsü ilə təşkil olunacaq iclasların və digər kütləvi tədbirlərin keçirilməsinin müvəqqəti Qaydaları" təsdiq olunmuşdu.

Aqanbekyanın təhrikçi müsahibəsinin də bir neçə gün sonra – məhz həmin ilin noyabr ayında (16\18-də, Fransanın "Humanite" qəzetinə) baş verməsi şər zəncirinin planlı xarakterini qəti təsdiq edir. Həmin müsahibədə "yumşaq qüvvə" üsulu ilə deyilirdi: "Mən bir iqtisadçı kimi hesab edirəm ki, Qarabağ iqtisadi cəhətdən daha çox Ermənistana bağlıdır, nəinki Azərbaycana,"- fikri ermənilər üşün antiazərbaycan fəaliyyətinə başlamaq işarəsi olmuşdu.

1989-cu ildə Ermənistanda iki mindən artıq əsgəri olan qanunsuz iki terrorçu dəstə formalaşdırılmışdı: Erməni Müstəqillik Ordusu (rəhbəri I Qarabağ müharibəsində məhv edilmiş Leonid Azgəldiyan idi) və Erməni Azadlıq Ordusu (rəhbəri Razmik Vasilyan və Vartan Vartanyan idi). Bundan əlavə, Ermənistanda partizan taktikası ilə fəaliyyət göstərən başqa terrorçu dəstələr də vardı. Onlar körpüləri dağıdır, hərbi hissələrə qəfil hücumlar təşkil edib, silah-sursat ələ keçirir, hərbçiləri, mülki vətəndaşları girov götürüb, sonra onları dəyişdirməklə ləyaqətsiz alverlər edir, həbsdə olan məsləkdaşlarının sərbəst buraxılması şərtini irəli sürürdülər. Erməniçi jurnalistika bu barədə bəlağətlə yazmaqdan çəkinmirdi. Həmin dövrdə Stepanakertdəki (Xankəndi) mebel fabrikində əldəqayırma tapança və partlayıcı mərmilər üçün üzlük düzəltmək işi

---

Bu sənəd zahirən SSRİ və Ermənistan SSR Konstitusiyalarına, sovet qanunlarına əsaslanaraq hazırlansa da, leqal yolla Moskvaya təhdidi gücləndirmək, əhalinin etirazları ilə Kremlə fasiləsiz təzyiq etməyin növbəti qanunlaşdırılmış yolu idi. Bir gün sonra buna bənzər sənəd Azərbaycan SSR-də də qəbul olunmuşdu. Araqarışdırıcılıq və mili ədavət yaratmaqla erməni "qara terror"una dəstək olan xarici mətbuat və "Azadlıq", "Amerikanın səsi" və b. xarici KİV fəal rol oynayırdılar. Onların məqsədi SSRİ-nin dağılmasına yol açmaq idi.[189] DQMV-nin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirlərilə əlaqədar məhz Ermənistandan mütəxəssislər cəlb edilirdi, bu, Azərbaycana qarşı dövlət hörmətsizliyinin bir nişanəsi, respublikanın daxili işlərinə kobud müdaxilə, həmçinin "sərt qüvvə" terroruna hazırlıq idi. Guya regiona texnika, inşaat materialı, daşyonan avadanlıqlar və s. gətirilirdi. Gətirilən "yüklərə" nəzarət olunmurdu.[190] Çox keçmədi ki, DQMV-də silahlı üsyan başladı. Azərbaycan SSR zorən erməni dövlət terroru ilə mübarizəyə cəlb olundu. Regionda terrorun "müharibə" taktikası getdikcə güclənməyə başladı.

də qaydaya salınmışdı. Beləliklə, hadisələr terror formatında inkişaf edərək silahlı çaxnaşmalara gətirib çıxarmışdı. Erməni dövlət terroru açıq müharibəyə üsuluna çeçmək ərəfəsində idi.

SSRİ-də yenidənqurma siyasətinin daha da dərinləşməsi paralel olaraq separatçılıqda sərbəstlik yaratmışdı. Qeyri-qanuni silahlı birləşmələrdən problemli məsələlərin həllində hətta dövlət aparatı səviyyəsində də istifadə olunmağa başlanılmışdı.* Beləliklə, tənəzzülə uğrayan sovet rejimi dağılmanın qarşısını almaq istədiyi halda, onun dağılmasına yardım edən yeni bir təhdid üsulunu formalaşdırmaqda idi. Mərkəzi Asiyada etnik münaqişələrin yaranması, hətta nisbətən sakit yaşayan Baltiksahili respublikalarda, Gürcüstanda da sovet quruluşuna və milli azlıqlara qarşı şovinist çıxışların baş verməsi dövlət terroru üçün münasib bəhanə idi.

---

* İttifaq respublikalarının bəzi başçıları keçən əsrin 50-ci illərinin ortalarından başlayaraq respublika daxilində Sovet İttifaqında xalqlararası ünsiyyət vasitəsi kimi müəyyənləşmiş rus dilinin deyil, elit millətin dilinin statusunun genişləndirilməsini və kütləviləşdirilməsini təklif etmişdilər. Bunu respublikaların partiya rəhbərlərinin ölkədəki milli hərəkatlara gizli dəstəyi kimi dəyərləndirən müəlliflərin fikirincə, 1960/80-ci illərdə SSRİ-də terrorun sosial bazasının yaranması prosesinə bu amil çox güclü təkan vermişdir. Məlumdur ki, bunun qarşısının alınmasına cəhd olaraq sovet pasportlarında milli mənsubiyyət bəndinin götürülməsi, respublikaların əsas qanununda dövlət dili statusunun ancaq rus dilinə aidiyyəti fikirləri irəli sürülürdü. Təhlükəsizlik strukturları bu istiqamətdəki fəaliyyətlərə nəzarət edirdi. Lakin milli respublikalarda bu məsələ siyasi müstəviyə keçirilərək onun sovet dövlətinin ümumi maraqları mövqeyindən həll edilməsinə nail olunurdu. Lakin sovet cəmiyyətinin inkişafının ilıq ictimai-siyasi istiqamətdə davam etməsi ölkədə əsasən texnogen, kriminal, dissident və s. siyasi xarakterli fövqaladə hadisələrin baş verməsinə gətirib çıxarırdı. Bütün bunlar həm də onu göstərirdi ki, Sovet İttifaqında ciddi şəkildə paralel olaraq terrorun oxşarlar sistemi də formalaşmağa başlamışdı. Buna qarşı mübarizəyə DTK və DİN ilə yanaşı, MN-nin bəzi strukturları da cəlb olunurdu.
Ümumiyyətlə, İttifaq ərazisində baş verən terrora bənzər hadisələr ictimaiyyətə kriminal akt, səhlənkarlıq kimi xarakterizə edilir, insan amili, texniki nasazlıq, təxribat kimi versiyalar irəli sürülürdü.

Beləliklə, cinayətkar qrupların silahlı çıxışları terror taktikası ilə icra olunmağa başlamışdı. Bu tip cinayətlərin cəzasız qalması terror aktlarına anarxizm ruhu aşılayırdı. SSRİ dağılanadək hər iki istiqamətin, yəni dövlət terrorunun və neoanarxizmin paralel fəaliyyəti nəticədə terrorun yeni üsullarının – *hibrid müharibə* və *proksi müharibə* formasının sovet dövlət aparatı tərəfindən respublikalardakı milli azadlıq hərəkatlarına qarşı əkstəsir müxanizmi kimi mənimsənilmişdi.*

Göründüyü kimi, Azərbaycan öz müstəqilliyini gizli diplomatiya, separatçılıq və terrora qarşı mücadilədə qazanmış, gizli diplomatiya, separatçılıq və terrora qarşı mücadilədə də bərpa etmişdir. Bu mücadilənin ilk hayqırışları –etnik erməni terroruna qarşı 1988-ci ilin 17 noyabr – 5 dekabr tarixli dinc mitinqləri sovet

---

*Sovet dövrünün rəsmi mənbələrində SSRİ-də terror üzərində qələbənin 1950-ci illərin əvvəllərində Baltikyanı respublikaların ərazisində fəaliyyət göstərən "meşə qardaşları", Qərbi Ukraynada isə "banderçilər" adı ilə tanınan silahlı dəstələrin məhv edilməsi ilə tamamlandığı bildirilsə də, SSR İttifaqında terrorun mənəvi-psixoloji bazası, oxşarlar sistemi və özü ilə mübarizə sovet hakimiyyəti qurulandan dağılanadək davam etmişdir. Erməni terroru bu dövrdə də fəal idi. Ümumiyyətlə, SSRİ ərazisində terrora qarşı mübarizə işi, əsasən, aşağıdakı kompleks istiqamətlər ətrafında qurulmuşdu (bu mübarizə sistemi Azərbaycan SSR-yə aid idi):
-Ölkə daxilində odlu silah və partlayıcı maddələrin dövriyyəsini daim ciddi nəzarətdə saxlamaq;
- Odlu, yaxud soyuq silahın qeyri-dövlət sektorunda hazırlanması və satışını qanunla qadağan etmək;
- Radikal mahiyyətli hər cür qrupları operativ şəkildə ifşa etmək;
-Sovet ideologiyasına zidd təbliğat-təşviqat vasitələrinin olkəyə gətirilməsini qadağan edərək qarşısını almaq;
-Bu əməllər qaçaqmalçılarına və casuslarına qarşı operativ-əməliyyat tədbirləri aparmaq.
Beləliklə, SSRİ-də terror əməlləri, əsasən, *partlatmaq, yanğın törətmək, nəqliyyat vasitəsi qaçırmaq, girov götürmək* və s. oxşar formatlarda icra olunurdu. Lakin sovet dövründə xarici siyasət sahəsində ciddi fəsadların yaranmaması niyyəti ilə terrorçular və terror aktları barədə ictimaiyyətə geniş məlumat verilmirdi.

dövləti tərəfindən amansızcasına yatırılmışdı. Əvəzində, “Ermənistan SSR” adlandırılmış torpaqlarda əsrlər boyu yaşamış azərbaycanlılara qarşı terror təhdidləri: təxribatlar, hədələyici fitnəkarlıq və qətllər artmış, hər cür qanunsuzluqlara ara vermədən növbəti deportasiya siyasəti gücləndirilmişdir. Erməni terroruna qarşı sovet rəhbərliyinin səbatsızlığı Bakıdakı Meydan hadisələrinin inkişaf edərək Azərbaycan milli-azadlıq hərəkatına çevrilməsi üçün həlledici səbəb olmuşdur. Kreml bu hərəkatın yatırılması, digər respublikalara örnək olub yayılmaması üçün Azərbaycana qarşı terrorun hibrid müharibə və proksi müharibə formalarını tətbiq etməyə başlamışdı.

20 yanvar 1990-cı ildə sovet güc strukturlarının birgə fəaliyyətilə törədilən hərbi vəhşilik Azərbaycana qarşı dövlət terroru idi. Bu vəhşətdə erməni və ermənipərəsylik izi Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən sübut edilmişdir. Həmin dövlət cinayətinin təhqiqat materiallarından o da məlumdur ki, hələ 1988-ci ildə Azərbaycanda qeyri-azərbaycanlıların, xüsusilə də xristian dini mənsublarının (bu kateqoriyada ermənilər üstünlük təşkil edirdilər; əslində, Azərbaycanda xristian, ümumiyyətlə, qeyri-islam dini mənsublarına qarşı heç bir təhdidedici addımlar atılmamışdır) şərəf və ləyaqətini qorumaq bəhanəsi ilə SSRİ Müdafiə Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsi çərçivəsində müvafiq dəsdələr yaradılmış, bu işə hətta Livandan köçüb gəlmiş ermənilər də cəlb olunmuşdu. Beyrut–İrəvan aviareysi ilə qanunsuz silahlı dəsdələr üçün silah-sursat daşınması bu fəaliyyətin tərkibinə daxil idi.

Keçən əsrin 80-ci illərində gizli fəaliyyət göstərən İqor Muradyan adlı bir erməni şovinisti barədə Tomas de Vall yazır: “O, paralel olaraq başqa bir işlə, faktiki olaraq təxribatla məşğul idi. Qadağan olunmuş radikal-şovinist “Daşnaksutyun” partiyasının xaricdəki və Yerevandakı gizli təşkilatları ilə əlaqə yaratmışdı. Hətta silah əldə etməyə başlamışdı. Onun sözlərinə görə, 1986-cı ilin yay aylarında Qarabağ erməniləri ilk silahlarını daşnakların köməyi ilə xaricdən almışdılar. Sonra isə silah alışı müntəzəm olaraq həyata keçirilməyə başlanılmışdır, “nədənsə gələn silahların arasında Çex istehsalı olanlar çoxluq təşkil edirdi”. Həmin silahlar əsas etibarilə

Dağlıq Qarabağa ötürülürdü. ...Qarabağdakı bütün təşkilatlar silahlanmışdılar. Bütün komsomolçuların şəxsi silahları var idi”.[191]

Erməni separatçıları və qanunsuz silahlı dəsdələri miatsum siyasətinin tələbi ilə Şimali Qafqazdan tutmuş, Ağrı dağının ətəklərinədək olan böyük bir coğrafiyada azərbaycanlılara qarşı milli zəmində yüzlərlə cinayət törətmişdilər. Onlar yol gedən azərbaycanlıların qarşısını kəsib döyür, avtomobillərini saxladıb məhv edir, Bakıya gələn qatarları daşa basır, örüşlərə hücum edib xalqın mal-qarasını oğurlayıb aparır, su kəməri, dəmiryolu, telefon xətlərini, körpüləri partladaraq Azərbaycana qarşı fitnələr törədirdilər. Sərnişin avtobuslarını, evləri yandırıb yararsız hala salır, Bakı ərazisinə gizli yolla partlayıcı qurğular keçirib, metroda və s. gur yerlərdə terror aktları törədirdilər.[192] İnsanlığa yaraşmayan bu cür hallara və buna bənzər qanunsuzluqlara qarşı göz yuman, ikili standartlarla Ermənistan – Azərbaycan münaqişəsini erməniyə himayədarlığı pərdəsi altında ört-basdır etməyə çalışan İttifaq dövlətinin hakim dairələri məsələnin hansı faciəyə istiqamət alacağından hətta ehtiyat da etmirdi. Azərbaycan aylarla davam edən neodaşnakçılığa qarşı ilk etiraz sədasını ancaq Bakıda, 1988-ci ilin noyabr ayının 17- də indiki Azadlıq meydanından ucaltdı. Şuşanın əzəmətli Topxana meşəsinin vəhşicəsinə qırılması – ekoloji terror aktı xalqın erməni terroruna qarşı səbir kasasını doldurmuşdu. DQ-də uzaq keçmişin milli-mənəvi izlərini yaşadan qədim maddi-mədəni abidələri ya erməniləşdirmək, ya məhv edib elmi dövriyyədən çıxarmaq da həmin riyakar planın – erməni “qara terror”unun tərkib hissəsinə çevrilmişdi.

1991-cı il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndinin səmasında Azərbaycanın və digər respublikaların yüksək vəzifəli dövlət məmurlarının və hüquq-mühafizə orqanları əməkdaşlarının, jurnalistlərin olduğu vertolyot erməni terrorçularının yerdən açılan atəşilə vurulmuşdu. Bir neçə ay sonra daha bir faciə – vətəndaşlarımızı təhlükəsiz yerə daşıyan Şuşa-Ağdam arası uçuşlar edən mülki vertolyota qarşı terror aktının törədilməsi və içindəki 40 nəfər azərbaycanlının həlak olması DQ-nin Xocalı şəhəri ilə də hava əlaqəsinə son qoymuşdu. Beləliklə, 1992-ci il fevral ayının 17-də

Qaradağlı kəndi, 26-da isə Xocalı şəhəri Ermənistanın və onun havadarlarının Azərbaycana qarşı başladığı dövlət terroru ilə məhv edilmişdir.*

Müasir erməni dövlət terroru 1918-ci il azərbaycanlıların mart soyqırımının davamıdır. Həmin vaxtlar Bakıda hakimiyyət iddiası ilə fəaliyyət göstərən, "yumşaq qüvvə" terroru ilə Azərbaycan xalqını, onun ictimai-siyasi görüşlərini geridəqalmışlıq, qabiliyyətsizlik ruhunda təqdim edən, azərbaycanlılara qarşı potoloji nifrətini hər fürsətdə büruzə verən və bu üslubda məqalə yazan, mitinqlərdə çıxışlar edən Stepan Şaumuyan həmin müdhiş hadisələrdən bir ay sonra deyirdi: "Bizim şəhərin milli tərkibi (Bakını nəzərdə tutur və şəhərdə azərbaycanlıların say çoxluğuna işarə edir. – ***E.C.)*** bizi qorxudurdu. Biz qorxurduq ki, mübarizə arzuolunmaz rəng alsın. Biz hətta erməni alayının (qanunsuz silahlı birləşmənin. – E.C.) köməyindən istifadə etmək məcburiyyətində qaldıq... Erməni alayının xidmətindən yararlanmağa məcbur idik, qələbənin dəyəri o qədər böyük idi ki, bizim bu addımımız reallığa (törətdikləri soyqırımına. – E. C.) heç bir kölgə salmır... Vətəndaş müharibəsinin millətçilik rəngi alması labüd idi, həmçinin, Qızıl ordu ilə yanaşı, milli alayların mövcud olması bizi məcbur edirdi ki, onlara qarşı da müharibə edək. Düzdür, biz məcbur olub onlardan da istifadə etdik, çünki *erməni alayları (kursiv mənimdir. – E.C.)* bizim müttəfiqlərimiz idi"...[195]

---

* Dağlıq Qarabağ münaqişəsinin ilk illərində Rusiya Federasiyasının rəhbərliyindəki bəzi əsas şəxslərin: prezident B.Yeltsinin, xarici işlər naziri A.Kozırevin, müdafiə naziri P.Qraçevin və b. ermənipərəst mövqeyini və Azərbaycana xəyanətini bu hadisənin içində olan tanınmış diplomat Anatoli Adamişin açıq ifadə etmişdir: "Belə bir detal: azərbaycanlılar hücuma keçəndə digər səfirlər kimi mən də belə göstəriş alırdım ki, rəylər hazırlanıb göndərilsin. Aydın məsələ idi ki, münaqişə qızışan vaxtı rəylər müsbət ola bilməzdi. Ermənilər hücuma keçəndə isə - susurduq".[193] A.Adamişin nazir A.Kozırevə istinadən yazır: "... Sınaqdan çıxarılmış metod var, *erməni emissarı* (kursiv mənimdir. – E.C.) dollarla hərbi hissəyə gəlib bütün komanda heyətini satın alır. Ordan Qraçova şifrəli məlumat ötürülür ki, erməniləri, yəni bizimkiləri qırıb-çatırlar. O isə belə cavab verir: yerində həll edin, onlara da elə bu lazım idi".[194]

Erməni terroru tarixən strategiyada sabit, taktikada çevik olmuşdur. İstər çar Rusiyası, istərsə də SSRİ dövründə erməni terroru birbaşa "erməni məsələsi"nin strategi maraqlarına xidmət edirdi. Taktikada isə gah anarxist, gah muzdlu qatil, gah da müxtəlif dövlətlərin güc strukturları ilə ittifaqda olan sifarişli silahlı dəsdələr kimi fəaliyyət göstərmişlər. SSRİ dağıldıqdan sonra isə erməni terrorçularının strateji hədəfləri dəyişməsə də (Böyük Ermənistan qurmaq), taktikalarında köhnə üsullara qayıdış elementləri sezilməyə başlanmışdı. Bu da son vaxtlar erməni terrorunda müəyyən primitivliyi müşahidə etməyə əsas verir. Bunun əsas səbəbi ondadır ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra "erməni məsələsi"nin tənqidi kontekstində xeyli ictimai-siyasi ədəbiyyat çap edilmiş, erməni terror üsulları Azərbaycan ictimaiyyətinə, o cümlədən güc strukturlarına aydın olmuşdur. Bu fakt, həmçinin müstəqil Azərbaycanın hərbi-siyasi və iqtisadi baxımdan güclənməsi erməni terroruna qarşı qabaqlayıcı tədbirlər hazırlamaq üçün də geniş analitik baza və imkanlar cəbhəsi yaratmışdır. Analitik müqayisələr aparmaqla erməni terrorunun təcrübəsi öyrənilmiş, ona qarşı informasiya mübarizəsi gücləndirilmişdir.* Məsələn, məlumdur ki, erməni terrorçu düşüncəsində "24 aprel – erməni soyqırımı günü", Qurban bayramı, Novruz bayramı, Yeni il gecəsi və s. müəyyən fərqli əlamətlərə malik günlərdə azərbaycanlılara qarşı terror aktları törətmək ənənəsi vardır.

Azərbaycana qarşı terrorçuluqda *"milli-dini azlıq"* amilindən faydalanmaq istiqaməti də nəzərə çarpır. Bu işdə Rusiya Erməniləri İttifaqının fəaliyyəti xüsusi nəzərə çarpır. RF-də fəaliyyət göstərən erməni əsilli iş adamlarının (Dağlıq Qarabağdakı separatçı rejimin əsas sponsorlarından biri, erməni əsilli iş adamı Levon Ayrapetyan dələduzluq etdiyi üçün 2016-cı ildə Rusiyada 4 il müddətinə həbs olunmuşdur. – ***E.C.***) aylıq 5 faiz ödəmələri hesabına müxtəlif layihələr, o cümlədən terrora dəstək verən həmin

---

*Son zamanlar erməniçi "yumşaq qüvvə" terrorunda elmi faktlarla deyil, publisistik ruhla Azərbaycan ictimai həyatını aşağılamaq formasına üstünlük verilməyə başlanılmışdır. Bu, hibrid müharibə taktikasının bir komponenti kimi də diqqəti cəlb edir.[196]

təşkilatın başçısı Ara Abramyan "Suvorov və Mədətov adına Qarabağ Hərbi Məktəbi"ni yaratmışdır (onun Ermənistandakı filialı Qarabağda məhv edilmiş ABŞ xüsusi xidmət orqanlarının agenti, terrorçu Monte Melkonyanın adını daşıyır. – ***E.C.).*** Bu məsələnin məkrli tərəfi odur ki, məktəbdə etnik ermənilərlə yanaşı, ləzgilər, talışlar, avarlar, saxurlar və b. milli azlıq nümayəndələri də ümumi qaydalar əsasında təhsil ala bilərlər təbliğatı aparılmaqdadır. Ekspertlərin fikrincə, belə bir "hərbi təhsil demokratiyası" Azərbaycanın cənub və şimal zonasında təxribatlar törətmək üçün hərbçi vərdişlərə yiyələnmiş xüsusi dəsdələr formalaşdırmaq məqsədi daşıyır.[197]

Azərbaycandan kənarda yaradılmış "Sadval", "Meşə qardaşları" ("Dərbənd camaatı", "Cənub Qruplaşması" adı ilə də tanınır) və "Ceyşullah" terror təşkilatları da müstəqilliyin bərpasından sonra, ilk dövrlərdə Azərbaycana qarşı terror aktları təşkil etmişdilər. Məlum olmuşdur ki, "Sadval", Ermənistandan silah və maddi dəstək almışdır.[198]

Terrorçu təşkilatlar Bakıda keçirilən "Eurovision - 2012" mahnı müsabiqəsi ərəfəsində və keçiriləcəyi zaman paytaxtda, respublikanın ayrı-ayrı rayonlarında müxtəlif terror aksiyaları törətmək, kütləvi qırğınlar məqsədilə partlayışlar və silahlı basqınlar təşkil etmək planlaşdırmışdı. Həmin terrorçu qruplar Azərbaycanın xüsusi xidmət orqanlarının irimiqyaslı xüsusi əməliyyatları nəticəsində zərərsizləşdirilmişlər.

Erməni dövlət terroru Azərbaycanda yaşayan milli azlıqlardan öz çirkin əməlləri üçün yararlanmaqda həmişə israrlı olmuşdur. Halbuki məlum faktdır: erməni terroru öz maraqlarına uyğun olaraq Azərbaycan, Türkiyə, İran, Gürcüstan ərazisində yaşayan kürdlərə, ləzgilərə, avarlara, ruslara, yəhudilərə, talışlara, hətta həmşinlərə və digərlərinə qarşı da amansız qətllər törətməkdən heç vaxt çəkinməmişdir. Ancaq Azərbaycanın DQ uğrunda verdiyi şəhidlərinin coğrafiyası və milli-dini tərkibi ən sadə, qəti və nəzakətli şəkildə erməni tərəfinin gözləntilərini təkzib etməkdədir.

Azərbaycana qarşı terror əməllərinin genişləndirilməsində maraqlı olan bəzi xarici dairələrlə mübarizə Respublikanın

beynəlxalq terrora qarşı mücadilə strategiyasının əsasını təşkil edir. “Xaçmaz camaatı” adı altında yaradılmış dini ekstremist cinayətkar birliyə qarşı əməliyyat tədbiri buna misal ola bilər. Beynəlxalq terror təşkilatı ilə sıx əlaqəsi olan bu birliyin ölkədə terror-təxribat əməllərinə hazırlıq hərəkətlərinə başladığını müəyyənləşdirən Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti cinayətkarların niyyətini kompleks qabaqlayıcı tədbirlər yolu ilə zərərsizləşdirmişdir.[199]

Bu tipli tədbirlər barədəki informasiyalar təsdiq edir ki, Azərbaycan Respublikası beynəlxalq terrora qarşı mübarizədə qətiyyətli mövqe tutmaqdadır.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra ölkədə “erməni məsələsi”nin iç üzünü açan xeyli ictimai-siyasi ədəbiyyatın çap edilməsi erməni probabilizmi əleyhinə mübarizənin faydalı forması kimi dəyərləndirilməlidir. Çünki terrorçu mətbu söz erməni terroru üçün ənənəvi köməkçi vasitədir və ilk dövrlərdə Azərbaycanın informasiya blokadasında saxlanılmasının əsas üsullarından biri olmuşdur. Erməni probabilizmi və erməni “qara terroru”nun daha bir üsulunu xatırlatmaqla, məsələnin iç üzünü şərhsiz təqdim edəcəyik*.

---

*Buna “yumşaq qüvvə” terror sisteminə daxil olan *intellekt terroru* da demək olar. Yeri gəlmişkən, 1998-ci ildə Qazaxıstanda aparılan elmi-tədqiqat işini Ermənistan xüsusi xidmət orqanlarının müdaxiləsi ilə mənimsəyib, şan-şöhrəti “tarixi vətəninə hədiyyə” etmək istəyən birisi indiki Ermənistana qaçmış və oradan dünyaya car çəkərək “Armenikum” adlı preparat (dünya təbabəti tərəfindən qəbul olunmamışdır. – ***E.C.***) istehsal edərək, MDB məkanında “СПИД” adı ilə tanınan dəhşətli xəstəliyin guya müalicəsini ixtira etmişlər eyforiyyasını yaşamağa başlamışdı. Bundan yarım əsrdən çox öncə isə Azərbaycan SSR-nin kadırı olan, Dövlət Plan Komitəsində və EA-da çalışan Q.A.Köçəryan soyadlı birisi Azərbaycan SSR-nin Coğrafi Atlasının nəşri üçün hazırlanmış (keçən əsrin 30-cu illərində işlənib tərtib olunmuşdu. – ***E.C.***) bütün materialları Leninqraddakı (Sankt-Peterburq. – ***E.C.***) kartoqrafiya nəşriyyatından götürüb İrəvana qaçmışdı. Atlasın hazırlanmasında istifadə olunan qədim tarixi xəritələrin, həmçinin Azərbaycanın iqtisadi-coğrafi potensialı ilə bağlı elmi-geoloji axtarışların strateji baza materiallarının İ.Stalin, L.Beriya, M.Bağırov kimi sərt dövlət adamlarının sağlığında oğurlamaq və

Azərbaycanda Qafqaz albanistikası istiqamətində son vaxtlar xeyli sanballı elmi söz işıq üzü görmüşdür. Bundan rahatsızlaşan müasir erməniçi müəlliflər və onların havadarları, həmçinin siyasətçilər azərbaycanlılara qarşı rişxəndlə *"dünən – türk idilər, bu gün – alban"* deyə mühakimələr irəli sürür, vaxtilə işğal etdikləri ərazilər nəticəsində Azərbaycan coğrafiyasının daha da kiçilməsinə eyham vuraraq onu aşağılamaq məqsədilə *"Abşeron respublikası"* ifadəsini yayır, "biz bu torpaqlarda olmuşuq, sonra getmişik, daha sonra isə qayıtmışıq" istiqamətində probabilistik iddialar irəli sürür, beləliklə də, elmi-nəzəri fikir terroruna rəvac verirlər. Belə bir kompleks məsələ terrorçuluqda yeni deyil. Ona görə də Azərbaycan Respublikasının müvafiq qurumları bu terrorla mübarizədə də təşəbbüsü öz əllərinə almışlar.

Beləliklə, **nə qədər ki, sovet dövlət aparatı Azərbaycan ictimai - elmi fikrini susmağa məcbur etmişdi, erməni elmi-nəzəri fikir terroru "həqiqət mücəssəməsi", "müdrik" və "zəkalı" obrazında tüğyan edirdi, o vaxt ki Azərbaycan elmi öz imkanları ilə beynəlxalq informasiya dövriyyəsinə qatıldı, erməni terrorunun probabilizm taktikası ifşa olundu.**

Erməni elmi-nəzəri fikir terroruna qarşı daha bir fakt.

Tibb elmləri doktoru, professor Rüstəm Rüstəmovun "Bədnam "erməni məsələsi"nin yaranması, inkişafı və yaddaşlarda qalmasının patoloji mexanizmləri" adlı bir məqaləsi var. Erməni müəllifləri Azərbaycan alimlərinin nəzəri fikirlərini elmi cəhətdən təkzib etməyə güc tapmayanda, adətən ucuz yumora üstünlük verir və faktın fövqündə filosofsayağı duruş alaraq, lovğa təbəssüm nümayiş etdirirlər. Lakin bu üsul prof. R. Rüstəmova münasibətdə görünmədi. Ona görə

---

illər uzunu müxtəlif instansiyalardan edilən təkidlərə baxmayaraq qaytarmamaq erməni intellekt terrorunun milli maraqlar naminə hakim dairənin potensialından istifadə etmək ənənəsinə malik olmasını və dövlətdən qeyri-leqal dəstək almaq bacarığını təsdiqləyir. Həmin sənədlər "dövlət sirri" kateqoriyasına aid idi və bu gün də öz əhəmiyyətini saxlamaqdadır. 44 günlük müharibəyədək işğal altında qalan Azərbaycan ərazilərinin təbii zənginliklərini istismar etməkdə həmin oğurluq materialların köməyi şübhəsizdir.

ki, alimin faktı elmə söykənir. R.Rüstəmov qeyd edir ki, hələ keçən əsrin 70-ci illərində Zaqafqaziyada yaşayan xalqların etno-genetik strukturu nəzərə alınaraq irsi hemoqlobinopatiyanın yayılması və Q-6-FD fermentinin aktivliyinin çatışmazlığı istiqamətində aparılmış tədqiqatların nəticələrinə əsasən açıqlanan *betta-talassemiya* göstəricisinə diqqət yetirilməlidir. Birbaşa genlə bağlı olan göstəricilər azərbaycanlılarla udinlərdə (bu gün də Azərbaycanda yaşayan alban tayfalarından biri. – ***E.C.***) eyni səviyyədədir – yüksəkdir, Dağlıq Qarabağda, vaxtilə Bakıda və indiki Ermənistan ərazisində yaşayan ermənilərdə isə qat-qat aşağıdır.[200] Yəni genetik amillər də göstərmişdir ki, ermənilər regionda avtoxton deyillər.[*]

---

[*]Prof. Rüstəm Rüstəmov "Respublika" qəzetinin 2015-ci ilin 1 və 2 aprel tarixli saylarında dərc olunmuş "Erməni terrorizmi və "erməni genosidi" erməni apostol kilsəsinin "Böyük Ermənistan" dövləti yaratmaq ideologiyasının tərkib hissəsidir" adlı digər məqaləsində öz qənaətini daha kəsərli faktlarla əsaslandırmışdır: *"...Ermənilər üçün xarakter olan 2 haploqrupdan biri – J2 cənubdan, Mesopotamiyadan 30-35 min il əvvəl başlanğıc götürdüyü ehtimal olunur... Digər R1b1 haploqrupu isə şimal-şərqdən, Cənubi Sibirdən 16 min il əvvəl başlanğıc götürmüşdür. Beləliklə, tarixən 2 əsas ... miqrasiyanın keçdiyi yollara Qafqaz, Xəzər sahillərindəki çöllər,Yaxın Şərq, Şimali Afrika, Pireney adaları və Avropa da daxildir. Beləliklə, dəqiq faktlara əsaslanan DNT ekspertizası da ermənilərin "böyük Ermənistan, unikal erməni milləti" kimi iddialarının uydurma olduğunu təsdiqləyir. Bundan əlavə, erməni mütəxəssislərinin ən çox ümid bəslədiyi DNT genealogiya metodunun ayrı-ayrı bölgələrdə yaşayan ermənilərin əksər hallarda erməni mənşəli olmadığını üzə çıxardı.*
*İnsanın genetik mənşəyini təyin etməyə imkan verən DNT testindən istifadə ilə Mark Arslanyan 2002-ci ildə Ermənistanın Qeqi (Azərbaycanlıların geniş məskunlaşdığı Qafan rayonu ərazisindəki "Gığı dərəsi" adı ilə tanınan silsilə kənd zonası nəzərdə tutulur. –* ***E.C.)*** *bölgəsində apardığı araşdırmaların ("Qeqi"-2002 lahiyəsi) nəticələri ilə sübut olunmuşdur ki, bu bölgədə yaşayan ermənilərin genetik mənsubiyyəti qeyri-müəyyəndir və erməni millətinə aid deyildir. Bundan sonra lahiyyənin dərhal dayandırılmasına qərar verilmişdir".*
2016-cı ilin axırlarında Ermənistan Milli Elmlər Akademiyasının Molekulyar Biologiya İnstitutunun əməkdaşı Levon Yepiskopyanın və İspaniyanın Milli Təbii Elmlər Muzeyi, Böyük Britaniyanın Blandford Tarix

Qafqaz albanistikasında erməni mənşəli müəlliflərin çoxalması, qədim alban mətnlərinin elmi şərhlərlə nəşrə hazır-lanması zamanı onların riyakarcaşına redaktələri elmi ictimaiyyətə yaxşı məlumdur. Erməni "yumşaq qüvvə" terrorunun məhv etdiyi həmin kitabların bəzilərinin əsli (orijinalı) bu gün də tapılmayıb. Tədqiqatçılar ancaq onların surətləri, yaxud tərcümələri əsasında fikir yürüdürlər. Niyə? Onun səbəbini Murad Aci belə açır: "... şərqşünas İ.A.Orbeli üç yüzədək alban abidəsindən yazılar toplamışdı. Belə güman edilirdi ki, çox keçməz, Qafqaz Albaniyasının keçmişi hamı üçün açıq kitab olacaq. O, 1919-cu ildə Petroqraddakı mətbəəyə bir monoqrafiya təhvil verir... və özü də bütün hazır tirajı alır. "Qandzasar yazıları" kitabının üzünü hələ də heç kəs görməyib, onun taleyi məlum deyil.

Bu nə idi, böyük ağılın dəliliyi? Bəlkə, gizli əmr? Bilmirəm.

Alim bir daha alban mövzusuna qayıtmamışdır, ona digər az əhəmiyyətli işləri ad-san qazandırmışdır. Ancaq hadisənin detalları akademik Orbeli haqqında fikir formalaşdırmağa kömək edir. Onun mövzuya marağı başa düşüləndir – axı, alimin əcdadları damarlarında alicənab zat qanı axan albanlar idi. Amma o özü əcdadı xan olan kimi hərəkət etməmişdi.

Həqiqətdən qorxmuşdur? Bəlkə onun əməyi alıcısı tapılmış əmtəə idi? Bəlkə də. Bundan sonra onun karyerası sürətlə yük-

---

Muzeyinin əməkdaşlarının iştirakı ilə Azərbaycan Respublikasının vaxtilə işğal edilmiş ərazisində yerləşən tarixi Azıx mağarasında qanunsuz arxeoloji tədqiqat işi aparılmış və guya "orada tapılan, 7 min il yaşı olduğu iddia edilən DNT izinin müasir "erməni genetikasi" ilə uyğunluq təşkil etməsi barədə fikir yayılmışdır". Dünya elmi bu fikri dərhal etirazla qarşılamışdır. Azərbaycan tərəfinin iştirakı olmadan aparılan işlərin nəticələrini onun əleyhinə istifadə etmək heç bir elmi-hüquqi əsasa söykənə bilməz. Digər tərəfdən isə, problemə genetika bucağı altında baxış üsulunun elmi dövriyyəyə qatılması Ermənistanın siyasi rəhbərliyinin və elmi dairələrinin "erməni genetik kodu" adlı yuxusuna haram qatmışdır. Dünyanın sağlam elmi dairələrinə məlumdur ki, beynəlxalq qanunları pozaraq işğal altındakı ərazilərdə gizlin tədqiqatlar aparmaq faşist üsuludur, saxtakarlıq və riyakarlıqdır.[201] Bu, azərbaycanlı alimin elmi qənaətinə cavab vermək istəyən müasir erməni terrorunun səbatsızlığı, erməni tray-balizminin və probabilizminin ümidsizcəsinə ifadə formasıdır.

sәlmәyә başalmışdı – akademik, Ermәnistan Elmlәr Akademiyasının Prezidenti, Ermitajın direktoru. Sovet dövründә tәdqiqatçı üçün bundan yuxarı qalxmaq mümkün deyildi.

Bilmirәn, o, sakitliklә canını tapşırıb, ya yox? Sovet İttifaqında vәzifәlәr elә-belә verilmirdi. Axı öldürülmüş kitab müәllifin deyildi, Qafqaz Albaniyasına mәxsus idi. Xalqın idi! Oradakı mәtndә sәhvlәr olsa belә onun hәmin kitabı öldürmәyә haqqı yox idi. Alim etikası da var, axı...

Bu sözlәri Orbelinin davamçılarına da demәk istәrdim, onlar da XX әsrdә diqtә ilә tәdqiqatlar aparmışlar: gәldiklәri qәnaәtlәr ya heç nә demir, ya da mif vә hipotezlәr dünyasına gedib çıxır... Qәribә qanunauyğunluqdur"...[202]

Abqar İosifoviç Orbeli tanınan tәdqiqatçı-alim olsa da, onun bu hәrәkәti terrorçu-alim damğasını üzәrindәn götürmür.* Bәs onun mәqsәdi nә idi? Mәqsәd elmә xәyanәt yolu ilә regionda avtoxton xristian albanların izini tamamilә yox etmәk, әvәzindә ermәnilәrin avtoxton olduğunu "elmilәşdirmәyә" dәstәk olmaq, ermәni probabilizminә genişlik yaratmaq idi.[204]

A.Orbelinin mәslәkdaşları bu gün dә var. Onların nümayәndәlәrinә nümunә kimi hәrbçi-tarixçi A.B.Şirokorad (bax: Широкорад А.Б. Утерянные земли России. Отколовшиеся республики.

---

* 1855-ci ildә *"Ermәnilәr"* imzası ilә çar Rusiyasının ali rәhbәrliyinә ünvanlanmış bir donosda oxuyuruq: "***12.*** O (katolikos V Nerses. – *E.C.*), Vәng kilsәsindә (teologiya hәmin kilsәni Qafqaz Albaniyası mәbәdi olaraq qәbul edir.- *E.C.*) dәfn olunmuş vә ermәni kilsә nizamnamәsinә uyğun olaraq İsa mәsihin xaçı ilә möhürlәnәrәk Onun ikinci zühurunadәk toxunulmaz qalmalı olan qәbirlәri göstәriş verib açdırmış, sümüklәri Kür çayına atdırmışdır".[203] Hәmin kilsәnin әtrafında dәfn olunanlar adlı-sanlı alban tayfalarına mәxsus insanlar idi. Demәli, bәzi ermәni müәlliflәrinin qeyd etdiklәri kimi, Vәng kilsәsi ermәni mәbәdi olsaydı vә orada ermәni әsilzadәlәri dәfn edilsәydi ermәni katolikosu heç vaxt hәmin vәhşiliyi etmәzdi. Bu fakt A.Orbelinin hәrәkәtinә "qohum" olaraq, hәmçinin Qafqaz Albaniyası vә ermәni kilsәsi münasibәtlәrinin öyrәnilmәsi, ermәni etnosunun bu әrazilәrdә pozuculuq vә tarixi saxtalaşdırmaq istiqamәtindә atdığı terrorçu addımlarının müxtәlifliyini vә riyakarlığını izlәmәk baxımından növbәti sübutdur.

M.: Вече, 2007, с. 190 – 257.), digəri isə etnoqraf V.A.Şnirelmandır. Hətta “Azərbaycan” leksik vahidinə də düşmən kəsilmiş həmin müəlliflər və onların həmfikirləri, regionun tarixi ilə bağlı ictimai-humanitar faktları elmi deyil, patoloji nifrət müstəvisində həll etməyə cəhd göstərir, Azərbaycan ictimai fikrinin elmi-fəlsəfi əsaslarını təhrif edib, onun bütün tarixini kinayə obyektinə çevirməklə erməni “yumşaq qüvvə” terroruna dəstək olurlar. V.Şnirelmana Azərbaycanın tanınmış alimi Zümrüd Quluzadə cavab vermişdir.[205] Bu cavab, həmçinin, A. Şirokorad və həmfikirlərinə də aid olduğu üçün üzərində dayanmırıq. Ümumiyyətlə, Azərbaycan tarixinin “Azərbaycan” sözünün inzibati-ərazi vahidi kimi işlənmə dövründən başlandığını iddia etməyə çalışan şarlatan-müəlliflər elmə deyil, şovinist və siyasi konyukturaya əsaslanaraq, “yumşaq qüvvə” terroruna xidmət göstərirlər.

“Ey Aram.., sənin düşmənin türkdür (Anadolu və Azərbaycan türkləri. – ***E.C.)***... Vətən Tanrıdan irəlidir. Vətəndən irəli kilsədir. Kilsədən irəli Böyük Tiqrandır. Böyük Tiqrandan irəli isə “Böyük Ermənistandır”, – S.Kaputikyanın hər bir erməni üçün postulat olan bu vəsiyyəti elmi-nəzəri fikir terrorunun konsepsiysını formalaşdırmaq və yaşatmaqdadır.

Yalan və saxtakarlıq - probabilizm erməni fikir terrorunun nəzər nöqtəsidir. Onlar bu məsələdə o dərəcədə absurd mövqe tutmuşlar ki, hətta antik yunan müəlliflərinin də əsərlərinə erməniçi mövqedən əlavələr və düzəlişlər etməkdən çəkinməmişlər.

Heç kəsin tanımadığı Aram Andonyan adlı bir erməni hə-lə 1920-ci ildə Parisdə “Erməni qırğınına aid rəsmi sənədlər. Çoxlu sayda sənədlərin fotosurəti” adlı kitab nəşr etdirdikdən sonra “məşhurlaşmışdı”. “Sənədlər” guya 1915/16-cı ilin əvvəllərinə aiddir və ermənilərin kökünü kəsmək barədə Tələt paşanın Hələb prefektinə (inzibati-ərazi vahidinin başçısı. – E.C.) göndərdiyi şifirəli teleqramların surətidir. O vaxtlar erməniçi tərəf həmin kitab əsasında dünya miqyasında cox güclü antitürk təbliğat kampaniyası aparmışdı. Lakin o sənədlərin orijinalı bu günədək tapılmamışdır, Andonyanın həmin sənədlərin həqiqiliyini sübut etmək üçün nail olduğu ekspert

rəyinin də orijinalı yoxdur.* Mütəxəssislər sübut etmişlər ki, sənədlərin dəftərxana qeydiyyat nömrələri də tapılmır, tarixlər gah milad, hicri, gah da erməni-qriqoryan təqvimi ilə göstərilmişdi. Erməni probabilizminin dəhşəti ondadır ki, həmin sənədləri dövriyyəyə buraxanlar o dövrdə Osmanlı dəftərxana mədəniyyətinə uyğun olaraq hər sənədin başlanğıcında istifadə edilən ***«bismillah»*** sözünü də orfoqrafik səhvlə yazmışlar. Erməni terrorundakı bu tipli riyakarlıqları arxiv sənədlərinin əsli ilə tutuşdurmaq üçün xeyli müxtəlif rəsmi materiallar var.[207]

Erməni siyasi əxlaqında yalanın klassik nümunəsini 2016-cı ilin iyun ayının 3-4-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV

---

* "Osmanlı imperiyası XVII əsrdə Zeytunu fəth etməyə çalışmış, lakin bacarmamışdı. Sultan IV Murad Cəlalilərin hücumları nəticəsində dağılmaqda olan imperiyanı yeni təhlükəyə atmaqdan ehtiyatlanaraq "başını yeni bəlaya salmamaq üçün" onlara (Zeytunda yaşayan Osmanlı təbəəsi ermənilərə. – S.M.) imtiyazlar verməyə məcbur olmuşdur. 1036-cı il şəvval ayının 29-da, yəni bu günədək zənn edildiyi kimi, 1618-ci ildə deyil, 1626-1627-ci illərdə Zeytunun yarımmüstəqilliyi haqqında fərman vermiş və 15000 quruş vergi tələb edərək əyaləti fərmanlı vakıf kimi tanımışdır... M.Semercyan fərmanın bütün mətnini ilk dəfə açıqlayarkən belə hesab etmişdir ki, onun verildiyi türk tarixi –1036-cı il şəvval ayının 29-u 1618-ci il fevralın 17-nə uyğun gəlir. Sonrakı tarixçilər bu rəqəmi qəbul etmiş və onun həqiqiliyini yoxlamağa çalışmamışlar. Yalnız son zamanlar, Zeytunun tarixi ilə daha əsaslı tanış olan V.Məliksetyan belə bir fikir bildirmişdir ki, fərmanın mətni saxtadır, sonrakı sultanlardan imtiyazlar qoparmaq məqsədilə onu sənəd kimi ermənilər uydurmuşlar.
Tarixçinin əlində olan "ən güclü əsas" ondan ibarətdir ki, fərmanın altına IV Muradın imzası qoyulmuşdur, halbuki tarix 1618-ci ildir, yəni o zaman taxtda II Osman idi. II Osmanın hakimiyyəti illərində IV Murad fərman verə bilməzdi"...[206] Elmi cəhətdən yoxlanılmadan leqallaşdırılaraq elmi-nəzəri fikir terroru formasına salınan və perspektivə ünvanlanmış bu tipli incə mətləblər erməni "yumşaq qüvvə" terrorunun nə qədər dərinə işlədiyini aydın göstərir. Həmçinin, Qərib Babayan adlı birisinin "ekstra paradiqmasına" diqqət yetirək: Qarabağ – "...əhalisi erməni olan, ancaq azərbaycanlı xanlar tərəfindən idarə edilən İran xanlığı idi". Yeni tarixdə BMT savadsızlıq göstərib, Azərbaycan Respublikasını DQMV daxil öz sıralarına qəbul edib".[209]

Qurultayının açılışındakı nitqində Azərbaycan Prezidenti İlham Əliyev ifşa etmişdir: "Mən bir cümlədə dörd dəfə yalan danışan ikinci prezident (Ermənistanın keçmiş prezidenti Serj Sarqsyana işarə edilir. – E.C.) tanımıram. Bu, mütləq "Ginnesin rekordlar kitabı"na salınmalıdır, amma antirekord kimi". [208] Bir çox faktlara əsasən demək olar ki, erməni ictimai fikrində probabilizm xüsusi təyinatlı "tərbiyə" üsuludur və birbaşa revanşist fikirlərə, qara terrora xidmət edir. "Erməni soyqırımı" ətrafında gəzişən rəqəmlərin şişirdilməsi və müxtəlifliyi, əksinə, Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların sayının isə saxtalaşdırılaraq azadılması da məhz bundan qaynaqlanır.[*] Bu xüsusiyyətlər də erməni probabilizmi üçün xarakterik amillərdir.

---

[*]"Lord Kerzon İsmət paşanın Türkiyə hökumətinin loyal ermənilərə rəğbət bəsləməsi barədəki fikrinə cavab olaraq soruşmuşdu, necə ola bilər ki, Türkiyədə 3 milyon ermənidən 130 minədək erməni qalıb, bu səbəbdən də (yəni növbəti böyük fəlakət qorxusundan. – ***E.C.)*** onların da 60 mini Kilikiyanı tərk edib. İsmət paşa bildirmişdi ki, ...Türkiyə nümayəndə heyəti hesab edir ki, 3 mln. erməni rəqəmi ciddi səhvdir, ona görə ki, nümayəndə heyəti heç bir statistikada Türkiyədə bu qədər erməni olması faktına rast gəlməmişdir. Avropada nəşr edilmiş bir çox statistika rəqəmləri üçün mənbə olan cənab Vital Kyunenin əsərində təxminən 1 000 000, Britaniya Ensiklopediyasında 1 500 000, rəsmi Türkiyə statistikasında isə 1 290 000 erməni göstərilir. Bu rəqəmdən də Osmanlı İmperiyasından qopardılmış ərazilərdə yaşayan ermənilərin sayı çıxılmalıdır. Bütün bunlar sübut edir ki, heç vaxt Türkiyədə 3 mln. erməni olmamışdır. Həmçinin, heç bütün dünyada da onların ümumi sayı bu rəqəmə çatmır;[210] erməni tərəfindən fikrə dəstək: o "Mşak" qəzeti hələ 1915-ci il hadisəsindən bir il əvvəl – 22 mart 1914-cü il (№109) tarixli sayında "Erməni məsələsi" rubrikasında yazırdı ki, Türkiyədə 1. 300 000 erməni yaşayır" (bu faktı erməni dilindən Sabir Babayev tərcümə etmişdir). Beləliklə, İsmət paşanın dürüstlüyü təsdiq olunur. Başqa bir fakt: "Türkiyə Ermənistanının bütün əhalisinin sayı müharibədən qabaq (I Dünya müharibəsi nəzərdə tutulur. – E.C.) iki milyona yaxın olmuşdur...".[211] Beləliklə, "erməni soyqırımı" ilə bağlı rəqəmlər kaleydoskopuna "*Yetər artıq!*" demək üçün Ümumrusiya ermənilərinin qurultayı (10 may 1916-cı il) əlavə mənbə ola bilər. Qurultayın sədri S.Q.Mamikonyanın nitqindən: " Rusiyanı erməni qaçqınları dalğası bürüyüb. Hazırda Rusiyada sığınıcağa və köməyə ehtiyacı olan 270 min

Mütəxəssislər indiki Ermənistan Respublikasının keçən əsrin 20-ci illərində demoqrafik vəziyyətindən söz açarkən, qeyd edirlər ki, o vaxtlar təxminən yarım milyona yaxın əhalisi olan bu bölgədə yaşayanların çox böyük hissəsini müsəlmanlar, xüsusilə də Azərbaycan türkləri təşkil edirdi. Azərbaycana qarşı total terrorçuluq təbliğatı aparan erməniçi isteblişment həmin tarixi reallıqdan ustalıqla yayınmağa çalışsa da, əlahəzrət fakt yaşamaqdadır. Bunu vaxtilə Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçov da Moskvada Azərbaycan və Ermənistan Ali sovetlərinin Dağlıq Qarabağ haqqında qərarları barədə məsələ müzakirə olunarkən (18 iyul 1988-ci il, Kreml) xatırlatmış, azərbaycanlılara qarşı erməni haqsızlığını erməni elitasına etiraf etdirmişdi. Həmin iclasda Ermənistan EA-nın akademiki, Yerevan Dövlət Universitetinin rektoru S.A.Ambartsum-yan şovinist mövqeyini gizlətməyə çalışsa da, Baş katiblə dialoqda ifşa olunmuşdu. Həmin dialoq həm tarixilik (məs., Lord Kerzon – İsmət paşa dialoqu baxımından) həm də müasirlik baxımından, həm-çinin müasir erməni dövlət terrorunun səbəblərini açmağa istiqamət verə biləcək əlavə bir element kimi diqqətdədir.*

---

erməni var. 600 mindən 700 minədək erməni qətl edilib (öz qurultaylarında özlərinin etirafıdır. – E.C.). Bu bədbəxt xalqın 100 – 200 mini isə Mesopotamiyada yerləşmişdir”...[212] Barmaq hesabı ilə də məlumdur ki, bu-rada iki milyondan söhbət getmir.

* “**S.A.Ambartsumyan:** ... Mən aliməm, dəqiq elmlərlə məşğulam və bilirəm ki, hər hansı problemi, xüsusən də siyasətdə olan problemi həll etmək üçün çox vaxt qarşılıqlı güzəştsiz keçinmək mümkün deyil.

**M.S.Qorbaçov**: Mən qarşılıqlı güzəştdən danışanda başqa şeyi nəzərdə tuturam. Siz elə qarşılıqlı güzəşt təklif edirsiniz ki, bu, iki xalq arasında yadlığı saxlayır. Bizə bu lazım deyil. Siz belə təklif edirsiniz: biz bir-birimizə inanmırıqsa, eybi yoxdur, qoy İttifaq Hökumətinin timsalında allah-taala özü bizi idarə etsin. Mən isə bir-birinin əlini sıxmağı nəzərdə tutan qarşılıqlı güzəştdən danışıram. Eşitdiyimə görə Azərbaycanda belə bir fikir olmuşdur. Bəlkə DQMV-də yaşayan ermənilərin inamını artırmaq üçün bu vilayətin statusu muxtar respublika səviyyəsinə qaldırılsın? Məncə bu, maraqlıdır... Mən Arutyunyan (Ermənistan KP-nin birinci katibi. – E.C.) yoldaşla danışdım, buna o da tərəfdar çıxdı. Lakin Dağlıq Qarabağ Vilayət Xalq Deputatları Sovetinin sessiyası toplaşdı və elan etdi ki, Azər-

Müasir terrorda da din amili vacib rol oynayır. Ermənilikdə özünüdərk və özünütəsdiq din üzərində və din vasitəsilə aparılır, lakin münasibətlərə mömin bəndə mövqeyindən deyil, siyasi məqsəd və öhdəliyə xidmət səviyyəsindən yanaşılır. Ona görə də erməni

---

baycana tabe olmur...
***Salondan səs:*** Stepanakertdə (Xankəndi. – ***E.C.***) mitinq olmuş və orada deyilmişdir ki, bu, lazım deyil. Azərbaycanda müəyyən dairələr dərhal imza toplamağa başlamışdılar.
**M.S.Qorbaçov**: Təkcə bu olmamışdır. Vilayəti, ümumiyyətlə, ləğv etmək təklif olunurdu.
...Məlumdur ki, Ermənistanda yaşayan azərbaycanlıların sayı Dağlıq Qarabağdakı ermənilərin sayından az deyildir. İndi necə olsun, orada da muxtar vilayətmi yaradaq? Bizim fikrimizcə, elə qüvvələr vardır ki, onlar, ümumiyyətlə, problemin düzgün həllini istəmirlər.
Burada əsasən demoqrafiyanın, əhalinin tərkibinin necə dəyişdiyinə istinad edirlər... Deyin görək, əsrin əvvəllərində Yerevanda azərbaycanlı əhali nə qədər idi?
**S.A.Ambartsumyan:** Əsrin əvvəllərində, Yerevanda?
**M.S.Qorbaçov:** Bəli.
**S.A.Ambartsumyan:** Deməyə çətinlik çəkirəm.
**M.S.Qorbaçov:** Siz bunu bilməlisiniz. Mən sizə xatırlada bilərəm - əsrin əvvəllərində Yerevanda azərbaycanlılar 43 faiz təşkil edirdi. İndi azərbaycanlılar neçə faizdir?
**S.A.Ambartsumyan:** İndi olduqca azdır. Yəqin ki, bir faizdir.
**M.S.Qorbaçov:** Bunu deməklə erməniləri təqsirləndirmək istəmirəm ki, onlar azərbaycanlıları sıxışdırıb çıxarmışlar. Görünür hansı proseslər isə baş vermişdir və ümumiyyətlə bunları araşdırmaq lazımdır... Siz ki alimsiniz! İnformasiyada dəqiq, həqiqəti söyləməkdə dəqiq olmaq lazımdır. Əgər bu ancaq sizin həqiqətiniz və ya mənim həqiqətim olacaqdırsa, bu hələ həqiqət deyildir. Lakin olmuş həqiqət də vardır: əsrlər boyu ermənilər və azərbaycanlılar bu torpaqda yaşamışlar. Sizin üçün Dağlıq Qarabağ erməni millətinin beşiyi, necə deyərlər, dayaq nöqtələrindən biridir. Lakin Azərbaycanın bəstəkarları, bir çox başqa incəsənət xadimləri də axı Şuşadan, Qarabağdan çıxmışdır. Axı insanların ürəklərini, ailələri, əsrləri beləcə asanlıqla, kotanla şumlayırmış kimi ayaq altına salıb şumlamaq olmaz..."[213]

gündəlik həyatı üçün siyasiləşmiş kilsə hakim məbəddir.* Vaxtilə çar Rusiyasına sürülmüş protestant almanların və pravoslav əhalinin böyük bir qisminin Mərkəzi Rusiya və Volqaboyundan, erməni-qriqoryan din mənsublarının isə Yaxın Şərq regionundan Şimali Azərbaycana köçürülməsində, onlara imtiyazlar verib məskunlaşmalarına şərait yaradılmasında məqsəd həm də burada İslam dininin və əhalinin təəssübünü çəkən din xadimlərinin mövqelərini zəiflətmək, çara münasib bir passif kütlə formalaşdırmaq, həmçinin erməni-qriqoryan kilsəsini hərbi-siyasi məsələlərin həllində yardımçı ünsür etmək idi. Bu siyasətin təntənəsi regionda böyük hörməti olan, həmçinin XV əsrdən başlayaraq Roma Papasının da düşməninə çevrilən Alban kilsəsinin konfessional müstəqilliyini sındırılmaqla davam etmədədir. Vəziyyət o həddə çatmışdır ki, avtokefal Alban kilsəsi və patriaxlığı ləğv olunub, erməni-qriqoryan kilsəsinə tabe edilmiş, onun bütün arxivi (diqqət!), əmlakı Üç kilsəyə verilmişdir. Beləliklə, monofizit albanlar erməni-qriqoryan (indiki Ermənistan Respublikası adlanan ərazidəki ermənilər Qarabağ ermənilərinə "şurduvat" – "dönmə" deyə onların fərqli olduqlarını vurğulamaları təsadüfi deyildir); diofizitliyə meyl göstərən albanlar isə gürcü-pravoslav dininin daxilində ərimiş və XIX əsrin ortalarında "Alban kilsəsi" anlayışı, demək olar ki, yox olmuşdur[214].

Bütün bu tipli terrorçu mənfiliklər regionda erməni amilinin tarixi-dini-siyasi qədimliyini faktlaşdırmaq təsəvvürlərinə xidmət

---

*451-ci ildə Xalkidonda (Kadıköy, Türkiyə Respublikası. – ***E.C.)*** keçirilən Ümumdünya Xristian Kilsəsinin 4-cü toplantısından sonra erməni özünü təyinetmə proseslərində erməni-qriqoryan kilsəsinin rolu daha da artmışdır. Erməni kilsəsi həmin toplantıda Fars imperiyasının siyasi maraqlarına yarınmaq məqsədilə İsa Məsihin difizit olması barədə qətnaməni qəbul etməmiş, beləliklə də, xristian dünyasına təfriqə saldığı üçün kilsənin qəzəbinə gəlmişdir. Beləliklə, erməni monofizit dini küfr elan edilmiş, xalq isə Bizansdan qovulmuşdur. Özünümüdafiə üçün siyasiləşməkdən başqa yol tapa bilməyən er-məni-qriqoryan kilsəsi bu ehtirasla kütlə arasında nüfuzunu genişləndirməyə başlamış, erməni dövlət quruculuğunda qriqoryanlığın hegemonluğunu özünün gizli məqsədi kimi qətiləşdirmişdir. Proses davam edir...

edirdi. Erməni traybalizmi və erməni probabilizminin təsiri altında olan erməni terroru bu tipli paradiqmaların həlli üsullarından biridir və bu, hazırda da davam etdirilir. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinə, ümumiyyətlə, özlərinin iştirak etdikləri qarşıdurmalara dini rəng qatmağa xüsusi həvəs göstərən erməniçi dairələrin ***"Qarabağ İslam dininə qarşı xristian dünyasının axırıncı istinadgahıdır"*** – fikrini kütləviləşdirmək niyyəti yuxarıda toxunulan həmin xarakter xüsusiyyətdən qaynaqlanır. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsində dini istiqamət görənlər arasında müəyyən imzalar və politoloqlar da var.* Z. Bjezinski yazır: "Nəzərə alsaq ki, ermənilər xristian, azərbaycanlılar isə – müsəlmandırlar, onların arasındakı münaqişə dini rəng daşıyır".[215] Türk mənşəyinin, Qafqaz Albaniyası xristianlarının və İslam dininin bu regiondakı mövcudluğunu yox etmək üçün XX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycanın işğal olunmuş ərazilərindəki coğrafi-dini adların dəyişdirilməsi, məbədlərin dağıdılması və s. bu tipli

---

*Bu məsələ növbəti dəfə Roma papasının İrəvana səfərindən (24 iyun 2016-cı il. – ***E.C.)*** az sonra mətbuat konfransı təşkil edən iranşünas Vardan Voskanyan tərəfindən gündəmə gətirilmişdir: "Azərbaycan hər münasib şəraitdə din amilini önə çəkir, Dağlıq Qarabağ münaqişəsini dini qarşıdurma kimi təqdim edib (Azərbaycan dövləti və Qafqaz Müsəlmanları İdarəsi bu münaqişənin dini xarakter daşımadığını dəfələrlə bəyan etmişlər. – ***E.C.),*** nə isə bir xeyir götürmək istəyir, indi, bütün dünyanın gözü qarşısında edilən bəyanatdan sonra (keçmiş prezident S.Sarqsyanın Papa Frantsisklə görüşdə İranı nəzərdə tutaraq iki ayrı-ayrı din mənsubu dövlətin bir regionda dinc yanaşı yaşaması fikrinin İran KİV-də müsbət qarşılanmasına işarə olunur. – ***E.C.)*** cəsarətlə İranı, bu İslam ölkəsi ilə Xristian Ermənistanı arasında nümunəvi münasibətləri göstərib, *Azərbaycan*ın... (kursiv mənimdir. – *E.C.)* cinayətkar istəklərini dağıtmaq olar".[216] Dünyanın din mərkəzlərindən hesab edilən Rusiya Pravoslav Kilsəsi də Dağlıq Qarabağ münaqişəsinin dini məzmun daşımadığını dəfələrlə bildirmişdir. Roma papasının 2016-cı ildə İrəvana və Bakıya səfərləri zamanı çıxışlarında münaqişənin siyasi xarakterli olduğu açıqlanmışdı. Yəni dini rəhbərlər də dəfələrlə xüsusi vurğulamışlar ki, millətlərarası düşmənçiliyi qızışdırmaq həm Xristian, həm də İslam dinində günah hesab edilir.

vandalizm faktları erməni terrorçu etno-siyasi psixologiyasının tipik nəticələridir. İctimaiyyətə erməni terrorunun müsəlman adət-ənənəsinə, Qurani-Kərimə, məscidlərə etdikləri həqarətlər çar dövründən, xüsusilə də 1900-1918-ci illərdə törədilən müvafiq cinayətlərdən məlumdur.*

---

* Problemin aktuallığını nəzərə alaraq mövzuya yenidən qayıdaq. Beynəlxalq münasibətlər sistemində maraq dairələrinin genişlənməsi müasir terrorun mahiyyətinə prinsipial əlavələr etmişdir. “İslam terroru” termini ilə xüsusi fərqləndirilən və təbliğ olunan belə bir əlavə hər şeydən əvvəl qeyri-elmi xarakter daşıyır.

Əvvəla, ona görə ki, İslam dini dünyagörüş və mədəniyyət daşıyıcısı kimi özü hər cür terror aktına qarşıdır. İkincisi, dini mənsubiyyətindən asılı olmayaraq, dünyanın ən mötəbər teoloqları və dini liderləri heç bir dini, o cümlədən İslam dinini terrorla əlaqədə suçlamır. Üçüncüsü, belə mövqe başqa dinləri, xüsusilə də Xristianlığı “eksklüziv” səviyyəyə qaldırır ki, həmin “zirvədə” tolerantlıqdan, çoxmədəniyyətlikdən söhbət gedə bilməz. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2016-cı ilin aprel ayının 14-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin birinci sessiyasındakı çıxışında Azərbaycan dövlətinin bu kontekstdəki mövqeyini belə ifadə etmişdir: “...Bu gün dünyada islamofobiya ciddi təhlükələrdən biridir. Biz bu tendensiyanı qətiyyətlə pisləyirik. Əslində İslam sülh, mərhəmət, dözümlülük, ədalət dinidir. İslamı terrorla eyniləşdirmək isə səhv və qərəzli yanaşmadır. Terrordan ən çox əziyyət çəkən elə müsəlman ölkələridir”.

Həqiqətən, bu gün İslam coğrafiyası növbəti dəfə özünün ağır dövrünü yaşamadadır. Allah, İslam Peyğəmbəri adından müşrikcəsinə ağır cinayətlər törədilir. Öz ideologiyalarını “İslamiləşdirən” mənşəyi, məzhəbi məlum olmayan qurumlar, silahlı dəsdələr yaradılır, onların əli ilə ağır günahlara yol verilir. Təəssüf ki, ən məşhur elmi-kütləvi TV proqramlarında (BBC, CNN, Euronews və s.), sənədli filmlərdə bütün bunlar bəhanə edilərək **“davakar İslam”** termini sıx-sıx işlədilir və bəşəriyyətə islamofobi kompleksi aşılanır. Xilafətin yenidən bərpası ətrafında tirajlanan uydurmalar üzərindən dünya müsəlmanlarına qarşı savaş açmaq bəhanələri ictimaiyyəti rahatsız edir. Xristian dünyasında müsəlman adət-ənənələri, ibadət yerləri aşağılanır, vətəndaş qarşıdurmaları üçün subyektiv səbəblər yaradılır. Paradoks ondadır ki, bugünkü teoloji panoramda Xristianlıq və İslam dini arasında ümumi müddəaların daha çox

olduğu vurğulansa da, onlar arasındakı ümumi dəyərlər barədə müsbət elmi fikir mübadilələri aparılsa da, terror məsələlərinə gəldikdə məhz İslam dini terrorçu din kimi təbliğ olunur, "səbəbkar davakar İslamdır" - deyib, toplum arasında "ilk informasiya" effektini gücləndirir, "Allahu-Əkbər" alqışı isə terminator səviyyəsinə çatdırılır. Bu günahlar İslamın adına yazılmamalıdır, xristianların Balkanlarda, işğala məruz etdikləri Azərbaycan torpaqlarında və s. coğrafiyalarda törətdikləri cinayətləri də Xristian dininin adından təbliğ etmək səhvdir. Bu günahlar, əsasən, beynəlxalq miqyasda mənəviyyatın tənəzzülə uğraması səbəbindən irəli gəlir. Buna görə də onun bu müstəvidə islah olunmasına səy göstərilməlidir. Teoloq Məhəmməd əl-Qəzali (1917 – 1996) problemə belə şərh vermişdir: " ... Həqiqət bundan ibarətdir ki, dini və ümməti üçün Allahdan qorxmayan insanlar şayiə və zənnin qara buludlarını ətrafa yaymışlar. Söhbət elə şayiə və zəndən gedir ki, onlar müsəlmanları pərən-pərən salan, beyinləri boş təsəvvürlərlə, ardınca da qəlbləri sapqın hisslərlə dolduran gizli səbəb rolunu oynamışdır.

Xalq kütlələri, çox təssüf ki, əsası olmayan müştərək yalanların qurbanıdır".[217]

Beləliklə, islamofobiya və "davakar İslam" yanaşmaları, onu beynəlxalq terrorçuluq səviyyəsinə qaldırmaq mövcud beynəlxalq hüquq qanunlarına ziddir və müstəqillik illərində Azərbaycan Respublikasının antiterror fəaliyyətində bu istiqamət də xüsusi yer tutur.

Bəzi dairələr İslam dinindəki məzhəblərarası münasibətlərdən istifadə edərək yumşaq və sərt güc terroru ilə qarşıdurma yaratmaqda bu gün də maraqlıdır. "Reallıq bundan ibarətdir ki, müsəlmanları bir-biri ilə çəkişən qruplara bölmək istəyənlər bölünmə üçün ağlabatan bəhanə tapmadıqları zaman təfriqə "səbəblər"i uydururlar. Düzgünlük meydanı daraldığından yalan meydanı onlar üçün gen olub!"[218] **Həmin dairələrin dünyəvi dövlətlərdə dindarların hüquqlarının, teokratik dövlətlərdə isə demokratik baxışların qorunması bəhanəsilə dövlətlərin daxili işinə qarışmaq, hərbi güc tətbiq etmək üçün islamofobi aurası yaratmaq istəyi beynəlxalq şərin sevimli oyununa çevrilmişdir.** Bununla yanaşı, əsas problemlərdən biri də budur ki, İslam dünyası islamofobinin yaranmasına və yayılmasına səbəb olan müasir ümumdünya mənəvi tənəzzülünü dərk etsə də, bunun qarşısının alınmasının vacibliyini vurğulasa da, vahid mübarizə strategiyası, xüsusilə də kollektiv surətdə dini ekstremizm və terrora qarşı mübarizənin istiqamətlərini və formalarını işləyib hazırlamaqda israrlı deyil. Hazırda "İslam terroru" deyilən fikrə qarşı ən səmərəli addım

müsəlman dövlətlərinin bir çox vacib sahədə birləşərək beynəlxalq terrora, o cümlədən islamofobi anlayışını təbliğ edənlərə qarşı "yumşaq qüvvə" ilə müdrikcəsinə mütəşəkkil mübarizə aparması optimal variant hesab oluna bilər. Yeri gəlmişkən, 2015-ci ilin dekabr ayının 15-də terrora qarşı İslam koalisiyasının yaradılması təşəbbüsü irəli sürülmüşdü. Həmin koalisiyanın, əsasən, İŞİD terror təşkilatı ilə mübarizə üçün formalaşdırıldığı açıqlanmışdı.[219]

Məhəmməd əl-Qəzali isə vaxtilə belə bir təklif irəli sürmüşdü: "İxtilafların at oynatdığı bir vaxtda sünniləri, şiə və xariciləri özündə birləşdirən parlament yaradılarsa, - bunu edənləri bəzən axmaq yerinə qoyurlar, - düşünürəm ki, onlar döyüş meydanlarında qılıncla üz-üzə gəlmələrindən, sonrakı nəsillərə heç bir ağla və imana əsaslanmayan ədavət və intiqam hissi miras buraxmaqdan daha çox İslama yaxın olarlar. Bu üç dəstə vaxtı ilə İslamın eyni səfdə yer alan övladları olmuş, sonralar isə aralarında bölünmə vaqe olmuşdur".[220] Bu kontekstdə qeyd edək ki, din aliminin birləşmək və parlament üsulu ilə mübarizə aparmaq təklifi İslamın demokratik dəyəri kimi qiymətləndirilməlidir. Belə mövqeyə dəstək qarşı tərəfdən də gəlməlidir. 2016-cı ilin fevral ayının 12-də Kubanın paytaxtı Havananın Xose Marti hava limanında, nəhayət ki, yəni son 1230 il ərzində ilk dəfə və 55 il hazırlaşdıqdan sonra xristian dünyasının iki kilsə liderinin – Vatikanın və Rusiyanın – tarixi görüşü olmuşdur. "Biz rəqib deyil, qardaşıq: bir-birimizə və xarici aləmə münasibətdə bütün fəaliyyətimizdə bu anlayışdan çıxış etməliyik..." - qənaətinə sədaqət ruhunda keçən görüşdə Suriya, İraq və s. ölkələrdə vətəndaşlar arasında vəziyyətin mürəkkəbləşdiyi, terrorun yayıldığı vurğulanaraq, bütün bunlara qarşı səylərin artırılması ifadə edilmişdir *("Radio Vatikan").* Tarixi görüşdə məqsəd xristianlıq əleyhinə çıxışların qarşısını almaq üçün, həmçinin terrora qarşı mübarizədə vahid koalisiyanın yaradılmasında dini liderlərin də iştirakı məsələsi olmuşdur.[221] Yeri gəlmişkən, hüquq müdafiəçiləri belə bir statistika da dərc etmişlər: hazırda 139 ölkədə xristianafobi, 121 ölkədə isə islamofobi mövcuddur.[222] Yəni əslində xristianafobi daha geniş yayılıb, ancaq mübarizə islamofobiyə qarşı aparılır. Dini sammitdə ümumdünya təhlükəsizliyi qarşısında Xristianlığın öz potensialından istifadə etməsi zərurəti vurğulanmışdı. Yekun sənədin (Birgə Bəyanat) ruhundan və üslubundan hiss olunur ki, Yaxın Şərqdə və Şimali Afrikada xristianların öz doğma yerlərindən sıxışdırılıb çıxarılması və qarşıdurmada bəzilərinin ölümü, sekulyar Avropada isə hüquqi və mənəvi ayrıseçkilik yolu ilə möminlərin sıxışdırılması həm katolik, həm də pravoslav iyerarxiyasını çox rahatsız

Dağlıq Qarabağ münaqişəsi başlanandan subetnik qrupa aid müsəlman-ermənilərə – *həmşinlərə* də ögey yanaşma ilk növbədə onların müsəlman olması faktı ilə bağlıdır. Bu fikri hazırda erməni ziyalı təbəqəsi də etiraf edir. Bugünkü Ermənistan erməni həyat tərzini, prinsipcə, saxlamış bu insanları təkcə erməni-qriqoryan kilsəsi üçün deyil, ümumiyyətlə, erməni dünyası üçün yad element damğası ilə dağlamışdır. Buna baxmayaraq Ermənistanda onların öz dinlərindən dönmələri, erməni həyatına adaptasiya olmaları və Dağlıq Qarabağa yerləşdirilmələri istiqamətində fikirlər olmuşdu.

Ümimiyyətlə, erməni terrorunun arxasında siyasiləşmiş erməni-qriqoryan kilsəsinin durması qədim ənənəyə malikdır.

Bütün bunlara baxmayaraq Azərbaycan dövlətinin ciddi səyi nəticəsində Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dini əlamət qatılmasının qarşısı ən yüksək səviyyədə və ən yüksək görüşlərdə qətiyyətlə alınmışdır.

2016-cı ilin aprel ayının 1-5-i tarixlərində, xüsusilə də 27 sentyabr 2020-ci tarixli Vətən müharibəsində cəbhədə erməni dövlət terroru darmadağın ediləndə, erməni tərəfi Azərbaycan ordusunda Yaxın Şərq mənşəli terrorçuların döyüşdüyünü iddia etməsi yuxarıda qeyd olunanlar kontekstində təsadüfi xarakter daşımır. Azərbaycanın güc strukturları bu cür böhtançı və təhlükəli fikirlərin qarşısını almaq üçün dəfələrlə bəyan etmişlər ki, rəsmi Yerevan artıq "...öz

---

etmədədir. Ermənistan Respublikasından müsəlman azərbaycanlıların və kürdlərin sıxışdırılıb qovulması yaddaşlardan silinməmişdir. Dini liderlərin həmin görüşündə mövqelər belə ifadə edilmişdir: müasir şəraitdə Rusiya patriarxlığı həmrəyliyin arxasında siyasi birliyin, dünya xristianlarının hüquqlarını birlikdə müdafiə etməyin tərəfdarıdır, Vatikan isə bu fikirlə yanaşı, kilsələrin də birliyi niyyətində olduğunu kardinal K. Kox vasitəsilə diqqətə çatdırmışdır, amma bir şərtlə – bütünlüklə Roma Papasının rəhbərliyi altında birləşməli.[223] 2016-ci ildə Azərbaycana da səfər edən Roma Papası Fransisk oktyabr ayının 2-də Heydər Əliyev Mərkəzində ictimaiyyətin nümayəndələri qarşısında çıxışında Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsində azərbaycanlıların başına gələn müsibətləri dilə gətirmiş, Ermənistanın dövlət terroruna məruz qalan, əziyyət çəkən xalqın halına acımış, onlarla həmrəylik ifadə etmiş və sülhə çağırış səsləri ucaltmışdır.[224]

hərəkətlərində heç nəyə məhəl qoymadan açıq-aydın terror təşkilatları ilə əməkdaşlığa gedərək bunu dövlət siyasəti səviyyəsinə yüksəldib. Beynəlxalq təşkilatlardan, dünya ictimaiyyətindən bu məsələyə düzgün, obyektiv qiymət verilməsini tələb edirik”.[225]

Tarixi retrospektivdə beynəlxalq erməni terrorunun başqa bir istiqamətini də müşahidə etmək mümkündür. 2016-cı il aprel ayının 11-də Türkiyənin cənub-şərqində separatçı terror qruplaşması Kürdüstan Fəhlə Partiyası sılahlıları ilə insident zamanı təhlükəsizlik qüvvələrinin zərərsizləşdirdiyi 7 snayperin dövlət terrorunu dəstəkləyən Ermənistan ordusunun desantçısı olduğu müəyyən edilmişdlr. Həmçinin, həmin il mart ayının 31-də Türkiyədə PKK terrorçularına qarşı əməliyyatlar zamanı erməni əsilli qadın terrorçu da tutulmuşdu. Türkiyə və Azərbaycan kəşfiyyat idarələri 2020-ci il Azərbaycanın Vətən müharibəsində erməni tərəfindən Qarabağda PKK terrorçularının və muzdlu silahlıların döyüşməsini faktlarla sübut etmişlər. Əslində bu fakt yeni deyil. Terrorşünas Y.Kojuşko xeyli əvvəllər qeyd etmişdi ki, erməni terrorçuları ilə PKK arasında koordinasiyalı fəaliyyət ənənəsi mövcuddur.[226]

30 ilə yaxın erməni işğalında qalan Azərbaycan torpaqlarında narkotik bitkilər becərilmiş, məhsulları satılıb terrorçuluğa sərf olunmuşdur. Narkotrafikin bir qolu məhz həmin ərazidən keçirdi. Həmçinin, Azərbaycanın neft boru kəmərlərinə qarşı terror aktlarının törədilməsi hədələri də tez-tez erməni terrorçuları tərəfindən gündəmə gətirilir.[227]

Azərbaycanın xarici ölkələrdəki diplomatik missiyaları da erməni terrorunun hədə-qorxu obyektinə çevrilmişlər. Bu tipli faktlar erməni traybalizminin mahiyyətindəki ənənəvi qisasçılığın patoloji pisliklə əvəzlənməsindən xəbər verir. Buna görə də Azərbaycan Respublikasının sosial-iqtisadi sahədə qazandığı hər uğur erməni terrorunun potensial hədəfindədir. Son 15 ildən artıq dövrdə bəzi KİV-də Azərbaycanın beynəlxalq imicini zəiflətmək istiqamətində aparılan təbliğat primitiv mətbu terrorçuluq düşüncənin məhsulu kimi həmişə obyektiv informasiyalarla təkzib olunmuşdur. Azərbaycanın xüsusi xidmət orqanlarının terrorçu qruplaşmalara qarşı mübarizəsində bu istiqamətlər də diqqətdə saxlanılır, vaxtında

qabaqlayıcı tədbirlər görülür, vətəndaşa doğru-düzgün məlumat verilir. Xarici ölkələrdə Azərbaycanın beynəlxalq terrorçuluqla mübarizəni dəstəklədiyini vurğulayan təbliğat-təşviqat materialları dərc olunmağa başlanmışdır. Bu, müstəqilliyini yenidən əldə etmiş Azərbaycan Respublikasının terrora qarşı mücadiləsində yeni səhifədir.

Beləliklə, terrora qarşı mübarizədə Azərbaycanın "yumşaq qüvvə" modeli formalaşdırılmışdır.[228]

Azərbaycan Respublikası terrora qarşı mübarizədə qətiyyətli mövqeyini ABŞ-da törədilmiş məlum 11 sentyabr terror aktlarından sonra bir daha bildirmişdir. Azərbaycan malik olduğu bütün imkanlar daxilində beynəlxalq antiterror koalisiyasının tərkibində fəaliyyət göstərmədədir. Bunu beynəlxalq hərbi blokların təmsilçiləri və ictimai təşkilatların nümayəndələri də dəfələrlə etiraf etmişlər.[*]

Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü ilin may ayının 21-də Çinin Şanxay şəhərində keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin dördüncü Zirvə Toplantısındakı çıxışında terrora qarşı mübarizədə Azərbaycanın mövqeyini bir daha ifadə etmiş və bu kabusun mahiyyətindəki erməniçiliyi belə ifşa etmişdir: "Biz təhlükəsizlik tədbirlərinə kompleks yanaşmanın tərəfdarıyıq. Terrorizmə qarşı mübarizə, regional, enerji, nəqliyyat və informasiya təhlükəsizliyinin təmin olunması, dondurulmuş münaqişələrin həlli kimi məsələlər bir-biri ilə sıx bağlıdır və bəşəriyyətin təhlükəsizliyi üçün vahid mövqenin ortaya qoyulmasını zəruri edir.

Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə səylərin birləşdirilməsini dəstəkləyir. Azərbaycan özü terrorizmin qurbanı olub. Təkcə müstəqillik illərində erməni terror təşkilatları Ermənis-

---

[*] "Dörd günlük aprel müharibəsi"ndən sonra Ermənistan tərəfi isə Erməni İnqilabçı Federasiya - Daşnaksutyun partiyasına yenidən silahlı hərbi birləşmələr yaratmağa rəsmi icazə vermişdir. Bu, nümayişkaranə şəkildə terroru dövlət səviyyəsində dəstəkləmək, BMT-nin, ATƏT-in və b. beynəlxalq təşkilatların antiterror siyasətinə qarşı etinasızlıq göstərmək, ümumdünya terrorçu partiyasının öz keçmiş ənənəsinə qayıdışına şərait yaratmaqdır.[229]

tanın dövlət qurumlarının rəhbərliyi və iştirakı ilə Azərbaycana qarşı 30-dan artıq terror aktı törətmişdir ki, bunun da nəticəsində 2000-dən çox insan həlak olmuşdur.

Bu terror aktları Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsidir".

Terrora qarşı mübarizədə dövlət aparatı üçün müvafiq qanunvericilik bazasının yaradılması çox mühüm vəzifədir. Azərbaycan Respublikasında bu istiqamətdə ilk addım 1993-cü ilin fevral ayının 23-də atılmışdır. Həmin vaxtdan başlayaraq Azərbaycanda terrora aid qanunvericilik bazası beynəlxalq hüquq normalarına uyğun təkmilləşdirilməyə başlanılmış və zamanına görə hərtərəfli normativ-hüquqi aktları formalaşdırılmışdır.

Bu sənədlərin fəlsəfəsində insan amilinin və humanizm prinsiplərinin ön planda durması faktı terror və onunla mübarizədə Azərbaycan idealının ifadəsi kimi qiymətləndirilməlidir. Fikrə dəstək olacaq bir fakt: Azərbaycan Respublikasının bu sahəyə aid qəbul etdiyi ilk sənəd belə adlanır: "Azərbaycanlılara qarşı edilmiş vəhşiliklərin açıqlanması və erməni terrorizmi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi haqqında". Azərbaycan Respublikası Prezidentinin bu Fərmanından bir neçə il sonra isə Milli Məclis "Terrorçuluğa qarşı mübarizə haqqında" vacib Qanun işləyib hazırlamış, 1999-cu ilin avqust ayının 30-da onun tətbiq edilməsi barədə müvafiq Fərman imzalanmışdır.

Terrora qarşı mübarizədə beynəlxalq təşkilatlarin rolu və potensialı çox böyükdür. Ona görə də Azərbaycan Respublikasında bu istiqamətə də xüsusi diqqət yetirilir. BMT-nin, ATƏT-in, İnterpolun, NATO-nun, MDB-nin və digər beynəlxalq qurumların terrora qarşı mübarizəsi həm qanunvericilik, həm də hərbi-siyasi dəstək baxımından xüsusi əhəmiyyətə malikdir. Həmin qurumların terrora qarşı mübarizə konsepsiyası Azərbaycan Respublikasının uyğun hökumət və qeyri-hökumət qurumlarının müvafiq fəaliyyətində ideya bazası kimi qəbul olunmuşdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra qarşılaşdığı terror kabusu ilə mübarizədə ikili standartlarla üz-üzə qalmaqdadır.[230] Azərbaycanın dövlət başçısı İslam Əməkdaşlıq Təşkilatının XIII Sammitinin birinci sessiyasındakı çıxışında

vurğulamışdı: "...Ermənistan ... Azərbaycana qarşı işğalçılıq siyasəti aparır. Bu siyasət nəticəsində Azərbaycan ərazisinin 20 faizi - Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon Ermənistan tərəfindən işğal edilmiş, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılmış və bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Ermənistan Xocalı soyqırımını törətmişdir. Beynəlxalq birlik və təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin beynəlxalq hüquq normalarına uyğun, ədalətli həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi vardır. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Eyni zamanda, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar da oxşar qərar və qətnamələr qəbul etmişlər. ... Lakin işğalçı Ermənistan bu qərarlara məhəl qoymur və danışıqlar prosesini pozmaq üçün vaxtaşırı silahlı təxribatlara əl atır. Onlardan biri də aprelin əvvəllərində törədilmişdir. Silahlı hücum nəticəsində Azərbaycan hərbçiləri və mülki şəxslər həlak olmuşlar. Azərbaycan Ordusu Ermənistanın təxribatının qarşısını aldı..."

Azərbaycan dövləti 2020-ci ildə erməni dövlət terrorunun əsaslarını məhv etmək işini uğurla başa çatdırdı.

Erməni dövlət terroru nə beynəlxalq hüquq normalarına, rəsmi sənədlərə, nə də dünya ictimaiyyətinin ədalətli fikrinə əhəmiyyət vermək niyyətindədir. 2016-cı ilin aprel döyüşlərindən sonra İrəvanın bir çox rəsmilərinin Azərbaycanı nüvə silahı ilə hədələməsi, terrorçu "Daşnaksutyun" partiyasının nümayəndələrinin də bu kampaniyaya qoşulması dünya birliyini Ermənistan Respublikasına qarşı antiterror planlarını dəstəkləməyə təşviq etməli idi. Lakin belə olmadı.

Erməni əsilli rus general-mayoru Arkadi Ter-Tadevosyan İrəvanın "Lragir" nəşrinə müsahibəsində bildirmişdi: "Bizdə elə bir silah var ki, düşmənin bundan xəbəri yoxdur.* Bu silah erməni-

---

